AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

**2023, 4 (41)**

**BAKI-2023**

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 4 (41), 2023

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2020-ci ildən tarix və antropologiya elmi istiqamətləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Xəqani Məmmədov**
**Tarix üzrə elmlər doktoru, professor Fəzail Vəliyev**
**Antropologiya üzrə elmlər doktoru, professor Əliağa Məmmədli**
**Tarix üzrə elmlər doktoru Eynulla Mədətli**
**Tarix üzrə elmlər doktoru, dosent Sevinc Əliyeva**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yasin Qaraməmmədli**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Ərəstun Mehdiyev**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova** *(məsul katib)*

# HERALDİKANIN DİGƏR PREDMETLƏRİ : MONETLƏR

**Afiq Abdullayev**
AMEA Arxeologiya və Antropologiya İnstitutu
**afigabdulayev@mail.ru**
**Svetlana Cahangirova**

**Açar sözlər:** *heraldika, pul sistemi, yazı sistemi, çəki sistemi*

*Pul sisteminin yaranması təkbaşına yaranan bir proses olmayıb, iqtisadi inkişafın digər sahələri ilə paralel şəkildəinkişaf etmişdir. Hələ Mezolit dövrünün sonlarından və Neolit dövründən əvvəllərində etibarən ovçu-yığıcı qəbilələr istehsal təsərrüfatı yaratmağa başladılar və əkinçilik, maldarlıq və s. kimi sahələr ilə məşğul olurdular. Bir müddət sonra məhsulun mübadiləsi və hesablanması zərurəti yaranmışdır. Bütün bu iqtisadi inkişaf və ticarət münasibətləri isə zamanla say sisteminin, yazı sisteminin, çəki sisteminin, ən sonda isə pul sisteminin yaranması üçün zəmin hazırlamışdır.*

# ДРУГИЕ ПРЕДМЕТЫ ГЕРАЛЬДИКИ : МОНЕТЫ

**Афиг Абдуллаев**
**Светлана Джахангирова**

**Ключевые слова:** *геральдика, денежная система, система письменности, весовая система*

*Возникновение денежная система не была самостоятельным процессом, она развивалась параллельно с другими отраслями экономического развития. Еще с конца периода Мезолита и в начале периода Неолита племена охотников-собирателей начали создавать производственные хозяйства и они занимались земледелием, скотоводством и т. д. Через некоторое время возникла необходимость обмена и расчета продукта.Все это экономическое развитие и торговые отношения со временем подготовили почву для возникновения системы счисления, системы письменности, весовой системы и наконец денежной системы.*

# OTHER ITEMS OF HERALDRY : MONETS

**Afig Abdullayev**
**Svetlana Jahangirova**

**Key words:** *heraldry, monetary system, writing system, weight system*

*The emergence of the monetary system was not an independent process, it developed in parallel with other branches of economic development. Since the end of the Mesolithic period and at the beginning of the Neolithic period, hunter-gatherer tribes began to create production farms and they were engaged in agriculture, cattle breeding, etc. After a while, it became necessary to exchange and calculate the product. All this economic development and trade relations eventually paved the way for the emergence of the number system, the writing system, the weight system and finally the monetary system.*

Heraldika tarix elminin köməkçi elmi tədqiqat sahəsidir. Tarixi hadisələrin araşdırılması zamanı rəmzi əlamət və ya simvolik xarakter daşıyan heraldik elementlərin istifadə edildiyi müxtəlif maddi mədəniyyət nümunələri (tuğralar, tumarlar, damğalar, döymələr, möhürlər, monetlər, markalar, medallar, rozetlər, ordenlər, gerblər, emblemlər, sancaqlar, bayraqlar, kartuşlar, amuletlər, talismanlar, skeptronlar, ekslibrislər, miniatürlər, uniformalar, monoqramlar, anaqramlar, digər əşyalar, alətlər və s.) heraldikanın predmetinə və ya tədqiqat sahəsini daxil olur. “Heraldik elementlər” dedikdə isə əsasən rəmzi əlamət və ya simvolik xarakter daşıyan daşlar, metallar, rənglər, hərflər, rəqəmlər, təsvirlər (astral, həndəsi, insani, nəbati, heyvani və s.), müxtəlif işarələr, fiqurlar və s. nəzərdə tutulur [2, s.11]. Bu heraldik elementlər həm də “heraldikanın əlifbası” sayılır.

Heraldika elmi mahiyyət etibarilə rəmzi əlamət və ya simvolik xarakter daşıyan heraldik elementlərin əks olunduğu maddi mədəniyyət nümunələrinə əsasən insanların məfkurəsinə, mədəniyyətinə, mənsubiyyətinə, ideologiyasına, mifologiyasına və qnesologiyasına aid məlumatları araşdırmağa və aşkarlamağa yönəlmiş elmi tədqiqat sahəsidir [1, s.46]. Heraldika təkcə tarix elminin köməkçi sahəsi deyil, həm də memarlıq və incəsənət sahəsi kimi təzahür edir.

## Monetlər
## (metal pulların yaranmasına zəmin hazırlayan tarixi-iqtisadi inkişaf)

Pullar (metal, kağız və s. formada) heraldik elementlər daşıyan maddi mədəniyyət nümunəsidir. Demək olar ki, bütün pulların üzərində rəmzi əlamət və ya simvolik xarakter daşıyan işarələr olur ki, bu işarələr də məhz heraldika elminin tədqiqat sahəsinə daxil olur.

Pul tarix boyunca həm dəyər vahidi kimi, həm ödəniş vasitəsi kimi, həm mübadilə və hesablama vasitəsi kimi, həm də xəzinə məmulatı kimi istifadə edilmişdir[20, c.22-24]. Lakin pul sisteminin yaranması üçün say sisteminin, yazı sisteminin, ölçü və çəki sisteminin, vergi sisteminin, istehlak və istehsal təsərrüfatının, ticarət dövrüyyəsinin və s. amillərin də olması lazımdır. Ən əsası həm bu sahələrə, həm də sikkə zərbinə, kağız çapına, maliyyə sahəsinə və s. məsələlərə nəzarət edəcək dövlət kimi inzibati idarəetmə olmalıdır.

Hələ Neolit dövründə istehsal təsərrüfatı təşəkkül tapdıqdan sonra obdisiandan, balıqqulağından (kauri və s.), müxtəlif rəngli daşlardan, alətlərdən və əşyalardan məhsulun mübadiləsi üçün istifadə olunurdu[18, s.22]. Eneolit dövründə və sonra Erkən Tunc dövründə isə metallar da dəyərli sayıldığı üçün metallardan da məhsulun mübadiləsi zamanı istifadə edilmişdir. Çünki bu məmulatlar o zaman dəyər vahidi və ödəniş vasitəsi kimi qəbul edilirdi. Məhsulun bu cür mübadilə edilməsi əslində pul sisteminin ekvivalenti kimi başqa məmulatlardan istifadə edilməyə başlanmasıdır.Əksər halda isə bir məhsulu digər məhsul ilə mübadilə edirdilər.Neolit dövründə məhsulun mübadiləsi əvvəl lokal proses kimi müşahidə edilsə də, sonralar regional prosesə çevrilmişdir. Bu cür lokal iqtisadi prosesin regional prosesə çevrilməsi Yaxın Şərqdə daha erkən dövrlərdə başlamış, İran, Misir, Anadolu, Mesopotamiya ərazilərini də əhatə etmişdir ki, bu da yerli ticarətin beynəlxalq ticarətə çevrilməsi deməkdir. Məhsul mübadiləsi nəticəsində bu qonşu ərazilər arasında həm ticarət əlaqələri inkişaf edirdi, həm də siyasi, iqtisadi, mədəni münasibətlər möhkəmlənirdi[5, s.346-365, 380].

“Neolit İnqilabı”-nın başlaması ilə istehlaka müvafiq olaraq istehsal təsərrüfatının sürətli inkişafı nəticəsində sonralar məhsulun hesablanması və mübadiləsi prosesi say sisteminin, yazı sisteminin, ölçü və çəki sisteminin, daha sonralar isə dəyərin başqa göstəricisi kimi pul sisteminin yaranmasına təkan vermişdir. Məhz ilk dəfə Neolit dövrünün sonlarında məhsulun saxlanması, daşınması, mübadilə edilməsi, hesablama aparılması və s. kimi iqtisadi fəaliyyət üçün ticarət məqsədilə gildən hazırlanan müxtəlif ibtidai həndəsi formalı tokenlərdən (jetonlardan) və daha sonralar isə bullalardan (möhürlərdən) istifadə edilmişdir[10, s.17]. Bullalar üzərinə müxtəlif işarələr həkk edilərək möhürlənən, içərisində isə məhsulun sayını və dəyərini göstərən tokenlər olan “gil top” və ya “gil zərf” sayılırdı[16, s.99-100; şəkil 1]. Zamanla ticarət əlaqələri və məhsulun mübadiləsi prosesi o qədər inkişaf etdi ki, e.ə.IV minillikdə Uruk şəhəri metropola çevrildi, xammal-məhsul mübadiləsini inkişaf etdirmək üçün isə ətraf ərazilərdə koloniyalar yaratmağa başladılar[5, s.401]. Bütün bu tarixi gedişatnəticəsində ardıcıl olaraq əvvəlşəhərin və şəhər dövlətlərinin,daha sonra metropol və koloniyaların, daha sonralar isəümumi dövlətlərin təşəkkül etməsi müşahidə edilmişdir[6, s.119-120].

Azərbaycan ərazisində də ticarətin inkişafını və məhsulun mübadiləsini göstərən arxeoloji materiallar aşkar edilmişdir. Azərbaycanda ilk dəfə məhsulun mübadiləsi prosesi Neolit dövründə müşahidə edilmiş və davamlı inkişaf etmişdir. Belə ki, e.ə.IV minilliyə aid edilən Alxantəpə yaşayış yerindən qazıntılar zamanı gil möhür, gil tokenlər və gil bullalar tapılmışdır[19, s.62; şəkil 6]. Həmçinin, e.ə.III minilliyə aid edilən I Maxta yaşayış yerindən aşkar edilən dairəvi formada möhürlər və tokenlər isə məhsulun mübadiləsi və miqdarının hesablanması zamanı istifadə edilmişdir[3, s.115; şəkil 4,5].

Qədim xalqların əksəriyyəti məhsulun mübadiləsi zamanı hesablama üçün sayımları ilk vaxtlar barmaqlar, düyünlər, çaydaşları (latınca "calcule") və s. vasitələrlə, həmçinin müxtəlif əşyalar üzərinə çərtmələr, cızıqlar, nöqtələr və s. kimi işarələr yazmaqla göstəriblər[13, s.33-37; şəkil 2]. Tunc dövründə müxtəlif qədim xalqlar iqtisadi fəaliyyət zamanı (qədim Şumer, qədim Babil, qədim Misir, qədim Çin, qədim Hind, qədim Maya və s.) məhsulu tək-tək bölüb sayanda təklik say sistemi, cüt-cüt bölüb sayanda ikilik say sistemi, daha çox bölüb sayanda isə çoxluq say sistemi yaranırdı. Məsələn, dörd-dörd bölüb sayanda dördlük say sistemi, on-on bölüb sayanda onluq say sistemi yaranırdı. Ümumiyyətlə, sayların ardıcıllığı, toplanması, çıxılması, vurulması, bölünməsi, hətta "qradasiya" və ya "qruplaşdırma" prosesi hesablama əməliyyatı yaradan bütün qədim xalqlarda fərqli şəkildə olsa da, müşahidə edilmişdir[22, s.53-72].

Əksər qədim say sistemlərində müxtəlif rəqəmlərin ayrı-ayrı işarəsi olsa da, məsələn 10, 20, 100, 200, 1000 və s. kimi sıfırları olan rəqəmlər fərqli bir işarə şəklində göstərilirdi. İlk dəfə e.ə.VII əsrdə Hindistanda "1" rəqəminin yanına "0" rəqəmini bildirən işarə ("şunya"-boşluq işarəsi) yazılmaqla onluq say sistemi "1" və "0" rəqəmləri ilə hesablanmışdır [11, s.57]. VIII əsrdə Ərəb Xilafətinin şərqə yürüşü zamanı müsəlman riyaziyyatçılar Hindistanda istifadə edilən "0" rəqəmi ilə tanış olmuş, bu rəqəmi "sıfır" adlandırmış və nöqtəyə bənzəyən bu cür "." işarədən istifadə etməyə başlamışlar. Səlib Hərəkatı zamanı isə Avropa riyaziyyatçıları müsəlmanlardan "0" rəqəmindən istifadə etməyi öyrəndilər və mənimsədilər [11, s.59].

HələPaleolit və Mezolit dövrlərində insanlar daşlara, qayalara cizgilər və ibtidai rəsmlər çəkərək ilk dəfə hər hansı hadisə barədə məlumatı belə qeyd edirdilər. Bu cür petroqliflərin bəziləri maqiya sayılırdı və mistik təsiri olduğuna inanılırdı. Məhz belə petroqliflərin çoxusu ov səhnəsi və ya ovsun ayini kimi çəkilmişdir. Yazının inkişaf mərhələləri isə petroqramlar (qayaüstü təsvirlər)→ piktoqramlar (şəkli yazı) və ideoqramlar (fikri yazı)→ fonemlər (səslər) və qrafemlər (hərflər) mərhələsinə bölünmüşdür. Daha sonralar ideoqrafik və piktoqrafikyazılara bənzər heroqliflər qədim Çində, qədim Misirdə və bir sıra başqa ölkələrdə yaranmışdır[21, s.11]. Demək olar ki, yazının yaranmasına təkan verən əsas amil də məhz xammal-məhsul mübadiləsi zamanı hesablama ehtiyacının ortaya çıxmasıdır. Hətta Yaxın Şərqdə tokenlərin

piktoqrafik təsvirlər formasında düzəldilməsi müşahidə edilirdi[16, s.89, 91, 106; şəkil 3]. Elə bu dövrdə, yəni e.ə.IV minilliyin sonlarından etibarən piktoqrafik və ideoqrafik yazılar təkamül etmiş, Uruk şəhər dövlətində müxtəlif əşyalar üzərində mixi (mıxa bənzər xətlər) yazılar ortaya çıxmağa başlamış və e.ə.III minillikdə bütün Mesopatamiyada mixi yazı sistemi inkişaf etmişdi[21, s.17]. E.ə.IV minilliyin sonlarında qədim Şumerdə bullalar və tokenlər ilə yanaşı məhsulların mübadiləsivə hesablanması üçün üzərində müxtəlif işarələr olan gil lövhələrdən istifadə edilsə də, ilk rəsmi mühasibə qeydləri olduğu ehtimal edilən sübutlar qədim Misirdə təxminən e.ə.3400-cü illərə aid üzərində müxtəlif işarələr qeyd edilmiş lövhələrdir[10, s.16, 30]. Belə demək olar ki, yazmaq üçün hərf işarələri və saymaq üçün rəqəm işarələri eyni vaxtda ortaya çıxıbdır. Bir çox qədim xalqın hərf işarələrinin həm də rəqəmləri bildirməsi məlumdur. Məsələn, dövrümüzə qədər davam etmiş ərəb dilində hərflər həm də rəqəmləri təmsil edir və buna “əbcəd” hesabı deyirlər[15, s.15]. Bunu da qeyd etmək lazımdır ki, müasir dövrdə də istifadə edilən antik latın-yunan əlifbası finikiyalıların qədim əlifbası (fonemlərin (səslərin) qrafemlər (hərflər) şəklində göstərilməsi) əsasında hazırlanıbdır. Hələ təxminən e.ə.II minilliyin əvvəllərində Finikiyada istehsal təsərrüfatının və ticarət fəaliyyətinin inkişafı ilə əlaqədar olaraq finikiyalılar çox güman ki, Şumerin mixi yazılarını və Misirin heroqliflərini daha da sadələşdirib məhsulun mübadiləsi və hesablanması üçün hərflər və rəqəmlər yazmağa başlamışdılar[10, s.42; 21, s.25].

İlk ölçü və çəki sistemləri də antropometrik standartlar əsasında etalon kimi qəbul edilmişdir. Bir tutam(ovuc), bir qarış, bir qucaq, bir yudum, bir addım, bir barmaq, bir dirsək (arşın),bir boy və s. Məsələn, e.ə. IV-III minillikdə Misirdə uzunluq ölçüsü vahidi kimi daha çox “firon arşını” deyilən ölçü vahidi istifadə edilirdi[9, s.30]. Bu dövrdə Misirdə əsas çəki vahidi əvvəl “deben (93-95 qr)” olsa da, sonra debenin onda-biri qədər çəkiyə malik olan “kite (9-10 qr)” və daha sonra 10 deben çəkiyə malik “sep (950 qr)” çəki vahidi də yaratdılar[13, s.48]. E.ə. II minilliyin əvvəllərində bu çəki sisteminə müvafiq olaraq tərəzilər üçün“ingot (külçə)” sayılan müxtəlif çəkili və formalı daş və ya metal standard etalonlar düzəldilmişdi[13, s.48; şəkil 9,10].

E.ə. III minilliyin sonlarındaMesopotamiyada da çəki sistemi ortaya çıxmağa başlamışdı. Belə ki, bu çəki sisteminə görə bir adamın bir əlində normal daşıya biləcəyi yük “gun” adlanırdı və 1 gun təxminən 29-30 kq-a bərabər çəkidə olubdur[17, s.3]. Şumer dilində “gun” akkad dilində “biltu” və ya assur dilində “talent”, şumer dilində “gin” isə akkad dilində “şekel” və babil dilndə “siqlum” adlansa da, onların çəki miqdarı təxminən eyni olubdur[14, s.169-170]. Mesopotamiyada taxılın çəkisi ilə insanın çəkisi arasında nisbəti hesablayıb altılıq və altmışlıq say sistemi əsasında çəki sistemi yaratmışdılar. Beləliklə, 1 gun (biltu, talant) = 60 mina, 1 mina = 60 gin (şekel, siqlum), 1 gin (şekel, siqlum)= 180 arpa dənəsi və ya 8-8.4 qr ağırlıq sayılırdı[17, s.3].

“Şekel” sözü semit xalqlarının dilində “ölçmək” və ya “çəkmək” mənası verir [12, s.12]. Deməli, ən kiçik çəki vahidisayılan bir “şekel” təxminən 8-8.4 qr olubdursa, 1 şekel = 8 qr; 1 mina = 60 şekel = 60 x 8 qr = 480 qr; 1 gun (talant) = 60 mina = 60 x 480 qr = (28800 qr və ya 28,8 kq) olubdur[8, s.19].

Mesopotamiyada da e.ə. II minilliyin əvvəllərindən etibarən çəki tərəziləri üçün “ingot (külçə)” sayılan müxtəlif daşlar və metallar standard etalon kimi istifadə edilirdi ki, bu metalları bəzən çubuk formasında daha kiçik ölçülərə bölərək istifadə edirdilər[7, s.6]. Ümumiyyətlə, qədim xalqlar çəki sistemində tərəzilər üçün ağırlıq standardı kimi əvvəl daha çox daşlardan istifadə etsələr də, sonralar metal çubuqlardan vəkülçələrdən daha çox istifadə etməyə başladılar [8, s.20-24; şəkil 7, 8, 11, 12]. Belə ki,ticarət ilə məşğul olan insanlar metalın uzaq məsafələrə asanlıqla daşına bilməsini, əridilərək formasının yenidən dəyişməsini, bölünərək istifadə edilməsinin asanlığını və s. amilləri nəzərə aldıqları üçün e.ə. II minilliyin əvvəllərindən başlayaraq artıq həm ödəniş vasitəsi kimi, həm mübadilə vasitəsi kimi, həm də çəki sistemində ağırlıq standartının etalonu kimi daha çox əlvan metallardan istifadə etməyə başlamışdılar [7, s.5-10; şəkil 10]. Əlvan metallar olan mis, gümüş, qızıl s. kimi metalların daha parlaq olması, daha qiymətli olması, daha az temperaturda əriməsi və əridikdən sonra qısa zamanda bərkiyərək formasını dəyişməsi, daha asan əzilməsi və döyülməsi, üzərinə daha asan şəkildə hər hansı işarə və damğa vurulması və s. kimi amillər onların pul kimi istifadə edilməsini və ya məhsulun mübadiləsi zamanı ödəniş vasitəsi kimi istifadə edilməsini çox sərfəli və səmərəli hala gətirirdi. Bu cür kiçik ölçülü və müxtəlif formaları metal “inqotların (külçələrin)” üzərinə hər hansı işarəçəkilərək və ya möhür vurularaq ödəniş vasitəsi kimi istifadə edilməsi artıq pul sisteminin yaranması üçün, həmçinin metal ingotların (külçələrin) isə zamanla metal monetlərə (sikkələrə) çevrilməsi üçün zəmin hazırlayırdı [12, s.12].

E.ə. I minilliyin əvvəllərində İranda, Misirdə, Anadoluda, Finikiyada, Mesopotamiyada istifadə edilən ölçü və çəki vahidləri (şekel, mina, kite, obol, deben, talant və s.) ticarət əlaqələri nəticəsində yunan şəhərlərinə və Balkan yarımadasına, daha sonralar isə İtaliyaya və sonra bütün Avropaya sirayət etmişdir[7, s.12]. Əlbətdə, çəki vahidləri zamanla ticarətin inkişafı və digər səbəblər ilə əlaqədar adlarını və ölçülərini qismən dəyişərək daha da təkmilləşmişdir. Yunanıstanda ölçü və çəki vahidləri üçün istifadə edilən vasitələrin standardauyğunluğunu təsdiqləyən məmurlara “metron (ölçən)” deyilirdi və onlar demosun (xalqın) içindən seçilirdi. Həmçinin, bazarlarda tərəzilərin standartlara uyğunluğuna nəzarət edən “metronomos” adlanan və məhsulun keyfiyyətinə nəzarət edən “aqronomos” adlanan məmurlar fəaliyyət göstərirdilər[8, s.183].

Müasir dövrdə isə istifadə edilən uzunluq ölçüsünün və ağırlıq çəkisinin vahidi kimi istifadə edilən standardlar 1790-cı illərdə Parisdə fəaliyyət göstərən

komitə tərəfindən ümumi standard kimiuzunluq ölçü vahidi olaraq "metr(m)" və ağırlıq çəki vahidi olaraq "qram (qr)" qəbul edilmişdir[4, s.109].

1 m = 1000 mm                    1 kq = 1000 qr

Nəticə etibarilə, tarixdə iqtisadi inkişafı müşahidə edərkən məlum olur ki, istehsal təsərrüfatının inkişafı əvvəl say sisteminin, daha sonra yazı sisteminin, daha sonraölçü və çəki sistemin, ən sonda isə pul sisteminin yaranması üçün təkan vermiş və bu sistemlərin yaranması üçün zərurət yaratmışdır. Pul sistemi yarandıqdan sonra isə pullar iqtisadi sistemin ən vacib hissələrindən birinə çevrilmişdir.

**Ədəbiyyat siyahısı:**


1. Abdullayev A.N. "Heraldika və onun inkişaf tarixi". "Tarix, insan və cəmiyyət" jurnalı, № 4 (27). Bakı, 2019.
2. Abdullayev A.N. "Heraldikanın predmeti və elementləri". "Tarix, insan və cəmiyyət" jurnalı, № 2 (29). Bakı, 2020.
3. Aşurov S. "Maxta Arxeoloji Ekspedisiyasının 2013-2014-cü il tədqiqatları". "AMEA, Azərbaycanda Arxeoloji Tədqiqatlar" jurnalı, Bakı, 2015.
4. Bacanlı H. "Ölçü inkılabının tarihsel süreci, ölçüler kanununun kabulü ve uygulanışı". "Atatürk Araştırma Merkezi Dergisi", 2022 (№105). Ankara, 2022.
5. Çivgin İ. "M.Ö. 6-5 binyıllarda Mezopotamya ve çevresinde kültürel temas ve etkileşim". Gaziantep University, Journal of Social Sciences, 2014, № 13(2). Gazientep, 2014.
6. Çivgin İ., "Orta ve Geç Uruk döneminde (M.Ö. 3700 - 3100) kentler, devletleşme, ticaret, kültürel etkileşim ve kolonileşme". Mardin Artuklu Üniversitesi, "Çağdaş Yerel Yönetimler" dergisi, 2015, c. 24. Mardin, 2015.
7. Eagleton E., Williams J. "Paranın tarihi" (çeviri). İstanbul, 2011.
8. İldız E. "Eski Çağda bankacılık və bankerler". İstanbul, 2013.
9. Kallek C. "Ölçü". "TDV İslâm Ansiklopedisi", c.34. İstanbul, 2007.
10. Kaya N. "Muhasebe tarihi". Ankara, 2021.
11. Köktürk E., "0 (sıfır) rəqəminin sancılı doğumu". "Jeodezi, Jeoinformasyon ve Arazi yönetimi Dergisi", № 92. Ankara, 2005.
12. Özdibay A.Ö. "Antik Numismatik". İstanbul Üniversitesi, Tarih lisans programı - 2015-2018.
13. Robinson A. "Ölçüler kitabı" – çevirisi. İstanbul, 2007.
14. Sayılı A. "Mısırlılarda və Mezopotamiyalılarda matematik, astronomi ve tıp". "Atatürk Kültür Merkezi Yayını", 1991 (№47). Ankara, 1991.
15. Schimmel A. "Sayıların gizemi" (çeviri). İstanbul, 1998.

16. Şeker F. “Token’lardan çivi yazılı kil tabletlere: yazının icadında muhasebenin izleri”. “Muhasebe ve Finans Tarihi Araştırmaları Dergisi 2019 (s.16. İstanbul, 2019.
17. Tekin O. “Eski Çağda para”. İstanbul, 1998.
18. Türkcan A.U. “Anadolu Arkeolojisi”. Eskişehir, 2012.
19. Ахундов Т. “Полевые исследования Муганской Неолит-Энеолитической экспедиции”. “AMEA, Azərbaycanda Arxeoloji Tədqiqatlar” jurnalı, 2012. Bakı. 2013.
20. Воронов Ю.П. “Страницы истории денег”. Новосибирск, 1986.
21. Кацпржак Е.И. “История письменности и книги”. Москва, 1955.
22. Меннингер К. “История цифр: числа, символы, слова” (перевод). Москва, 2011.



*Şəkil 1. Yaxın Şərqdə aşkar edilən üzəri işarəli bulla və say bildirən tokenlər*



*Şəkil 2. Yaxın Şərqdə aşkar edilən sayı göstərmək üçün üzəri çizgili daş*

**Tokenler ve Resimyazı (Piktograf)**

| Token Türü | Resimyazı (Piktograf) | Çevirisi (Tercümesi) | Token Türü | Resimyazı (Piktograf) | Çevirisi (Tercümesi) |
|---|---|---|---|---|---|
| | | Kuzu | | | Ekmek |
| | | Koyun | | | Yağ |
| | | Dişi Koyun | | | Yem |
| | | İnek | | | Tatlı (Bal?) |
| | | Köpek | | | Tatlı (Bal?) |
| | | | | | Bira |
| | | | | | Koyun Sütü |
| | | Kumaş | | | Tahıl |
| | | Yün | | | Parfüm |
| | | Yün, koyun postu | | | Metal |
| | | Sicim, halat | | | Bilezik, yüzük |
| | | Keçe, hasır, kilim | | | Yatak |
| | | Giysi ya da bez türü | | | Üretim, imalat (Hizmet/İşgücü) |

*Şəkil 3. Qədim Mesopotamiyada gil kitabələr üzərində tokenlər və piktoqrafik təsvirlər*




*Şəkil 4. I Maxta yaşayış yerindən aşkar edilən gil tokenlər*



*Şəkil 5. I Maxta yaşayış yerindən aşkar edilən gil möhür*




*Şəkil 6. Alxantəpə yaşayış yerindənaşkar edilən gil möhür*



*Şəkil 7. E.ə. II minilliyin əvvəllərində Assuriya dövrünə (Gelidonya, Cənub-Şərqi Anadolu)aid tərəzilər üçün istifadə edilən aid çəki daşları*



*Şəkil 8. E.ə.XVIII əsrə aid Acemhöyük (Aksaray, Türkiyə) yaşayış yerində aşkar edilmiş gümüş külçələr*



*Şəkil10. Qədim Misirdə e.ə.XIV əsrə aid edilən küp içində aşkar edilən müxtəlif formalı metal ingotlar, çubuklar, məftillər və s.*



*Şəkil9. Qədim Misirdə e.ə.1400-cü illərə aid edilən qızıl öküz başı (ingot (külçə)) və qızıl üzüklər*



*Şəkil 11. E.ə.II minilliyə aid Uluburun Batığı (Antalya, Türkiyə) aşkar edilən öküz gönü formasında mis külçələr(≈28 kq)*



*Şəkil 12. E.ə. II minilliyə aid Troyada (Türkiyə) aşkar edilən və üzərində çərtmələr olan çubuk formasında elektron külçələr*

# HEYDƏR ƏLİYEVİN KADR SİYASƏTİNİN NƏZƏRİ ASPEKTLƏRİ (1969-1982-Cİ İLLƏR)

**Yüzdanə Cabbarlı**
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
y.cabbarli@history.science.az

***Açar sözlər:****Heydər Əliyev, Azərbaycan SSR, kadr siyasəti, kadr işi, kadrların seçilməsi*

*Məqalədə kadr siyasətinin mahiyyəti, onun konsepsiyası, prinsipləri qısa nəzərdən keçirilmişdir.Bu prinsiplər Heydər Əliyevin Azərbaycan SSR-də kadr siyasətinin mahiyyəti ilə qarşılaşdırılaraq təhlil edilmişdir. Ulu Öndərin respublikaya rəhbərliyi dövründə kadrlara müəyyən mənada sərbəstlik verilməsi, onların yeri və rolunun qiymətləndirilməsi, seçilməsində obyektivlik və kadr siyasətinin icra mexnizmləri kimi məsələlər işıqlandırılmışdır. Nəticədə Heydər Əliyevin respublikada həyata keçirdiyi düşünülmüş kadr siyasətinin elmi nəzəri əsaslarının nə qədər güclü olduğu və respublikanın inkişafına istiqamətlənmiş siyasətdə əsas rol oynadığı əsaslandırılmışdır.*

# ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ КАДРОВОЙ ПОЛИТИКИ ГЕЙДАРА АЛИЕВА. (1969-1982 годы)

**Юздана Джаббарлы**

***Ключевые слова****: Гейдар Алиев, Азербайджанская ССР, кадровая политика, кадровая работа, подбор персонала*

*В статье кратко рассмотрены сущность кадровой политики, ее понятие и принципы. Эти принципы были сопоставлены с сущностью кадровой политики Гейдара Алиева в Азербайджанской ССР и проанализированы. В период руководства республикой Гейдара Алиева особое внимание уделялось таким вопросам, как предоставление свободы кадрам в определенном смысле, оценка их места и роли, объективность в подборе и реализации механизмов кадровой политики. В результате было обосновано, насколько сильна была научно-теоретическая основа продуманной кадровой политики Гейдара Алиева в республике и насколько она сыграла ключевую роль в политике, направленной на развитие республики.*

# THEORETICAL ASPECTS OF HEYDAR ALIYEV'S PERSONNEL POLICY. (1969-1982 years)

**Yuzdana Cabbarli**

***Key words:*** *Heydar Aliyev,Azerbaijan SSR, personnel policy,personnel work, selection of personnel*

*The essence of personnel policy, its concept and principles are briefly reviewed in the article. These principles were compared with the essence of Heydar Aliyev's personnel policy in the Azerbaijan SSR and analyzed. During Heydar Aliyev's leadership of the republic, issues such as giving freedom to personnel, evaluating their place and role, objectivity in selection and implementation mechanisms of personnel policy have been highlighted. As a result, it was justified that Heydar Aliyev's scientific and theoretical foundations of the personnel policy thought out in the republic are strong and that he plays a key role in the policy aimed at the development of the republic.*

Dəyişən və inkişaf edən dövr kadr siyasətinin müasir dövrün tələblərinə cavab verməsini tələb edir. Azərbaycanda dünyada yaranmış vəziyyətə uyğun olaraq dövlət idarəçiliyinin təkmilləşdirilməsi istiqamətində aparılan siyasət kadr siyasətinin tariximizdəki mövqeyinin tədqiqinin vacibliyini sübut edir. Ümummilli lider Heydər Əliyevin idarəetmə, liderlik, analitik təhlil və operativ qərar qəbil etmə qabiliyyətinin öyrənilməsi müasir Azərbaycanda tarixi təcrübənin praktik tətbiqə çevirilməsi, kadrların düzgün seçilməsi və idarə olunması baxımından maraq doğurur. Bu mənada iqtisadiyyatın yüksəlişi, cəmiyyətin rifahının yaxşılaşdırılması, idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində yeni model və mexanizmlər axtarışı ilə yanaşı tarixi təcrübəyə müraciət öz aktuallığını qoruyur.

Dövlət orqanlarının səmərəli fəaliyyəti üçün düzgün idarəetmə strategiyasının formalaşdırılması son dərəcə əhəmiyyətlidir. Odur ki, idarəçilikdə inkişaf edən cəmiyyətin tələblərinə uyğun, düşünülmüş, effektiv kadr siyasətinin həyata keçirilməsi vacib addımlardan biridir. Effektiv kadr siyasətinin işlənməsi üçün isə ilk növbədə kadr siyasətinin nəzəri əsasları formalaşdırılmalıdır.

Dövlətin kadr siyasəti, dövlət orqanlarının insan resursları ilə apardıqları işin məqsəd və vəzifələrinin, forma və metodlarının müəyyənləşdirilməsinə yönəlmiş, biliklər, baxışlar, prinsiplər, metod və praktiki tədbirlər sistemidir. Kadr siyasəti bilvasitə idarəçiliklə bağlıdır. Kadr işi dedikdə isə dövlətin kadr siyasətinin həyata keçirilməsi üçün subyektlərin gördüyü işlər nəzərdə tutulur [10]. Kadr siyasəti dövlət siyasətinin bir sıra mühüm istiqamətlərini-siyasi, iqtisadi, demoqrafik, mədəni, təhsil və s. əhatə edir.

Qeyd etmək lazımdır ki, kadrların real potensialının aşkara çıxarılması və onun praktikada öz əksini tapması vacib amillərdən biridir. Bu isə kadr siyasətində müəyyən elmi prinsiplərin, metodların olmasını zəruri edir.

Dövlətin kadr siyasəti konsepsiyası kadr problemlərinin həlli, kadr potensialının inkişafı və ondan səmərəli istifadə olunması məqsədilə hazırlanmış müasir dövrə və perspektivə yönəlmiş fundemantal elmi ideyalar toplusudur. Konsepsiyadakı ideyalar ali hakimiyyət orqanları tərəfindən rəsmi qaydada qəbul edildikdə, təstiqləndikcə və bu kadr proseslərinə təsir etdikcə, dövlətin kadr siyasətinə çevrilir. Yəni konsepsiya müəyyən mənada dövlətin kadr fəaliyyətinin proqram mövqeyidir. Dövlətin kadr siyasəti isə bu mövqenin qanunvericilik əsasında, müəyyəm prinsiplər və metodlar vasitəsilə həyata keçirilməsidir.Dövlətin kadr siyasətinin müasir, elmi tələblər səviyyəsində hazırlanması ilə yanaşı müəyyən prinsiplər üzərində qurulması vacibdir [6, s. 277].

Dövlətin kadr siyasətinin konsepsiyası nəzəriyyədən uzaq olmalı, reallıqlara və elmə əsaslanmalıdır. Qeyd etmək lazımdır ki, sovet dövründə dövlət orqanları və digər təşkilatlarda çalışan rəhbər kadrlar sovet nomenklaturasının əsasını təşkil edirdi. Bu nomenklatura müxtəlif sosial mənşəyə, bilik və bacarıqlara, professional qabiliyyətlərə malik sosial institut idi. Bəhs olunan institutun özünəməxsus təşkilati strukturu, mərkəzləşdirilmiş idarəetmə strategiyası, işə qəbul və fəaliyyətin koordinasiyası qaydaları mövcud idi. Heydər Əliyev respublikada rəhbərliyə gəlməsindən sonrakadrlara müəyyən mənada sərbəstlik verilmiş, onların yeri və rolunu qiymətləndirmişdir. Bu isə kadrların fəallığının artmasına müsbət təsir göstərmişdir.

Dövlətin kadr siyasətinin konsepsiyasıdigər tərəfdən kadr işinə kompleks yanaşılma, strateji baxımdan perspektivli olma, kadr problemlərinin həlli mexanizminə, sosial bazasına və məqsədlərinə görə demoktratik olması, humanizm və yüksək etika üzərində qurulma, həyata keçirilməsinin qanunvericlik səviyyəsində mümkün olması kimi xüsusiyyətləri özündə əks etdirməlidir [6, 278]. Kompleks yanaşmayakadrların potensiallarının müəyyənləşdirilməsi, onların, ixtisas və peşə bacarıqlarının təkmilləşdirilməsi, yenidən hazırlığı və s. məsələlər daxildir. Dövlət idarəetməsi üçün rəhbər kadrların təkibinin formalaşıdırılmasında kadr ehtiyatından səriştəli mütəxəsislərin seçimi və üzə çıxarılması onların qiymətləndirilməsi və peşə hazırlığına cəlb olunması mühüm amillərdir. Kadr ehtiyatının hərtərəfli düşünülmüş qaydada istifadə olunması dövlət idarəçiliynin səmərəli olacağına nəinki bu gün, hətta uzaq perspektivli gənc mütəxəsislərin üzə çıxarılması da mümüköndür[6, s. 287].

Qeyd etmək lazımdır ki, kadrların hazırlanması sovet dövründə xüsusi məsələni təşkil etmiş, SSRİ-də rəhbər kadrların hazırlanmasına böyük önəm verilmişdir. Rəhbər kadrların ixtisasının artırılmasına dair tədris prosesində təşkilatı tədbirlərdən ən önəmlisi bu sahə üçün kadr hazırlayan ali məktəblərin

tədris-metodiki bazasının möhkəmləndirilməsi və tədris prosesinin müasir tələblər səviyyəsində qurulmasıdır. Heydər Əliyev respublikaya rəhbərliyi dövründə ixtisaslı kadrların hazırlanması üçün ali məktəblərin fəaliyyətini və rəhbər kadrların hazırlanmasında əsəs rol oyanayan Bakı Ali Partiya Məktəbinin fəaliyyətini daim diqqət mərkəzində saxlamışdı. Ümumilikdə bu dövrdə rəhbər kadrların hazırlanması missiyasını ölkədə fəaliyyət göstərən 15 ali partiya məktəbi həyata keçirmişdi (1983-cü ilin məlumatı) [1, s. 175-179]. Bu məktəblərdə Sov.İKP MK yanında İctimai Elmlər Akademiyasının tədris-metodiki materialları [13] əsasında kadrlar hazırlanırdı. Bakı Ali Partiya Məktəbinin (BAPM)tədris planında dövrün təlbələri ilə əlaqədar olaraq marksizim-leninizim nəzəriyyəsi, eyni zamanda partiya-sovet quruculuğu və digər ictimai elmlər əsas yer tuturdu. Məsələn, Azərbaycan KP MK yanında partiya və sovet işçilərinin ixtisası artıran respublika kurslarının1980-ci ildə Şəhər və rayon qəzet redaktorlarının məsul katibləri və şöbə müdirləri üçün Tədris Planında aşağıdakı bölmələr üzrə mühazirə və seminar aparılması nəzərdə tutulurdu: 1. Marksizim-leninizim nəzəriyyəsi və kommunizm quruculuğu təcrübəsinin aktual məsələləri; 2. Sov.İKP-nin müasir mərhələdə iqtisadi strategiyası. İctimai istehsalın səmərəliliyini və keyfiyyətini yüksəltmək problemləri; 3. İqtisadiyyatın və mədəniyyətin inkişafına partiya rəhbərliyi. Partiyanın kütlələr arasında apardığı təşkilat və siyasi işdə mətbuatın rolu; 4. Sov. İKP-nin xarici siyasət fəaliyyəti. Dünya inqilabi prosesinin müasir mərhələləri[13, s. 3]. Tədris planından göründüyü kimi rəhbər kadrların hazırlanması həm ixtisas üzrə həm də dünya görüşü, siyasi biliklərlər üzrə aparılırdı.Qeyd etmək lazımdır ki, BAPM-də təhsil almaq, yüksək siyasi və partiya işlərinə irəli çəkilmək üçün vacib səbəblərdən biri idi.

Kadr siyasətinin perspektivli olması isə bu siyasətin hazırkı dövr və gələcək üçün inkişafı təmin edə bilməsi deməkdir. Ulu öndərin respublikada həyata keçirdiyi düşünülmüş kadr siyasəti respublikada bir çox sahələrin inkişafına səbəb olmuşdur. Heydər Əliyev hər bir addımı ilə nümayiş etdirirdi ki, hətta sərt sovet rejimində belə, açıq düşüncəli rəhbər olmaq, lazım gələrsə standartdan kənar addımlar atmaq mümkündür. Ulu öndər liderlik, uzaqgörən rəhbərlik bacarığı ilə respublikada idarəetməyə, xüsusilə də təhlükəsizlik orqanlarına milli kadrların cəlb edilməsinə nail olmuşdur. Heydər Əliyev hələ dövlət təhlükəsizlik orqanlarında fəaliyyətə başladığı dövrdən bu məsələni öz fəaliyyətinin əsas istiqamətinə çevirmişdi. Məhz Ulu öndərin səyi və birbaşa iştirakı ilə həmin dövrdən təhlükəsizlik orqanlarında azərbaycanlıların xüsusi çəkisi nəzərəçarpacaq dərəcədə artaraq 1980-ci illərdə 70 faizə çatmışdı. Heydər Əliyev həmçinin 1981-ci ildə 40 nəfər, 1982-ci ildə 30 nəfər azərbaycanlının işə götürülməsi üçün Azərbaycan SRR DTK rəhbərliyinə göstəriş vermişdi[5, s. 163]. Qeyd olunmalıdır ki, məhz bu dövrdə Azərbaycan Təhlükəsizlik orqanlarında formalaşmış yeni nəsil sonralar müstəqil Azərbaycan

Respublikası Təhlükəsizlik Xidməti Orqanlarının kadr potensialını təşkil edəcəkdi. Bu addımı böyük nailiyyət kimi dəyərləndirən Heydər Əliyev deyirdi: "Mən hesab edirəm ki, Azərbaycanda təhlükəsizlik təşkilatının milliləşdirilməsi prosesi bu təşkilatın Azərbaycana vurduğu zərərə baxmayaraq, bizim əldə etdiyimiz ən böyük nəaliyyət idi, təşkilat milliləşdikcə onun fəaliyyət istiqamətini də Azərbaycanın milli mənafelərinə uyğun aparmaq mümkün olurdu"[8, s. 355]. Bütün bu adımllar gələcək müstəqil Azərbaycan üçün güclü kadr potensialını formalaşdırmışdır.

Bu dövrdə həyata keçirilən kadr siyasətinin perspektivli olmasının digər sübutunu bu siyasətin Qarabağ zəfərimizdə rolunu qeyd etməklə də aydın şəkildə müşahidə etmək mümkündür. Belə ki, bu dövrdə Heydər Əliyevin təşəbbüsü ilə açılmış C.Naxçıvanski adına hərbi internat məktəbi respublikada vətənpərvər hərbiçi kadrların hazırlanmasında müstəsna rol oyanmışdır. Eyni zamanda bu dövrdə SSRİ-nin 170 qabaqcıl ali məktəbinə 3500 azərbaycanlı gənc göndərilmiş, kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasına görə onların ali təyyarəçilik məktəblərinə göndərilməsi xüsusi nəzarətinə götürülmüşdü[12, s.387]. Nəticədə gələcək müstəqil Azərbaycan üçün güclü hərbi kadrlar potensialı formalaşıdırlmışdır.

Kadr siyasətinin kadr problemlərinin həlli mexanizminə, sosial bazasına və məqsədlərinə görə demoktratik olması prinsipi isə bütün qərarların aşkarlıq mühitində keçirilməsini nəzərdə tutur. İlk öncə onu qeyd etmək lazımdır ki, Heydər Əliyev bu dövrdə kadrların seçilməsini kollegial şəkildə həll edir, bu və ya digər MK katibi hər hansı bir nəfəri vəzifəyə təklif edirdi. Heydər Əliyev bu namizədi Ali Sovetin Rəyasət Heyəti sədrinin, Nazirlər Soveti sədrinin, ikinci katibin və həmin sahəyə nəzarət edən katibin iştirakı ilə müzakirə edirdi. Yalnız ümumi razılıq əldə olunandan sonra məsələ büroya çıxarılırdı. Ulu öndər kollektiv rəhbərliyin partiya təşkilatlarının işini, insanların yaradıcılıq təşəbbüsünü doğru şəkildə istiqamətləndirmək və kadrların daha düzgün seçilməsi üçün böyük imkanlar yaratdığını bildirirdi. O, bəzi idarələrdə kadrların seçilməsi zamanı kollegiallığa riayət edilməməsini, büro və ya kollegiya adından göstərilsə də əslində kadrların seçilməsi və yerləşdirilməsi ilə bağlı qərarların yalnız qəbul edilməsi hallarının aradan qaldırılması üçün daim öz tövsiyyələrini verirdi. Məsələn, Kürdəmir rayon partiya katibinə kadrların seçilməsində kollegiallıq prinsiplərini pozduğu üçün, lazımi işgüzar keyfiyyətlərə malik olmayan, əvvəllər partiya və cinayət məsuliyyətinə cəlb edilmiş şəxsləri müxtəlif vəzifələrə təyin etdiyi üçün vəzifədən uzaqlaşdırılaraq şiddətli töhmət verilmişdi[2, s. 67-68].

Kadr siyasətinin nəzəri əsaslarının öryənilməsi bu siyasətin icra mexanizminin də nəzərdən keçirilməsini zəruri edir. Dövlətin kadr siyasətinin həyata keçirilməsi normativ-hüquqi, təşkilati, elmi-informasiya və tədris metodiki mexanizmlər vasitəsilə mümkündür[6, s. 280-281]. Normativ-hüquqi

mexanizim dövlətin kadr siyasətinin qanunvericilik bazasının yaradılmasını nəzərdə tutur və bu funksyanı ali qanunvericilik və icra orqanları yerinə yetirir. Hüquqi aktların qəbul edilməsi dövlət hakimiyyətinin bütün səviyyələrində kadr siyasəti subyektlərinin rolunu və yerni müəyyənləşdirir. Azərbaycan SSR-də ali qanunverici orqan Ali Sovet, icraedici orqan isə Nazirlər Soveti idi. Qeyd etmək lazımdır ki, SSRİ-də kadr siyasəti bütün idarəetmə orqanlarında yalnız Kommunist Partiyası rəhbərliyi tərəfindən tənzimlənmiş və həyata keçirilmişdir. Partiyanın rəhbər siması kadr məsələlərində böyük rol oyanyırdı. Bu baxımdan Azərbaycan KP birinci katibi kimi Heydər Əliyevin Azərbaycan SSR-də idarəetməyə, respublika üçün qərarların verilməsinə və s. məsələlərə böyük təsiri vardı. Heydər Əliyev mərkəz tərəfindən göstərilən manelərə baxmayaraq əvvəlki respublikanın inkişafı üçün zəmin yaradacaq məqamlarda güclü idarəçilik bacarığı ilə respublikanın inkişafı üçün xüsusi qərarların qəbul edilməsinə nail olmuşdur. Lakin respublikanın inkişafı şərtləndirən başlıca səbəb təkcə bu qərarların qəbul edilməsi deyil, həm də onların respublikada ardıcıl icrasının təmin edilməsi olmuşdur. Bütün bunlar da güclü idarəçilik irisni bizə miras qoymuş Heydər Əliyev tərəfindən həyata keçirilmişdir.

Təşkilati mexanizim isə mərkəzi hakimiyyət və idarəetmə orqanları nəzdində ölkə üzrə kadr işini tənzimləyən subyektlər iyerarxiyasını yaradır. Bu mexanizmlə işçilərin vəzifələrə uyğun gəlib-gəlməməsinin, səmərəlilik dərəcəsinin müəyyən edilməsi, vaxtaşırı monitorinqlərin həyata keçirilməsi və s. həyata keçirilir. Maksimalist siyasətçi və idarəçi kimi Heydər Əliyev daim kadrlara yüksək tələbkarlıqla yanaşırdı. Odur ki, bu dövrdə rəhbər kadrların mütəmadi olaraq vəzifəyə uyğunluğu yoxlanılırdı. Azərbaycan KP MK-nın 1977-ci il 11 fevral tarixli "Xalq təsərrüfatının rəhbər kadrlarının və mütəxəssislərinin attestasiyasının vəziyyəti və bu işin daha da təkmilləşdirilməsi haqqında" qərarında göstərilirdi ki, rəhbər kadrların və mütəxəssislərin attestasiyasından bütün işlərdə səmərəli istifadə olunmalıdır. Və bu xalq təsərrüfatında daha səmərəli nəticə, istehsalın və işin keyfiyyətinin yüksəldilməsinə fayda verməlidir. Eyni zamanda bu kadrların seçilib, yerləşdirilməsi üçün də yararlı rol oynayacaq[4, s. 12-13].

Qeyd etmək lazımdır ki, bu dövrdə Heydər Əliyevin kadr siyasətinin tərkib hissəsini respublikada geriliyə səbəb olan zəif idarəetmə aparatının gücləndirilməsi, rəhbər heyətin tərkibinin təkmilləşdirilməsi, vətənini sevən kadrların rəhbər vəzifələrə cəlb edilməsi, yüksək mənəviyyatlı və əxlaqi keyfiyyətlərə sahib kadr potensialının formalaşdırılması və onların mənəvi tərbiyəsi kimi məsələlər təşkil edirdi.

Dövlətin kadr siyasətində mənəvi amillər olduqca əhəmiyyətlidir. Bir çox ölkələrdə dövlət qulluğu sitemlərinin mənəvi tələblərə əməl olunmasının vacibliyini təstiqləyən "Dövlət qulluğu etik məcəlləsi" adlı rəsmi sənəd qəbul edilir. Bu normativ sənədin əsas tələbi ondan ibarətdir ki, hər bir dövlət

qulluçusu qulluğa qəbul edildiyi gündən fəaliyyətinin sonunadək məcəllənin mənəviyyatla bağlı tələblərinə tam əməl edəcəyini öz imzası ilə təsdiqləsin[6, s. 290]. Azərbaycanda dövlət qulluğunun təkmilləşməsi üçün vacib əhəmiyyətə malik olan "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" qanun[7] 2007-ci ildə qəbul edilmişdir.

Heydər Əliyev kadrların mənəvi tərbiyəsindən bəhs edərkən deyirdi: "Bilirsiniz ki, mən 1969-cu ildə Azərbaycan SSR-ə rəhbərliyə başlayan zaman fəaliyyətimin əsas hissəsini mənəvi tərbiyə işinə yönəltmişəm, insanlarda olan mənfi cəhətlərin aradan götürülməsinə çalışmışam, rüşvətxorluqla, korrupsiya ilə, vəzifəli şəxslərin vəzifəsindən sui-istifadə etməsi halları ilə və cürbəcür başqa çirkin hərəkətlərlə mübarizəyə sərf etmişəm. Mən gördüyüm işlərlə fəxr edirəm. Baxmayaraq ki, apardığım həmin mübarizə, mən 1987-ci ildə bütün vəzifələrdən kənarlaşdırılandan sonra mənə qarşı yönəldi. Ancaq tarix göstərdi ki, mən düzgün mövqedə olmuşam"[9, s. 131].

Kadrların tərbiyəsində mənəvi keyfiyyətlərinin artırılmasına çalışan Heydər Əliyev rüşvətxorluq, müftəxorluq, cəmiyyətə zidd digər hallara qarşı barışmaz mövqedə dayanırdı. Ona görə də bu məsələ mütəmadi olaraq Azərbaycan KP MK-nın plenumlarında (1971-ci il oktyabr, 1974-cü dekabr və s. ) geniş müzakirə edilirdi.

Heydər Əliyev respublikada hakimiyyətə gəldiyi ilk dövrdən kadrların seçilməsinə xüsusi önəm verir, təhsil, şəxsiyyət və xarakter, mühakimə qabiliyyəti, məsuliyyət, təşəbbüskarlıq, dəqiqlik, işgüzarlıq, liderlik bacarığı, rəhbərlikdə düzgün davranış, çalışqanlılıq və başqa bu kimi prinsiplərini əsas tuturdu.Kadrların seçilməsində özünüqiymətləndirmə qabiliyyəti, vicdanlılıq, ədalətlilik, psixoloji dayanıqlılıq və s. kimi mənəvi-psixoloji meyarlar da vacib hesab edilir. Kadrların seçilməsi zamanı əsas amillərdən biri kimi onların vəzifədə dürüstlüyü xüsusilə vacib hesab edilirdi. Heydər Əliyev rəhbər vəzifəyə seçilən hər bir dürüst rəhbər kadrın ayrı seçikiliyə yol verməyən, məsələləri və deyilən subyektiv fikirləri şəxsiləşdirməyən və s. bu kimi keyfiyyətlərə malik olmasını vacib hesab edirdi.

Hər bir rəhbər kadrın prinsipiallığı onun hadisələrə qiymət verərkən, qərarlar qəbul edərkən özünü göstərən əsas keyfiyyətlərindən biridir. Çunki yanlış verilən qərarlar böyük səhvlərə səbəb ola bilər. Ona görə də Heydər Əliyev kadrların seçilməsi zamanı kadrların prinspial olmalarına xüsusilə əhəmiyyət verirdi. Məsələn, bu dövrdə respublikanın Kənd Tikinti naziri dövlət vəsaitinin müəyyən məsul vəzifələrdən istifadə edərək məsimsənilməsinə şərait yaratmış, nazirliyin kollegiyası isə bu faktlara qarşı mövqe nümayiş etdirməmişdi. Qeyd olunmalıdır ki, nazir Hüseynzadənin vəzifəyə nazmizədliyi onun yaxşı inşaatçı olmasına, uzun illər "Transstroy" trestinə yaxşı rəhbərliyinə görə irəli sürülmüşdü. Lakin təcrübə onun inşaatçı kimi yaxşı iş adamı olsa da prinsiapial rəhbər kadr keyfiyyətinə malik olmamasını göstərdi[2, s. 74-75].

Kadrların seçilməsində liderlik qabiliyyəti, sağlamlıq durumu, ümumi mədəni səviyyəsi, düşüncə mədəniyyəti, nitq mədəniyyəti və s. kimi meyarlar da vacib sayılır. Heydər Əliyev hər zaman nüfüzdan düşmüş, işinə ləyaqətlə yanaşmayan kadrın rəhbər vəzifədə yeri olmadığını vurğulayırdı: "Bəzi rəhbərlər öz vəzifələrinə işgüzar yanaşmalarını, ilk növbədə maarifləndirici olduqlarını, həm səriştəsi, həm də mənəvi keyfiyyətləri ilə kollketivə örnək olmalarını undurlar. Əgər bu və ya digər rəhbər kadr bu tələblərə cavab vermirsə, onda heç bir iqtisadi uğur onu seçim və yerləşmədə səhvlərə və yanlış hesablamalara görə məsuliyyətdən xilas edə bilməz[2, s. 34].

Heydər Əliyev yararsız işçilərin bir məsul vəzifədən götürülərək başqasına təyin edilməsinin həm işə, həm də kadrların tərbiyəsinə ziyan vurduğunu bildirirdi. O, bildirirdi ki, "elmi texniki inqilab şəraitində yenilik hissi, qabaqcıl təcrübəni, novator üsullarını görmək, öyrənmək və yaymaq bacarığı hər bir rəhbər işçinin ümdə keyfiyyəti olmalıdır, çünki yenilik hissi iqtisadiyyatda, elm və mədəniyyətdə yüksək nəticələr əldə olunmasını təmin edir[11, s. 68]. Ulu öndər bir çox müəssisələrdə kadrların inkişafının sistemli və düzgün şəkildə təşkil olduğunu bildirərək, xalq təsərrüfatının müxtəlif sahələrində təşəbbüskar, dövlət intizamına ciddi riayət edən çoxlu rəhəblərin olduğunu bildirirdi. Məsələn, qeyd olunan dövrdə S.Əhmədzadə qırx ildən artıq respublikanın enerji sistemində çalışmış, onun idarə etdiyi istilik-elektrik stansiyası göstəricilərinə görə Ümumittifaq yarışında dəfələrlə birinci yeri tutmuşdu[2, s. 37].

Heydər Əliyev kadrlara qarşı yüksək tələbkarlıqla yanaşı, eyni zamanda etimad və qayğı göstərməyin vacib olduğunu bildirərək, onların məsuliyyətinin artırılması, qərarlarının yerinə yetirilməsində fəallıq və təşəbbüskarlıqlarının təmin olunması, meydana çıxan problemlərin həllinin ən səmərəli yollarının tapılması, idarəetmənin müasir metodlarına yiyələnmələri üçün zəruri köməkliyin göstərilməsini vacib sayırdı. Ulu öndərin kadrlara göstərdiyi etimadını aşağıdakı faktda  görmək olar. Belə ki, 1970-ci ildə Sabirabad rayon partiya komitəsinin işi müzakirə olunmuş, ciddi nöqsanlar aşkar edildiyinə görə birinci katib (H.Məmmədov) vəzifədən götürülmüş və ona töhmət verilmişdi. Buna baxmayaraq o, Beyləqan rayonunda pambıq sovxozuna direktor təyin edilir. Sovxoz isə göstəricilərinə görə 1971, 1972-ci illərdə planı artıqlaması ilə yerinə yetirmişdi. Ona görə də əməyi qiymətləndirilən H.Məmmədovun üzərindən cəzası götürülmüşdür[3, s. 247, 248, 249, 251].

Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərliyi dövründə ölkəmizin gələcək müstəqilliyini görərək onun əsaslarını yaratmaq missiyasını böyük bacarıqla həyata keçirmişdir. Bu dövrdə həyata keçirilmiş düzgün, məqsədyönlü və uzaqgörən kadr siyasəti nəticəsində dövlət idarəçiliyi üçün yeni idarəetmə metodlarını və mədəniyyətini mənimsəmiş və müasir idarəçilik təfəkkürünə malik rəhbər kadrlar hazırlanaraq müvafiq vəzifələrə seşilmiş və onlar

respublikanın idarəçiliyində fəal iştirakı təmin edilmişdir. Ulu öndər siyasətdə sözlə əməlin, siyasətlə əxlaqın yüksək, ali davranış mədəniyyətinin balansını yaradaraq ölkəmizin gələcək inkişafı üçün əsas zəmin yatarmışdır.

Ümummilli lider Heydər Əliyevin dövlətçilik ideyalarının elmi-nəzəri əsasları təkcə bugün üçün deyil, gələcək üçün də çox əhəmiyyətlidir. Heydər Əliyevin idarəçilik məharəti çox zəngin təcrübə məktəbidir. Baxmayaraq ki, dövr inkişaf edir, idarəetmədə yeni metodlar yaranır, buna baxmayaraq bu gün də, gələcək üçün də bu təcrübə böyük məktəb rolunu oynayacaq.

## Ədəbiyyat:


1. AslanovE. Azərbaycanda dövlət idarəçiliyi üzrə kadrların hazırlanması tarixinə dair // Dövlət idarəçiliyi: nzəriyyə və təcrübə jurnalı. Bakı, 2010.№4/32, s.175-179.
2. ARPİİİSSA, f. 1, s.62, iş 1.
3. ARPİİİSSA, f.1, s.62, iş 3.
4. ARPİİİSSA, f.1, s.64, iş 17.
5. ARPİİİSSA f.1, s.68, iş 84.
6. Dövlət idarəçilik nəzəriyyəsi (Dərslik) / redaktor. S.T.Qəndilov. Bakı, Elm və təhsil, 2010. 552s.
7. Dövlət qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının Qanunu / https://eqanun.az/framework/13685
8. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 19-cu kitab. Bakı: Azərnəşr, 2006, 528s.
9. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: 14-cü kitab. Bakı: Azərnəşr, 2005. 520 s.
10. Həsənoğlu M. Azərbaycan Respublikasının dövlət idarəçiliyi sahəsində kadr siyasəti strategiyası, islahatları və kadr potensialının inkişafı / Kafkassam.com. 12 iyun, 2020;
11. İsmayılov K.N. Respublikanın idarəçlik sistemində və kadr siyasətində mütərəqqi dəyişikliklər / Heydər Əliyev. 2 cilddə. I cild. Bakı, Turxan, 2013, 500 s.
12. Mahmudov Y.M. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, Təhsil, 2011, 608 s.
13. Şəhər və rayon qəzet redaktorlarının məsul katibləri və şöbə müdirləri üçün Tədris Planı / Azərbaycan KP MK yanında partiya və sovet işçilərinin ixtisası artıran respublika kursları. - Bakı, 1980.7s.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2023, 4 (41), s.23-32

# AZƏRBAYCAN MÜLKİAVİASİYASININ İNKİŞAF TARİXİNDƏN (1910-1969)

**Rübabə Əbiyeva**
Milli AviasiyaAkademiyası
rubaba1988@mail.ru

***Açar sözlər****: Mülki Aviasiya, ilk aviadəstə, ilk uçuşlar, hava gəmiləri, hava limanları.*

*Məqalədə tədqiq edilən xronoloji çərçivədə Azərbaycan mülki aviasiyasının yaranması və inkişafı əks olunmuşdur. Milli mülki aviasiyamızda baş verən əhəmiyyəli tarixi hadisələr dövrün siyasi hadisələrinin bu proseslərə təsiri aspektindən analiz edilmişdir. Burada Azərbaycan mülki aviasiyasının geniş spektorlu inkişafının müxtəlif məqamlarına ( nəqliyyat, yerüstü infrastruktur, kadr potensialı, aviasiya təhsili və s. ) geniş yer verilmişdir.*

## ИЗ ИСТОРИИ РАЗВИТИИ ГРАЖДАНСКОЙ АВИАЦИИ АЗЕРБАЙДЖАНА (1910-1969)

**Рубаба Абиева**

***Ключевые слова:****Гражданская авиация, первое авиагруппа, первые полеты, флюгеры, аэропорты.*

*В статье в хронологическом порядке отражено развитие Азербайджанской гражданской авиации. Важные исторические события национальной гражданской авиации анализированы с точки зрения влияния политических событии того периода. Здесь обсуждаются различные аспекты широкого спектра развития гражданской авиации Азербайджана (наземная транспортная инфраструктура, подготовка кадровой потенциал, авиационная учеба и т,д,)*

## FROM THE HISTORY OF THE DEVELOPMENT OF CIVIL AVIATION OF AZERBAIJAN (1910-1969).

**Rubaba Abieva**

***Keywords:*** *Civil Aviation, first avia-group, first flights, aircrafts, airports.*

*The creation and development of Azerbaijani civil aviation is reflected in the chronological framework applied in the article. Important historical events in our national civil aviation were analyzed from the perspective of the influence of the political events of its time on these processes. Here, various*

*aspects of the wide-spectrum development of Azerbaijan's civil aviation (transport, ground infrastructure, personnel potential, aviation, education, etc.) are given ample space.*

Bəşəriyyat yarandığı gündən insanlar uçmaq arzusu ilə yaşamış və elm inkişaf etdikcə bu istiqamətdə geniş ixtiralara imza atmışlar. XVIII əsrin sonlarından bu ixtiralar xüsusilə geniş vüsət aldı. Dünya tarixində ilk rəsmi qeydə alınmış uçuş Uilber və Orvil Rayt qardaşları tərəfindən XX əsrin əvvəllərində həyata keçirildi.

Azərbaycanda isə ictimaiyyətin aviasiya ilə tanışlığı 1910-cu ilə təsadüf edir. Məlum olduğu kimi bu dövrdə Azərbaycan Rus imperiyasının əsarətində idi. İmperiya mərkəzində həyata keçirilən bütün iqtisadi, elmi yeniliklər ölkəmizə də siraət edirdi. Bakı Çar Rusiyasının əsas sənaye şəhərlərindən biri olmaqla xüsusi əhəmiyyət daşıyırdı. Təsadüfi deyil ki, 1910-cu ildə Çar Rusiyasında keçirilən aviasiya həftələri çərçivəsində Azərbaycanda da rus təyyarəçilərinin uçuşları həyata keçirilmişdir.

Bakı şəhər mühəndisi Artyom İosifoviç Kazarov Bakı şəhər rəisinə ünvanladığı məktubunda bu uçuşların reallaşdırılması üçün müvəqqəti aerodromun tikintisnə izn istəmişdi. Nəticə olaraq müvəqqəti aerodromun tikintisi Bakı şəhərinin Balaxanı küçəsində həyata keçirildi.

Azərbaycanda Rus İmperatorluğu Texniki Cəmiyyətinin Hava Bölməsinin Bakı Şöbəsi tərəfindən təşkil edilən ilk uçuşları məşhur rus təyyarəçisi Sergey Utoçkin nümayiş etmişdi. Təyyarəçi ilk uçuşunu oktyabrın 21-22-də həyata keçirmişdir[9, s.1].

Uçuş Farman biplanı ilə həyata keçirilmiş və ilk dəfə təyyarə görən azərbaycanlıların böyük marağına səbəb olmuşdur. Nəticədə üç gün ərzində yüksəklikləri fəth edən S.Utoçkin onun üçün ayrılan aviasiya həftəsinə uğurla başa vurdu.

1910-cu ildə digər məşhur rus aviatorları A.Qaber-Vlinski, A.Vasilyeviç tərəfindən də Bakıda, Gəncədə uçuşlar nümayiş etdirildi[21, s. 2].

Təyyarəçi A.Qaber-Vlinski Bakı şəhərinin Stanislavski küçəsində yerləşən aerodromda uçuşlarını nümayiş etdirmişdir. O ilk uçuşunu oktyabr ayının 28-də keçirmişdir. Təyyarəçi 300 metr yüksəkliyə qalxaraq, havada bir neçə dövrə vurmuş, aerodromun sərhədlərindən kənara çıxmışdır.

1910-cu il noyabrın 7-də Balaxanı şosesindəki aerodromda Fransa-Blerio məktəbinin məzunu olan rus təyyarəçisi Aleksandr Vasilyeviç də uçuşlarını nümayiş etdirmişdir. A.Vasilyeviç "Blerio" monoplanını idarə edirdi [22, s.1].

"Nicat"qəzetinin 18 dekabr 1910-cu il tarixli sayında çap olunan "Gəncədən Tiflisə balon ilə" adlı məqalədə isə A.A.Vasilyeviçin Gəncədən Tiflisə uçuşundan bəhs olunurdu.

Azərbaycan aviasiyası tarixində digər diqqətçəkən məqam kadr yetişdirilməsi ənənəsinin əsasının qoyulması ilə bağlıdır. Artıq XX əsrin əvvəllərində ilk azərbaycanlı təyyarəçilər formalaşmaqda idi.

Azərbaycanın ilk aviatoru Əli bəy Verdiyevdir. O Fransada təhsil alaraq aviasiya və avianəqliyyat sisteminin təmiri üzrə mühəndis-mexanik kimi ixtisaslaşmışdır. 1916-cı il 22 iyun tarixində "Beynəlxalq Aviasiya Federasiyasınn" diplomuna layiq görülmüşdür. O, Birinci Dünya müharibəsi dövründə Fransada mühəndis-mexanik kimi Aviapilotaj məktəbində ilk hazırlıq kursu keçmişdir. Sonralar Əli bəy Verdiyev bu məktəbin hazırlıq kurslarına dərs demək üçün cəlb olunur. Eyni zamanda təlimatçı kimi yeni təyyarələrin sınaq uçuşlarında iştirak edərək, uçuş təchizatı keyfiyyətini araşdırırdı [18, s. 134].

Digər aviatorumuz Fərrux ağa Məmməd Kərim ağa oğlu Qayıbov Azərbaycanın ilk hərbi təyyarəçisi kimi tarixə düşmüşdür. O 1910-cu ildə Tiflis kadet korpusunu bitirdikdən sonra Peterburqdakı Konstantinov Artilleriya məktəbinə daxil olmuş və 1913-cü ildə bu məktəbi bitirmişdir.

O 3 fevral 1916-cı ildə hava gəmiləri eskadrasına təyin edilmişdir. 1916-cı ilin mayında Fərrux ağa Qayıbov "İlya Muromets №16" hava gəmisinin artilleriya zabiti təyin edilmiş, elə həmin ildə 4 alman təyyarəsi ilə qeyri-bərabər qarşılaşmada Belarusiya səmasında həlak olmuşdur [19, s. 10].

Azərbaycan aviasiyası tarixində diqqətçəkən məqan kadr yetişdirilməsi ənənəsinin əsasının qoyulması ilə bağlıdır. Azərbaycanın ilk aviasiya məktəbi 1915-ci ildə fəaliyyətə başlamış Bakı Dəniz Aviasiya Zabitləri məktəbi hesab edilir. Bakının inkişaf edən infrastrukturu və canlanmış nəqliyyatı ilə donmayan liman olması hidro təyyarələrin daimi uçuşları üçün lazımi şərait yaradırdı. Bütün bunlar nəzərə alınaraq Petraqraddakı eyniadlı məktəbin cənub bölməsinin lokasiyası kimi məhz Bakı seçilmişdir [16, s. 9,11, 14].

Məktəb Petraqrad Dəniz Aviasiya Zabitləri məktəbinin cənub bölməsi olmuş və çar ordusunun dəniz təyyarəçiləri ilə bağlı ehtiyacını ödəmək məqsədilə yaradılmışdır [17 s.79].

Bakı Dəniz Aviasiya Zabitləri məktəbi I Dünya müharibəsində rus ordusunun hərbi dəniz təyyarəçilərinə olan ehtiyacını ödəmək məqsədilə yaradılsa da sonrakı siyası hadisələr, bu məktəbin fəaliyyət istiqamətinə də öz təsirini göstərmişdir. Bir müddət bolşevik-daşnak qüvvələrinin əlində qalan aviasiya məktəbinin təyyarələrindən Qafqaz-İslam Ordusuna qarşı istifadə edilmişdir [1, s.130].

Lakin qeyd edilən faktlar milli dövlətçiliyin bərpası dönəminə təsadüf etmədiyindən milli maraqlara xidmət imkanından məhrum idi.

Azərbaycanın milli aviasiyasının yaradılması yönündə əsaslı addımlar məhz Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir. Belə ki, buna qədər aviasiya sahəsində baş verən hadisələr Çar Rusiyasının müstəmləkəçi siyasətinin tərkib hissəsi idi.

1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsini qəbul edərək Azərbaycanın müstəqilliyini elan etdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli hökumətin hərbi quruculuq fəaliyyətində milli aviasiyamızın yaradılmasına xüsusi diqqət ayrılmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin ümumi siyasətinin mühim sahələrinə hərbi siyasət daxil idi. Bu birbaşa olaraq milli ordunun yaradılması, fəaliyyəti ilə bağlı olub köklü maraqların təminatına və cəmiyyətin mövcudluğuna xidmət edirdi[2, s. 5].

Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi–hava qüvvələrinin formalaşdırılmasından öncə onun rəhbər heyəti müəyyənləşdirildi. Hərbi nazir Mehmandarovun 1919-ci il 19 avqust tarixli 370 N-li əmrinə əsasən hərbi təyyarəçi Teymur xan Əfşar paruççik rütbəsində Baş Qərargaha tabe olan aviasiya dəstəsinin rəisi kimi Azərbaycan Cümhuriyyətinin ordusuna qəbul edilirdi [3, s. 59].

1919-cu il sentyabrın 14-də isə Aviasiya dəstəsinin ştatı Hərbi Şuranın razılığı ilə formalaşdırılmış və qeyd edilən tarixdən faktiki fəaliyyətə başlamışdır. Ştatda 5 zabit, 4 məmur, 54 nizami əsgər və 4 qeyri-nizami əsgər var idi.

1920-ci il 26 yanvar tarixində Hərbi Nazirliyin 49 nömrəli əmri ilə avidəstə rəsmi yaradılması təsdiq edilmişdir[4, s. 59-60].

Hərbi-hava qüvvələrinin təşkilinin zəruriliyinin nəzərə alaraq, hərbi nazirlik aviasiyanın təşkili işinə ən əvvəl müvafiq kadrların hazırlanmasından başladı. Bunun üçün Gürcüstan hökuməti ilə imzalanmış müqavilə ümumilikdə milli aviasiya tariximizə Azərbaycanın ilk dövlətlərarası aviasiya müqaviləsi kimi daxil oldu.

Belə ki, Azərbaycan Cümhuriyyətinin baş qərargahının 7 avqust 1919-cu il 49-nömrəli əmrinə əsasən 9 nəfər gənc zabit aviasiya işini öyrənmək üçün Tiflisə ezam edilirdi [5, s. 44].

Digər tərəfdən Azərbaycan Xalq Cümhuriyəti Şuşa və Xankəndində aviabazaya sahib idi. ADR-in Silahlı Qüvvələrinin Baş Qərargah rəisi M.Sulkeviçin 29.01.1920-ci il tarixində Gürcüstan hökümətinə ünvanladığı teleqramda erməni quldur dəstələrinin Zəngəzurda baş qaldırmış qiyamını yatırmaq üçün Gürcüstandan göndərilməsi nəzərdə tutulan təyyarələr Şuşa və ya Xankəndi aviabazalarında yerləşdirilməli idi. Aeroplanı idarə edəcək təyyarəçi kimi Xan Əfşar nəzərdə tutulurdu [6, s. 48].

Şuşa və Xankəndində aviabazaların yerləşməsi Qarabağın hələ Cümhuriyyət dönəmindən Azərbaycan üçün son dərəcə aviasiya əhəmiyyətli bölgə olduğunu sübut edir. Zəngəzurda erməni quldur dəstələri tərəfindən baş qaldırmış üsyanın yatırılması üçün bu aviabazalardan istifadə edilməsinin nəzərdə tutulması qeyd olunan aviasiya obyektlərinin dövlətçilik üçün əhəmiyyətini nümayiş etdirmiş olur.

Azərbaycan Xalq Cümhuriyyəti zamanında aviasiya sahəsində İtaliya və İngiltərə ilə qurulan münasibətlər Azərbaycanın aviasiya tarixində beynəlxalq əlaqələrin ilkin forması kimi xüsusi yer tutur.

Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyəti dövründə aviasiya texnikasının alınması ilə bağlı İtaliyanın Zaqafqaziyadakı hərbi missiyası ilə əlaqə saxlayırdı. Hərbi aviasiyamızı gücləndirmək məqsədi ilə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən İtaliyadan 12 ədəd hidroplanının və 6 ədəd aeroplanın alınması qərarlaşdırılmışdır.

Məlum olduğu kimi Osmanlı I Dünya müharibəsində məğlub olmuş və 30 oktyabr 1918-ci il Mudros barışığın əsasən türk qoşunları Qafqazdan çıxarılaraq ingilis qüvvələri ilə əvəzlənmişdi.

Bununla əlaqədar Britaniya aeroplanlarının yaxın gələcəkdə Qafqaz sahələrində eniş etmək imkanlarının müəyyənləşdirilməsi məqsədilə Britaniya Aviasiya zabitlərinin qeyd olunan ərazilərə baxış keçirməsi üçün Gəncə quberniyasının qəza rəhbərliyinin və Polis rəhbərliyinin onlara bu səlahiyyətlərin icrasında yardım etməsi təklif edilirdi.

Qafqazın aero sahələrində benzin üçün saxlanc yerlərinin təşkil edilməsi lazım olduğu təqdirdə bu saxlancların Britaniya piketləri tərəfindən mühafizəsinə yerli orqanlar yardım etməli idi [14,s. 54].

Azərbaycan Xalq Cümhuriyyəti üçün bütün sahələrdə olduğu kimi aviasiya sahəsində də dövlətçiliyimizə xidmət edəcək savadlı mütəxəssislərin yetişdirilməsi xüsusi önəm daşıyırdı.

Ciddi kadr çatışmazlığının hiss olunduğu dövrdə dövlətin qarşısına qoyduğu mühüm məsələlərdən biri də hərbi aviasiya məktəbinin yaradılması idi.

Hərbi nazirlik artıq 1920-ci ildə hərbi təyyarəçilik məktəbini açmağı qərara almışdır. 1919-cı il noyabrın 21-də hərbi nazir Səməd Ağa Mehmandarovun Xarici işlər nazirinə ünvanladığı məktubunda hərbi təyyarəçilik məktəbinin formalaşdırılması üçün İtaliya və İngiltərədən göndərilməsi daha məqsədə uyğun hesab edilən təlimatçılara ehtiyac duyulduğu qeyd edilirdi. Ordunun hərbi imkanlarının gücləndirilməsi baxımından vacib olan bu məsələsinin diplomatik yol ilə həll etmək imkanlarının müəyyənləşdirilməsini xahiş edirdi.

1919-cu il 1sentyabr tarixində Azərbaycan Parlamentinin çıxardığı qərarı ilə 100 nəfər gəncin yüksək səviyyədə təhsil alması üçün dövlət tərəfindən təqaüdün ayrılması və onların xaricə göndərilməsi nəzərdə tutularkən aviasiya sahəsinə də yer ayrılmışdır [24, s.63].

15 Sentyabr 1919-cu il tarixində Bakı Müsəlman Tələbələri Komissiyasının Yerlərin ixtisaslar üzrə bölgüsünə əsasən aviasiya sahəsinə də yer verilmişdir. Materiallardan bəlli olur ki, Əmircanov Əliyar bəy Hacı bəy oğlu-

nun da aviasiya mühəndisi təhsili alması üçün xaricə göndərilməsi planlaşdırılmışdır[24, s. 64].

Lakin Qızıl Ordunun istilası ilə ADR-in aviasiya ilə bağlı planları yarımçıq qaldı. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra isə aviasiyanın inkişafında 1920-ci ildə Qızıl Ordunun tərkibində Azərbaycana gəlmiş 18-ci və 33-cü hərbi aviadəstələrin rolu xüsusi qeyd edilməlidir. Azərbaycanda ilk aviadəstə məhz həmin xüsusi təyinatlı hərbi aviasiya bölməsinin tərkib hissəsindən və Dəniz Aviasiya Zabitlər məktəbinin təyyarəçilərindən yaradıldı [12, s. 35].

Azərbaycanda həmin avidəstənin komandiri A.Romanov tərəfindən 2 avqust 1921-ci ildə "Nyupor-21" tipli təyyarə ilə ilk poçt –sərnişin uçuşu həyata keçirildi [7, s. 23].

Buna qədər aviasiyada həyata keçirilən bütün tədbirlərin hərbi aviasiyaya xidmət etdiyi nəzərə alınsa, əslində bu uşuşla ölkədə mülki aviasiyanın əsası qoyuldu

Digər tərəfdən 1920-ci illərdə SSRİ-də mülki aviasiyanı inkişaf etdirmək istiqamətində görülən bütün işlər Azərbaycan SSR-yə də yansıyırdı.

9 fevral 1923-cü ildə Mülki hava donanması təşkil olundu və 23 mart 1923-cü ildə Cənubi Qafqazda Zaqafqaziya Federasiyasının Xalq Komissarlığının sərəncamı ilə "Zakavia" Səhmdar Cəmiyyəti yaradıldı [8, s.9].

Əsas kapitalı bir milyon rubl təşkil edən "Zakavia" Səhmdar Cəmiyyyəti Baş Hava Donanmasının icazəsi ilə alman istehsalı 3 ədəd "Yunkers" təyyarəsi almış və Tiflis, Batumi, Kutaisi, Bakı və Gəncədə aerodromlar tikilmişdir [13, s.31].

Artıq 1923-cü il 8 avqust tarixində Azərbaycan mülki aviasiyası tarixində ilk dəfə olaraq "Yunkers-F-13" təyyarəsi ilə Bakı-Tiflis-Bakı hava xətti üzrə sərnişin daşınması həyata keçirildi [10, s. 1]. Bu Azərbaycan mülki aviasiyası tarixində ilk rəsmi sərnişin daşıma reysi idi.

1923-cü ilin oktyabr ayında Əmək və Müdafiə Şurasının mülki aviasiyasının 1924-1926-cı illər üçün inkişaf proqramı çərçivəsində 1925-ci ilin baharında Tiflis-Bakı, Bakı-Pyatiqorsk hava xətti üzrə daimi uçuşlar yerinə yetirilməyə başladı [8, s. 10-11].

Lakin bu uçuşlar SSRİ sərhədləri daxilində həyata keçirildiyindən onlar məhz ölkədaxili sərnişin avia daşıması kimi dəyərləndirilir.

1925-ci ildə "Zakavia" və "Ukrovozduxput" Səhmdar Cəmiyyətlərinin birləşməsindən sonra Bakı aviaqovşağı "Ukrovozduxput"un tabeliyinə keçdi və bundan sonra 1926-cı ildə Bakı-Yevlax-Tiflis marşrutu üzrə daimi reys həyat keçirilməyə başlandı. 1927-ci ildə isə ilk dəfə olaraq Xarkov-Bakı-Tehran beynəlxalq hava xətti açıldı [8, s. 13].

Bu avia reys Azərbaycan mülki aviasiyası tarixinə ilk beynəlxalq aviareys kimi daxil olmuşdur. Bu eyni zamanda SSRİ məkanında ikinci beynəlxalq aviareys kimi əlamətdar idi.

Artıq 20-ci illərin sonunda Azərbaycanda təyyarələr xalq təsərrüfatının müxtəlif sahələrində, əhalinin sağlamlığının qorunmasında, əkinlərin qatı düşməni olan çəyirtkələrin məhv edilməsində, yoluxucu qızdırma xəstəliyini yayan ağcaqanadların kökünün kəsilməsində və s. çox geniş istifadə edilirdi. Mülki aviasiyanın ayrılmaz tərkib hissələri olan poçt, aviakimyəvi, sanitar aviasiyası sərnişindaşımaları ilə paralel inkişaf edirdi.

Respublikanın hava yollarında sərnişin axınının durmadan artması, Keşlədəki təyyarə meydanının (1923) əlverişsizliyi ilə bağlı çətinliklər günün tələblərinə cavab verə biləcək yeni təyyarə meydanı tikmək zərurətini ortaya çıxarırdı. 1931-ci ildə Bakıda ilk təyyarə limanının inşasına başlanıldı. 1933-cü il tarixində "Aeroflot"un 10 illik yubileyi günündə Bakı (Binə) Hava Limanı istifadəyə verildi [20, s.460].

1920-30-cu illərdə Respublikada iqtisadiyyatın və sənayenin inkişafı mülki aviasiyanın inkişafına da yol açırdı. Bu illərdə Yevlaxda (1932), Hacıqabul və Şəkidə (1933) aeroportlar tikilib istifadəyə verildi [15, s.70].

Respublikanın surətli inkişafı fonunda onun yeni kadrlarla olan ehtiyacı nəzərə alınaraq 1932 –ci ildə Mülki Aviasiya məktəbinin bazası əsasında Bakı aeroklubu yaradıldı [8, s. 47].

1934-cü ildə Zabrat-1 aerodromu, müxtəlif planer stansiyaları, Dənizkənarı parkdakı paraşüt qülləsi və Azərbaycanda aviasiya sahəsinin inkişafına müsbət təsir göstərən digər tikinti qurğuları Bakı aeroklubunun ixtiyarına verilmişdir [8, s.22].

Xalq təsərrüfatında aviasiyanın geniş tətbiqi bəzi təşkilatı dəyişikliklərə səbəb oldu. Belə ki, SSRİ Xalq Komissarları Şurası 1938-ci il 2 iyun tarixli 709 saylı "Zaqafqaziya Mülki Hava Donanması İdarəsinin yenidən təşkil olunması haqqında" Sərəncamı ilə Bakıda yerləşməklə Mülki Hava Donanmasının ayrıca Azərbaycan aviadəstəsi yaradıldı. Bu Sərəncamla Bakı Hava Limanı müstəqil təsərrüfat vahidinə çevrildi.

Bütün bunlar Azərbaycan aviasiyasını sonrakı inkişafında əhəmiyyətli rol oynadı, aviatorların əmək fəallığının artmasına zəmin yaratdı, uçuşların daimiliyi, təhlükəsizliyi və qənaətliliyini artırdı. Eyni zamanda aviasiya xətlərinin şəbəkəsi də genişləndi. Yeni xətlər: Bakı-Moskva, Bakı-Xarkov, Bakı-Rostov, Bakı-Qroznı yarandı [8, s.23].

Milli aviasiya tariximizin növbəti mərhələsi Böyük Vətən müharibəsi dövrünə (1941-1945) təsadüf edir. SSRİ-nin Alman faşizmi üzərində qələbəsinə Azərbaycan xalqı böyük töhfələr vermiş, müharibədə 600 min azərbaycanlı iştirak etmişdir. Bu illərdə xüsusilə milli aviasiyamız var qüvvəsi ilə aparılan mübarizəyə köklənmişdir.

Böyük Vətən müharibəsi dövründə (1941-1945) Bakının Keşlə qəsəbəsidə kodlaşdırılmış adı "168" və "458" olan iki aviazavod fəaliyyət göstərirdi. Fasiləsiz işləyən bu müəssisələrdə "UTİ-4" və "Yak -3" tipli qırıcı təyyarələr, habelə hidrotəyyarələr üçün xizəklər istehsal edilirdi.

Gəncə aviatəmir zavodunda müharibə illərində ümumi sayı 782 ədəd olan müxtəlif tipli təyyarələr, habelə 1550–dən çox təyyarə mühərriki və aviahissələr vaxtında təmir edilərək, cəbhəyə göndərilmişdir.

Müharibə dövründə mülki aviatorların qarşısına Quru Qoşunları, Hərbi-Hava Qüvvələri Aviasiyası və partizanlar üçün hərbi sursat, yanacaq materiallarının hava yolu ilə daşınması, yaralıların cəbhədən köçürülməsi, hərbi hospitalların dərman və konservləşdirilmiş qanla təchizatı, hava kəşfiyyatı, gecə bombardmanı və s. kimi mühim vəzifələr qoyulmuşdur.

Böyük Vətən müharibəsi illərində Azərbaycan Mülki Hava Donanmasının təyyarəçiləri 79 min saat havada uçuş keçirmiş, 500 min km məsafə qət etmiş, 5 min ton yük və 49 min nəfər sərnişin daşımışlar. Azərbaycan Mülki Hava Donanmasının təyyarəçiləri Vətən qarşısındakı xidməti qiymətləndirilmiş, 152 nəfəri orden orden və medallarla təltif edilmiş, 210 nəfərə isə "Qafqazın müdafiəsinə görə" medalı verilmişdir [23, s.2]. Lakin digər sahələrdə olduğu kimi mülki aviasiyanın da müharibəyə cəlb edilməsi bu sektorun inkişafına öz mənfi təsirini göstərmiş oldu. Bu özünü ən çox mülki hava infrastrukturlarının artırılmamasında, uçuş coğrafiyasının genişləndirilməməsində və kadrların hərbi hava qüvvələrinə yönəldilməsində biruzə verirdi.

Müharibədən sonrakı illər isə ölkənin hava donanmasında kəmiyyət və keyfiyyətcə böyük dəyişikliklər dövrü oldu. 1959-cu il respublika aviasiyası tarixində bir növ yeni mərhələ oldu. Bakı səmasında turbinli-pərli İL-18 təyyarələri göründü. 1950-60-cı illərdə yerli hava xətlərinin sayı surətlə artırdı. Qaxda, Ağcabədidə, Naftalanda, Mingəçevirdə, Balakəndə, Ağdamda yeni aerodromlar tikildi. Gəncə aerovoğzalının inşası başa çatdı. İL-14 və AN-24 təyyarələrini qəbul etmək üçün uçuş-enmə zolaqları hazırlandı [11, s.180-182].

1950-ci ildə yaradılmış Zabrat aviamüəssisəsi kənd təsərrüfatı aviasiyasının əsas bazasına çevrilmişdir. Aviamüəssisə uçuşları "PO-2", "An-2" tipli təyyarələrdə və "Mi-1", "Mi-4", "Mi-2", "Mi-8" tipli vertolyotlarda həyata keçirirdi. 1960-cı ildə ilk dəfə olaraq Zabrat-Neft Daşları üzrə dəniz vertolyot xətti Xəzər neftçilərinə xidmət üçün açılmışdır [7, s. 132-133].

Beləliklə, 1910-cu ildə əsası qoyulan Azərbaycan aviasiyası tədricən yüksələn xətlə inkişaf etməyə başlamışdır. Ziddiyyətli tarixi proseslərin fonunda ilk aviadəstənin yaradılması, ilk aerodrom və hava limanlarının tikilməsi, hava xətlərinin açılması və peşəkar kadrların yetişdirilməsi dövrün əlamətdar hadisələrindən idi.

Lakin 1960-cı illərin sonuna doğru Azərbaycan Mülki Aviasiya İdarəsinin fəaliyyətində xeyli qüsurlar mövcud idi. Bir sıra aeroportların müasir

radio və işıq texnikası ilə təchizatı, uçuş-enmə zolaqlarının uzunluğu, aviasiya texnikasının texniki xidmət bazasının ərazi sahəsi lazımi səviyyədə deyildi, yerüstü aerodrom vasitələri müasir tələblərə cavab vermirdi. Vaxtında uçuşların təhlükəsizliyinin, təyyarə və yerüstü vasitələrin təşkilinə yönəlmiş effektiv tədbirlərin icra edilməməsi iri sərnişin tutumlu təyyarələrin təhlükəsiz uçuşlarına mənfi təsir edirdi. Xidməti personalın yalnışı səbəbindən təyyarə reyslərinin təxirə salınması və gecikməsi müşahidə olunurdu. Bakı hava limanının xidmət səviyyəsi artan sərnişin axının tələblərinə cavab vermirdi. Sərnişinlərin qeydiyyatın gözlənilməsi və təyyarə enişi zamanı vaxt itkisi hallarına rast gəlinirdi. Bütün bu halların aradan qaldırılması və milli mülki aviasiyamızın dövrün tələblərinə uyğun formatda modernizasiyası məhz Ulu Öndər Heydər Əliyevin Azərbaycan SSR-yə rəhbərliyə gəlişi ilə mümkün olmuşdur.

## Ədəbiyyat:

1.Александров, А. О. Офицерская школа морской авиации/ А. О. Александров, М. А Хайрулин. –Москва: СПб –М «Охотник» , -2010. 572 с 130 с
2.Азербайджанская Демократическая Республика (1918-1920) :армия:документы и материалы/- Баку: ИЗД «Азербайджан» , -1998 439 с **5с**
3.Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi nazir S. Mehmandarovun 370№li Əmri (19 avqust 1919-cu il) //ARDA, Fond 2894, s1, iş7, vərəq- 59
4.Azərbaycan Cümhuriyyətinin Hərbi İdarəsinin 49 №li əmri(22 yanvar 1920-ci il)//ARDA, Fond 2894, s 1, iş 7,v 59-60
5.Azərbaycan Cümhuriyyətinin baş qərargahının 49 №li Əmri ( 7 avqust 1919-cu il ) // ARDA Fond 1, s 1, iş 7, v 44
6.Azərbaycan Xalq Cümhuriyyətinin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi M.Sulkeviçin Gürcüstan hökümətinə ünvanladığı teleqram ( 29 yanvar 1920-ci il) // ARDA Fond 2898 siyahı 1/ iş 6/ vərəq 48
7.Azərbaycan mülki aviasiya tarixi (1910-1980) (dərs vəsaiti) /tərt. ed. F.Hüseynova- Bakı: MAA, - 2012.- 152 s
8. Алиев, Н. В небе Азербайджана/ Н.Алиев.- Баку:– Азернешр, - 1983.- 83с 9с
9.Bakıda aviasiya həftələrinin keçirilməsi haqqında sənəd ( 21-22 oktyabr 1910-cu il) // ARDA Fond 46, s 6, iş 649, vərəq-1
10.Баку-Тифлис и обратно // Бакинский рабочий -1923, 8 avqust
11.Əliyev, N. Azərbaycan şahinləri / N.Əliyev.-Bakı: "Kommunist" nəşriyyatı, -1979.- 206 s
12.Крассовский, С.А. Жизнь в авиации/ С.А.Крассовский.- Минск :Беларусь, -1976.-320 с

13.Kərimova, E. Azərbaycan aviasiyasının yaranması və inkişaf tarixi /E. Kərimova-Bakı:Hərbi nəşriyyatı, -2013 280s
14.Qafqazın aero sahələrində benzin üçün saxlanc yerlərinin təşkil edilməsi haqqında sənəd ( 10 fevral 1919-cu il) // ARDA Fond 19 , s 1, iş 581, v 84/s 54
15.Гражданская авиация СССР 1917-1967. Москва: Транспорт, - 1967. - 320 s
16.Гусейнзаде Бахруз. Бакинское Отделение Школы Морской Авиации / Бахруз Гусейнзаде –Баку:- 2010 . -99c
17. Григорьев.А «Альбатросы»/А.- Москва:- машиностроение, -1989. -270 c
18.Мамед Мамедов. Первые азербайджанские летчики участники войны // Elmi məqalələr toplusu «Azərbaycan Birinci Dünya müharibəsi dövründə», - Bakı- AMEA: 2014.-208 s
19. Назарли, Ш. Первый военный летчик Азербайджана Фаррух Ага Гаибов/ Ш. Назарли.-Баку: CBS -2007. – 40 с
20.Ордена Ленина Гражданская авиация. 1917-1967. –Москва: Реакционно –издательский отдел аэрофлота, -1967.- 559 с
21.Предсидатель Воздухоплавительнаго Отдела Бакинскаго Отделения императорскаго Русскаго Техническаго Общества// Баку -1910, 27 октябрь,-
22.Полеть А.А.Васильева//Баку-1910, 7 ноябрь стр-1
23.Podpolkovnik Beryozkin. Azərbaycan hava donanması//Kommunist. -1945, 19 avqust.
24.Tahirzadə, Ə. Azərbaycan Cümhuriyyəti Tələbələri/Ə. Tahirzadə, O.Tahirli-Bakı: TEAS PRESS1, - 2016. - 1220 s

# İLHAM ƏLİYEV - QÜDRƏTLİ LİDER, BÖYÜK STRATEQ, QALİB SƏRKƏRDƏ

**İradə Hüseynova**
Bakı Dövlət Universiteti
prof.irada.huseynova@gmail.com

***Açar sözlər:*** *Ümummilli lider, müdrik siyasət, İlham Əliyev, Xankəndi şəhəri, Azərbaycan bayrağı*

*XX əsrin axırlarında yenidən müstəqillik qazanan Azərbaycan Respublikasının mövcudluğunda və bu gün dünyanın sürətlə inkişaf edən dövlətlərindən birinə çevrilməsində Heydər Əliyevin tarixi və misilsiz fəaliyyətindən bəhs olunur. Qeyd edilir ki, ümummilli liderimizin alternativi olmayan düşünülmüş daxili və xarici siyasəti bu gün onun siyasi varisi, Heydər Əliyev siyasi məktəbinin layiqli yetirməsi və davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin əsaslarının möhkəmlənməsinin və həyata keçirilən strategiyanın səmərəliliyinin məhz İlham Əliyevin varislik keyfiyyətləri, müdrikliyi, siyasi iradəsi və uzaqgörənliyi, ümumilikdə, rasional davranış modeli sayəsində mümkün olduğu vurğulanır.*

*Məqalədə son 20 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə müxtəlif sahələrdə əldə edilən uğurlar təhlil edilir, Prezidentin Ali Baş Komandan kimi ərazilərimizin işğaldan azad edilməsi üzrə qətiyyətli fəaliyyəti elmi cəhətdən əsaslandırılır. Həmçinin, müəllif tərəfindən Azərbaycanın sürətli inkişafının yeni-yeni istiqamətləri əhatə etdiyi və ölkənin regionda lider dövlət olduğu bir daha təsdiqlənir, respublikada sürətli inkişaf barədə faktoloji materiallara əsaslanmaqla ətraflı məlumat verilir.*

## ИЛЬХАМ АЛИЕВ - МОГУЩЕСТВЕННЫЙ ЛИДЕР, ВЕЛИКИЙ СТРАТЕГ, ПОБЕДОНОСНЫЙ ПОЛКОВОДЕЦ

**Ирада Гусейнова**

***Ключевые слова:*** *Общенациональный лидер, мудрая политика, Ильхам Алиев, город Ханкенди, флаг Азербайджана*

*В статье рассказывается об истории и беспрецедентной деятельности Гейдара Алиева в становлении Азербайджанской Республики, вновь обретшей независимость в конце XX века и сегодня являющейся одним из быстрорастущих государств мира. Отмечается,*

*что продуманная внутренняя и внешняя политика нашего общенационального лидера, не имеющая альтернативы, сегодня успешно продолжается его преемником политической школы Гейдара Алиева Президентом Азербайджанской Республики Ильхамом Алиевым. Подчеркивается, что возможность укрепления основ нашего государства и эффективности реализуемой стратегии обусловлена именно мудростью, политической волей и дальновидностью Ильхама Алиева, а в целом-его рациональной моделью поведения.*

*В статье анализируются успехи, достигнутые в различных сферах под руководством Президента Ильхама Алиева за последние 20 лет, научно обоснована решительная деятельность президента как верховного главнокомандующего по освобождению наших территорий от оккупации. Также автором еще раз подтверждается, что стремительное развитие Азербайджана охватывает все новые и новые направления и страна является ведущим государством в регионе, и на основе фактологических материалов дается подробная информация о быстром развитии Республики.*

## ILHAM ALIYEV-A MIGHTY LEADER, A GREAT STRATEGIST, A VICTORIOUS COMMANDER

**Irada Huseynova**

***Key words:*** *National leader, wise policy, Ilham Aliyev, Khankendi city, Azerbaijan flag*

*The article talks about the history and unprecedented activity of Heydar Aliyev in the establishment of the Republic of Azerbaijan, which regained its independence at the end of the 20th century and today is one of the fastest growing states in the world. It is noted that the well-considered internal and foreign policy of our national leader, having no alternative, is successfully continued today by his successor of Heydar Aliyev's political school, President of the Republic of Azerbaijan Ilham Aliyev. It is emphasized that the possibility of strengthening the foundations of our state and the effectiveness of the implemented strategy is conditioned by Ilham Aliyev's wisdom, political will and foresight, and in general by his rational model of behavior.*

*The article analyzes the successes achieved in various spheres under the leadership of President Ilham Aliyev over the past 20 years, scientifically substantiates the decisive activity of the President as Commander-in-Chief in liberating our territories from occupation. The author also reiterates that Azerbaijan's rapid development covers new and new directions and the country*

*is the leading state in the region, and provides detailed information on the rapid development of the Republic on the basis of factual materials.*

***Biz bu günə qədər qarşımızda duran bütün vəzifələrə uğurla çatmışıq. Bəyan etdiyim bütün hədəflərə çatmışıq. Ərazi bütövlüyümüzün bərpası, torpaqlarımızın qaytarılması mənim Prezident kimi başlıca vəzifəm idi. Mən şadam ki, bu vəzifənin öhdəsindən də şərəflə gəlirəm və Azərbaycan xalqının dəstəyi, zəhməti və cəsarəti hesabına biz torpaqlarımızı qaytarırıq. Azərbaycan xalqının fədakarlığı bir daha onu göstərir ki, biz böyük xalqıq, biz birlik nümayiş etdirmişik və bu birlik bizi daha da gücləndirəcək, ölkəmizi daha da qüdrətli ölkəyə çevirəcəkdir.***

***İlham Əliyev***

Azərbaycan dünyanın böyük dövlətlərinin siyasi-iqtisadi maraqlarının kəsişdiyi coğrafiyada - Avropa ilə Asiyanın qovuşuğunda yerləşərək, əlverişli geosiyasi-geostrateji mövqeyə, zəngin təbii ehtiyatlara və böyük sənaye potensialına malikdir. Ölkəmizin rəhbərliyi Azərbaycan xalqının qəti əzminə və inamına arxalanaraq, müstəqilliyimizin möhkəmləndirilməsinə, demokratik islahatların həyata keçirilməsinə istiqamətləndirilmiş müdrik siyasət aparır. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş Müstəqil Azərbaycan dövlətinin müasir dövrdə hərtərəfli inkişafını həyata keçirən, onun zəngin siyasi irsinin layiqli davamçısı, xalqını sevən, onun rifahı yolunda əlindən gələni əsirgəməyən, dövlətçiliyimizin, ərazi bütövlüyümüzün keşiyində hər zaman möhkəm duran, ölkəmizi etibarlı tərəfdaş kimi dünya müstəvisində yüksək səviyyədə təsdiq edən görkəmli şəxsiyyət, Azərbaycan Respublikasının Prezidenti, qəhrəman liderimiz İlham Əliyevdir.

Müdrik siyasi və dövlət xadimi, ümummilli lider Heydər Əliyev 2003-cü ildə keçirilən prezident seçkilərindən öncə xalqa müraciətində demişdi: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" [7]. Məhz həmin dövrdən etibarən əldə edilən böyük uğurlar ulu öndər Heydər Əliyevin bu fikrlərinin gerçəkliyə, real həyata əsaslandığını tam sürətdə təsdiqlədi.

2003-cü il oktyabr ayının 15-də xalqımızın, seçicilərin mütləq əksəriyyətinin dəstəyini qazanaraq Azərbaycan Respublikasının Prezidenti

seçilən İlham Əliyev ulu öndər Heydər Əliyevin müdrik daxili və xarici siyasətini uğurla davam etdirməyə başladı. "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyərək, müqəddəs Qurana və Azərbaycan Respublikasının Konstitusiyasına and içən dövlət başçımız verdiyi bütün vədlərin yerinə yetirilməsi üçün gecə-gündüz çalışdı və buna tamamilə nail oldu. 20 il ərzində prezident olduğu dövrə nəzər salsaq görərik ki, İlham Əliyev əsrlərə sığmayan fəaliyyəti ilə bütün amalı insanlara xidmət etmək, xalqa arxalanmaq, onunla bir olmaq, mənafeyini qorumaq, dövlət maraqlarını təmin etmək kimi şərəfli tarixi missiyanı həyata keçirməyə müvəffəq olmuşdu.

İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün bərpa olunacağını, işğalçı ermənilərin qədim və müqəddəs torpaqlarımızdan çıxarılacağını, məcburi köçkünlərin öz dədə-baba yurdlarına geri dönəcəklərini qəti əminliklə bəyan etmişdi; cənab Prezident, müzəffər Ali Baş Komandan bu vədinə də xilaf çıxmadı, bu sözünü də yerinə yetirdi – Azərbaycan Respublikası Ermənistanın hərbi birləşmələri tərəfindən zəbt olunmuş ərazilərini azad etdi [8, s. 54].

Azərbaycan xalqı, ölkə vətəndaşları, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız hamılıqla doğma torpaqlarımızın işğaldan azad olunacağına və düşmən tapdağı altında qalan əzəli torpaqlarımızın mütləq azad ediləcəyinə hər zaman əmin idi. Bu əminliyi, bu inamı yaradan, mərdliklə, peşəkarlıqla, böyük məharətlə ərazi bütövlüyümüzü təmin edən möhtərəm prezidentimiz, müdrik sərkərdəmiz, igid Ali Baş Komandan İlham Əliyevdir!

Məlum olduğu kimi, 2016-cı ilin Aprel döyüşləri "Böyük Qayıdış"ın başlanğıcı oldu. Cəmi 2 il sonra – 2018-ci ildə Naxçıvan Muxtar Respublikasında yüksək peşəkarlıq və böyük məharətlə həyata keçirilmiş "Günnüt" əməliyyatı nəticəsində də bir sıra ərazilərimiz, strateji məntəqələr düşməndən təmizləndi. İkinci Qarabağ Müharibəsi isə Azərbaycanın tarixi qələbəsi, Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Zəfərlə başa çatan 44 günlük müharibə Azərbaycan rəhbərliyinin həm hərbi, həm də diplomatik sahədə mühüm əhəmiyyət kəsb edən qələbə qazandığını sübut etdi. Artıq şanlı tariximizə qızıl hərflərlə yazılmış İkinci Qarabağ Müharibəsinin hər bir günü şəhər və kəndlərimizin, strateji yüksəkliklərin işğaldan azad edilməsi xəbərini alırdıq. 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli bəyanat nəticəsində Azərbaycanın Laçın, Kəlbəcər və Ağdam rayonları bir güllə atılmadan belə, Azərbaycana təhvil verildi. Və beləliklə də, Azərbaycanın bu qədim, əzəli, füsunkar, müqəddəs torpaqlarında yeni dövr başladı, yeni inkişaf mərhələsinə qədəm qoyuldu.

Ulu öndər Heydər Əliyev 2003-cü oktyabrın 1-də Azərbaycan vətəndaşlarına ünvanladığı yuxarıda xatırlatdığım müraciətində deyirdi ki, İlham Əliyev Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. Biz hamımız müdrik siyasətçinin proqnozlarının gerçəkləşməsinin şahidi olduq. Dövlətimizin rəhbəri, rəşadətli ordumuzun Ali

Baş Komandanı İlham Əliyev əbədi rəhbərimizin bütün ideyalarını gerçəkləşdirir, onun daxili və xarici siyasətini uğurla davam etdirir. O, ulu öndərin ata vəsiyyətini də yerinə yetirdi və Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşanın alınması münasibətilə xalqımızı təbrik edərkən bu məsələyə də toxunmuşdur: "...Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün!" [9].

Lakin mənfur düşmənin Qarabağı tərk etməmiş bəzi silahlı birləşmələri, həmçinin, bölgədə sülh və əmin-amanlığın bərqərar olmasında maraqlı olmayan revanşist qüvvələr regionun bir sıra yerlərində terror aktları törədir, minadan təmizlənmiş sahələrdə yeni minalar basdırır, dinc insanların həlak olmasına və xəsarət almasına gətirib çıxarırdılar. Regionda antiterror əməliyyatlarının aparılması qaçılmaz idi. Bunun nəticəsi olaraq, 2023-cü il sentyabrın 19-da aparılan və cəmi bir gün çəkən lokal xarakterli antiterror tədbirlərindən sonra Dövlət Bayrağımız Sərsəng su anbarı ərazisində, Xankəndi, Ağdərə, Xocalı və Xocavənd şəhərlərində, Xocalı rayonunun Əsgəran qəsəbəsində də ucaldıldı. Beləliklə, möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin düşünülmüş və müdrik siyasəti, qətiyyətli rəhbərliyi və əzmkarlığı nəticəsində bütün işğal olunmuş regionlarımız düşməndən tamamilə azad edildi, Azərbaycan dövlətinin suverenliyi bütün ölkə ərazisində bərqərar oldu.

Böyük fərəh hissi ilə qeyd etmək istərdik ki, Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində, habelə daha bir neçə şəhərimizdə üçrəngli müqəddəs bayrağımızı yenidən ucaltdı. Gerçəkdən də bu, Azərbaycan xalqının tarixində möhtəşəm, qürurverici bir gündür.

Dövlətimizin rəhbəri məhz 20 il əvvəl –2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilmişdi. Düz 20 il sonra isə möhtərəm prezidentimiz, müzəffər Ali Baş Komandan üçrəngli bayrağımızı məhz Xankədidə ucaltdı. Şəhərin mərkəzi meydanında Azərbaycanın Dövlət Bayrağının qaldırılması münasibətilə xalqımızı ürəkdən təbrik edən əziz prezidentimiz demişdir: "Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi" [10]. Birmənalı olaraq böyük qürur hissi və fəxarətlə qeyd edə bilərik ki, bütün bu və digər nailiyyətlərimizin memarı və müəllifi müzəffər Ali Baş Komandan, 55 milyonluq dünya azərbaycanlılarının

lideri, ulu öndər Heydər Əliyevin müdrik siyasətinin ən layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir!

Ümummilli lider Heydər Əliyev çoxşaxəli fəaliyyəti ilə çoxdan sübuta yetirmişdir ki, güclü iqtisadiyyata, müstəqil xarici siyasətə, demokratik imicə, mənəvi-intellektual yüksəlişə malik olmayan xalq güclü dövlət qura bilməz. Ulu öndər bütün mənalı həyatı və şərəfli dövlətçilik fəaliyyəti müddətində yalnız Azərbaycanı düşünmüş, onun müasirləşməsinə, qüdrətlənməsinə, çiçəklənməsinə çalışmışdır. Dahi rəhbərimiz Azərbaycanı daim inkişaf edən, müasir görmək istədiyindən xalqın gələcək taleyinə biganə qalmamış, müasirləşmə xəttini özündən sonra layiqincə davam etdirəcək müasir düşüncəli, yüksək idarəetmə və təşkilatçılıq qabiliyyətinə malik müasir ruhlu lider yetişdirmişdir. Əgər Heydər Əliyevin müasirləşmə siyasəti ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanı keçmiş SSRİ-nin qabaqcıl ölkəsinə çevirmişdisə, eyni zamanda 90-cı illərdə xoas və tərəqqidən inkişafa doğru mükəmməl strategiyanı təmin etdişdisə, onun layiqli davamçısı cənab İlham Əliyevin ötən 20 il ərzində yürütdüyü modernləşmə kursu respublikamızın milli inkişaf modelinin formalaşmasını şərtləndirmişdir [11, s.70-81;12, s. 29-45].

Birmənalı olaraq qeyd edə bilərik ki, tariximizin ən yeni mərhələsində 2003-cü ildən sonrakı dövr İlham Əliyev dövrünün parlaq fəaliyyəti və uğurlu illəri kimi yadda qalacaqdır. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi bu 20 illik müddət Azərbaycanın şanlı tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olmuşdur. Məlum olduğu kimi, ictimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin fundamentini ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti təşkil edir. Hazırlanan dövlət proqramları, onların dəqiq icra mexanizmi bütün xalq tərəfindən dəstəkləndiyindən ölkəmizin sürətli inkişafı üçün əlverişli şərait yaranmışdır. Dövlətimizin əsaslarının möhkəmlənməsi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz İlham Əliyevin varislik keyfiyyətləri, müdrikliyi, siyasi iradəsi və uzaqgörənliyi, ümumilikdə, rasional davranış modeli sayəsində mümkün olmuşdur. Prezident İlham Əliyev şəxsiyyəti müasir cəmiyyətdə liderlik fenomeninin ən önəmli cəhətlərini, ən səciyyəvi xüsusiyyətlərini özündə birləşdirir.

Ümummilli liderimizin alternativi olmayan düşünülmüş daxili və xarici siyasəti bu gün onun siyasi varisi, Heydər Əliyev siyasi məktəbinin layiqli yetirməsi və davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezidentimiz dəfələrlə bəyan etmişdir ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ölkədə yalnız Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Çünki bu, Azərbaycanın bu günü, sabahı, gələcəyi üçün yeganə siyasətdir. Bu siyasətin gerçəkdən də heç

bir alternativi yoxdur. Bu siyasət Azərbaycanı böyük bəlalardan xilas etmişdir. Ölkəmiz xaosdan, böhrandan, anarxiyadan inkişafa, sabitliyə doğru böyük addımlar atmışdır. Hörmətli Prezidentimiz demişdir: "Bizim qarşımızda nadir imkanlar var. Sabah, ondan sonrakı illərdə Azərbaycan necə olacaq - bu, bizdən asılıdır. Elə etməliyik ki, güclü dövlət yaradaq, müstəqilliyimizi daha da möhkəmləndirək. Azərbaycanın potensialını tam şəkildə insanların həyat səviyyəsinin yaxşılaşmasma yönəldək və beləliklə, ölkəmizdə vətəndaş cəmiyyəti yaradaq. Azad cəmiyyət, hüquqi dövlət, qanunun aliliyi, güclü iqtisadiyyat, güclü ordu, çevik xarici siyasət və Azərbaycanın maraqlarının tam şəkildə qorunması və möhkəmlənməsi - bu, bizim qarşımızda duran əsas qlobal istiqamətlərdir" [3, s. 62].

İlham Əliyevin müdrik rəhbərliyi ilə 2003-cü ildən etibarən həyatımızın müxtəlif sahələrində əsaslı uğurlara nail olmuşuq. Bu uğurlar sayca və keyfiyyətcə o qədər çoxdur ki, burada yalnız kiçik bir qismini sadalaya bilərik. Elə 44 günlük müharibədən sonra işğaldan azad edilmiş ərazilərimizdə görülən möhtəşəm, inanılmaz işlərə qısaca diqqət yetirsək, kifayət edər. Post-münaqişə dövründə Azərbaycan makroiqtisadi sabitliyi qoruyub saxlamış, iqtisadi artım bərpa olmuşdur. 2021-ci ilin elə ilk ayından başlayaraq işğaldan azad edilmiş ərazilərimizdə başlanılan sürətli və çoxşaxəli işlər müxtəlif istiqamətləri əhatə etmişdir: minalanmış ərazilərin minalardan təmizlənməsi, Füzulu, Laçın və Zəngilan beynəlxalq hava limanlarının, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi, 30 illik fasilədən sonra Şuşada Xarıbülbül festivalının keçirilməsi, Zəngilan rayonunda "ağıllı kənd" layihəsinə başlanılması və soydaşlarımızın Ağalı kəndinə köçürülməsi və s. və i.a. Artıq Füzuli və Zəngilan beynəlxalq hava limanları fəaliyyətə başlamışdır. Ağdam şəhəri minalardan tam təmizlənmişdir. Ölkə rəhbərliyinin təşəbbüsü və birbaşa iştirakı ilə möhtəşəm işlər, misli görünməmiş fəaliyyətlər davam edir, düşmən tərəfindən tamamilə dağıdılmış şəhər, kənd və qəsəbələrimiz qurub-yaratmaq eşqi ilə yaşayan Azərbaycan insanının əli ilə yenidən abadlaşdırılır, hətta əvvəlkindən də daha gözəl, cənnət simalı olur.

Ulu öndərin siyasətinin uğurla davam etdirilməsi nəticəsində Azərbaycan regional nəqliyyat dəhlizinə çevrilmişdir. Azərbaycanın nəinki azad edilmiş regionlarında, habelə bütün bölgələrində, bütün yaşayış məntəqələrində yenidənqurma işləri, tikinti-abadlıq, quruculıuq işləri aparılmışdır və miqyasına görə bu misilsiz işlər bu gün də intensiv şəkildə davam etdirilir. Bütün bu və digər mühüm fəaliyyətlərin müəllifi və memarı məhz Prezidentimizdir!

"Müdrik Heydər Əliyevin əsəri olan müasir Azərbaycan dövləti bundan sonra da güclənəcək, zənginləşəcək və hərtərəfli inkişaf edəcəkdir". Dövlətimizin başçısı İlham Əliyev hələ 2003-cü ildə keçirilən andiçmə

mərasimində bu sözləri bildirərək bəyan etmişdi ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Çünki bu siyasət Azərbaycanın bu günü, sabahı, gələcəyi üçün yeganə siyasətdir.

Müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin dünyada uğur qazanmasında və gerçəkləşdirilməsində, həmin sahədə müxtəlif layihələrin hazırlanmasında, ölkəyə investisiya axınında mühüm rol oynayan İlham Əliyevin Azərbaycanın dinamik və sabit inkişafı üçün müstəsna əhəmiyyəti olan neft siyasətinin incəliklərinə dərindən bələd olması və neft strategiyasını uğurla davam etdirməsi nəticəsində Azərbaycan regional iqtisadi inkişafın aparıcı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrilmişdir. Ölkə Prezidenti kimi ölkədə iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərbaycanın xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin genişlənməsində, xüsusilə neft-qaz yataqlarınının birgə işlənməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmiryolu xətti haqqında müqavilələrin bağlanması və reallaşdırılmasında, ümumiyyətlə, Azərbaycan Respublikasının dünyaya inteqrasiyasında mühüm xidmətlərini xüsusi vurğulamaq lazımdır. Azərbaycan qazının Avropaya birbaşa nəqlini hədəfləyən "Şahdəniz-2", TANAP və TAP kimi yeni transmilli layihələr dünyanın ən iri və perspektivli enerji layihələrindən sayılmaqdadırlar.

Son 20 il ərzində Azərbaycanda baş verən sürətli sosial-iqtisadi inkişaf, ölkə əhalisinin rifah halının yüksəldilməsi, genişmiqyaslı quruculuq işləri, insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində həyata keçirilmiş tədbirlər uğurla davam etdirilir. Verilən vədlərin əməli işdə təsdiqini tapması ölkənin daha da qüdrətlənməsinə, daha da müasir dövlətə çevrilməsinə geniş imkanlar açır.

Siyasi sabitliyin, iqtisadi tərəqqinin bərqərar olduğu ölkəmizdə bir-birini əvəz edən və ən qüdrətli dövlətləri belə heyrətləndirən nailiyyətlərin qazanılması Azərbaycanda idarəetmə sisteminin planlı surətdə düzgün təşkil olunmasının göstəricisidir. Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər tariximizə möhtəşəm iqtisadi yüksəliş dövrü kimi daxil olmuşdur. Bu dövrdə ümumi daxili məhsul 3,6 dəfə artmışdır. “Ötən 20 il müddətində qeyri-neft sektoru üzrə ÜDM 3,4 dəfə, dövlət büdcəsinin xərcləri 30 dəfə artıb. Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3 min 500 manatdan çoxdur. Xarici ticarət dövriyyəsi 10,8 dəfə, o cümlədən, ixrac 16,1 dəfə artıb. 2003-cü illə müqayisədə 2022-ci ildə adambaşına düşən ÜDM 3 dəfəyə yaxın artaraq, 13 min 256 manat təşkil edib” [13]. Qeyd edilən bu quru rəqəmlərin, statistik göstəricilərin arxasında çox böyük fəaliyyətlər, qətiyyət, əzmkarlıq, xalqın

rifah səviyyəsinin yüksəldilməsi istəyi dayanır. 2003-2022-ci illərdə Azərbaycanda ümumi daxili məhsul 7,3 milyard dollardan 78,7 milyard dollara yüksəlib. 2003-2023-cü illərdə dövlət büdcəsinin xərcləri 1,2 milyard manatdan 36,6 milyard manata çatıb. Strateji valyuta ehtiyatları 2003-cü ildə 1,4 milyard dollardan 2023-cü il oktyabrın 1-nə 66,1 milyard dollara qədər artıb. 2003-2022-ci illərdə ölkə iqtisadiyyatına yatırılan ümumi investisiya həcmi 310,4 milyard dollar təşkil edib. 2003-cü illə müqayisədə 2022-ci ildə yoxsulluq səviyyəsi 44,7 faizdən 5,5 faizə enib, orta aylıq əməkhaqqı 77,4 manatdan 839,4 manata yüksəlib [13].

Ötən 20 il ərzində Prezident İlham Əliyevin diqqət və qayğısı, eyni zamanda, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və dəstəyi ilə ölkə üzrə təhsil, səhiyyə və mədəniyyət ocaqlarının tikintisi və yenidən qurulması sahəsində irimiqyaslı layihələr həyata keçirilmişdir.

“Biz köklü iqtisadi islahatlar aparmaqla bərabər, sosial məsələlərin həllində böyük işlər görmüşük” kimi sözləri ilə son illərdə dövlət büdcəsinin dəfələrlə artırıldığını uğurların əsas mənbəyi kimi diqqətə çatdıran, ölkədə iqtisadi və sosial islahatların paralel aparılmasının vacibliyini qarşıya əsas məqsəd qoyan möhtərəm prezidentimiz bütün sahələrdə yenidənqurma və quruculuq işlərini ölkənin gələcəyi üçün prioritet kimi dəyərləndirir.

Son 20 il ildə paytaxtda və regionlarda 3630 məktəb, 760-dək səhiyyə müəssisəsi tikilmiş və ya əsaslı təmir olunmuşdur.

Əhalinin sosial müdafiəsi, xüsusilə ən həssas kateqoriyadan olan insanların sosial təminat məsələləri, bütövlükdə əhalinin sosial-iqtisadi rifah halının yaxşılaşdırılması ölkəmizin rəhbərinin daim diqqət mərkəzində olmuşdur.

Hər il dövlət büdcəsi tərtib edilərkən büdcənin sosial yönümlü olmasına xüsusi diqqət yetirilmişdir. Bunun nəticəsidir ki, 2003-2023-cü illərdə sosial təyinatlı büdcə xərcləri 20 dəfədən çox artmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi altında keçən dövrdə orta aylıq nominal əməkhaqqı 12 dəfə, minimum əməkhaqqı isə 38 dəfədən çox artmışdır.

Son 20 ildə orta aylıq pensiya 18 dəfəyə yaxın, minimum pensiya məbləği isə 14 dəfə yüksəlmişdir.

Eyni zamanda, yoxsulluğun azaldılmasına, məşğulluq imkanlarının artırılmasına, işsizliyin aradan qaldırılmasına, qaçqın və məcburi köçkün ailələrinin güzəranının yaxşılaşdırılmasına yönəlmiş ardıcıl tədbirlər görülmüşdür. Əgər 20 il əvvəl yoxsulluq şəraitində yaşayan insanların sayı 45 faizə yaxın idisə, Prezident İlham Əliyevin yeritdiyi düşünülmüş və məqsədyönlü siyasət nəticəsində bu rəqəm hazırda cəmi 5,5 faiz təşkil edir [14].

Ümummilli liderimiz Heydər Əliyev strategiyasının ardıcıl şəkildə davam etdirildiyi Azərbaycan Respublikası hazırda sürətlə, davamlı şəkildə bütün

sahələr üzrə inkişaf etməkdədir. Bunun yeganə səbəbi isə Prezident cənab İlham Əliyev tərəfindən ulu öndərin müdrik və alternativi olmayan siyasətinin uğurla davam etdirilməsində, Heydər Əliyev ideyalarına sadiqlikdə və xalqın da bu siyasəti dəstəkləməsindədir. İqtisadi, sosial, mədəni və həyatımızın digər vacib sferalarında, həmçinin, müşahidə olunan tərəqqi, vətəndaş həmrəyliyi, sosial rifah ölkə vətəndaşlarının istək və arzularına uyğun şəkildə təmin olunur. Bu baxımdan, Azərbaycanda bərqərar olmuş ictimai-siyasi sabitlik, tolerant mühit, multikulturalist cəmiyyət bir daha sübut edir ki, ölkəmiz düzgün inkişaf yolundadır.

Dövlətimizin başçısı Azərbaycanın seçdiyi yolun yeganə düzgün yol olduğunu vurğulayaraq demişdir: "Bugünkü Azərbaycan uğurla inkişaf edir. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Heydər Əliyevin əsəridir. Bu, sadəcə olaraq sözlər deyildir. Bu, reallıqdır, bu, həqiqətdir. 1993-2003-cü illərdə siyasi sistemin möhkəmlənməsi, dövlətçilik ənənələrinin yaradılması, azərbaycançılıq məfkurəsinin bərqərar olunması nəticəsində bu gün Azərbaycan uğurla inkişaf edən ölkəyə çevrilibdir. O illərdə həm siyasi islahatlar, dünya birliyinə inteqrasiya siyasətimiz, həm daxildə aparılan iqtisadi və sosial islahatlar uğurlu inkişaf üçün möhkəm zəmin yaratmışdır. Bu gün müasir Azərbaycan bu möhkəm təməl üzərində uğurla inkişaf edir. Azərbaycan bu gün Heydər Əliyev yolu ilə gedir. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və özünü bütün istiqamətlərdə göstərir" [15].

Xalqın öz prezidentinə olan böyük etimadı əsası görkəmli siyasətçi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əlirza oğlu Əliyev tərəfindən qoyulmuş möhtəşəm inkişaf strateji istiqamətinin bütünlüklə dəstəklənməsi deməkdir. Bu kursun qətiyyətlə davam etdirilməsi hazırda çağdaş dünyanın daha çox inkişaf etmiş demokratik sisteminə fəal inteqrasiya edən cəmiyyətimizin həyatının bütün sahələrinin modernləşməsinin təmin olunmasında yetərincə mühüm amildir. Əminik ki, çox hörmətli İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası təlatümlü, bütün bəşəriyyət üçün taleyüklü əhəmiyyət kəsb edən bir dövrdə Qərb və Şərq sivilizasiya sistemlərini birləşdirən etibarlı körpü olaraq, yeni-yeni uğurlar qazanacaq. Çünki Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və qalib gəlir.

Fəxr edirik ki, Ümummilli liderimiz, müasir Azərbaycanın memarı, əbədi rəhbərimiz Heydər Əliyevin alternativi olmayan daxili və xarici siyasətini və ideyalarını möhtərəm Prezident İlham Əliyev 2003-cü ildən etibarən uğurla davam etdirir. Məhz İlham Əliyevin apardığı çoxşaxəli müdrik siyasəti, əldə etdiyi tarixi nailiyyətləri artıq 20 ildir ki, ölkədə dayanıqlı inkişafı, iqtisadi tərəqqini, ictimai-siyasi sabitliyi təmin edir, xalqın rifah halını yüksəldir, ölkə vətəndaşlarının dövlət başçısının ətrafında getdikcə daha sıx birləşməsinə səbəb olur, dünya miqyasında Azərbaycanın beynəlxalq imicini, etibarlı tərəfdaşlığını təsdiq edir.

## Ədəbiyyat:


1. Əliyev Heydər. Müstəqilliymiz əbədidir. Birinci kitab. Bakı: Azərnəşr, 1997, 612 s.
2. Əliyev Heydər. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı,1997, 136 s.
3. Əliyev İlham. İqtibaslar və təhlil. Bakı: Azərbaycan, 2006, 328 s.
4. Əliyev İlham. İnkişaf – məqsədimizdir. Bakı: Azərnəşr, 2009, 416 s.
5. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
6. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı: Təhsil, 2003, 504 s.
7. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm. “İki sahil” qəzeti, 15 oktyabr 2019
8. Hüseynova İ. İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri. Bakı: Füyuzat, 2021, 224 s.
9. Şuşa şəhəri işğaldan azad edildi! https://beu.edu.az/az/article/susa-seheri-isgaldan-azad-edildi-540
10. İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb və çıxış edib / https://president.az/az/articles/view/61587
11. Hüseynova İ. Siyasi kurs: davamlılıq konsepsiyası // Dirçəliş – XXI əsr, 2007, № 110-111, s. 70-81
12. Hüseynova İ. Liderlik missiyası //Strateji təhlil, 2013, sayı 6, s. 29-45
13. 2003-2023-cü illər çoxəsrlik tariximizin qızıl dövrüdür. “Xalq qəzeti”, 15 oktyabr 2023
14. “Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili” mövzusunda konfrans keçirilir / https://nk.gov.az/az/xeberler/matbuat-xidmatinin-malumati/vetene-xalqa-ve-dovletciliye-misilsiz-xidmetin-20-2981
15. Heydər Əliyev: “Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək”. “Azərbaycan” qəzeti, 8 may 2016
16. Hüseynova İ. Tarix.Zaman.Düşüncələr. III cild. Bakı: Elm və təhsil, 2020, 432 s.
17. Гусейнова И. Мультикултурализм и его практическая реализация на Кавказе // Geostrategiya, 2013, № 06 (18), noyabr - dekabr, səh. 21-24
18. Гусейнова И. «Гейдар Алиев от политического руководителя к общенациональному лидеру» Баку, 2005, 504 с.

# ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNİN AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ İNNOVATİV TEXNOLOGİYALARIN TƏTBİQİ TƏCRÜBƏSİNDƏN

**Təranə İsayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
taranaisayevaaz@gmail.com

***Açar sözlər:*** *innovativ texnologiya, təlimin keyfiyyəti, şəxsiyyətin formalaşdırılması*

*Təcrübə göstərdi ki, Ümumtəhsil müəssisələrdə müasir innovativ texnologiyaların tətbiqi təlimin keyfiyyətini yüksəldir, şagirdlərin fəallığını, dərsə marağını artırır, eyni vaxta inkişaf etdirir. Təlimin keyfiyyətini yüksəldilməsinə şərait yaradan innovativ texnologiyalar, metodlar şagirdlərdə ilk növbədə özünə inamı artırır və təfəkkürü inkişaf etdirir. İnnovativ texnologiyanın xarakterik xüsusiyyətilərindən olan şəxsiyyətin formalaşdırılması, müəllimi fasilitator- bələdçiliyə , şagirdi isə tədqiqatçılığa yönəldir.*

# ИЗ ОПЫТА ПРИМЕНЕНИЯ ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ПРЕПОДОВАНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

**Тарана Исаева**

***Ключевые слова:*** *инновационная технология, качество обучения, формирование личности*

*Опыт показал, что применение современных инновационных технологий в образовательных учреждениях повышает качество образования, повышает активность и интерес учащихся к урокам и в то же время развивает их.Инновационная технология, создающие условия для повышения качества обучения, в первую очередь повышают уверенность в себе и развивают мышление учащихся. Формирование характера, являющееся одной из характерных черт активного обучения, ориентирует учителя на фасилитатора-проводника, а ученика на исследователя.*

# FROM THE EXPERIENCE OF USING INNOVATIVE TECHNOLOGIES IN TEACHING THE HISTORY OF AZERBAIJAN IN EDUCATIONAL INSTITUTIONS

**Tarana Isaeva**

***Key words:*** *innovative technology, quality of education, personality formation*

*Experience has shown that the use of innovative technologies in educational institutions improves the quality of education, increases the activity and interest of students in the lessons and at the same time develops them. Interactive methods that create conditions for improving the quality of education, first of all, increase self-confidence and develop the thinking of students. Character building, one of the hallmarks of active learning, orients the teacher to the guide facilitator and the student to the explorer.*

Müstəqil dövlətimizdə aparılan islahatların əsas tələbi yeni bilikləri müstəqil əldə etməklə yanaşı yaradıcılıq qabiliyyətlərinə, əməkdaşlığa, qazanılmış biliklərdən həyatda öz məqsədlərinə çatmaq bacarıqlarına malik olan elmi dünyagörüşünü inkişaf etdirən şəxsiyyət yetişdirməkdir. Nəticəyönümlü və şagirdyönümlü standartların olması fəal təlim prosesində idrak fəallığının artması, əməkdaşlıq şəraitində bilik, dərketmə və bacarıqları fəallaşdırır. Təlimin keyfiyyətini yüksəldilməsinə şərait yaradan İnteraktiv metodlar şagirdlərdə ilk növbədə özünə inamı artırır və təfəkkürü inkişaf etdirir. Fəal təlimin xarakterik xüsusiyyətlərinə şəxsiyyətin formalaşdırılması, müəllim fasilitator, bələdçi şagird isə tədqiqatçılığa yönəlir. Təlim prosesində şagirdlərdə müstəqil işin formalaşdırılması mühüm əhəmiyyətə malikdir. Onlar tədqiqat tapşırıqlarını yerinə yetirərkən fərziyələrdən yeni biliklərin əldə olunmasında istifadə edir, tarixi fakt və hadisələri təhlil və müqayisə edir, problemin həllinə yönəlmiş ümumiləşdirmə və nəticələr yeni bilikləri möhkəmləndirir.

Dərsin birinci mərhələsində yeni biliklərin kəşfinə yönəlmiş Motivasiya (problemin qoyulması fərziyələrin irəli sürülməsi) zamanı beyin həmləsi metodundan istifadə olunur. Bu mərhələdə beyin həmləsinin texnikalarından da istifadə olunur məsələn: Suallar, BİBO, Klaster, Auksion, Söz assosasiyaları və s. göstərmək olar. Daha sonra Tədqiqatın aparılması bu mərhələdə problemin həllinə yönəlmiş, Kublaşdırma, Konkret hadisənin tədqiqi, Venn dioqramı, Layihənin hazırlanması, Sosialoji sorğu, Müsahibə, Qərarlar ağacı, Ideyalar xalısı, Refleksiya, Komitələr və s texnikalardan istifadə olunur. Tədqiqatın IV müzakirə mərhələsində əldə olunmuş biliklərin müzakirəsidir. Bu mərhələdə biliklərin düz olub olmaması yoxlanılır. Ümumiyyətlə Müzakirə metodunun

Disskusiya, Çarpaz müzakirə, Müzakirə xəritələri, Klassik dialoq, Akvarium, Açıq iclas, Dairəvi müzakirə texnikaları dərsdə tətbiq olunur. Kəşf olunmuş və mənimsənilmiş biliklərin Yaradıcı tətbiqetmə mərhələsində Təqdimatlar, Esse, Ekspert qrupu texikalarından istifadə olunur. Fəal təlim idrak fəallığını, dərsin bütün mərhələlərində aktiv saxlayır. Refleksiya biliklərin fəaliyyətə çevrilməsi və qiymətləndirmə mərhələsinin aktiv prosesidir. Dərsin səmərəli keçməsi üçün interaktiv təlimin bir sıra üstünlüklərinə nəzər salaq.

1.Tərim prosesində diqqət ilk növbədə şagird şəxsiyyətinin formalaşmasına yönəlmişdir;

2.Müəllim ilk növbədə təlim prosesində yönəldici, məsləhətçi və bələdçi kimi çıxış edir;

3. Təfəkkürün inkişafı nəticəsində şagirdlər yeni bilikləri əldə etməklə tədqiqatçılıq bacarıqlarına yiyələnirlər;

4. Fəal tədqiqatçılıq şagirdlərin müstəqillik qabiliyyətlərini inkişaf etdirir, müstəqil düşünmək, sərbəst fikir söyləmək bacarığını inkişaf etdirir;

5 Təlim prosesində qarşılıqlı fəaliyyət psixoloji dəstək və əməkdaşlığa çevrilir;

6.İnteqrativlik və Produktivliyə geniş yer verilir.

İnnovativ texnoligiya dialoq, qarşılıqlı fəaliyyət prosesində yeni biliklərin əldə olinmasını təmin edir.

Tarix təlimində problemin qoyulmasında və onun həlli üçün yeni biliklərin əldə olunması, tarixi faktların məntiqi baxımından analiz və sintez etmək bacarığı şagirdlərdə formalaşdırıllır. Dərslikdə verilmiş mövzuların mənimsənilməsi və tətbiqi üçün ən çox beyin həmləsi, əqli hücum, müzakirə metodlarından istifadə olunur. Beyin həmləsində motivasiya, problemin həllinə dair ideyalar kəşf olunur. Bu metod idrakın dərs boyu fəal olmasını saxlayır.

Məsələn 7 sinif Azərbaycan tarixi kursunda "Mərkəzləşdirilmiş vahid Azərbaycan dövləti" mövzusu beyin həmləsi və müzakirə üsulu ilə verilmişdir. Tədqiqat sualı Səfəvilər dövlətinin Azərbaycan tarixindəki rolu nədən ibarət olduğunu müzakirə üsulu ilə yanaşı Şah İsmayıl Xətainin şəxsiyyət kimi daha ətraflı öyrənmək və onun tariximizdə rolunun əhəmiyyətini daha mükəmməl mənimsətmək üçün rollu oyun təşkil edilməsi tapşırığı verilmişdir.. Bunun üçün Şah İsmayıl xətai haqqında yazılmış əsərlərdən istifadə edilməsi tövsiyə olunur. Rollu oyun zamanı və sonda məntiqi, tənqidi və yaradıcı suallar verilir.

Rollu oyunlar tarixi və sosial həyatı əks etdirir. Burada aparıcı və onun ilk çıxışı, səhnəcikdə iştirakçı ifa etdiyi qəhrəmanı əks etdirir. Şagirdlərin obrazı necə yaratmaqı müzakirə olununr. Müzakirə prosesində tənqid və iradlar qeyd olununr. Rollu oyun üsulundan istifadə şagirdlərin uzun zaman yaddaşında qalır.

BİBO -bilirəm istəyirəm bilim öyrəndim metodu dərsdə bir sıra mərhələlər üzrə həm də müəllimin bələdçiliyi ilə aparılır. Üç sütunlu cədvəldə şagirdin bildikləri, bilmək istədikləri və öyrəndikləri əldə olunur. Məsələn 8

sinif dərsliyində verilmiş I şah Abbasın Azərbaycanı böhrandan çıxarma bacarığını Heydər Əliyevin Azərbaycanı böhrandan cıxarma cəhdləri ilə müqayisə etməklə şagirdlər şəxsiyyətlər arasında oxşar və fərqli cəhətləri VENN dioqramın köməyi ilə əldə etmək bacarığına nail olurlar [2, s. 19].

Venn dioqramı şagirdlərdə tarixi fakt və hadisələri müqayisə etməyi onların oxşar və fərqli cəhətlərini, xronoliji və sinxronluğunu müəyyənləşdirməyi imkan verir. Müqayisə üsulu nəticəsində fakt və hadisələr təhlil edilir və ümumiləşdirilir.

Şaxələndirmə - klaster keçirilən mövzu üzrə problemin əhatəli açılmasına onu tətbiq etməyə şərait yaradan bir metoddur. Bu metodda əvvəldə alınan biliklər də səfərbər olunur. Məsələn şagirdlər düşünərək, əqli hücum ilə "Dövlət" anlayışını, "Azərbaycan" haqqında bildiklərini tətbiq edirlər.

İnsert - təfəkkürün inkişafı, mətn üzərində işin təşkilində tətbiq olunan səmərəli metoddur. Bu meodda yönəldici işarələrlə mövzunun düzgün başa düşülməsi yoxlanılır. İş cütlərlə aparılır. Yeni mövzuya keçirilməsi üçün əvvəldə alənan biliklər əlaqələndirilir. Məsələn, ibtidai insanlar haqqında nə bilirsiniz? İbtidai icma quruluşu haqda bildiklərinizi yazın. Mətndə verilmiş mövzuya dair şagirdlər öz bilik səviyyələrini yoxlayırlar.Cədvəldə verilən işarələrə əsasən bildiklərinin nə dərəcədə düzgün olduğu müqayisə və münasibət bildirirlər.1. / bu məlumatı artıq bilirəm, «–» bu məlumat əvvəldə aldığım bilikləri inkar edir, «+» bu məliumat yenidir, «?» problemlə bağlı əlavə məlumat olmasını istərdim. Mətni tam oxuduqdan sonra nəticə və ümumiləşdirmələr aparılır.

Diskussiya dərsin bütün mərhələlərində aparıla bilər.Bu metod dialoq, kollektiv, qruplarla, fərdi formada keçirmək mümkündür. Qarşılıqlı fəaliyyət metodunda şagirdlərin diskussuya aparmaq mədənyyəti formalaşır. Mütləq tərəflər bir-birini dinləməli, sözünü kəsməmək, reqlamenti nəzərə almaq, tənqidi yanaşmaq, fikir bildirmək istədikdə icazə almaq və s rəayət olunur. Duskussiya metodunu dəyirmi masa, ekspertlər qrupu, forum, debat, mühakimə-dərs müxtəlif formalarda tətbiq etmək olar. Məsələn Azərbaycan tarixi 7 sinif dərs nümunəsi verək [1, s. 111].

Mövzu: Mərkəzləşdirilmiz vahid Azərbaycan dövləti

**(I dərs)**

**Təlimin məqsədi :**

1.Səfəvilər dövlətinin yaranmasını xəritə vasitəsilə izah edir

2. Şah İsmayılın Uzun Həsənlə oxşar və fərqli cəhətlərinə görə təhlil edir.

**Təlim forması**: Qruplarla iş

**Təlim üsulu**: Beyin həmləsi, müzakirə

**Resurslar**: dərslik, iş vərəqləri, xəritə

**İnteqrasiya** Üt 2.1.2, 3.1.1.

**Az-d 2.2.3;**
**C 3.1.2.**
Tədqiqat sualı: Səfəvilər dövlətinin Azərbaycan tarixindəki rolu nədən ibarətdir?
XV əsrin sonunda Bayandur sülaləsinin üzvləri arasında hakimiyyət uğründa mübarizə, həmçinin feodal çəkişmələrinin çoxalması sadə xalq kütlələrinin narazılığını artırmaqla bərabər, Səfəvi təriqətinə rəğbəti də gücləndirdi. Azərbaycanda Səfəvi sülaləsi hakimiyyətə gəldi.Səfəvi dövlətinin əsasını qoyan görkəmli sərkərdə və dövlət xadimi Şah İsmayıl (1501-1524) Ərdəbilin nüfuzlu din xadimi Şeyx Səfiəddinin nəslindən idi.
Bayandur sülaləsinin daxildən zəifləməi hansı nəticələrə gətirib çıxardı? XV əsrin sonlarında Azərbaycanın qarışıq siyasi vziyyəti kimlərin güclənməsinə imkan yaratdı ?
Səfəvi dövləti, Səfəvi qoşunu, idarəçilik sistemi, şah I İsmayıl, Alma bulağı döyüşü, Mərv döyüşü
Ərdəbil şeyxi Azərbaycan şahı oldu. 1499-cu ildə cənc İsmayıl gizli saxlandığı Lahicanı tərk edib Ərdəbilə, oradan da Astaraya hərəkət etdi. Bu zaman bölgədəki qızılbaş tərəfdarları ona qoşuldu. Bir il sonra İsmayıl Şərqi Anadoluda yaşayan qızılbaş tayfalarından hərbi qüvvə toplamaq üçün Ərzincana hərəkət etdi. Tezliklə gənc Səfəvi şeyxinin döyüşçülərinin sayı 7 minə çatdı. O, bu qoşunla Şirvana yürüş etdi.

? Səncə, Azərbaycan taxtı uğrunda mübarizəyə gənc İsmayıl niyə Şirvanşahlar üzərinə yürüşlə başladı? fikrini əsaslandır.
1500-ci ilin payızında Gülüstan qalası yaxınlığındakı Cabanı adlı yerdə baş verən döyüş zamanı Şirvan şahı Fərrüx Yasarın qoşunu məğlubiyyətə uğradıldı. Şirvan şahı özü də döyüşdə həlak oldu. Səfəvi qoşunu bu döyüşdən sonra Şamaxını, 1501-ci ilin yazında isə Bakını tutdu. Şirvanşahların burada saxlanılan xəzinəsini ələ keçirdi. Bu qələbədən sonra Səfəvi qoşunları Gülüstan qalasını mühasirəyə aldılar. Lakin Bayandurlu hökmdarı Əlvəddin Təbrizdən qoşunla şimala doğrü yürüşə başlaması xəbəri gənc İsmayılın mühasirəni dayandırmasına səbəb oldu.
***Sayca az olan Səfəvi qoşunlarının Şirvan şahının üstün qüvvələrinə qalib gəlməsinin səbəbi nə ola bilərdi? Fikrini əsaslandır.***

**MƏNBƏ** İsgəndər bəy Münşinin yazdığına görə, bu zaman cəmi 14 yaşı olan gənc İsmayıl qızılbaş əmirlərindən soruşmuşdu: «Sizə Gülüstan qalası lazımdır, yoxsa Azərbaycan taxtı?» Müqəddəs Səfəvi xanədanının etiqad sahibləri belə cavab ver mişdilər: «Azərbaycan taxtı». Bu bilgilər sübut edir ki, çox gənc olmasına bax - mayaraq, İsmayıl hansı taxt-taca sahib olacağını və hansı dövlətdə iqtidara gələcəyini aydın dərk edirdi. İsgəndər bəy Münşi. «Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi)». [ 1, s 112].

1501-ci ilin yayında İsmayılın qoşunu Əlvənd padşahın ordusunu Şərurda məğlub edib Azərbaycanın cənubuna doğru irəlilədi. 1501-ci ilin pa yızında Təbrizə daxil olub özünü şah elan etdi. Azərbaycanda Səfəvi sülaləsinin hakimiyyəti (1501–1736) başlandı. Şah I İsmayılın növbəti addımı Bayandurlu sülaləsinin İranda hökmranlıq edən nümayəndəsi Murad padşahı sıradan çıxarmaq oldu. 1503-cü ilin yayında Həmədan yaxınlığındakı Almabulağı adlı yerdə baş verən döyüş zamanı I İsmayıl 12 minlik qoşunla rəqibinin 70 minlik ordusunu məğlub etdi. Bununla Bayandurlu sülaləsinin hakimiyyətinə qəti son qoyuldu.

**MƏNBƏ** Doqquz yuz səkkizinci ildə (1503-cü il – red. ) ... Həmədanın Almabulağı adlı yerində onların (şah I İsmayılla Bayandurlu Murad – red.) arasında böyük hərb oldu... O, (şah I İsmayıl – red. ) müqayisəsiz ləşkərə qalib gəldi... Bu döyüşdə müzəffər əsgərlərin əlinə bol qənimət çatdı. İsgəndər bəy Münşi. «Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi)». [1, s. 113].

Həmin il İranın mərkəzi və Şərq əyalətləri, daha sonra Şərqi Anadolu, Ərəb İraqı Səfəvi dövlətinə qatıldı. Bu zaman Qafqazın mərkəzi və cənub qərb bölgələri də Səfəvi sülaləsinin tabeliyinə keçdi. 1510-cu il də isə Dərbənd tutuldu və Dağıstanın feodal hakimləri də şah I İsmayılın hakimiyyətini qəbul etməli oldular. Şah I İsmayılın hakimiyyəti dövründə Azərbaycan torpaqlarının əksər hissəsi vahid dövlətdə birləşdirildi. *Şirvanşahlar dövləti və Şəki hakimliyi* də mərkəzi hakimiyyətə tabe edildi, yerli sülalələrin əlində yalnız daxili idarəçilik saxlandı.

1510-cu ildə şah I İsmayıl Xorasana yürüş etdi və Mərv döyüşündə qalib gəldi. Özbək hökmdarı Şeybani xan öldürüldü. Xorasan ələ keçirildi. Beləliklə, Amudəryadan Fərat çayına qədər geniş ərazi Səfəvi imperatorluğuna daxil edildi. Səfəvi şahlarının daxili siyasəti. Səfəvi sülaləsinin hakimiyyətə gəlməsindən sonra güclü mərkəzləşdirilmiş dövlət yaradılmasına başlandı. Torpaq sahibliyinin, vergi sisteminin sahmana salınması istiqamətində addımlar atıldı. Təsərrüfat həyatının bərpası, sənətkarlığın və ticarətin dirçəldilməsi üçün tədbirlər görüldü. İlk növbədə, Baharlı və Bayandurlu hökmdarlarının geniş tətbiq etdiyi **soyurqal -**irsi torpaqlar bağışlanması ləğv edildi. Buna səbəb soyurqal paylanmasının mərkəzi hakimiyyəti zəiflətməsi, dövlətin nəzarətində olan yararlı torpaq fondunun və xəzinə gəlirlərinin azal masına gətirib çıxarması idi. İlk Səfəvi şahları dövründə dövlətə xidmət əvəzində ayrı-ayrı şəxslərə **tiyul** - şərti torpaqlar verilməsinə başlandı. Bu torpaqlar yalnız şahın fərmanı ilə irsi keçə bilərdi. Mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün torpaq sahibliyi qaydalarında edilən dəyişikliyi qiymətləndir. Səfəvi dövlətində bütün mühüm vəzifələrə Azərbaycan **türk tayfalarının başçıları** qoyuldu. *Ordu komandanlığı, vilayətlərin idarə olunması, saray işləri* də onların əlində idi. Ordu yarımköçmə Azərbaycan türk tayfalarından təşkil olundu. Şah

sarayında, orduda və qismən diplomatik yazışmada Azərbaycan-türk dili işlədilirdi.

Şah I İsmayılın dövlət işinə irəli çəkdiyi qızılbaş əmirləri bacarıqlı sərkərdələr, tədbirli dövlət məmurları idilər. Bununla belə, şah onları daim nəzarətdə saxlayır, mərkəzdən uzaqlaşma meyillərinin qarşısını çox sərt şəkildə alırdı. Şah I İsmayılın tərbiyəçisi - lələsi olan Hüseyn bəy Şamlı məhz bu səbəbdən *əmir əl üməra* – qoşun başçısı vəzifəsindən kənarlaşdırıldı, ona tiyul kimi verilmiş vilayət əlindən alındı.

Səfəvi şahı qeyri-məhdud hakimiyyətə malik idi. Şahın yanında **məşvərətçi orqan -** Azərbaycanın nüfuzlu tayfa əmirlərindən ibarət **Ali məclis** fəaliyyət göstərirdi. İlk Səfəvi şahları dövründə şahdan sonra ikinci şəxs **vəkil** idi. O, şahın müavini sayılırdı. Dövlətin hərbi qüvvələrinin əsasını Azərbaycanın yarımköçmə - elat tayfalarından toplanmış **çərik** adlı atlı dəstələr təşkil edirdi. Çərik başçısı **qorçubaşı** adlanırdı. Səfəvi dövlətində mülki işlərə və maliyyə məsələlərinə **vəzir** baxırdı. Dini idarələrə isə **sədr** başçılıq edirdi. Mətndə verilmiş anlayışlar şagirdlərin diqqət mərkəzində saxlanılır

***?Qeyri-məhdud hakimiyyətin olduğu bir dövlətdə Ali məclisin ? səlahiyyətləri nədən ibarət idi? Fikrini əsaslandır.***

Səfəvi şahları öz hakimiyyətlərinin sosial dayağını möhkəmləndirmək üçün oturaq əhaliyə, həmçinin şəhərlərin sənətkarlarına və tacirlərinə güzəştlər edir, onların nümayəndələrinə də mühüm vəzifələr verirdilər. Səfəvi sülaləsinin hakimiyyətinin ilk dövründə əhalinin həyat şəraitini yüngülləşdirmək, dövlətin iqtisadi əsaslarını möhkəmləndirmək üçün bəzi vergilər azaldıldı, bəziləri isə tamam ləğv edildi. Əsas vergi olan *malcəhətin* miqdarı əvvəlki dövrlə müqayisədə azaldıldı, *məhsulun altıda bir hissəsi* həcmində alınmağa başlandı. Şah I İsmayılın mühüm tədbirlərindən biri islam dininin **şiəlik məzhəbini** dövlət dini elan etməsi oldu. O və varisləri həm ali dünyəvi, həm də ali dini hakimiyyətin başçısı idilər. Səfəvilərin soy kökünün Məhəmməd peyğəmbərlə bağlanması onların qonşu sünni hökmdarlardan üstünlüyünü nümayiş etdirmək məqsədi güdürdü. Bu dini-ideoloji zəmin əsasında sünniliyin hökmran olduğu Osmanlı və Şeybani hökmdarlarına qarşı qəti mübarizə başlandı.

**Sual və tapşırıqlar**

1. Səfəvi şeyxi İsmayılın Lahicandan Təbrizə qədər mübarizəsinə dair qrafik qur. 2. Səfəvilər dövlətinin yaranmasının tarixi əhəmiyyəti nədən ibarətdir?
3. Səfəvilər dövlətinin imperatorluğa çevrilməsini təhlil et.
4. Səfəvi imperatorluğu indiki hansı dövlətlərin ərazisini əhatə edirdi?
5. Səfəvi dövlətinin idarəçilik sistemi

Xronologiya
Sənəd
İnteqrasiya:

1. Kursdaxili -Azərbaycan tarixi, VII sinif, XIV əsrin sonu- XV əsrdə Azərbaycanda feodal dövlətlər.
2.Kurslararası- Azərbaycan tarixi V sinif, "Qüdrətli Azərbaycan dövləti", "Ərdəbil", Ümumi tarix VII sinif "Osmanlı imperatorluğu XIII-XVI əsrlərdə" "Dumanlı Albion orta əsrlərdə " "Fransanın birləşdirilməsinin səbəbləri", "Rusiyada mərkəzləşmiş dövlətin yaranması".
3.Fənlərarası- Respublikanın iqtisadi və sosial cöğrafiyası VII sinif, "Türk dünyası birliyi""Dövlətlərin idarə edilməsi formaları " burada Dövlət, əhali, idarəetmə, respublika, konstitutiyalı və mütləq monarxiya, inzibati Ölkənin rayonlarının ayrı-ayrı təsərrüfat sahələri üzrə ixtisaslaşdırılması haqqında ümumi əlaqələr,

Azərbaycan dili 7 sinif -" *Qədimdə kitab işi*" mövzusunda Orta əsrlərin canlı mətbəələri xəttatlar, nəqqaşlar, müsəhhihlər, rəssamlar və cildçilər idi. Xəttatlıq nüfuzlu və geniş yayılmış sənət növlərindən biri idi. Məşhur xəttatların adları kitab müəllifləri ilə yanaşı çəkilirdi. Onların gödükləri iş çətin olmaqla yanaşı, məsuliyyətli idi. Hər bir müəllifin və əsərin tanınmasında xəttatların da böyük rolu olmuşdur.

Şah İsmayıl Xətai istedadlı sənət adamlarına yüksək qiymət verirdi. Tarixi mənbələrdə deyilir ki, Şah İsmayıl Çaldıran döyüşü ərəfəsində Behzadı və digər saray xəttatı Mahmud Nişapurini düşmən əlinə əsir düşməsinlər deyə bir mağarada gizlətmişdi. “Kim bilir, bəlkə, müharibədə öldüm və ya məmləkətimdə qarət və qarışıqlıq baş verdi... Sizin hifzinizi Allaha tapşırdım”, – deyərək Sultan Səlimlə döyüşə getmişdi. Döyüşdən məğlub qayıdan Şah İsmayıl, ilk növbədə, sənətkarları gizlətdiyi yerə getmiş, onları sağ-salamat görüb Allaha şükür etmişdi. 1514-cü il Çaldıran döyüşündən sonra Azərbaycandan Türkiyəyə üç min kitab ustası aparılmışdı.

Müəllim proqrama əsasən dərslikdə verilmiş mətni təhlil etməklə Vahid Azərbaycan uğrunda mövzu üzrə “Mərkəzləşdirilmiz vahid Azərbaycan dövləti” mövzusunda dərsin izahlı oxusunu keçirir. 1.İzahli-şərhli oxu. V sinifdə şagirdlər tarix fənni ilə ilk dəfə tanış olurlar. Mətnin məzmununu ilk dəfə qavramaq, dərk etmək və mənimsəmək üçün əvvəlki dərslərdə mətnin izahlı oxusunu keçirərək, abzaslar və ya bəndlər üzrə nağıl və oxunu bir-birilə əvəz etmək lazımdır. Çətin parçaları müəllim ucadan oxuyur, şagirdlər isə mətni izləyirlər. Daha asan abzasları şagirdlərdən biri ucadan oxuyur. Oxu zamanı mətnin başa düşülməsi yoxlanılır. Məsələn *Sayca az olan Səfəvi qoşunlarının Şirvan şahının üstün qüvvələrinə qalib gəlməsinin səbəbi nə ola bilərdi?*" Səfəvi şahı qeyri-məhdud hakimiyyətə malik idi, Ali məclisin səlahiyyətləri nədən ibarət idi? " Bunu necə izah edə bilərsiz? Mətndəki yeni sözlər, terminlər, ifadələr izah edilir. İlk bir neçə dərsdə paraqrafın bütün mətninə dair bu cür iş aparılır. Bu üsul şagirdi diqqətli oxumağa öyrədir. Evdə müstəqil oxumağı asanlaşdırır həm də yeni materialın məzmunu əsasən dərsin

özündə möhkəmləndirilir. Sonra başdan-başa izahlı oxu çətin yerlərin adda-budda oxusu ilə əvəz edilir. İzahlı oxunun yerini tədricən müəllimin şərhi tutur. Dərsliyin mətnindəki çətin yerlərin müəllim tərəfindən şərhli oxusu XI sinfə qədər davam etdirilir. Strateji məqsədə çatmağın yolu taktiki məqsədlərin həllindən keçir. Buna görə də dərsin əsas məqsədləri müəyyənləşdirilərkən aşağıda göstərilən məqsədlər arasındakı dialektik əlaqə nəzərə alınmalıdır: Müəllim dərsin təhsil, tərbiyə və inkişafetdirici məqsədlərini belə ifadə edir:

**Təhsilin məqsədi 1.** Azərbaycanın birləşdirilməsinə şərait yaradan XV əsrdə Bayandurlu sülaləsinin hakimiyyət uğrunda daxili çəkişmələri, feodal hərc-mərcliyi, xalq kütlələrinin narazılığının artırması ilə bərabər, Səfəvi təriqətinə rəğbəti də gücləndirdi. Azərbaycanı birləşdirmək təşəbbüsünün Səfəvilərin əlinə keçməsi, vahid dövlət olması üçün ölkənin təsərrüfat həyatında baş verən dəyişikliklərin və iqtisadiyyatın inkişafı., XV əsrin sonlarında türk -islam dünyasının dini cəhətdən parçalanmasının mühüm rolunu göstərmək.

2.Mövzu üzrə formalaşdırılan əsas anlayışlar: sünnü-şiə qızılbaşlılar, tiyul, kömrük rüsumu, mürid, mürşid, Mərkəzləşdirilmiş dövlətin əlamətlərini, sinfi mahiyyətini və mütərəqqiliyini göstərməklə "Mərkəzləşdirilmiş feodal dövlət" anlayışını formalaşdırmaq. Şagirdlər cəmiyyətin inkişafının obyektiv səbəblərini şüurlu surətdə mənimsəməsələr tarixi prosesi anlaya bilməzlər. Onlar bilməlidirlər ki, hər bir faktın səbəbi ondan əvvəlki faktlardan ibarət olur, onun özü isə sonrakı faktların səbəbi ola bilər. Hər bir böyük tarixi fakt çox zaman ictimai həyatın müxtəlif sahələrindəki bir sıra səbəblərdən irəli gəlir. Səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək üçün məntiqi sxemdən də istifadə etmək olar. Məntiqi sxemdən istifadə etməklə "Mərkəzləşdirilmiz vahid Azərbaycan dövləti" mövzusunda dərsin məqsədlərinin müəyyənləşdirilməsinə diqqət edək. Müəllim dərsin məzmununu təhlil edərkən ilk növbədə tarixi faktı müəyyənləşdirir.

**Tərbiyə məqsədi :**

2. Şah I İsmayılın hakimiyyəti dövründə Azərbaycan torpaqlarının əksər hissəsi vahid dövlətdə birləşdirildi. Şah sarayında, orduda və qismən diplomatik yazışmada Azərbaycan-türkdili işlədilirdi. XVI əsrdə Azərbaycanın vahid dövlətdə birləşdirilməsini dövlətçilik tarixində mühüm hadisə hesab etmək olar.

Müəllim hadisələri müqayisə edərək tarixi qələbəmizi, 44 günlük vətən müharibəsini (27 sentyabr 2020 ci il) şagirdlərin diqqətinə çatdırır. Başda Ali Baş Komandan İlham Əlyev olmaqla müzəffər ordumuz həlledici hücuma keçərək düşməni məğlub edir. Vətən müharibəsində ordumuz bir addım geri çəkilmədən öz şücaətlərini göstərərək xalqımıza qələbə, Zəfər sevincini yaşatdılar. Azərbaycanın Zəfərinin (8 noyabr 2022) milli özündərkin inkişafında rolunu qeyd edərək şagirdlərdə dövlətçilik, vətənpərvərlik hissləri formalaşır. Onlar Zəfərimiz və dövlətçilik tariximizlə fəxr edirlər.

Refleksiya, Qiymətləndirmə meyarları: izahetmə, təhliletmə Beləliklə, innovativ təlim metodları yeni biliklərin kəşfi və onun tətbiqi dərsin bütün mərhələlərinin səmərəliyini təşkil edir. Qeyd etmək lazımdır ki, şagirdlərdə bilik, bacarıııq və vərdişlərin formalaşdırılması üçün dərsliklə iş üsulları əvvəlcədən əməli surətdə şagirdlərə göstərilməli və onların müstəqil yanaşma qabiliyyətlərini inkişaf etdirmək daim diqqət mərkəzində olmalıdır.

**Ədəbiyyat:**

1. Azərbaycan tarixi: 7-ci sinif üçün dərslik. Bakı: Təhsil, 2018 , 85 s
2 Azərbaycan tarixi: 8-ci sinif üçün dərslik. Bakı: Təhsil, 2023 , 199 s
3. Tam orta məktəbdə tarixin fəal interaktiv təlimi metodikası, Bakı,2011, 700s.
4.Cəbrayılov İ.H. Azərbayjcn tarixinin tədrisi metodikası. Bakı: Mütərcim, 2006, 236 s.
5.Təranə İsayeva Ümumtəhsil məktəblərdə Azərbaycan tarixi fənninin tədrisində mətn üzərində işin təşkili (V-XI siniflər üzrə) Bakı, 2022,160s
6 Zülfiyyə Veysova Fəal /İnteraktiv təlim: müəllimlər üçün vəsait Birləşmiş millətlər təşkilatı uşaq Fondu (UNİSEF)
7. Akif Nəzərov Müasir təlim texnoligiyaları (dərs vəsaiti) Bakı,2012 ,103s

# 1970-1980-Cİ İLLƏRDƏ AZƏRBAYCANIN ELMİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIĞININ İNKİŞAF PERSPEKTİVLƏRİ

**Zəkiyyə Musayeva**
Azərbaycan Dövlət İqtisad Universiteti
zakiyya.musayeva@mail.ru

***Açar sözlər**: Azərbaycan, beynəlxalq aləm, elmi əməkdaşlıq, mədəni əlaqələr*

*XX əsrin 70-80-ci illərində Azərbaycan Respublikası müstəqil xarici siyasət sisteminə malik olmasa da, onun elmi və mədəni əməkdaşlığı dünyada gedən humanitar proseslərin inkişafına öz töhfəsini vermişdir. Respublikanın həyata keçirdiyi əməkdaşlıq əlaqələrinin əsas istiqaməti onun dünyada gedən elmi proseslərdə öz milli potensialının imkanları daxilində iştirakı və bu sahədə geniş əlaqələr yaratmasıdır. Bəhs olunan dövrdə Azərbaycanın elmi və mədəni əlaqələri öz məzmununa, əhatə dairəsinə və istiqamətlərinə görə çoxtərəfli olmuşdur. 1970-1980-ci illərdə Azərbaycan elmi həyata keçirilən elmi əməkdaşlığın ən mühüm formalarında təmsil olunmuşdur. Heydər Əliyevin milli oyanış siyasəti sayəsində təhsil, elm, mətbuat, ədəbiyyatın tərəqqisi üçün münasib imkanlar açıldı. Bu dövrdə xalqın mədəni irsinin, tarixinin, dilinin öyrənilməsi və təbliği genişləndi. Azərbaycan alimləri elmin bir çox sahələrində xarici ölkələrin alimləri ilə birgə yeni-yeni elmi problemlərin həllində fəaliyyət göstərmişlər. 70-80-ci illər Azərbaycanın mədəni və mənəvi həyatında mühüm irəliləmələr dövrü olmuşdur.*

*Məqalədə bəhs olunan dövrdə SSRİ məkanında Azərbaycanın elmi və mədəni əməkdaşlığının inkişaf perspektivləri araşdırılmış və mühm nəticələr əldə edilmişdir.*

# ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ НАУКИ И СОТРУДНИЧЕСТВА В КУЛЬТУРЕ АЗЕРБАЙДЖАНА В 1970-1980-Х ГОДАХ

**Закия Мусаева**

***Ключевые слова:** Азербайджан, международный мир, научное сотрудничество, культурные связи*

*Хотя Азербайджанская Республика в 70-80-е годы XX века не имела самостоятельной внешнеполитической системы, ее научное и культурное сотрудничество способствовало развитию гуманитарных процессов в мире. Основным направлением осуществляемых Республикой связей сотрудничества является ее участие в научных процессах, происходящих в*

*мире, в пределах возможностей своего национального потенциала и установление широких связей в этой области. В указанный период научные и культурные связи Азербайджана были многосторонними по своему содержанию, охвату и направлениям. В 1970-1980-е годы азербайджанская наука была представлена в важнейших формах научного сотрудничества. Благодаря политике национального пробуждения Гейдара Алиева открылись благоприятные возможности для развития образования, науки, печати и литературы. В этот период также расширилось изучение и пропаганда культурного наследия, истории и языка народа. Азербайджанские ученые во многих областях науки совместно с учеными зарубежных стран работали над решением новых научных проблем. 70-80-е годы XX века были периодом значительных успехов в культурной и духовной жизни Азербайджана.*

*В период, о котором идет речь в статье, были исследованы перспективы развития научного и культурного сотрудничества Азербайджана на пространстве СССР и получены важные результаты.*

## DEVELOPMENT PERSPECTIVES OF SCIENCE AND CULTURAL COOPERATION OF AZERBAIJAN IN 1970-1980S

**Zakiyya Musayeva**

***Key words**: Azerbaijan, international peace, scientific cooperation, cultural ties*

*Although the Republic of Azerbaijan did not have an independent foreign policy system in the 1970s and 80s of the 20th century, its scientific and cultural cooperation contributed to the development of humanitarian processes in the world. The main direction of the cooperation relations carried out by the Republic is its participation in scientific processes taking place in the world, within the limits of its national potential and the establishment of broad ties in this field. During this period, Azerbaijan's scientific and cultural ties were multifaceted in their content, scope and directions. In the 1970s and 1980s, Azerbaijani science was represented in the most important forms of scientific cooperation. Thanks to the policy of national awakening of Heydar Aliyev, favorable opportunities have opened up for the development of education, science, press and literature. During this period, the study and promotion of the cultural heritage, history and language of the people also expanded. Azerbaijani scientists in many fields of science worked together with scientists from foreign countries to solve new scientific problems. The 70s and 80s of the 20th century*

*were a period of significant success in the cultural and spiritual life of Azerbaijan.*

*During the period referred to in the article, the prospects for the development of scientific and cultural cooperation of Azerbaijan in the USSR were investigated and important results were obtained.*

Müasir dövrdə hər bir dövlətin, xalqın gələcəyi və inkişaf səviyyəsi onun malik olduğu elmi-mədəni potensialla ölçülür.Bu baxımdan müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin Azərbaycan elminin inkişafındakı xidmətləri misilsizdir.

Azərbaycan cəmiyyəti, eləcə də Azərbaycan elmi XX əsrin 70-80-ci illərində çox sürətlə inkişaf etmişdir. Azərbaycan elminin, Elmlər Akademiyasının ən çox inkişaf etdiyi dövr Heydər Əliyevin hakimiyyəti illərinə təsadüf edir. Elmin, elm ocagının yeni yüksəlişi məhz ulu öndərin adı ilə bağlı idi. 70-ci illərdə Azərbaycan Elmlər Akademiyası onun böyük təşkilatçılıq istedadı nəticəsində dünyada şöhrət qazandı. 1970-1980-ci illərdə respublikamızda 258 elmlər doktoru, 2677 elmlər namizədi hazırlanmışdı. Respublika Elmlər Akademiyasının 56 həqiqi üzvi, 71 müxbir üzvi var idi. 123 elmi idarə və 17 ali məktəbin kafedralarında 22 min elmi əməkdaş, 900-dən çox elmlər doktoru və 8 mindən çox elmlər namizədi çalışırdı [1].

Azərbaycan Sovetlər birliyinin tərkibində olduğu dövrdə də öz elmi potensialını qorumaq və artırmaqla yanaşı qonşu dövlətlər və beynəlxalq aləmdə başqa sahələrdə olduğu kimi elmin müxtəlif istiqamətləri üzrə əlaqələrini yarada bilmişdir. Bu illərdə respublikamız beynəlxalq fəaliyyətində dünya elminə inteqrasiya məsələsinə xüsusi diqqət yetirmişdir. Aydındır ki, bəhs olunan dövrdə elmi-tədqiqatlar aparılmadan, bu istiqamətdə dünya elminin nailiyyətlərinə cəlb olunmadan həmin illərdə təsərrüfatın çoxsahəli sistemini, məhsuldar qüvvələrin inkişaf sürətini təmin etmək çətin olardı.

Azərbaycan alimləri 80-ci illərdə əldə olunan elmi nailiyyətlərini beynəlxalq əməkdaşlıqda dünya ictimaiyyətinə müxtəlif istiqamətlərdə çatdırmağa çalışmışlar [2,s.270]. Minlərlə azərbaycanlı gənc SSRİ-nin aparıcı elm və tədris ocaqlarına göndərilmiş, yetkin mütəxəssis kimi geri qayıtmışdır [3, s.400].

Azərbaycan alimləri həmin dövrdə dünyada keçirilən böyük elmi tədbirlərdə də fəal iştirak edərək Azərbaycan elmi fikrini dünya qarşısında göstərməyə çalışmışlar. Bu barədə, təkcə, aşağıdakı faktları göstərmək kifayət edər. Məsələn, Azərbaycan alimi geologiya-minerologiya elmlər doktoru Ə.Q.Seyidov SSRİ-nin, ÇSSR, MXR, ADR, Yuqoslaviya və digər ölkələrin alimləri ilə birlikdə Praqada keçirilən ikinci neft geologiyası problemlərinə həsr olunmuş Beynəlxalq konfransda, Geologiya- minerologiya elmləri doktoru S.Salayev və geologiya- minerologiya elmləri namizədi Q.Dadaşov ÇSSR-in Brno şəhərində «Neft və qaz istehsalı və inkişafının fiziki və kimyəvi

problemləri»nə həsr olunmuş Beynəlxalq elmi konfransda, akademik D.Sultanov Bolqarıstanda Karpat-Balkan geoloqlarının qurultayında, kimya elmləri namizədi Q.İsmayılov ölçü cihazları problemləri üzrə Macarıstanda keçirilən beynəlxalq konfransda müvəffəqiyyətlə çıxış etmişlər. Həmçinin akademik A.Dadaşov, texnika elmləri namizədi T.Hacıyev və A.Əliyev Praqada keçirilən texniki problemlərə həsr olunmuş müşavirədə, AEA-nın o vaxtkı müxbir üzvü, sonra isə akademik İ.Orucova ADR-də sürtülmə yağlar və materiallar problemlərinə həsr olunmuş Beynəlxalq simpoziumda, texnika elmləri doktoru R.Quliyev və texnika elmləri namizədi F.Səmədov ADR-də yağlama materialları və yağlama texnikası problemləri üzrə Beynəlxalq simpoziumda öz elmi yeniliklərindən bəhs etmişlər. Akademik V.Əliyev ÇSSR-m Karlovı-Varı şəhərində neft istehsalı üçün katalizatorlar problemi üzrə keçirilən Beynəlxalq konfransda, texnika elmləri namizədləri V.Q.Quliyev və A.A.Əfəndiyev Praqada molekulyar kimya probleminə həsr olunmuş beynəlxalq simpoziumda, akademik Q.Ə.Əliyev Rumıniyada torpaqşünasların Beynəlxalq konqresində, o vaxt zoologiya elmləri doktoru, professor M.Ə.Musayev (sonra akademik) Çexoslovakiyada keçirilən zooloqların Beynəlxalq konqresində, həmin institutun işçisi, zoologiya elmləri doktoru professor Q.Qasımov həmin ölkədə keçirilən su atmosferi elementləri üzrə elmi simpoziumda, baytartıq elmləri namizədi R.İbrahimov Buxarest şəhərində keçirilən torpaqşünasların XX beynəlxalq Konqresində lmi məruzələr etmişlər. Biologiya elmləri doktoru A.Qasımov Varşava şəhərində keçirilən bioloqların beynəlxalq konqresində, AEA-nın müxbir üzvü Z.M.Məmmədov zob problemi üzrə Bolqarıstanda keçirilən Beynəlxalq konfransda, tibb elmləri namizədi A.İsmayılov səhiyyə üzrə alimlərin Berlində fizika və kimyaçıların beynəlxalq müşavirəsində, akademik H.B.Abdullayev həmin ildə mürəkkəb yarımkeçiricilər üzrə Polşada keçirilən müşavirədə iştirak etmişlər. Demək lazımdır ki, bu cür yüksək elmi tədbirlər başqa xarici ölkələrdə də keçirilmişdir [4, s.101]. Ümumiyyətlə, Azərbaycan alimləri, o dövrdə dünyanın müxtəlif ölkələrində, o cümlədən də, ABŞ, Fransa, Böyük Britaniya, İtalya, İspaniya, Belçika, Asiya, Afrika və Latın Amerikası ölkələrində keçirilən 100-dən çox yüksək beynəlxalq elmi tədbirlərdə iştirak etmişlər [5].

Fizika elminin müxtəlif istiqamətlərində çalışan Azərbaycan alimləri bu elmin bir çox problemləri sahəsində, o cümlədən günəş, kimya, külək enerjisinin elektrik, istilik və mexaniki enerjiyə çevrilməsi, onun əsasında yüksək iqtisadi əhəmiyyətli cihaz və dəzgahların hazırlanması ilə əlaqədar elmi-tədqiqat işində sosialist ölkələrində fəaliyyət göstərən fizika alimləri ilə əməkdaşlıq etmişlər. Respublikanın astrofizikləri «İnterkosmos» elmi-istehsalat Birliyinin proqramı əsasında fizika, maqnit ulduzları və müasir astronomiyanın başqa aktual problemlərinin tədqiqi sahəsində, kimya sahəsində çalışan alimlər inqibatorlar və kimyəvi-elektrik metodu ilə neft və qaz sənayesində işlədilən dəmir

avadanlıqların erroziyasının müdafiəsi problemləri, genetika və seleksiya sahəsində çalışan alimlər isə seleksiya və toxumçuluğun tədqiqat istiqamətlərinin nəzəri əsaslarını hazırlamaq və onun əsasında yeni yüksək keyfiyyətli və məhsuldar buğda və arpa toxumları yaratmaq problemləri sahəsində sosialist ölkələrində çalışan həmkarları ilə geniş tədqiqat işləri aparmışlar. Respublikanın zoologiya, fiziologjya, kibernetika, geologiya, riyaziyyat, mexanika və digər elm sahələrində çalışan alimlərinin də bu sahədə sosialist ölkələri ilə sıx əməkdaşlığı olmuşdur [6].

1986-cı ildə ezamiyyət, elmi turizm və təcrübə mübadiləsilə Azərbaycan SSR Elmlər Akademiyasının 500-dən çox elmi əməkdaşı və görkəmli alimləri dünya ölkələrinin qonağı olmuş və burada çalışan həmkarlar elmin müxtəlif sahələrində geniş tədqiqatlar aparmış, təcrübə mübadiləsi etmiş, həmin ölkələrin müxtəlif elm sahələrində çalışan 1500-dən artıq alim həmkarlarını Azərbaycanda qəbul etmişlər.

1980-ci illərdə təhsil sahəsində çalışan azərbaycanlı alimlərdən 499 nəfəri dünya ölkələrində səfərlərdə olmuş, həmin ölkələrdən isə 150 alim həkarlarını Azərbaycanda qəbul etmişlər. Həmin illərdə Azərbaycan və dünya ölkələri alimlərinin iştirakı ilə Bakı şəhərində 85-dən çox simpozium, konfrans, müşavirə və digər elmi xarakterli beynəlxalq tədbirlər keçirilmişdir.

Azərbaycan elmi-texniki fikri bu istiqamətdə özünün müstəqil imkanlarından da geniş istifadə etmişdir. Bu da, onun bir milli respublika kimi dünyada tanınmasına, elmi-texniki potensialının milli çərçivədən çıxıb dünya standartları səviyyəsinə çatmasına geniş imkanlar yaratdı. Məhz, onun nəticəsi idi ki, həmin dövrdə, Azərbaycan elmi bu sahədə dünyada həyata keçirilən əməkdaşlığın, demək olar ki, bütün formalarında iştirak etmiş və respublika elminin bir çox istiqamətləri və onun elmi kadrlarının əldə etdikləri nailiyyətlər dünya alimlərinin nəzər-diqqətini cəlb etmişdir. Belə ki, həmin illərdə, Azərbaycanda kimya, fizika, astronomiya, riyaziyyat, biologiya, fiziologiya, geologiya, coğrafiya və başqa elm sahələrinin alimlərinin nailiyyətləri dünyanın bir çox ölkələrində məşhur idi. Onu göstərmək kifayətdir ki, bəhs olunan dövrdə 5000-ə qədər Azərbaycan alimi xarici ölkələrdə yaradıcılıq səfərində olmuş, 3000-ə qədər öz xarici həmkarını respublikamızda qəbul etmişdir. Ümumiyyətlə, Azərbaycan elmi fikrinin beynəlxalq aləmdə təbliği və onun əlaqələrinin möhkəmləndirilib genişlənməsində Azərbaycan EA-nm rolu əhəmiyyətli olmuşdur. O, təkcə, yuxarıda dediyimiz hallarda yox, həmçinin elmi əlaqələrin başqa formalarında da beynəlxalq əməkdaşlığın mərkəzində dururdu. Bu istiqamətdə, onun elmi ezamiyyət formasında həyata keçirdiyi əlaqələr də təqdirə layiqdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın elm xadimləri beynəlxalq elmi proseslərin, təkcə, bu sadalanan formalarında yox, həmçinin, bu proseslərin digər istiqamətlərində də öz imkanları daxilində iştirak etmişlər. Bu əlaqələr

elmi ədəbiyyat mübadiləsi, beynəlxalq konfransların, simpoziumların və digər elmi forumların keçirilməsi yolu ilə də inkişaf etdirilmişdir. Fərəhləndirici odur ki, beynəlxalq humanitar proseslərin elmi əlaqələrində Azərbaycan elminin bütün əsas istiqamətləri: müasir fizika, texnika, riyaziyyat və kimya elminin nəzəri və praktik sahələri,yer elminin bütün istiqamətləri, neft sənayesi ilə əlaqədar olan elmlər, biologiya, fiziologiya kimi sahələri əhatə edən elmlər iştirak etmişdir.

Beynəlxalq əməkdaşlıq proseslərinin inkişafında Azərbaycanın sosialist ölkələri ilə yaratdığı elmi əlaqələrin çox böyük təsiri göstərmişdir. Azərbaycanın bu ölkələrlə əlaqələri 70-80-ci illərdə çox səmərəli olmuş və miqyası başqa ölkələrlə olan əlaqələrdən həm məzmun və həm də forma etibarı ilə xeyli fərqlənmişdir. Azərbaycanın elmi əlaqələri, hər şeydən əvvəl, bütün sosialist sisteminə daxil olan dövlətlərin ictimai-siyasi, iqtisadi və elmi-texniki potensiallarının inkişafına yönəldilmişdir. Odur ki, həmin ölkələrlə respublikanın bu sahədə olan əlaqələri daha konkret, hərtərəfli və daha sıx olmuşdur. Bu, özünü onda göstərirdi ki, həmin ölkələrin alimləri ilə olan əlaqələr ayrı-ayrı alimlər arasından çıxaraq kollektiv əlaqələrə çevrilmişdir. Bunların potensialı müxtəlif elmi problemlərin birgə həllinə yönəldilmişdir. Bu isə həmin əlaqələrin daha səmərəli və nəticəli olmasına gətirib çıxarmışdır. 80-ci illərdə respublikanın alimləri həmkarları ilə ən ciddi elmi problem üzərində birgə işləmişlər [7, s.130].

Bu dövrdə Azərbaycanda orta və ali təhsil xeyli inkişaf etmişdi. 80-ci illərin sonunda respublikanın məktəblərində 1,5 milyon şagird, 17 ali məktəbdə 100 mindən çox tələbə oxuyurdu. 70-80-ci illərdə Moskva, Leninqrad (Sankt-Peterburq), Kiyev və digər şəhərlərin ali məktəblərində respublikamız üçün 6 mindən çox kadr hazırlanmışdır.

Azərbaycanda milli hərbi kadrlar yetişdirmək və azərbaycanlı gənclərin SSRİ-nin Ali hərbi məktəblərinə daxil olmasını təmin etmək üçün Heydər Əliyevin təşəbbüsü ilə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış orta internat məktəbi açıldı [8, s. 218].

XX əsrin 80-ci illəri Azərbaycan Respublikasının beynəlxalq-mədəni fəaliyyətinin əsas istiqamətlərindən biri də dünyada gedən mənəvi proseslərin inkişafında mədəniyyətimizin rolunun artırılmasından ibarət olmuşdur. Bu da təbiidir. Beynəlxalq mədəni əlaqələr xalqların bir-birini yaxşı başa düşməsinə şərait yaratmış, bir-birini tanımağa, onların bir-birinə yaxınlaşmasına xidmət etmiş və ədalətli beynəlxalq münasibətlərin formalaşması üçün fəaliyyətlərini möhkəmləndirmişdir. Əlaqələrin genişləndirilməsi xalqların və dövlətlərin mənəvi həyatının inkişafını daha da sürətləndirmişdir. Odur ki, tədqiq olunan illərdə Azərbaycan Respublikası özünün beynəlxalq siyasətini müəyyənləşdirərkən bu istiqamətin inkişafına xüsusi fikir vermiş və həmin illərdə beynəlxalq aləmdə dövlətlər və xalqlar arasında mövcud mədəni əlaqələrdə fəal iştirakına çalışmışdır.

Mədəni əlaqələr təkcə Azərbaycan Respublikası tərəfindən beynəlxalq aləmdə inkişaf etdirilən bir proses olmamışdır, bu ümumdünya xarakterinə malik prosesdir. Beynəlxalq mədəni əlaqələrin möhkəmləndirilməsi və onların mənəvi proseslərin inkişafında rolu məsələsi dünyada mövcud olan dövlətlərin xarici siyasətinin mərkəzində durur. Beynəlxalq mədəni əlaqələr, bir güclü proses kimi, dövlətlərin əməkdaşlığını müəyyənləşdirir və onun inkişafına xidmət edən dövlətlərarası müqavilələrin, sazişlərin və bu sahədə tərtib olunmuş əməkdaşlıq sənədlərinin əsas məğzini təşkil etmişdir. Bu əlaqələrin möhkəmləndirilməsi dünyada yaradılmış xüsusi beynəlxalq təşkilatların, o cümlədən BMT-nin elm, təhsil və mədəniyyət təşkilatı olan və tərkibində o dövrdə 160-dan artıq dövləti birləşdirən YUNESKO kimi beynəlxalq təşkilatın fəaliyyətinin əsasını təşkil edir.

Azərbaycan Respublikasının sovetlər imperiyasının tərkibində olmasına baxmayaraq dünyada gedən bütün ictimai-siyasi və mədəni həyatda böyük rol oynamışdır. Azərbaycan mədəni əlaqələrini həm kapitalist və həm də sosialist ölkələrinin bütün sahələrində işıqlandırılmışdır. Bu əlaqələr ölkələrarası müqavilə, əməkdaşlıq sənədləri vasitəsilə həyata keçirilmişdir.

Tədqiq olunan dövrdə Azərbaycan mədəni əlaqələrinin bir sahəsi də dövlətlərarası elmi kütləvi kitab, jurnal yarmarkalarının, sərgilərin keçirilməsi olmuşdur. Bu əlaqələr birgə sex əməkdaşlığının inkişaf etdirilməsinə böyük töhvələr vermişdir.Bu sahədə Azərbaycanın və onun mədəniyyətinin özünəməxsus yeri və payı vardır. Qeyd etmək lazımdır ki, bəhs etdiyimiz dövrdə Azərbaycanın bu sahədəki fəaliyyəti özünəməxsus istiqamətdə inkişaf etmiş və geniş xarakter almışdır. Lakin bir xüsusiyyəti də qeyd etmək lazımdır ki, sosial-iqtisadi və siyasi həyatın başqa sahələrində olduğu kimi, Azərbaycanın beynəlxalq mədəni əlaqələri də o dövrdə tərkibində olduğu SSRİ dövlətinin xarici siyasət sistemi çərçivəsində həyata keçirilirdi. Ancaq bu fakt Azərbaycanın imkanlarını məhdudlaşdıra bilməmişdir [9].

Beynəlxalq mədəni əməkdaşlıq, çoxtərəfli mədəni əlaqələr hər iki dövlətin xarici siyasəti sahəsində müəyyənləşdirdiyi strategiyanın həyata keçirilməsinin mühüm formasıdır. Azərbaycan Şərqlə Qərbin qovşağında yerləşdiyindən, milli mədəniyyətimiz hər iki tərəfin mədəniyyətinin elementlərini özündə birləşdirmişdir. Ona görə də Azərbaycan mədəniyyətinin dünyada qəbul edilməsi, xüsusilə Şərq və Qərb ölkələrinin bizim mədəniyyət və incəsənətimizə maraq göstərməsi təsadüfi deyil. Ikitərəfli mədəni əlaqələrin davam etdirilməsində bir çox ölkələrlə - Rusiya, Çin, Böyük Britaniya, Polşa, Türkiyə, Rumıniya, eyni zamanda Özbəkistan, Gürcüstan, Belorus, Qazaxıstan, Ukrayna ilə mədəni əməkdaşlıq haqqında hökumətlərarası sazişlər bağlanmışdır [10].

Türk xalqlarını birləşdirən ən böyük amillərdən biri də onların eyniköklü mədəniyyətə mənsub olmalarıdır. Bu mədəniyyət onların zəngin tarixi

keçmişindən xəbər verir. Ölkəmiz bütün dövrlərdə qardaş türk dövlətləri ilə mədəni əlaqələrin inkişafına xüsusi diqqətlə yanaşmışdı.

Bu dövlətlərdən bəziləri keçmiş SSRİ tərkibində Azərbaycanla bərabər on beş respublikadan biri olmuşdur. İstər həmin dövrdə, istərsə də müasir zəmanəmizdə Azərbaycan həmin dövlətlərlə qardaş, dost münasibətlərini qoruyub saxlamış, eyni kökdən, soydan olmağımız əlaqələrimizi daha da doğmalaşdırmışdır [11].

80-ci illərdə beynəlxalq əlaqələrin inkişafında milli mədəniyyətimiz, incəsənətimiz də müstəsna rol oynamışdır. Bu illərdə Azərbaycan mədəniyyəti sosialist ölkələrinin mədəniyyəti ilə faktiki olaraq bütün sahələrdə əməkdaşlıq etmişdir. Bu əlaqələrin formaları da müxtəlif idi: mədəniyyət xadimləri və yaradıcı kollektivlərin nümayəndə heyətlərinin mübadiləsi, yazıçıların görüşləri, musiqi və incəsənət işçilərinin yaradıcı əlaqələri, jurnalistlərin səfərləri, kinofilm və radioteleviziya verilişlərinin mübadiləsi və s.

Müxtəlif illərdə sosialist ölkələrində "Qaya" vokal – instrumental ansamblı (CSSR, PRX, Kuba, ADR, MXR, RSR), Azərbaycan dövlət mahnı teatrı (MXR,YSFR, PXR, ÇSSR) böyük ustalıqla, məzmunlu proqramlarla çıxışlar etmişlər. Sosialist ölkələrində Azərbaycan Dövlət Filarmoniyasının estrada ansamblı, konsertin musiqi kollektivi də xeyli məşhur idi. Sosialist ölkələrində "Dan ulduzu", "Göy-göl", "Yallı" rəqs ansamblı da geniş peşəkar auditoriya toplamışdı. Bu məşhur və professional musiqi kollektivləri ilə yanaşı, nisbətən gənc və əsasən həvəskar kollektivlər də sosialist ölkələrinə qastrol səfərləri etmişlər. Bakı məişət kondisionerləri zavodunun "Xəzər" ansamblının 1983-cü ildə Macarıstan və Yuqoslaviya, Neftçala mədəniyyət evinin "Bahar" ansamblının isə həmin ildə Bolqarıstana səfərləri bu baxımdan xüsusən yadda qalan olmuşdur [12].

Azərbaycanın ədəbi əlaqələri müxtəlif forma və istiqamətlərdə həyata keçirilirdi. Yazıçı və şairlərin əsərlərinin qarşılıqlı nəsri və tərcüməsi xüsusiə əhmiyyətli idi. Bu dövrdə müxtəlif sosialist ölkələrində N.Gəncəvi, İ.Nəsimi, C.Məmmədquluzadə, S.Rəhimov, M.İbrahimov, S.Vəliyev, Anar, N.Xəzri, S.Rüstəmin əsərləri müxtəlif dillərdə nəşr olunmuşdur.

Bu illərdə ölkələr içərisində ədəbiyyatımıza maraq hiss ediləcək dərəcədə artmışdı. M.Tokarın slavyan dilində tərcümə etdiyi Azərbaycan folklor nümunələri 1984-cü ildə "Revyn svetovoy literatur" (Dünya ədəbiyyatı jurnalı) jurnalında nəşr edilmişdir. 1984-cü ildə çex nəşriyyatı Anarın "Dairə" və "Beşmərtəbəli evin altıncı mərtəbəsi" əsərlərini çap etmişdi. Polşanın "Kseniya i Vedza" nəşriyyatı İbrahimbəyovun "Park" povestini və digər hekayələrini nəşr etmişdir.

1981-ci ildə Polşa və ADR kitablarının dekadası da mühüm tədbirlərdən biri idi. ADR kitabları dekadasında 200-dən artıq müxtəlif janrlı kitablar nümayiş edilmişdi. 1982-ci ildə isə Polşada yüksək səviyyədə Azərbaycan

dekorativ sənətinin sərgisi təşkil edilmişdir.Bu illərdə Azərbaycan SSR-nin incəsənət nümayəndələri dəfələrlə sosialist ölkələrində qastrol səfərlərində iştirak edərək təxminən 300-dən artıq konsertlər vermiş, müxtəlif mədəni tədbirlərdə iştirak etmişlər [13].

Azərbaycan Respublikası hazırda dünyada gedən siyasi, iqtisadi, mədəni proseslərdə layiqincə təmsil olunur. Milli mədəniyyətimizin təbliği istiqamətində aparılan siyasət ölkəmizin beynəlxalq miqyasda daha yaxından tanınmasında əhəmiyyətli rol oynayır.

Beynəlxalq elmi və mədəni əməkdaşlıq, çoxtərəfli əlaqələr Azərbaycanın xarici siyasət sahəsində müəyyənləşdirdiyi strategiyanın həyata keçirilməsinin mühüm formasıdır.

Bu gün Azərbaycan elmi və mədəniyyəti dünyaya yüksək sürətlə inteqrasiya edilməkdədir. Dünyanın nüfuzlu beynəlxalq təşkilatları, Azərbaycan mədəniyyəti və elmi ilə yaxından maraqlanırlar. Beynəlxalq festivallarda, konfrans və seminarlarda Azərbaycanın incəsənət nümunələri nümayiş olunur, incəsənət xadimləri tədbirlərdə iştirak edərək, ölkəmizin elmi - mədəni nailiyyətlərini dünyaya tanıdırlar. ABŞ, Kanada, Rusiya, Çin, Yaponiya, Misir, Qətər, Qazaxstan, Yunanıstan və b. ölkələrdə keçirilən Azərbaycan mədəniyyəti günləri son illər daha genişlənmişdir.

Azərbaycan artıq dünyanın nüfuzlu beynəlxalq mədəni tədbirlərinə xüsusi olaraq dəvət alır. Rəsm sərgiləri, folklor festivalları, klassik və müasir musiqi festivalları, kitab sərgiləri və s. dünya birliyinin bir parçası olaraq layiqincə təmsil olunur. Azərbaycan mədəniyyətinin bütün sahələrini dünyaya tanıtmaq və mədəni əlaqələrin inkişafı dövlətlər və xalqlar arasında simvola çevrilir.

## Ədəbiyyat:


1. "Azərbaycan" qəzeti, 1 may 2010-cu il
2. "Azərbaycan tarixi". 7 cilddə. 7-ci cild, Bakı: 2008. 270 s.
3. XX əsr Azərbaycan tarixi. II cild. Bakı: 2009. 400 s.
4. AEA arxivi. F.z.siy 3; is 4384, s.101
5. AEA arxivi. siy. 1, is 5520, №126-128
6. "Vışka" qəzeti, 1983, 15 aprel
7. Sayadov S A. XX əsr: Azərbaycan və dünya. Bakı: 2006. 130 s.
8. Həsənov V S. Azərbaycan tarixi 1920-1991-ci illər. Bakı: 2016. 218 s.
9. Hürriyyət – 2019, 26-28 oktyabr səh.14
10. Respublika qəzeti, 2023, 30 avqust
11. Azərbaycan Respublikası Dövlət Elm və Texniki sənədlər arxivi. F51, siy.2, iş 7, v.12
12. "Elm" qəzeti 28 oktyabr, 1989-cu il.
13. "Tədqiqatçı" jurnalı № 8, 1980-ci il. səh.11

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCANIN MEMARI VƏ QURUCUSUDUR

**Eldar Muxtarlı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
***Muxtarli1973@mail.ru***
**Vəlyəddin Müsəllimov**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*veliyeddinmudalimov@gmail.com*
**Zərəngiz Qasımova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*qasımovazringiz@gmail.com*

***Açar sözlər:*** *Heydər Əliyevin zəngin siyasi təcrübəsi, yüksək təşkilatçılıq qabiliyyəti, idarəetmə şəristəsi, müasir Azərbaycanda idmanın və mədəniyyətmizin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində gördüyü nəhəng işlər.*

*Heydər Əliyev müstəqil Azərbaycanın memarı və qurucusudur. Müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi, dövlətçilik ənələrinin davam etdirilməsi və yeni dövrün tələblərinə uyğun zənginləşdirilməsi, ölkəmizin dünya birliyinə inteqrasiyası onun tərəfindən yaradılmış uzunmüddətli strateci kursunun ilk bəhrəsidir. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atmışdır. Azərbaycan təhsilinin çiçəklənməsində və inkişafında görkəmli dövlət xadimi, Ümummili lider Heydər Əliyevin müstəsna xidmətləri əvəzsisdir. Xalqımızın Ümummilli lideri, dahi şəxsiyyət olan Heydər Əliyev istər Sovet dövründə, istərsə də ölkəmiz müstəqillik qazandıqdan sonra Azərbaycana rəhbərlik etdiyi bütün illərədə idmana, onun inkişafına və maddi-texniki bazasının möhkəmləndirməsinə, idmançılara dövlət səviyyəsində qayğı göstərilməsinə xüsusi diqqət yetirmiş, fiziki cəhətdən sağlam gənc nəslin yetişdirilməsi məsələsini daim nəzərdə saxlamışdır.*

## ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ – АРХИТЕКТОР И ОСНОВАТЕЛЬ НЕЗАВИСИМОГО АЗЕРБАЙДЖАНА

**Eldar Mukhtarlı**
**Валяддин Мусаллимов**
**Зарענгиз Гасымова**

***Ключевые слова:*** *Высокие организаторские способности Гейдара Алиева, политический работа в области сохранения и развития спорта, культуры в современном Азербайджане.*

*Гейдар Алиев – архитектор и основатель независимого Азербайджана. Гейдар Алиев предпринял важные шаги по формированию Национальной армии и созданию вооруженных сил, а также по защите наших земель. Исключительные заслуги общенационального лидера Гейдара Алиева бесценны. Гейдар Алиев уделял особое внимание спорту, его развитию и укреплению материально-технической базы, заботе о спортсменах на государственном уровне и воспитания физически здорового молодого поколения.*

## NATIONAL LEADER HEYDAR ALIYEV IS THE ARCHITECT AND FOUNDER OF INDEPENDENT AZERBAIJAN

**Eldar Mukhtarlı**
**Valyadin Musallimov**
**Zarengiz Gasimova**

***Key words:*** *High organizational skills of Heydar Aliyev, political work in the field of preservation and development of sports and culture in modern Azerbaijan.*

*Heydar Aliyev is an architect and founder of independent Azerbaijan. Heydar Aliyev took important steps to form the National Army and create armed forces, as well as to protect our lands. The services of national leader Heydar Aliyev are priceless. Heydar Aliyev paid special attention to sports, its development and strengthening of the material and technical base, caring for athletes at the state level and raising a physically healthy younger generation.*

Müasir Azərbaycan tarixinin çox önəmli və əhəmiyyətli mərhələsi – XX əsrin 60-cı illərindən –XXI əsrin əvvələrinədək olan dövru ümummilli lider, görkəmli sərkərdə Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin

Azərbaycan xalqının ictimai – siyasi tarixində siyasi lider, şəxsiyyət kimi çox mühüm yeri var.

Heydər Əliyevin zəngin siyasi təcrübəsi, yüksək təşkilatçılıq qabiliyyəti, idarəetmə şəristəsi, mədəniyyətmizin, mənəvi dəyərlərmizin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində gördüyü nəhəng işlər, dövlətçiliyimizin möhkəmləndirilməsi naminə göstərdiyi fədakarlıqlar hələ bundan sonrada çox öyrəniləcək, gələcək nəsillər bu zəngin irsə müraciət edərək, faydalanacaq, onun cəmiyyətimizin bütün sahələrinə aid olan qiymətli fikirlərindən, ideyalarından bəhrələnəcəklər.

Heydər Əliyev müstəqil Azərbaycanın memarı və qurucusudur. Müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi, dövlətçilik ənələrinin davam etdirilməsi və yeni dövrün tələblərinə uyğun zənginləşdirilməsi, ölkəmizin dünya birliyinə inteqrasiyası onun tərəfindən yaradılmış uzunmüddətli strateci kursunun ilk bəhrəsidir.

Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına layiq görülmüşdür. O, dörd dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallara təltif edilmiş, ilk dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur.

Azərbaycan son otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqitsadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə əlaqədardır.

Heydər Əliyevin rəhbərlik etdiyi dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti , böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərinin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır [1. s. 35].

Azərbaycan xalqı milli dövlətçiliyinin dağılmaq təhlükəsi qarşısında qaldığı ən ağır günlərini yaşadığı bir zamanda 1993-cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini təkidlə tələb etmiş və həmin vaxtdan taleyini yenə Heydər Əliyevə etibar etmişdir. Xalqının belə bir gündə qaldığını görüb onun təklikdə dəvətini qəbul edən Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtmışdır. Xalq Heydər Əliyevin Azərbaycanda yenidən böyük siyasətinə qayıtmışdır. Xalq Heydər Əliyevin bu qayıdışını ümid və sevinclə qarşılamış, həmin günü isə Milli qurtuluş günü kimi müstəqil Azərbaycanın tarixinə yazmışdır.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, iqtisadi, elmi-mədəni həyatında beynəlxalq əlaqələrdə dönüş yaranmış, elmi əsaslarla, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanmışdır. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun

formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atmış, atəşkəsə nail olunmuş Heydər Əliyevin qətiyyəti sayəsində alınmış dövlət müstəqilliyi qorunub saxlanılmışdır. Məhz buna görədə ölkəmizdə müstəqil dövlət yaranması və dövlət quruculuğu prosesi böyük vüsət almışdır ki, bunun da əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyası təşkil edirdi. Ondan sonrakı dövürdədə Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi, və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi şəxsən Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, olkədə insan hüquqi və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatlara əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlamışdır.

Heydər Əliyev müstəqillik, azərbaycançılıq, dövlətşilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsasını qoymuşdur.

Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yanaşmaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur.

Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının islahatlarını həyata keçiirlməsi, prioritet sahələr olmuşdur.

Heydər Əliyevin bizim üçün qoyduğu zəngin və əvəzsis irs xalqımızın gələcək inkişaf perespektivlərini müəyyən edən fundamental fəaliyyət proqramıdır. Xoşbəxt gələcəyimizə təminat verən çoxcəhətli, zəngin fəaliyyət proqramının ən mühüm qollarından birini ordu quruculuğu təşkil edir və bu istiqamətdə Heydər Əliyev fəaliyyətinin qlobal miqyasını və əhəmiyyətini dərk etmək üçün Azərbaycan reallığına təkcə bu gün yox, həm də keçmişin və uzaq gələcəyin prizmasından baxmaq lazımdır.

Azərbaycan təhsilinin çiçəklənməsində və inkişafında görkəmli dövlət xadimi, Ümummili lider Heydər Əliyevin müstəsna xidmətləri əvəzsisdir. Heydər Əliyev ölkənin, xalqın hərtərəfli rifahı və uğur qazanmasında təhsilin xüsusi rolunu həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Ulu Öndər bu barədə deyirdi: “Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir [2. s. 48].

Ümummilli Lider hər bir vətəndaşın həyatını düzgün qurmasını və cəmiyyətdə mövqeyinin formalaşmasını həmişə ön plana çəkərək söyləmişdir:

"Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir" Heydər Əliyev bütün həyatı boyu öz xeyirxah əməlləri və ədalətli mövqeyi ilə xalqımızın güvənc yerinə çevrilmişdir. İstər müasir tələbata uyğun elmi kadrların hazırlanmasında, istər Azərbaycan Respublikasının beynəlxalq aləmə və qlobal iqtisadi mühitə sürətlə inteqrasiya etməsində, istərsə də ölkənin sosial-iqtisadi istiqamətlərdə ciddi uğurlar qazanmasında məhz Heydər Əliyevin rəhbərliyi ilə reallaşan tədbir və islahatların rolu danılmazdır.

Heydər Əliyevin bir dövlət və siyasi xadim kimi ölkə, milli iqtisadiyyat, eləcə də onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən ciddi uğurların əsas təkanvericisidir. Məhz bu yanaşmanın nəticəsidir ki, sosial-iqtisadi və siyasi istiqamətlərdə qazanılmış müvəffəqiyyətlər biri-birinə təkan verməklə, vahid bir prosesə çevrilir. Eyni zamanda, əsas uğurlardan biri də ondan ibarətdir ki, həyata keçirilən islahatlar içərisində elmin inkişafı prioritet kimi qəbul edilir və həyata keçirilən bütün islahatlar elmi cəhətdən əsaslandırılır. Ümummilli Lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır.

Ulu Öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi

olmuşdur. O, öz çıxışlarının birində demişdir: "Ölkələr arasında dostluq münasibətlərinin möhkəmləndirilməsinə mədəniyyət və elm sahəsində əlaqələrin təsiri böyükdür" [1, s.94]. Heydər Əliyev milli müstəqillik siyasətində milli iftixar hissinə, onun gənclərdə tərbiyə edilməsinə çalışır, gənc nəslə xalqımızın milli mənəvi dəyərlərinə hər zaman hörmətlə yanaşmağı, bu dəyərlərin qorunmasını, inkişafını və gələcək nəsillərə ötürülməsini aşılayırdı. "Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik." [2, s.76]. Azərbaycan xalqının tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hər bir müstəvidə bərpa etməsi Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında ən böyük xidmətlərindən olmuşdur. Hazırda ölkə Prezidenti cənab İlham Əliyev "Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu". Beynəlxalq elmi konfrans. 8 may 2021-ci il. Bakı 13 tərəfindən bu istiqamətdə aparılan işlər Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir. Azərbaycan təhsilinin bütün pillələrində onun hərtərəfli rolu hər zaman ön plana çəkilmiş, təhsil sahəsində aparılan islahatlar daim yenilənmiş və təhsilin beynəlxalq əlaqələri genişlənərək dünya təhsil sistemində inteqrasiyası intensivləşmişdir. Heydər Əliyev siyasətinin layiqli davamçısı Cənab İlham Əliyevin Azərbaycan təhsilinə göstərdiyi xidmət müstəsna əhəmiyyətə malikdir. İlham Əliyevin xüsusi qayğısı sayəsində təhsil sahəsində ən diqqətçəkən nəticələr ölkədə məktəb tikintisinin geniş vüsət alması ilə bağlıdır. Bu problemin həlli – məktəbəqədər təhsil müəssələrinin tikilməsi və yenidən qurulması, məktəblərdə əsaslı təmir-tikinti işlərinin aparılması, müasir tipli yeni təhsil ocaqlarının inşası regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında, ölkə başçısının fərman və sərəncamlarında öz əksini tapmışdır. Hətta sağlamlıq imkanları məhdud şəxslərin təhsildən geri qalmaması ölkə Prezidentinin daim diqqət mərkəzində olmuş və son dövrlər bu istiqamətdə mühüm işlər görülmüş, yeni Dövlət Proqramları hazırlanmışdır. Azərbaycanda təhsilin inkişafı xalqımızın gələcəyi üçün sağlam vətəndaşların yetişdirilməsinin qarşısında duran ən başlıca vəzifələrdən biridir. Ölkəmizdə nə qədər milli ruhda böyüyən, şüurlu, tərbiyəli gənclər olacaqsa dövlətimiz bir o qədər də çiçəklənəcək, inkişaf edəcəkdir. Sağlam gənclik – sağlam gələcəkdir. Məhz bu səbəbdən də tolerant, multikultural fikirlərə hörmətlə yanaşan bir cəmiyyətdə böyüyən uşaqların, gənclərin təlim-tərbiyəsi çox vacib və mühüm məsələlərdəndir. Məhz Heydər Əliyev Azərbaycan həqiqətlərini qətiyyətlə bütün dünyaya tanıda bilmişdir. Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyi bacarmışdır.

Onun rəhbərliyi əsasında ölkədə bütün sahələrdə inkişafın davamlı əsası qoyulmuşdur. Heydər Əliyev idmanı dövlət siyasətinin mühüm qollarından biri

kimi ayırmış, onu ümummilli mədəniyyətin tərkib hissəsi saymışdır. Heydər Əliyevin müxtəlif çıxışlarında səslənmiş "İdman hər bir xalqın mədəniyyətinin hansı səviyyədə olduğunu göstərir. Bizim idmanımızın səviyyəsi qalxdıqca, onunla bərabər Azərbaycan xalqı, Azərbaycanın mədəniyyətidə yüksəlir" kimi fikirləri deyilənləri bir daha təsdiq edir [3. s. 10-29].

Xalqımızın Ümummilli lideri, dahi şəxsiyyət olan Heydər Əliyev istər Sovet dövründə, istərsə də ölkəmiz müstəqillik qazandıqdan sonra Azərbaycana rəhbərlik etdiyi bütün illərədə idmana, onun inkişafına və maddi-texniki bazasının möhkəmləndirməsinə, idmançılara dövlət səviyyəsində qayğı göstərilməsinə xüsusi diqqət yetirmiş, fiziki cəhətdən sağlam gənc nəslin yetişdirilməsi məsələsini daim nəzərdə saxlamışdır. Heydər Əliyev müxtəlif görüş və çıxışlarında idmanın, xalqın və dövlətin həyatında necə böyük əhəmiyyət kəsb etdiyini diqqət mərkəzinə çəkərək bu istiqamətdə iş görməyin vacibliyini xüsusi vurğulamış, idmanın inkişaf etdirilməsini həmişə dövlətin mühüm vəzifələri sırasına daxil etmişdir. Ümummilli lider Heydər Əliyev görüşlərin birində danışarkən demişdir: "Biz respublikamızda əhalimizin, millətmizin sağlamlığı haqqında, fiziki mənəvi sağlamlığı haqqında düşünürük. Bu gün də düşünürük, xalqımızın gələcəyi üçün düşünməliyik. Bu bizim vəzifələrimiz içərisində ən böyük, ən əhəmiyyətli vəzifədir".

Müdrik Prezidentimiz dərin zəka sahibi olduğu kimi, fenomental yada-şada malik idi. Heç nəyi unutmurdu. Beynəlxalq yarışlarda, çempionatlarda qazanılan hər bir naliyyəti həmişə yüksək dəyərləndirər və laiqincə qiymətləndirərdi. Qazanılan uğurlara görə hər bir idmançının ünvanına xoş sözlər deməklə onları gələcək yarışlarda qələbəyə ruhlandırırdı.

Idmançılar bilirdi ki, hər ilin sonunda ümummilli lider təkrar görüşəcək, il ərzində baş vermiş idman hadisələrindən danışacaq, beynəlxalq yarışlardakı çıxışlarla münasibətini bildirəcək və tövsiyələrini verəcəkdir. Heydər Əliyev bütün yarışlarda qalib gəlməyin mümkün olmadığını, yaxud çox çətin olduğunu idmançılarla görüşlərində deyirdi. Onun bu fikirləri idmançıları psixoloji gərginlikdən qurtarırdı və onlar başa düşürdülər ki, Prezidentin ehtimadını doğrultmaq üçün bütün bacarıqlarını, gücünü səfərbər etməli, axıra qədər mübarizə aparmalıdırlar. Onu da bilirdilər ki, ümummilli əbədi liderimiz həmdə son dərəcə obyektiv şəxsiyyət idi. Əgər rəqib güclü olsa belə, inanırdılar ki, mübarizələri, çıxışları obyektiv qiymətləndiriləcək. Bu da onlara həmişə ruh və güç verir, qəlblərini əqləbə əzmi ilə doldururdu.

Heydər Əliyev 2000-ci il Sidney Yay Olimpiya Oyunlarından əvvəl idmançılarla görüşdə dediyi sözlər, verdiyi xeyir-dua həmişə qulaqlarda səslənir:

"Mən sizə deyirəm ki, yolunuz uğurlu olsun !

Mən sizə deyirəm ki, sağ-salamat gedib, Azərbaycana qayıdasınız!

Mən sizə deyirəm ki, Azərbaycan xalqı sizi səbirsizliklə gözləyəcək və hərarətlə qarşılayacaqdır. Sizdən aslı olan odur ki, buraya alnı açıq, üzüağ qayıdasınız. Mən buna inanıram və inamla da sizə can sağlığı arzu edir, beynəlxalq əhəmiyyəti olan bu böyük işdə sizə böyük uğurlar arzulayıram"

Sidneydəki qələbəmiz məhz bu müdrik el atasının xeyir duasınını nəticəsi, arzusunun həqiqətə çevrilməsi idi. Əziz Prezidentimiz bu sözləri ürəkdən deyirdi. O, uğurla çıxış etməyi, uzaq Avstraliyada doğma Azərbaycanımızın üç rəngli bayrağının dalğalanmasını, dövlətmizin himninin səslənməsinə nail olmasını bütün idmançılardan da daha çox istəyirdi.

Olimpiyadadan qayıtdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti idmançıları yenə də təntənəli sürətdə qəbul etdi. Idmançılarımıza mükafatlar verdi, onları dövlət orden və medalları ilə təltif etdikdən sonra dediyi "Olimpiyaçılarımız, siz Azərbaycan xalqının nəyə qadir olduğunu dünyada bir daha nümaiş etdirdiniz" sözləri indidə qulaqlarda səslənir.

Azərbaycanın ilk dəfə Olimpiya oyunlarındakı böyük qələbələrinə iqymət verərək, BOK-un prezidenti cənab X.A.Samarançın Prezidentimizə göndərdiyi təbrik teleqramı və olimpiyadanın yadigar gümüş medalını təqdim etmək MOK-un baş katibi kimi A.Abiyev həvalə olunmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev indi aramızda yoxdur. Lakin, bu cür dahilər ölməzdir. Indi, bizə təsəlli verən orur ki, ölkəmizdə idmana və idmançılara olan yüksək qayğını qoruuyub saxlayan Heydər Əliyev siyasəti davam etdirilir. Bütün xalqımız böyük tarixi şəxsiyyətin siyasi xətinin layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevə və ölkəmizin xoş gələcəyinə inanırlar [4. s. 52-62-72-93].

## Ədəbiyyat:

1. Əliyev H. Müstəqilliyimiz əbədidir. 1-ci cild. Bakı – 2013 ci il.

2. Heydər Əliyev və Azərbaycan tarixi: ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə keçirilmiş Bakı məktəblilərinin elmi-praktik konfransında Bakı: Şərq-Qərb, 2022.- ci il.

3. Səmədov A. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xidmətlərinə qayğısı. Gəncə-2010 ci il.

4. Müasir Azərbaycanda İdman siyasəti. Gənclər və idman nazirliyinin elmi-praktik konfransının materialları. Bakı-2011 ci il.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2023, 4 (41), s.71-81

# İRƏVAN QUBERNİYASINDA SU SAHƏLƏRİ VƏ SUDAN İSTİFADƏDƏ NARAZILIQLAR HAQQINDA (1890-1917)

**Elzin Qarayev**
AMEA-nın A.A.Bakıxanov adına Tarix
və Etnologiya İnstitutu
elchin_garayev@mail.ru

***Açar sözlər:*** *İrəvan, quberniya, qəza, kənd, su, sahə, dairə, suvarma*

*Məqalə XIX əsrin sonu-XX əsrin əvvəllərində İrəvan quberniyasında mühüm və vacib problemlərdən biri olan su sahibliyi və sudan istifadə məsələsinə həsr edilmişdir. Azərbaycanda, o cümlədən İrəvan quberniyasında kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar olaraq suvarmaya tələbatın artması, çar hakimiyyət orqanlarını suvarma sahəsində ciddi qayda-qanun yaratmağa məcbur edirdi. Verilən qanunlar nəticəsində suvarma üzrə inzibati idarələr-su sahələri və onlara tabe olan su dairələri yaradıldı. Lakin bu qanunun çatışmazlığı üzündən sudan istifadə qaydalarında mübahisələrin və narazılıqların qaşısını ala bilmədi. Arxiv sənədlərində su üstündə quberniyada baş vermiş davalar haqqında xeyli məlumatlara rast gəmək mümkündür.*

## О ВОДНОЙ УЧАСТКЕ И НЕДОВОЛЬСТВЕ ВОДОПОЛЬЗОВАНИЕМ В ИРЕВАНСКОЙ ГУБЕРНИИ (1890-1917 ГГ.)

**Эльчин Гараев**

***Ключевые слова:*** *Иреван, губерния, уезд, село, вода,участка, округ, орошение*

*Статья посвящена вопросу водной участке и водопользования, который был одной из важнейших и важных проблем в Иреванской губернии в конце 19-начале 20 века. В связи с развитием капиталистических отношений в сельском хозяйстве Азербайджана, в том числе и в Иреванской губернии, увеличение потребности в орошении заставило царские власти создать строгие правила в области орошения. В результате данных законов были созданы административные ведомства по ирригации- участки и подчиненные им округи. Однако из-за отсутствия этого закона она не могла столкнуться с противоречиями и недовольством правилами водопользования. В архивных документах*

*можно найти много сведений о боях, происходивших в губернии из-за воды.*

## ABOUT THE WATER AREA AND DISSATISFACTION WITH WATER USE IN THE IREVAN GOVERNORATE (1890-1917)

**Elchin Garayev**

***Key word:*** *Irevan, governorate,, district, village, water,area, district, cultivation*

*The article is devoted to the issue of the water area and water use, which was one of the most important and important problems in the Irevan governorate in the late 19th and early 20th centuries. In connection with the development of capitalist relations in the agriculture of Azerbaijan, including in the Irevan governorate, an increase in the need for irrigation forced the tsarist authorities to create strict rules in the field of irrigation. As a result of these laws, administrative departments for irrigation were created - area and districts subordinate to them. However, due to the absence of this law, she could not face contradictions and dissatisfaction with the rules for water use. In archival documents, you can find a lot of information about the battles that took place in the province because of the water.*

İrəvan bölgəsində tarixən kənd təsərrüfatının inkişafında süni-suvarmanın böyük rolu olmuş, bu sahədə müəyyən qayda-qanun yaradılmışdır. Rusiya işğalından sonra da, çar hakimiyyət orqanları uzun müddət bu sahədə köhnə qayda-qanunu saxlamış, lakin kənd təsərrüfatı məhsullarına təlabatın artması ilə əlaqədar olaraq bu sahədə yeniliklər etməyə məcbur olmuşdular. Qeyd etmək lazımdır ki, İrəvan quberniyasında ənənəvi olaraq suyun bölüşdürülməsinə mirablar, onlara tabe olan cuvarlar başçılıq etmişdilər. Mirab su işində həm inzibati, həm də məhkəmə hüququna malik idi. O, mahalları gəzir, ona tabe olan cuvarların işinə nəzarət edir, icmalar və yaxud icma qrupları arasında suyun bölüşdürülməsinə nəzarət edir, arxlarda su bölgüsünün işarələrini qoyur və qanun pozuntularının qarşısını alırdı. Lakin mirabların fəaliyyəti ideal deyildi, onlar tərəfindən sui-istifadə hallarına və qanun pozuntusuna rast gəlinirdi [14, s.23; 15, s.144-146].

Lakin mirabların fəaliyyəti nəinki yerli əhalinin, hətta çar hakimiyyət orqanlarının da narazılığına səbəb olurdu. 1872-ci ildə İrəvan qubernatoru olmuş general-leytenat Karmalin su üstündə kəndlər arasında şikayətlərin çoxalmasını və mirabların öz vəzifəsindən sui-istifadə etmələrini nəzərə alaraq mirabları qəza rəislərinə tabe olmaları haqqında göstəriş vermişdi [8, s.75-76]. Lakin bu da mirabların özbaşnalığının qarşısını ala bilmədi.

**Süni suvarmada yeni inzibati idarə orqanlarının, qayda qanunların və su sahələrinin yaradılması**. Çar hakimiyyət orqanları süni-suvarmanı nəzarətdə saxlamaq və bu sahədə idarə sistemini daha da yaxşılaşdırmaq üçün 1890-cı il dekabrın 3-də Cənubi Qafqaz bölgəsi üçün yeni qanun vermək məcburiyyətində qaldı. Bu qanun sudan istifadə qaydalarının rəsmiləşdirilməsində böyük rol oynamış, Cənubi Qafqazın ayrı-ayrı quberniyalarında su sahələri və onlara tabe olan su dairələri yaradılmışdı. Həmin qanuna əsasən, su müfəttişliyi və su mühəndisliyi vəzifələri təsis edilmiş, onların vəzifəsi mirab və cuvarların işinə nəzarət etmək idi. “Əsasnamə”yə görə, Qafqazda yaradılmış vahid idarə orqanı olan su müfəttişliyi, 1911-ci ildən etibarən Qafqaz su idarəsi adı ilə fəaliyyət göstərməyə başlamışdı [16, s.762; 7, s.85-86; 7, s.91]. Bu su idarəsinin iqamətgahı Tiflisdə yerləşirdi. Su müfəttişi bütün Qafqazın suvarma sistemini Tiflisdən idarə edirdi və yerlərdə fəaliyyət göstərən su mühəndisləri ilə vasitəsiz əlaqə saxlayırdı. Onun yanında hüquq məsləhətçisi və dəftərxana da fəaliyyət göstərmişdi. Su müfəttişinin əsas vəzifəsinə bunlar aid idi: yerlərdə su mühəndisinin işinə nəzarət etmək; qüvvədə olan qanunlar yarımçıq və aydın olmadıqda, su məsələsində sual yarandıqda həqiqəti üzə çıxarmaq; su dairəsini hissələrə bölmək; suvarma sistemindən istifadə etmək hüququ haqqında vəsiqə vermək. Su müfəttisi eyni zamanda ona aid olan məsələlərin müzakirəsində Qafqazda Baş Rəisliyin yanında Mülki hissə Şurasının üzvi idi [16, s.762].

Bu qanunda yerlərdə su işinə nəzarət edən hər bir məsul şəxsin vəzifələri və görəcəkləri işlər ətraflı təsvir edilmişdir. Cənubi Qafqazda su sahələrinə və yaxud mahallara bölünmüş bütün su məntəqələri su mühəndisinin nəzarətində idi. Hər bir mahalın isə öz inzibati şöbəsi var idi. Bu şöbəyə mirab başçılıq etmiş, ona cuvar və su nümayəndələri tabe olmuşdu. Lakin yeni qanuna görə süni suvarmanın yerlərdə əsəs başçısı su mühəndisi idı. Hər bir su mühəndisinin yanında konduktor fəaliyyət göstərmişdi. Su mühəndislərinin vəzifəsinə aid idi: a) hər hansı dairədə sudan istifadə etmək hüququ idarəsinin sədri; b) su idarəsində iştirak edən edən şəxslərə nəzarət etmək; v) çaydan çəkilmiş kanalların planını tərtib etmək; q) çayda, arxlarda və suvarılan sahədə suyun miqdarını təyin etmək; d) suvarma qurğularının layihəsini tərtib etmək; e) sərbəst qalmış suyun miqdarını həmçinin xüsusi yerlərin qurudulması, daşqından qorumaq haqqında xəbər toplamaq; j) belə işlərin görünməsinin layihəsini, xərcini tərtib etmək; z) təstiq edilmiş layihələrin icrasını yerinə yetirmək [16, s.762].

Su mühəndisinə yerlərdə mirab, cuvar və su nümayəndəsi tabe idi. Bu qanunda onların hər birinin özünəməxsus vəzifələri təsvir edilmişdir. Dairə mirabı əhali tərəfindən üç illiyə seçilirdi. Onun vəzifəsinə daxil idi: a) əsas mənbədən çəkilmiş suyun kanallar üzrə bölüşdürülməsi; b) cuvarların işinə nəzarət etmək; v) su nümayəndəsinin nəzarət etdiyi kənd və şəhərlərin daxilində su bölüşdürülməsində qaydaların pozulması istisna olmaqla su bölgüsündə

pozulmuş qaydanı bərpa etmək; q) iştirakçıları cuvarların tələblərinə uyğun sudan istifadə qaydasına məcbur etmək; d) sudan istifadə qaydasının gözlənməsinə ciddi nəzarət etmək [16, s.762].

Cuvar əhali tərəfindən bir illiyə seçilirdi. Onun vəzifəsinə daxil idi; a) arxların işlək qaydada olması, suyun miqdarına nəzarət etmək, arxlar vasitəsilə kəndlərə və xüsusilə mülklərə suyun bölüşdürülməsi; b) suyu oğurlanmaqdan qorumaq [16, s.762]. Su sistemində sonuncu cavabdeh şəxs su nümayəndəsi idi. Nümayəndənin vəzifəsinə daxil idi: a) sahibkarlar arasında suyun bölüşdürülməsinə, kənd və şəhərləri təmin edən arxların işlək qaydada olmasına nəzarət etmək; b) suyu oğurlamaqdan qorumaq; v) sudan istifadə qaydalarını pozulmasını xəbərdar etmək; q) qayda pozuntusunu bərpa etmək [16, s.763].

Su dairə sistemində çalışan hər bir nümayəndə öz vəzifəsinə və hərəkətinə cavabdeh idi. Onlar vəzifələrindən sui-istifadə etdikdə və qaydaları pozduqda pulla cərimələnirdilər. Bu cərimənin miqdarı su mühəndisinin qərarı ilə 1 rubldan 50 rubla qədər idi. Şikayət birbaşa su müfəttişinə göndərilirdi [16, s.763].

3 dekabr 1890-cı il qanunu 1891-ci il aprelin 1-dən qüvvəyə mindi. Qanun qüvvəyə mindikdən sonra Cənubi Qafqazda su idarələri-su sahələri və onlara tabe olan su məntəqələri yaradıldı. Nəticədə 1891-ci ildə Cənubi Qafqazda 6, 1893-cü ildə daha 2 su sahəsi və 1904-cü ildə isə yeni 1 su sahəsi yaradıldı. Beləliklə, Cənubi Qafqazda 9 su sahəsi yaradıldı [1, s.7; 7, s.88]. Bu bölgü 1917-ci ilə qədər davam etmişdi. Yaradılan hər bir ümumi su sahəsinə airı-ayrı quberniyalar üzrə bir neçə su dairəsi daxil idi. Yaradılan hər bir su dairəsi müəyyən çay hövzəsinin və ya inzibati ərazini əhatə edirdi [7, s.89]. Bu su sahələrinin yaradılmasının əsas səbəbi suvarma sistemində nizam-intizam yaratmaq, kəndlər arasında mübahisəli məsələləri və bu sahədə olan problemləri tez bir zamanda aradan qaldırmaq idi.

Verilən qanun Azərbaycanın ayrılmaz tərkib hissəsi olan İrəvan quberniyasına da şamil edilmişdi. 1893-cü ildə İrəvan quberniyası iki su -2-ci və 8-ci su sahələrinə bölünmüş, 1904-cü ildə isə burada daha bir-7-ci su sahəsi yaradılmışdı. 1895-ci il məlumatına görə, İrəvan quberniyasında 2-ci və 8-ci su sahələrinə 15-ə qədər su dairəsi daxil idi. Hər bir qəza bir neçə su dairəsinə bölünmüşdü. Həmin dairələr qəzalar üzrə belə bölünmüşdü: İrəvan qəzasında 4 su dairəsi-Qırxbulaq, Zəngibasar, Gərnibasar və Vedibasar; Naxçıvan qəzasında 4 su dairəsi-Xok, Naxçıvan, Əlincəçay və Dostu; Sürməli qəzasında 2 su dairəsi-Sürməli və Parçin; Üçmüəzzin qəzasında 3 su dairəsi-Abaran, Sərdarabad və Talın; Şərur-Dərələyəz qəzasında 1 su dairəsi; Aleksandropol qəzasında 1 su dairəsi. Mənbənin verdiyi məlumata görə, bu siyahıda Yenibəyazid qəzası göstərilməsə də, lakin bu qəzada iki su dairəsinin açılması nəzərdə tutulmuşdu [9, s.4].

Su sahələri yaradıldıqdan sonra İrəvan quberniyasında sudan istifadədə müəyyən işlər görülmüşdur. Quberniyasında açılan su dairələrində xüsusi tədqiqat işi aparılmış, bu dairələrdə suyun, suvarılan torpaqların miqdarı, əkilən kənd təsərrüfatı bitkilərinin növü, həmçinin su arxlarının sayı və çəkiləcək arxların layihələri haqqında məlumat toplanmışdır. Bundan əlavə, su dairələri açılan vaxtdan 1896-cı il yanvarın 1-ə qədər quberniyada suvarma sistemində müəyyən işlər görülmüş, kəndlər arasında su üstündə mübahisəli məsələlərə aydınlıq gətirilmiş, əlavə arxlar çəkilmiş və qazılacaq arxların layihələri hazırlanmışdır. Həmin məsələlər bunlardır; 1. İrəvan qəzasında Ərdəşar və Məsumlu kəndləri, Dvin və Dvin-Kürdkənd kəndləri arasında çoxdan mövcud olmuş su mübahisələrinə son qoymaq üçün əlavə arxlar qazılmış, Divin və Ərdaşar arxlarına xüsusi şülüzlər qoyulmuşdur; 2. Yeni ümumi arxın çəkilməsi nəticəsində Aytaq, Samaqar və Zeyvə kəndləri arasında iyrimiillik mübahisəyə son qoyulmuş, həmin kəndlər və Üçmüəzzin qəzasında Tos kəndi arasında sudan istifadədə qayda-qanun yaradılmışdır; 3. Üçmüəzzin qəzasında Azərbaycan türk kəndi olan Zeyvə və Körpəli kəndləri arasında sudan istifadəni düzgün təmin etmək üçün Körpəli arxında şülüz qoyulmuş və üç verst uzunluğunda əlavə arx çəkilmişdir; 4. İrəvan qəzasında Uluxanlı arxından istifadəyə görə, Uluxanlı, Hacı İlyas və Ağcaqışlağı kəndləri arasında uzunmüddətli mübahisələrə son qoyulmuşdur; 5. Həmçinin əlavə ümumi arxın çəkilməsinə görə, Kolanı-Aralıx və Üçmüəzzin qəzasının Xatunarx kənd cəmiyyətinin digər kəndləri arasında mübahisələrə son qoyulmuşdur; 6. Sürməli qəzasında dağ sürüşməsi nəticəsində xarab olmuş Pirli arxı bərpa olunumuşdu; 7. Üçmüəzzin qəzasının Aşağı Aylanlı kəndinin əkin sahələrini daşqınlardan qorumaq üçün Karpinka çayının məcarası təmizlənmişdir; 8. Üçmüəzzin qəzasının Körpəli, Aytaq, Samaqar və digər kəndlərinin Araz çayından sudan təchizat qaydası tədqiq edilmiş, 7000 desyatin torpağı suvarmaq üçün ümumi 170 verst uzunluğunda arx çəkilməsi planlaşdırılmışdır; 9. Vedibasar su dairəsində suyun miqdarını artırmaq və 2000 desyatinə qədər yeni torpaq sahələrini suvarmaq üçün Yenibəyazid qəzasında Ağrıçay çayından İrəvan qəzasının Vediçay çayına qədər 20 verst uzunluğunda çəkilən arxda tədqiqatlar aparılmışdır; 10. Sürməli qəzasının Şıxbezanlı, Saraqlı-Prço və digər kəndlərini daşqından qorumaq üçün Xanaqov arxından əlavə suvarma arxı çəkilməsi üçün layihə tərtib edilmişdir; 11. Şərur-Dərələyəz su dairəsində Yuxarı Arpaçayın suyu ilə dağıdılan Pusian, Dördkənd və Lökba-basar bəndləri yenilənmişdir; 12. Naxçıvançay çayında suyun səviyyəsini artırmaq üçün bulaqlqrın təmizlənməsi üçün əlavə tədqiqat işləri aparılmış, bunun üçün 15000 rubl vəsait ayrılmışdır. Həm icmalar, həm də özəl tədbirlər əsasında görülən bu tədbirlər nəticəsində suyun bölüşdürülməsində qayda-qanun yaradılmasına və bununla mirabların özbaşnalığının qarşısının alınmasına cəhd göstərilmişdir [9, s.5].

XX əsrin əvvəllərində ayrı-ayrı su sahələrinə tabe olan su dairələri, onlara tabe olan qəza və kəndlər və su mühəndisləri haqqında ətraflı məlumat verilmişdir. 1902-ci il və 1906-cı il məlumatlarına görə, İrəvan quberniyasında 2-ci su sahəsinə 10 su dairəsi daxil olmuşdur. Ümumilikdə 2-ci su sahəsinə İrəvan şəhərinin şimal hissəsi, Göyçə gölü hövzəsi və Pəmbək çayının yuxarı axarlarından başqa Aleksandr qəzası daxil idi. Bu su məntəqəsinin rabitə yollarının mühəndisi V.Kaşkin, sonradan isə Mixail Qriqorieviç Sanaov olmuş və onlar İrəvan şəhərində yerləşmişdilər. Bu mühəndislərin yanında konduktor da fəaliyyət göstərmiş və 1914-cü ilin məlumatına görə 2-ci su məntəqəsinin konduktoru Heydərqulu bəy Əlibəyov olmuşdur [12, s.24; 13, s.50]. 2-ci su sahəsinə müxtəlif dairə, qəza, kəndlər və hətta burada fəaliyyət göstərən mirablar daxil idi. Həmin inzibati ərazilər bunlar idi: 1. Qırxbulaq su dairəsi-ona İrəvan qəzasında İrəvan şəhərinin bir hissəsi, Göykilsə, Yeni Nikolayevka, Nurnus, Qaya-Xaraba kəndlərindən başqa Kənəkir kənd cəmiyyəti, Aramus kənd cəmiyyətindən Aramus, Ağazor, Başkənd, Qəmriz, Kaşal, Çatqıran, Tacirabad və Tutiya kəndləri daxil idi. Həmin kəndin mirabı Muşeqov olmuşdur; 2. Zəngibasar su dairəsi (bura İrəvan qəzasının bir hissəsi və Yenibəyazid qəzasının kəndləri daxil idi)- ona İrəvan qəzasında İrəvan şəhərinin bir hissəsi, Rəhimabad kəndindən başqa Şirabad kənd cəmiyyəti, Muxtarabad, Qulucan kəndlərindən başqa Noraqovit kənd cəmiyyəti, Reyhanlı, Seyidkənd kəndlərindən başqa İmamşalı kənd cəmiyyəti, Yenibəyazid qəzasında Quru Fantan, Makranank kəndlərindən başqa Aşağı Axtı kənd cəmiyyəti, Farux kəndindən başqa Randamanlı kənd cəmiyyəti, Qorux-Güney, Yeni Mixaylovski və Soyuq Bulaq kəndlərindən başqa Tayçarıx kənd cəmiyyəti, Ərsəkənd kənd cəmiyyəti və Çırçır kənd cəmiyyətindən Şəhriz və Tutmakənd kəndləri daxil idi. Bu su dairəsinin mirabı Ter-Matevosov olmuşdur: 3. Gərnibasar su dairəsi (bura yalnız İrəvan qəzasının bir hissəsi daxil idi)-ona Aramus kənd cəmiyyətindən Əkərək kəndi, Kaş-Abdallar, Çanqlı, Keotuz, And, Xosrov, Pirli, Abdallar kəndlərindən başqa Başgərni kənd cəmiyyəti, İmamşalı kənd cəmiyyətindən Cabaçalı, Qaradağlı, Alpava, Xaratlı, Buqamlu, İmamşalı və Ağamzalı kəndləri, Qafarlı kəndindən başqa Uğurbəyli kənd cəmiyyəti, Koylasar kənd cəmiyyəti, Yaipa kəndindən başqa Divin Aysor kənd cəmiyyəti və Azərbaycan türk kəndi Qəmərli, Bəycanqanlı, Yuxarı və Aşağı Darğalı kəndlərindən baqa Qəmərli kənd cəmiyyəti daxil idi. Bu kəndin mirabı Bədəlov olmuşdur; 4. Abaran su dairəsi (bura yalnız Üçmüəzzin qəzası daxil idi)- ona Əştərək kənd cəmiyyətindən Aytaq, Vaqarşapat, Xatun-arx, Qızılteymur, Eqvard kənd cəmiyyətindən Eqvart və Dövrü-xarab kəndləri, Başabaran kənd cəmiyyətindən Əliqoçaq və Təkərli kəndləri, Kuşi, Noraşen, Tacirli və Astvanantel kəndlərindən başqa Qarakilsə kənd cəmiyyəti, Parpi kənd cəmiyyətindən Şərəfabad, Türkmənli, Karhun, Xaraba-Kolanı, Rəncbər və Yuxarı və Aşağı Qulubəyli kəndləri, Talın kənd cəmiyyətindən Talın, Dian,

Mağli və Aşağı Ağçali kəndləri və Talış və Qadirabad kəndlərindən başqa Qoş kənd cəmiyyəti daxil idi. Bu su dairəsinin mirabı Aslanov olmuşdur; 5. Sərdarabad su dairəsi (bura Üçmüəzzin qəzasının bəzi kəndləri daxil idi)- ona Qurdulu, Sərdarabad və Şəhriyar kənd cəmiyyətləri, Yaycılar, Çubuxlu, Markara, Molla Bədəl kəndləri, Ərdaşar-Qarxun kənd cəmiyyəti, Mirzəxan kəndi və Əyrisifət-Buqutlu kənd cəmiyyəti daxil idi. Bu dairənin mirabı Novruzəlibəyov olmuşdur; 6. Talın su dairəsi (bura Üçmüəzzin qəzasının bəzi kəndləri daxil idi)- ona Abaran dairəsində yerləşən Talın kəndindən başqa Talın kənd cəmiyyəti, Abaran dairəsində yerləşən Dian və Madqa kəndlərindən başqa Aşağı Ağçaqala kənd cəmiyyəti daxil idi. Bu dairənin mirabı Ələşrəf bəy Ələsgər ağa oğlu olmuşdur; 7. Sürməli su dairəsi (bura Sürməli qəzasının bəzi kəndləri daxil idi)-ona Yaycı kənd cəmiyyətindən İğdır, Yaycı kəndləri, Əliqoçaq kənd cəmiyyətindən Əliqoçaq, Xaraba Məzrə, Yuxarı Bəndəmurad, Gündə, Muça, Zor, Dibəkli, Bəndəmurad, Örüşmüş, Siçanlı, Daşlıca, Qaraqasar kəndləri, Aralıx-Başkənd kənd cəmiyyəti, Həsənxan, Qaraqoyunlu, Qraçbağ və Riza kəndlərindən başqa Daşburun kənd cəmiyyəti, Randaman kənd cəmiyyətindən Həsən xan, Diza, Qobı, Yuxarı və Aşağı Qraçbağ kəndləri daxil idi. Bu dairənin mirabı Əlibəy Rəhimbəy oğlu olmuşdur; 8. Porçin su dairəsi (bura Sürməli qəzası daxil idi)- ona Qulp, Yağlı, Gül Əhməd və Axundabad kəndlərindən başqa Güllücə kənd cəmiyyəti, Yezid Həsənli kənd cəmiyyətindən Aşıq Hüseyn kəndi, Mirzəxan, Şəmi, Almalıx, Yeni və Köhnə Ağdaş, Kiliçi, Təkaltı və Əlixanlı kəndlərindən başqa Oğrucin kənd cəmiyyəti və Radik Sinakski kənd cəmiyyətindən Qaranlıq, Cavanlı, Badıqlı, və Qazıqoparan kəndləri daxil idi. Bu dairənin mirabı Həsənov olmuşdur; 9. Aleksandropol su dairəsi (bura Aleksandropol qəzasının kəndləri daxil idi)-ona 3-cü Arıqvəli kəndindən başqa Cacur kənd cəmiyyəti, Xınalı və Çıraxlı kəndlərindən başqa Böyük Kəpənək kənd cəmiyyəti, Kaftarı kənd cəmiyyətindən Ağqulaq, Qırxdayırman, Azərbaycan türklərinin və ermənilərin birlikdə yaşadığı Gözəldərə kəndləri, Hacı Xəlil kənd cəmiyyətindən Qızılqoç, Bozyoxuş, Güllübulaq kəndləri, Qızılqoç kənd cəmiyyəti, Yuxarı və Aşağı Qalaca, Elli Qarakilsə və Kiçik Qarakilsə kəndlərindən başqa Ortakilsə kənd cəmiyyəti, Çırpılı, Qızılkilsə, Baburlu, Yengiköy, Balul, Xrom, Artik, Söyüdlü kəndlərindən başqa Dovşanqışlağı kənd cəmiyyəti və Kiçik Qırıq kəndlərindən başqa Molla Göyçə kənd cəmiyyəti daxil idi. Bu su dairəsinin mirabı Günəşov olmuşdur; 10. Yenibəyazid su dairəsi (bura Yenibəyazid qəzasının kəndləri daxil idi)-ona Ağzıbir kənd cəmiyyətindən Kosaməmməd, Kərimkənd və Paşakənd kəndləri, Dəliqardaş kənd cəmiyyəti, Çaqkar kəndindən başqa Göl kənd cəmiyyəti, Karvansaray kəndindən başqa Qaranlıq kənd cəmiyyəti, Qızılvəng, Oqurqlu kəndlərindən başqa Gözəldərə kənd cəmiyyəti, Yenicə Qaraqoyunlu, Kiçik Yenicə Qaraqoyunlu kəndlərindən başqa Basarkeçər kənd

cəmiyyəti və Məzrə kənd cəmiyyəti daxil idi. Burada yerli su idarəsi yaradılmamışdı [10, s.14-16; 11, s.34-36].

İrəvan quberniyasında fəaliyyət göstərən 8-ci su sahəsinə isə 6 su dairəsi daxil olmuşdur. Bu su sahəsi özündə İrəvan, Şərur-Dərələyəz və Naxçıvan qəzalarının kəndlərini birləşdirmişdi. 8-ci su sahəsinin su mühəndisi V.A.Zuyev idi və o, Naxçıvan şəhərində otururdu. Onun yanında konduktor S.K.Ter-Astvaçaturov fəaliyyət göstərmişdi [12, s.24; 13, s.50]. 8-ci su sahəsinə daxil olan ayrı-ayrı su dairələri və bu dairələrdə birləşən kənd cəmiyyətləri binlar idi: 1. Vedibasar su dairəsi (bura İrəvan qəzasının kənd cəmiyyətləri daxil idi)-ona Armik, Qaraxaç, Vedibasar, Dəvəli və Sədərək kənd cəmiyyətləri daxil idi. Buranın mirabı Dəvəli kənd sakini Teymur bəy Yelizarov olmuşdur; 2. Şərur-Dərələyəz su dairəsi- ona bütün Şərur-Dərələyəz qəzasının kəndləri daxil idi. Bu dairənin mirabı Başnoraşen kənd sakini Xəlil ağa Sofiyev olmuşdur; 3. Xok su dairəsi- ona Naxçıvan qəzasının Qıvraq kənd cəmiyyəti və Çağrı kənd cəmiyyətindən Ağcayurd kəndi daxil idi. Bu dairənin su idarəsi yox idi; 4. Naxçıvan su dairəsi-ona Naxçıvan şəhəri, Tunbul, Şıxmahmud, Qarababa, Diqin Əlincə kənd cəmiyyətləri, Kəriməli kəndi, Aznayurd kəndindən başqa Çağrı kənd cəmiyyəti, Nehrəm kənd cəmiyyətindən Nehrəm kəndi, Qazança kənd cəmiyyətindən Surab, Kahab, Şahmiranşah, Kərbalayı Oruc, Diza, Zeynəddin, Naxşi-Nərciz, Nəzərəlibəy, Göymuk, Nağacir və Sürməli kəndləri daxil idi. Bu dairənin mirabı Naxçıvan şəhər sakini Məşədi Qədim Qədimov olmuşdur; 5. Əlincəçay su dairəsi-ona Nehrəm kənd cəmiyyətindən Küznüt və Culfa kəndləri, Abrakunis kənd cəmiyyəti, Qazança kənd cəmiyyətinin digər kəndləri, Çinçinab kənd cəmiyyətindən Biləv kəndi, Əzin kənd cəmiyyətindən Kərimqulu-diza kəndi daxil idi. Bu dairənin mirabı Əzin kəndinin sakini Kərbalayı İsmayıl Məmmədəli oğlu olmuşdur; 6. Dostu su dairəsi-ona Ordubad şəhəri, Yuxarı Əylis, Əzin, Vənənd və Çinabab kənd cəmiyyətləri daxil idi. Bu dairənin mirabı Ordubad kənd sakini Hacı İskəndər Hacıyev olmuşdur [10, s.17; 11, s.37].

Lakin 1912-ci və 1914-cü illər məlumatına görə isə İrəvan quberniyasına daxil olan su sahələrində artım baş vermiş, 2-ci su sahəsinə bir su dairəsi əlavə edilmiş və həmin su dairəsi Yenibəyazid qəzasında yaradılmış Göyçə su dairəsi idi. Bu su dairəsinə Yenibəyazid şəhəri, Ağzıbir kənd cəmiyyətindən Kosaməmməd, Kərimkənd və Paşakənd kəndləri, Çakkar kəndindən başqa Göl kənd cəmiyyəti, Qaranlıq kənd cəmiyyəti, Orqlu kəndindən başqa Gözəldərə kənd cəmiyyəti, Basarkeçər, Məzrin və Dəliqardaş kənd cəmiyyətləri daxil olmuşdur [12, s.30; 13, s.34].

Bundan əlavə, 1912-ci ildən başlayaraq İrəvan quberniyasının Aleksandropol qəzasının bir hissəsi 7-ci su sahəsinə daxil olmuşdu. Yuxarıda göstərildiyi kimi, qəzanın müəyyən hissəsi 2-ci su sahəsinə tabe idi. Onun su mühəndisi Sergey Feodoroviç Zavalişin təyin olunmuş, o, Tiflis şəhərində

yerləşmişdi. Ona tabe olan konduktor isə Aleksandr Feodoroviç Pleşkov idi [12, s.30; 13, s.50].

Beləliklə, İrəvan quberniyasında XX əsrin əvvəllərində 3 su sahəsi fəaliyyət göstərmiş, həmin su sahələri özlüyündə 18 su dairəsini birləşdirmişdi.

**Sudan istifadədə sui-istifadə halları və narazılıqlar.** Çar hakimiyyət orqanlarının bütün cəhdlərinə baxmayaraq su üstündə daima narazılıqlar baş alıb gedirdi. Arxiv materiallarında belə hallar haqqında xeyli faktlara rast gəlmək mümkündür. Bu məlumatlarda ayrı-ayrı qəzalara məxsus kənd əhalisinin su üstündə toqquşmaları, mirabların vəzifəsindən sui-istifadəsi, özbaşnalığı öz əksini tapmış, kəndlər arasında sudan istifadə qayda-qanunları haqqında da maraqlı məlumatlara rast gəlmək mümükündür. Belə ki, 1902-ci il martın 31-də İrəvan qubernatorunun, vitse-qubernatorun, müşavirin və kargüzarın imzası ilə yazılan məktundan görünür ki, İrəvan qəzasının Xəlisə, Şirazlı, Çatqıran, Şıxlar, Kiçik Vedi, Avşar kəndlərinin əhalisi suyu düzgün bölüşdürməməsinə görə Vedibasar mirabından qubernatora 1901-ci il avqustun 4 və 13-də beş şikayət məktubu yazmışdılar. Qubernator bu məsələni araşdırmaq üçün su mühəndisi Zuyevə məktub göndərmişdir [4, s.18-19, 19-ob].

Belə hadisələrdən biri Naxçıvan qəzasında baş vermişdi. Qafqazda 8-ci su sahəsininə daxil olan Əlincəçay dairəsinin su mühəndisi V.Zuyev 1906-cı il oktyabrın 17-də İrəvan qubernatoruna yazdığı məlumatdan məlum olur ki, Vənənd çayından suvarılan Pazmar, Unus, Kələki, Dernis, Danagird, Əlisultan, Sal, Xanaça, Ağrı, Vənənd, Valavr, Deksar kəndləri ilə Dostu kəndi arasında su üstündə mübahisələr olmuşdur. Su mühəndisi yazırdı ki, birinci yeddi kənd həftənin birinci, ikinci, üçüncü və altıncı günü, qalan beş kənd digər günlərdə gündüzlər, yalnız Dostu kənd sakinləri isə gecələr Vənənd çayından öz təsərrüfatlarını suvarırdılar. Lakin adı çəkilən kəndlərin sakinləri Dostu kənd sakinlərinin bütün gecə suya sahib olmaları ilə razılaşmırdılar. Onlar iddia edirdilər ki, Dostu kənd sakinləri bütün gecəni yox, yalnız bir neçə saat sudan istifadə etməlidirlər. Buna görə də, sudan istifadə qaydasında dəyişiklik etmələrini xahiş edirdilər. Bununla razılaşmayan Dostu kənd sakinləri 1906-cı il sentyabrn 4-də və oktyabrın 2-də əvvəlki qaydanın qalması xahişi ilə su mühəndisinə ərizə ilə müraciət etmişdilər. Bu mübahisə o qədər böyümüşdü ki, işə Ordubad pristavı və mirab qarışmalı olmuşdu [5, s. 15-16, 16-ob].

Su üstündə mübahisə və toqquşmalar o qədər böyümüşdü ki, Dostu kənd icması tərəfindən vəkil edilmiş Məşhədi Həbib Hacı Talıb oğlu və İbrahim Məşədi İsmayıl oğlunun Qafqaz su müfəttişinə ərizə ilə müraciəti olmuşdur. Bu ərizədən məlum olur ki, Dostu kənd icmasının sudan istifadə etdiyi saatlarında adı çəkilən kəndlər tərəfindən oğurluq olurdu. Bu oğurluğun qarşısını almaq üçün kənd sakinlərindən 20-30 nəfər keşik çəkmək məcburiyyətində qalırdı. Lakin bu da itkisiz başa gəlmirdi. Belə ki, Dostu kəndinin keşik çəkən sakinləri

Danagird ermənilәri tәrәfindәn öldürülürdü. Ona görә dә, İrәvan birqadasının IV bölmәsinin komandiri Dostu kәnd sakinlәrinә gecәlәr suya nәzarәt etmәk üçün yuxarı kәndlәrә getmәlәrinә icazә vermirdi. Bu da Dostı kәnd sakinlәrini çәtin vәziyyәtә salmışdı [5, s.17, 17-ob].

Qafqazda 8-ci su sahәsinin su mühәndisi V.Zuyevin İrәvan qubernatoruna 1906-cı il iyulun 3-dә yazdığı mәlumatda Əlincәçay su dairәsinin mirabının özbaşnalığından şikayәt etmişdi. Mәlumatda Kuznüt kәndinin әhalisinin mirabdan vә onun kәndlәr arasında sudan istifadәdә heç bir qaya-qanun yaratmadığından vә özbaşnalığından şikayәti öz әksini tapmışdı. Mәlum olur ki, Kuznüt arxından növbә ilә Camaldin kәndi 22, Azәrbaycan türklәrinin yaşadığı Arazin kәnd sakinlәri 24, ermәnilәrin yaşadığı Arazin kәndinin sakinlәri 24, Çeşmәbasar mülkü 36 saat, Kuznüt kәndi isә 4 gün istifadә edirdilәr. Lakin mirabın günahı üzündәn bu qaydalar tez-tez pozulurdu. Belә ki, şikayәtdәn görünür ki, mayın 20-dә növbәsi çatan Kuznüt әhalisi yalnız 3 gün sudan istifadә etmiş, dördüncü günü arx mәlum olmayan sәbәbdәn yararsız hala düşmüş, yalnız iki gündәn sonra arxı bәrpa etmәk mümükün olmudur. Bundan sonra su digәr kәndlәrә paylanmışdır. Bu işdә mirab günahkar hesab olunduğuna görә, mirab Akop Krikorov vәzifәsindәn kәnarlaşdırılmış, әvәzindә İrәvan qubernatorunun sәrәncamına qәdәr müvәqәti olaraq Hacı Əli mirab tәyin edilmişdir [5, s.29-30, 30-ob].

Belә narazılıqlar İrәvan quberniyasında çox idi. 8-ci su sahәsinin mühәndisi V.Zuyevin Cәnubi Qafqazdakı su inspektoruna 1910-cu il iyulun 5-dә göndәrdiyi mәlumatda yazırdı ki, hәmin ilin iyunun 30-da Dәrәçiçәkdә Şangir çayının suyundan istifadәdә vә Naxçıvan çayı әtrafında yerlәşәn kәndlәrdә su üstündә qayda-qanun pozulması böyük sәs-küyә sәbәb olmuş, hәtta iş mәhkәmәyә gәlib çatmışdır. Bundan әlavә, işә Naxçıvan qәza rәisi vә xüsusi mühafizә dәstәlәri qarışmalı olmuşdur. Nәticәdә mirab günahkar hesab olunmuş, Naxçıvan qәza rәisinin xahişi ilә vәzifәsindәn kәnarlaşdırılmışdır [6, s.8, 8-ob].

**Nәticә.** Olaraq qeyd etmәk lazımdır ki, çar hakimiyyәt orqanları İrәvan quberniyasının kәnd tәsәrrüfatında süni suvarma sistemini yaxşılaşdırmaq üçün verdiyi qanunlarla sudan istifadәdә yeni su inzibati orqanları, su sahәlәri vә su dairәlәri yaratsa da, sudan istifadә edilmәsindә әhali arasında sabitlik yaratmadı. Arxiv materiallarından mәlum olur ki, çar hakimiyyәt orqanlarının ciddi sәyinә baxmayaraq, su üstündә әhali arasında hәmişә mübahisәlәr, narazılıqlar vә şikayәtlәr mövcud olmuşdur.

## Ədəbiyyat:

1. ARTA, f.429, siyahı 1, iş 579, v.7
2. ARTA, f.21, siyahı 1, iş.466, vərəq 15-16, 16-ob
3. ARTA, f.21, siyahı 1, iş.466, vərəq 17, 17-ob
4. ARTA, f,21, siyahı 1, iş.322, vərəq 18-19, 19-ob.
5. ARTA, f.21, siyahı 1, iş 466, vərəq 29-30, 30-ob
6. ARTA, f. 21, siyahı 1, iş. 625, vərəq 8, 8-ob.
7. Talıblı İ.A. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə / Bakı: "Elm", -1980, s.149.
8. Дингильштедт В.А. Водовладение и ирригация, т. II, Тифлис, 1883
9. Обзор Эриванской губернии за 1995 год / -Эриван: -1996.
10. Памятная книжка Эриванской губернии на 1902 / Эриван:- Типография Губернского правления,-1902.
11. Памятная книжка Эриванской губернии на 1906 / Эриван:- Типография Губернского правления,-1906.
12. Памятная книжка Эриванской губернии на 1912 / Эриван:- Типография Губернского правления,-1912.
13. Памятная книжка Эриванской губернии на 1914 / Эриван:- Типография Губернского правления,-1914.
14. Сборник материалов для описания местностей и племен Кавказа /- Тифлис: Типография канцелярии Главноначальствующаго гражданскою частью на Кавказе. 1892, выпуск I.
15. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края /-Тифлис: 1885, т.1.
16. Полное собрание законов Российской империи. Собр. Второе (1825-1881) / СПб: 1867. Т.42.-1676 с.

# XVIII – XX YÜZİLLİYİN BAŞLANĞICINDA QUBA BÖLGƏSİNDƏ GÖN-DƏRİ İSTEHSALI HAQQINDA

**Günay Həsənova**
Azərbaycan Universiteti
hesenovasiman6@gmail.com

***Açar sözlər:*** *Şimali Azərbaycan, Quba bölgəsi, gön-dəri istehsalı, aşılanma, emalatxanalar*

*Məqalədə XVIII – XX yüzilliyin əvvəllərində Quba bölgəsinin gön-dəri istehsalının durumu nəzərdən keçirilir. Məlum olmuşdur ki, həmin dövrdə bölgədə gön-dəri istehsalı inkişaf etmişdi. Gön-dəri istehsalının inkişafı bir sıra amillərlə bağlı olmuşdur. Bunların ən başlıcası XIX yüzilliyin ikinci yarısından etibarən bu sahəsinin əmtəə xarakter daşıması və satış bazarlarının genişlənməsi olmuşdur. Digər səbəbi isə həmin dövrdə dövrün tələblərinə cavab verən dəri məmulatının istehsalında keyfiyyət dəyişikliklərinin baş verməsi olmuşdur. Gön-dəri istehsalı Bakı neft-mədənlərində neftin dəri tuluqlarda daşındığı illərdə daha çox artmışdı. İkinci Cahan savaşı illərində hökumət tərəfindən edilən sifarişlər gön-dəri məmulatı istehsalına da öz təsirini göstərmişdir.*

## О КОЖЕВЕННОМ ПРОИЗВОДСТВЕ В ГУБИНСКОМ РЕГИОНЕ XVIII – В НАЧАЛЕ XX СТОЛЕТИЙ

**Гюнай Гасанова**

***Ключевые слова:*** *Северный Азербайджан, Губинский регион, кожевенное производство, дубление, мастерские*

*В статье рассматривается состояние кожевенного производства в Губинском районе в XVIII – начале XX столетий. Стало известно, что в этот период в регионе было развито кожевенное производство. Развитие кожевенного производства было связано с рядом факторов. Важнейшим из них был торговый характер этой отрасли и расширение рынков сбыта со второй половины XIX столетия. Другой причиной стало возникновение качественных изменений в производстве кожаных изделий, отвечающих требованиям времени. Производство шкур еще больше увеличилось в годы, когда нефть возили в кожаных тулухах на Бакинских нефтяных промыслах. Во время Второй мировой войны заказы правительства также оказали влияние на кожевного производства.*

# ABOUT LEATHER PRODUCTION IN THE GUBA REGION OF THE XVIII - AT THE BEGINNING OF THE XX CENTURIES

**Gunay Hasanova**

***Keywords:*** *Northern Azerbaijan, Guba region, leather production, tanning, workshops*

*The article discusses the state of leather production in the Guba region in the XVIII - early XX centuries. It became known that leather production was developed in the region during this period. The development of leather production was associated with a number of factors. The most important of these was the commercial nature of this industry and the expansion of markets from the second half of the XIX century. Another reason was the emergence of qualitative changes in the production of leather products that meet the requirements of the time. The production of skins increased even more in the years when oil was transported in leather jackets in the Baku oil fields. During World War II, government orders also had an impact on leather production.*

Quba bölgəsi Şimali Azərbaycanın tarixən gön-dəri istehsalının mövcud olduğu bölgələrdən biri olmuşdur. İstər xanlıqlar dövründə, istərsə də XIX yüzillikdə və XX yüzilliyin başlanğıcında Şimali Azərbaycanın digər bölgələrində olduğu kimi, Quba bölgəsinin dabbaqxanalarında əhalinin məişətində geniş yer tutduğu, yerli sənətkarların müxtəlif çeşidli ayaqqabılar, yəhər, yüyən və müxtəlif at ləvazimatları, xəzlər, kəmərlər, papaqlar, tuluqlar və s. hazırladıqları safyan, şaqren, tumac (aşılanmış nazik və yumşaq keçi və ya qoyun dərisi), yumşaq meşin dəriləri və digər dəri növləri istehsal olunurdu. Quba bölgəsində heyvandarlığın geniş yayılması və meşələrinin heyvanat aləminin zənginliyi gön-dəri istehsalının təşəkkül tapmasına və inkişafına təkan verən başlıca amillərdən biri olmuşdur [18, s. 104].

Gön-dəri istehsalının geniş yayılması və habelə yüksək inkişaf səviyyəsinə çatması bu sənət sahəsi ilə bacarıqlı və səriştəli sənətkarların məşğul olması ilə bağlı olmuşdur. Quba bölgəsində gön-dəri məmulatının geniş satış bazarının olması bu sahədə fəaliyyət göstərən sənətkarlar arasında keyfiyyət dəyişikliklərinin baş verməsinə əlverişli şərait yaratmışdır. Gön-dəri istehsalı ilə məşğul olan sənətkarların əlinin altında zəngin aşılayıcı bitkilərin olması bu sahənin inkişafını təmin edən əsas amillərdən biri hesab olunmalıdır [3, s. 114].

XVIII yüzilliyin sonlarında xanlıqlar arasında baş verən ara müharibələri və XIX yüzilliyin əvvəllərində işğala qarşı üsyanlar Quba bölgəsində gön-dəri emalının inkişafını ləngitməsinə baxmayaraq, 40-cı illərindən başlayaraq yaranmış sabitlik bu sahələrin inkişafına müəyyən şərait yaratmışdır [6, s. 89].

Tədqiq olunan dövrdə Şimali Azərbaycanın Gəncə, Şuşa, Şamaxı, Bakı, İrəvan, Naxçıvan, Şəki, Lənkəran və digər şəhərləri ilə yanaşı kimi Quba şəhəri də gön-dəri emalının inkişaf etdiyi mərkəz olmuşdur. Gön-dəri emalında əsasən qoyun və keçi dəriləri əsas xammal hesab olunurdu. Meşə heyvanların dərisi nadir hallarda aşılanırdı. Qubadan çoxlu sayda ev heyvanları dərisi ilə yanaşı meşə heyvan dərisinin satışa çıxarılması burada heyvanat aləminin zəngin olması ilə əlaqədar olmuşdur. Əldə etdiyimiz mənbələr də bunu təsdiq edir. Qmelin Qubanın Müşkür meşələrinin zəngin vəhşi heyvanlarının sığınacağı olduğunu yazırdı. O, Şabran yolunda dəhşətli dərəcədə dovşanın gördüyünü qeyd edirdi [7, s. 59]. XIX yüzilliyin əvvəllərində ev və meşə heyvan dərilərinin satışa çıxarılması Quba bölgəsində gön-dəri emalının inkişaf etdiyini göstərirdi. 1827-ci ildə Qubadan 3 000 ədəd ev heyvanı və 1 500 ədəd müxtəlif meşə heyvanı dərisi satışa çıxarılmışdı [15, s. 111-138]. 1841-ci ildə isə müvafiq olaraq 1 700 rubl dəyərində 1840 ədəd meşə heyvanı və 4 000 rubl dəyərində 1 070 ədəd ev heyvanı dərisi satılmışdı [5]. Tədqiaqatçı Yevetski Quba bölgəsində tülkü, canavar və digər meşə heyvanları ovlandığını və onların dərisindən yerli sənətkarlar tərəfindən müxtəlif papaq və sair geyimlərin tikilməsində istifadə olunduğunu yazırdı [10, s. 228]. Tülkü, dələ və su samuru dəriləri hətta Nijeqorod yarmarkasınadək ayaq aça bilmişdi. Bu yarmarkada tülkü dərisi 75 qəpik – 1 gümüş rubla, dələ dərisi 1 rubl 57 qəpik - 2 gümüş rubla, su samuru dərisi 2 rubl 43 qəpik - 3 rubl 45 gümüş qəpiyə, canavar dərisi 1 gümüş rubla satılırdı [19, s. 326]. Şimali Azərbaycanın digər bölgələrində olduğu kimi Quba bölgəsində də XIX yüzilliyin 90-cı illərin məlumatına görə dələ xəzi 1-1,5 rubla, tülkü xəzi bir qədər ücuz satılırdı [12]. Qeyd etmək lazımsır ki, xəz dəri istehsalı məşğul olan sənətkarların sayı çox deyildi. Şəhərdə belə sənətkarların çalışdığı 2 emalatxana fəaliyyət göstərirdi [27, s. 104].

Quba bölgəsində gön-dəri istehsalının artması emalatxanaların və bu işlə məşğul olan sənətkarların sayının artmasına gətirib çıxarırdı. Gön-dəri emalatxanaları əsasən Quba şəhərində cəmlənmişdi. XIX yüzilliyin 20-ci illərin sonlarında Quba şəhərində 13 nəfərin gön-dəri emalatxanaları fəaliyyət göstərmişdir [15, s. 142]. 1842-cı ildə bu işin sahibləri 33 nəfər olmuşdur [28, s. 94].

Şimali Azərbaycanın digər bölgələrində olduğu kimi Quba bölgəsində də fəaliyyət göstərən gön-dəri emalatxanalarının iş prinsipi tamamilə eyni idi. 1850-ci ilin məlumatına görə digər şəhərlərdə olduğu kimi Quba şəhərində də

fəaliyyət göstərən 4 gön-dəri emalatxanası qoyun dərisini 18-24 qəpiyə, keçi dərisini 24-36 qəpiyə, öküz dərisini 80 qəpik - 1 rubla, inək dərisini 70 qəpik – 1 rubl 20 qəpiyə, at dərisini 36-50 qəpiyə satın alırdılar. Bir nəfər həftə ərzində 2 öküz, 2 inək və 2 at dərisini və ya 25 ədəd qoyun, keçi və dana dərisini aşılaya bilirdi. İlk iki birincisinin və sonuncu 25 dərinin aşılamasına 1 rubl xərclənirdi. İki öküz dərisinin və yaxud 25 qoyun dərisinin aşılanmasında istifadə olunan əhəngə, sarağana, duza, piyə, boya və digərlərinə orta hesabla 2 rubl 87 qəpik xərclənirdi. Aşılanmış qoyun dərisi 30-40 qəpiyə, keçi dərisi 40-80 qəpiyə, öküz dərisi 3 rubl 60 qəpik – 4 rubla, inək dərisi 1 rubl 30 qəpik, at dərisi 80 qəpik – 1 rubla satılırdı. Bir ildə bir baqqalın qazancı 180 gümüş rubl edirdi [31]. XIX yüzilliyin 80-ci illərində inək və camış dərisi isə 4-5 rubla olmuşdu [33, s. 206].

Gön-dəri emalatxanaları özündə xırda əmtəə istehsalına əsaslanan müəssisələri birləşdirirdi ki, bu müəssisələrdə də bir qayda olaraq işçi qüvvəsi zəif təmərküzləşmişdi. Orta hesabla gön-dəri müəssisələrinin sayı 1-dən 4-ə qədər idi. 1851-ci ildə Quba gön-dəri emalatxanalarnda 20 nəfər dabbaq çalışmışdır [13, s. 337]. Dərbənd qubernatorunun hesabatına görə 1854-cü ildə Quba şəhərində 450 rubl gəlirlə işləyən 2 gön-dəri emalatxanası [4, s. 39-39 arx] fəaliyyət göstərmişdir. Şəhərdə 1861-ci ildə 6 [29, s. 812-814], 1868-ci ildə 4 [8, s. 1-2] dabbaqxana olmuşdur.

Bakı qubernatorunun hesabatlarından Quba şəhərində 1889-cu ildə 15 işçinin çalışdığı 5 [20, 2-ci cədvəl], 1893-cü ildə 15 işçinin çalışdığı 6 [21, 2-ci cədvəl], 1897-ci ildə 16 işçinin çalışdığı 6 [22, 2-ci cədvəl], 1902-ci ildə 27 işçinin çalışdığı 6 [23, 2-ci cədvəl], 1903-cü ildə 12 işçinin çalışdığı 5 [24, 2-ci cədvəl], 1904-cü ildə 12 işçinin çalışdığı 5 [25, 2-ci cədvəl], 1910-cu ildə 8 işçinin çalışdığı 4 [26, 7-ci cədvəl] gön-dəri emalatxananın fəaliyyət göstərdiyi məlum olur.

Şəhərdə fəaliyyət göstərən dabbaqxanaların gəliri 1889-cu ildə 5 000 rubl [20, 2-ci cədvəl], 1893-cü ildə 3 500 rubl [21, 2-ci cədvəl], 1897-ci ildə 3 205 rubl [22, 2-ci cədvəl], 1902-ci ildə 3 400 rubl [23, 2-ci cədvəl], 1903-cü ildə 3 000 rubl [24, 2-ci cədvəl], 1904-cü ildə 2 780 rubl [25, 2-ci cədvəl], 1910-cu ildə isə 4 000 rubl [26, 7-ci cədvəl] olmuşdur.

XIX yüzilliyin 70-ci illərində Quba şəhərində usta Novruzəli Əmiraslan oğlu, Rüstəm məşədi İbrahim oğlu, Ağabala Tağı oğlu və Məmməd Cəfər oğluna məxsus 4 gön-dəri emalatxanası fəaliyyət göstərmişdir [11, s. 1-119]. Sənətkar müəssisələri haqqında tərtib olunmuş məcmuədə 1903-cü ildə Quba şəhərində hərəsində 5 nəfərin çalışdığı gön-dəri emalatxanaların fəaliyyət göstərdiyi haqqında məlumat vardır. Bu müəssisələr hacı Bayraməli kərbəlayi Ağaverdi oğlu, Dadaş Hacıbala Qasım oğlu, İbrahim Hacıbaba oğlu, Mövlam kərbəlayi Qasım oğlu, Nurulla Həsən oğlu və Sultan Əli oğluna məxsus idi [1, s. 17].

Şəhərdə dabbaqxanaların deyil, orada çalışan işçilərinin sayında artım baş vermişdi ki, bu da 1872-ci ildə Bakıda neft sənayesində iltizam sisteminin ləğv edilməsi ilə bağlı olmuşdur. İltizam sisteminin ləğv edilməsi Bakıda bir-birinin ardınca neft quyuları fəvvarə vurmağa başladı. Belə vəziyyət neftin daşıması üçün istufadə olunan dəri tuluqlara olan tələbatə dəfələrlə artırırdı. Qafqaz qəzetinin müxbiri 1873-cü ildə Balaxanıda neft fəvvarə vuran zaman nefti iri dəri tuluqlarında daşındığı göstərilirdi [30]. Quba bölgəsinin kəndlərində gön-dəri istehsalı ilə məşğul olanların sayının daha çox olmasının bir səbəbi də məhz bu olmuşdur. 1882-ci ilin məlumatına görə Quba bölgəsinin 30 kəndin 180 ailəsi gön-dəri istehsalı ilə məşğul olurdu [14]. Lakin XIX yüzilliyin sonlarında Bakıda neftin kəmərlər vasitəsilə ötürülməsinə başlanıldıqdan sonra, Şimali Azərbaycanın digər bölgələrində olduğu kimi Quba bölgəsində də gön-dəri istehsalında azalma baş verdi. Belə ki, 1897-ci ilin məlumatına görə artıq bölgənin yalnız 23 kəndində gön-dəri ilə məşğul olurdu [27, s.106]. Quba bölgəsinin gön-dəri müəssislərində XX yüzilliyin əvvəllərində artıq geniş şəkildə muzdlu əməkdən istifadə olunurdu. Emalatxanalarda sahibkardan başqa daha 3-4 usta köməkçisi, 1-2 şagird çalışırdı. Peşəkar fəhlələr ayda 5-10 rubl məvacib alırdılar. İş saatı çox, əmək şəraiti isə çox ağır idi [16, s. 17].

Tədqiq olunan dövrdə Quba bölgəsində gön-dəri istehsalı texnologoyası Şimali Azərbaycanın digər bölgələrindən demək olar ki, fərqlənmirdi. Peşəkar sənətkarlar gön və dərilərin aşılanmasında və onlara sifarişlərdən asılı olaraq bir sıra rənglər vermək üçün təbiətdə bitən ağacların müxtəlif hissələrindən istifadə edirdilər. Palıd ağacı qabığından istifadə edilərək aşılanan dərilər qəhvəyi və ya açıq qırmızı rəng alırdı. Palıd ağacının budaqları və yarpaqlarından da dərilərin açılanmasında istifadə olunurdu. Ən keyfiyyətli aşılama vasitəsi 8-25 illik palıd ağacının qabığı hesab olunurdu. Belə ki, bu yaş arası ağacın qabığında 16 faiz aşılayıcı maddə olurdu. Ağacın budaqlarında və yarpaqlarında əmələ gələn böyümələrdə aşılayıcı maddə daha çox olur. Bu böyümələrdən əsasən altlıq dərilərin aşılanmasında geniş istifadə olunur. “Boya böyümələri” adlandırılan bu böyümələrdən dərilərin qara, qəhvəyi və boz rənglənməsində də olunurdu [2, s. 3]. Dərilərin aşılanmasında həmçinin Kül ağacından istifadə olunurdu [2, s. 9]. Qovaq ağacının qabığı da dərilərin aşılanmasına yarayırdı [2, s.11]. Aşılama prosesində həmçinin şabalıd, söyüd, qoz, zoğal, sumax [2, s. 11, 12, 16] və digər ağaclarından geniş istifadə olunurdu.

Təbiətdə bitən ağacların müxtəlif hissələri gön və dəriləri aşılamaqla yanaşı həm də müxtəlif rənglər verirdi. Əgər palıd ağacı qırmızı rəng verirdisə, qoz ağacının qabığı və yarpaqları açıq qəhvəyi rəng verirdi. Meyvələrin qabığından da davamlı qəhvəyi rəng alınırdı [2, s. 12]. Aşılayıcı maddələrlə zəngin olan zoğal ağacının qabığı da sumax kimi açıq sarı rəng verirdi [2, s.

16]. Yüksək aşılama qabiliyyətinə malik olan sumaq bitkisi əsasən Cənubi Qafqaz ərazisində bitirdi [2, s.16]. Həm Dağıstanda və Cənubi Qafqazda bitən sarağan dəriyə gözəl rəng verirdi [2, s.17]. Sarağan və dəvəqulağı bitkilərinin tərkibində daha çox aşı maddəsi olduğu üçün xaricə satışa çıxarılırdı [9, s. 334; 3, s. 114]. Dərilərin aşılanması Şimali Azərbaycanın bütün bölgələrində demək olar ki, eyni qaydada həyata keçirilirdi. Dərini sumaqla aşılandığı halda, aşılanan dəriyə əhəng suyu sürtülür və həmin əhəng suyu sürtülmüş dəri bir gecə saxladıqdan sonra təmizlənir və əhəng suyuna salınır və bu suya toz halına salınmış sumaq yarpağı əlavə edilirdi. Üç gün müddətində həmin qarışıq təzələnərək orada saxlanırdı. Bundan sonra dəriyə piy sürtülür və əsasən həmin dövrdə dəbdə olan qırmızı boyaya salınırdı [31].

Gön-dəri emalatxanaları bəzən yaşayış evlərinin həyətində, bəzən də belə emalatxanalar yaşayış məntəqələrindən kənarda, əsasən də çayın kənarında tikilirdi [32, s.369]. İstehsalın həcmindən asılı olaraq iri dabbağxanalarda 3-4, bəzən isə 5-6, xırda dabbaqxanalarda 1-2 çən olurdu. İri dabbağxanalarda çox nadir hallarda çənlərin sayı 8-10-a çatırdı. Dabbağxanaların işçi qüvvəsi çənlərin sayından asılı idi. Belə ki, hər çəndə bir nəfər kargər işləyirdi [32, s. 354]. Gön və dərilərin aşılanmasında sıyırğac, şüfrə, bıçaq (gorda), tişə, qaşov, qırov, vərəçü, doğanaq, xərcü, xortaçü, sığalçü, oxlov, qulaba, çapasəng və s. alətlərdən istifadə olunurdu [17, s. 30].

Birinci Cahan savaşının başlanması gön-dəri istehsalının daha da artırılması vacibliyini ortaya atdı. Hökumət bu sahədə xammal çatışmadığını nəzərə alaraq bir sıra tədbirlərin görülməsini vacib bildi. Bununla bağlı 1915-ci il oktyabrın 19-da “Zavodları gön-dəri ilə təchiz olunması işinin qaydaya salınması üçün bəzi tədbirlərin görülməsinə dair” qanun verildi. Qanuna əsasən yaradılan ticarət və sənaye, hərbi nazirliklərinin, habelə ticarət və sənaye müəssisələrinin nümayəndələrinin daxil edildiyi xüsusi komitə xammal ehtiyatlarını müəyyən etməli, qiymətləri sabitləşdirməli, məhsulun müsadirəsi ilə bağlı məsələlərin müzakirəsini təşkil etməli, xammalı müəssisələr arasında bölüşdürməli idi və s. işləri görməli idi. Bu qanuna əsasən birinci növ altlıq gönün pudunun qiyməti 65 rubl, yümşaq üzlük dərinin pudunun qiyməti 55, aşılanmış digər növ dərilərin pudunun qiyməti 45 rubl, aşılanmış öküz gönünün pudunun qiyməti 70 rubl müəyyən edilmişdi [3, s. 115].

Beləliklə, Quba bölgəsində gön-dəri istehsalı XVIII yüzilliyin ikinci yarısı – XIX yüzilliyin əvvəllərində yalnız daxili tələbata xidmət edirdi. XIX yüzilliyin ikinci yarısından başlayaraq gön-dəri məmulatı istehsalının əmtəə xarakter daşıması bu sahənin canlanmasına səbəb olmuşdur. Emal olunan dərilərin satış bazarının əhatə dairəsinin genişlənməsi gön-dəri istehsalının daha da inkişaf etməsinə əlverişli şərait yaratmışdı. Birinci Cahan savaşının başlanması gön-dəri istehsalının artırılmasını tələb edirdi. Bu istehsal sahənin nizama salınması məqsədilə bir sıra qanunların verilməsini zəruri etmişdi.

## Ədəbiyyat:

1. Адресный список фабрично-ремесленных, горнозаводских и др. промышленных предприятии, по сведениям за 1903 год, дополненный по материалам за 1904-1905 гг. (по губерниям и производствам). Бакинская губерния // Адресная книга фабрично-заводской и ремесленной промышленности всей России. – СПб.: Типография К.А. Четверикова, 1907. Отдел V. – С. 13-24

2. Буш Н.А. Ценная деревья Кавказа. – Петроград: Типография Академии наук, 1917. – 20 с.

3. Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. – Bakı: Elm, 1987. – 256 s.

4. Ведомость о фабриках и заводах в Дербентской губернии // Российский Государственный Исторический Архив, ф. 1268, оп. 8, д. 19 https://www.prlib.ru/item/335700

5. Волков Н. Состояние Кубинскаго уезда по промышленностям: земледельческой, мануфактурной и торговой // Закавказский вестник, 3 июня 1848 года № 230

6. Герценштейн В. Д. Закавказский альманах. Сборник сведений о жизни в деятельности населения Закавказского края. – Тифлис: Издателство книжный магазина Л. Хидекеля, 1896. – 276 с.

7. Гмелин С.Г. Путешествие по России для исследования всех трех царств в природе. Часть третья, половина вторая. – СПб.: Издательство Академии наук, 1785. – 336 с.

8. Города // Списки населенных мест Российской империи по Кавказскому краю. LXV. Бакинская губерния. – Тифлис: Типография главного управления наместника Кавказского, 1870. – С. 1-12

9. Гулишамбаров С. Обзор фабрик и заводов Закавказского края. Тифлис. Типография канцелярии главноначальствующего гражданской частью на Кавказе, 1894. – 414 с.

10. Евецкий О. Статистическое описание Закавказского края. В двух частьях. – СПб.: Печатано в типографии штаба отделного корпуса внутренней стражи. – 1835. – 308 с.

11. Журнал генеральной проверки торговых и промышленных заведений в городе Кубы и еврейской загородной слободы, за 1876 год // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f. 43, siy. 1, iş 98

12. Кавказская жизнь // Кавказ, 23 января 1890 года, №21

13. Константинов В. Куба // Кавказский календарь на 1852. – Тифлис: Типография канцелярии наместника кавказского, 1851. Отделение третье. – С. 334-339

14. Кустарная промышленность за Кавказом // Кавказ, 24 ноября 1882 года, № 311

15. Легкобытов М. Кубинская провинция // Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть 4. – СПб.: Типография департамента внейней торговли. – 1836. – С. 95-148

16. Мамедов Н.Р. История города Кубы в XIX – начала XX века. Автореф. канд. дисс. – Баку: 1989. – 24 с.

17. Mustafayev A.H. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2009. – 420 s.

18. Mustafayev C.M. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 2002. – 272 s.

19. Нижегородская ярманка 1846 года, сравнительно с 1845 годом. Статья II // Журнал министерства внутренних дел. Часть восемнадцатая. – СПб.: Типография министерства внутренних дел, 1847. – С. 285-334

20. Обзор Бакинской губернии за 1889. Приложение ко всеподданнейшему отчету. – Тифлис: б.и., 95 с. + 30 таблиц

21. Обзор Бакинской губернии за 1893 год. Приложение ко всеподданнейшему отчету. – Баку: Типография губернского правления, 1894. – 47 с., + 34 таблиц

22. Обзор Бакинской губернии за 1897 год. Приложение ко всеподданнейшему отчету. – Баку: Типография губернского правления, 1898. – 89 с., + 26 таблиц

23. Обзор Бакинской губернии за 1902. Приложение ко всеподданнейшему отчету – Баку: Типография губернского управления, 1903. – 63 с., + 88 таблиц

24. Обзор Бакинской губернии за 1903 год. Приложение ко всеподданнейшемк отчету. – Баку: Типография губернского правления, 1904. – 78 с., + 140 таблиц

25. Обзор Бакинской губернии за 1904 год. Приложение ко всеподданнейшему отчету. – Баку: Типография губернского правления, 1905. – 78 с., + 100 таблиц

26. Обзор Бакинской губернии за 1910 год. Приложение ко всеподданнейшему отчету. – Баку: Типография губернского правления, 1911. – 44 с., + 70 таблиц

27. Первая всеобщая перепись населения Российской империи, 1897 г. LXI. Бакинская губерния. – СПб.: «Центральная» типо-литография М.Я Минкова, 1905. – 167 с.

28. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1964. – 501 с.

29. Старая Куба // Географическо-статистический словарь Российской Империи составленной по поручению Императорского русского географического общества П. Семенов при содействии В. Зверинского, Н. Филиппова, Р. Маака. Т. 2. – СПб.: Типография В. Безобразова и Ко., 1865. – С. 812-814

30. Тавризов А. Баку (Корреспонденция «Кавказ»а) // Кавказ, 29 апреля 1873 года, №48

31. Ханыков Н. О промышленности в Шемахинской губернии: Земледельческой, мануфактурной и торговой // Кавказ, 11 марта 1850 года, №20

32. Хатисов К. Кустарные промысли Закавказского края // Отчеты и исследования по кустарной промышленности в России. Т. 2. СПб.: Типография В. Киршбаума, 1894. – С. 259-370

33. Экономический бытъ государственных крестьян в южной части Кубинского уезда, Бакинской губернии, исследование П.Н. Ягодинского // Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т. II. Ч. I. – Тифлис: Типография А.А. Михельсона, 1886. – С. 159-288

# ŞUŞA VƏ BAKI BƏYANNAMƏLƏRİ

**Zakir Kərimov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
zakir.kerimov.1955@mail.ru

***Açar sözlər:*** *Şuşa və Bakı bəyannamələri, əməkdaşlıq, müttəfiqlik, təhlükəsizlik, mənfəət*

*44 günlük Vətən müharibəsi ölkəmizin qələbəsi ilə başa çatsa da, müharibədən sonra ötən bir il göstərdi ki, bəzi beynəlxalq güclər Azərbaycanın bu möhtəşəm qələbəsini həzm etmək istəmirlər. Onlar Azərbaycanın qələbəsinin əhəmiyyətini azaltmağa çalışır. Ona hədə-qorxu gəlir, təzyiq göstəirir, güzəştə getməyə məcbur etmək istəyirlər. Ermənistandakı revanşistləri, Dağlıq Qarabağdakı seperatçıları silahlandırıb Azərbaycana qarşı terror, təxribat əməllərinə, hətta yeni müharibəyə təhrik edirlər. ABŞ daxil müxtəlif Qərb dövlətlərinin, Avropanın müxtəlif siyasi təşkilatlarının Türkiyəyə qarşı təzyiq, şantaj siyasəti davam edir. Belə bir mürəkkəb şəraitdə təzyiqlərə boyun əyməmək üçün Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 15 iyun 2021-ci ildə "Azərbaycan Respublikası ilə Türkiyə respulikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa bəyannaməsi"ni imzaladılar. Bəyannamə iki qardaş dövlət arasında iqtisadiyyat, təhlükəsizlik, müdafiə, xarici siyasət, elm və s. sahələrdə qarşılıqlı münasibətlərin geniş spektrini əhatə edir. Müttəfiqlik haqqında Şuşa bəyannaməsi iki qardaş dövlətin gələcək işbirliyinin əsas istiqamətlərini göstərir. Azərbaycan, Türkiyə, Pakistan parlament sədrlərinin (S.Qafarova,M.Şentop,Ə.Qeysər) 27 iyul 2021-ci ildə imzaladıqları Bakı bəyannaməsi bir növ Şuşa bəyannaməsinin davamı olaraq üç dövlət arasında əməkdaşlığı möhkəmləndirməyi, dərinləşdirməyi nəzərdə tutur. Bu bəyannamələr əsasında Azərbaycan, Türkiyə, Pakistan ittifaqı yarandı. Göstərilən məqalədə Şuşa və Bakı bəyannamələrinin mahiyyəti və tarixi əhəmiyyəti açıqlanmışdır.*

## ШУШИНСКАЯ И БАКИНСКАЯ ДЕКЛАРАЦИЯ

**Закир Керимов**

***Ключевые слова:*** *Шушинская и Бакинская декларации, сотрудничество, союз, безопасность, прибыль.*

*Хотя 44-дневная Отечественная война завершилась победой нашей страны, прошедший год после войны показал, что некоторые*

*международные силы не хотят переваривать эту великую победу Азербайджана, пытаются принизить значение победы Азербайджана хотят. Вооружив реваншистов в Армении и сепаратистов в Нагорном Карабахе,они подстрекают к терактам и диверсиям против Азербайджана, и даже к новой войне. Политика давления и шантажа против Турции со стороны различных западных стран,в том числе США, и различных европейских политических организаций. 15 июня 2021 года Президент И.Алиев и Президент Турции Реджеп Тайип Эрдоган подписали «Шушинскую декларацию о союзнических отношениях между Азербайджанской Республикой и Турецкой Республикой».охватывает широкий спектр взаимоотношений. В Шушинской декларации о союзе обозначены основные направления будущего сотрудничества двух братских государств. Бакинская декларация, подписанная спикерами парламентов Азербайджана, Турции и Пакистана (С.Гафарова, М.Шентоп, А.Кайсар) 27 июля, 2021 год является продолжением Шушинской декларации и призван укреплять и углублять сотрудничество между Азербайджаном, Турцией и Пакистаном на основе этих деклараций.*

## SHUSA AND BAKU DECLARATION

**Zakir Karimov**

***Keywords:*** *Shusha and Baku declarations, cooperation, alliance, security, profit*

*Although the 44-day Patriotic War ended with the victory of our country, the past year after the war has shown that some international powers do not want to digest this great victory of Azerbaijan. They are trying to reduce the importance of Azerbaijan's victory. they want. They are arming the revanchists in Armenia and the separatists in Nagorno-Karabakh and are inciting acts of terrorism and sabotage against Azerbaijan, and even a new war. The policy of pressure and blackmail against Turkey by various Western countries, including the United States, and various European political organizations continues. On June 15, 2021, President I. Aliyev and Turkish President Recep Tayyip Erdogan signed the "Shusha Declaration on Alliance Relations between the Republic of Azerbaijan and the Republic of Turkey". covers a wide range of mutual relations. The Shusha Declaration on Alliance shows the main directions of the future cooperation of the two brotherly states. The Baku Declaration signed by the Parliament Speakers of Azerbaijan, Turkey and Pakistan (S. Gafarova, M. Shentop, A. Kaysar) on July 27, 2021 is a continuation of the Shusha*

*Declaration. It means strengthening and deepening the cooperation between Azerbaijan, Turkey and Pakistan based on these declarations.*

2020-ci il 27 sentyabrında Ermənistanın işğalçı siyasətinə qarşı başlanmış 44 günlük Vətən müharibəsinin ilk günündə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İ.Əliyev xalqa müraciət etdi: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq" [2]. Prezidentin söylədikləri gerçək oldu. Qəhrəman xalqımız, müzəffər ordumuz düşmənə qalib gəldi. Ordumuzun 1992-ci ildə ermənlərin işğal etdiyi Şuşanı noyabrın 8-də azad etməsi [16] və digər əməliyyatları dünyanın müasir hərb tarixində gorkəmli yer tutmağa layiqdir. Müharibədə qələbənin təminatçısı xalq və ordu, təşkilatçısı və rəhbəri isə Respublika Prezidentı və Ali Baş Komandan İ.Əliyev idi [5].

Şuşa qələbəsi Ermənistanı təslimçilik bəyannaməsini imzalanmağa məcbur etdi. Bu möhtəşəm qələbəni yüksək qiymətləndirən Prezident, Ali Baş Komandan İ.Əliyev 16 yanvar 2021-ci ildə Şuşada hərbçilər qarşısında çıxışında demişdir ki, noyabrin 8-i xalqımızın tarixindı əbədi qalacaq: "... qədim Şuşa şəhərimizi düşməndən azad edərək Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişlər"[10].

Qısa müddətdə azad Şuşada mədəni tədbirlər keçirilməyə və abadlıq - quruculuq işləri görülməyə başlandı. Ölkəmizdə beynəlxalq görüşlər keçirilən mərkəzlərdən biri oldu. 2021-ci il iyunun 15-i Azərbaycan tarixinə əlamətdar gün kimi daxil oldu. İlk dəfə Azərbaycan dövlət başçısı İ.Əliyev, qardaş Türkiyənin dövlət başçısı R.T.Ərdoğanı Qarabağın ürəyi Şuşada qəbul etdi. Maraqlıdır ki, Ərdoğan Şuşaya NATO-nun Brüsseldəki sammitin tərk edən kimi gəlmişdi.

Qeyd etmək lazımdır ki, tariximiz üçün 15 iyun iki qat əlamətdardır. Ona görə ki, birincisi 15 iyun 1993-cü ildə Azərbaycan Respublikasının Milli Məclisinin fövqəladə sessiyası Heydər Əliyevi Azərbaycan SSR Ali Sovetinin sədri seçmişdir. O, da ölkəni vətəndaş müharibəsindən və parçalanmaqdan xilas etmişdir. Milli Məclisin 1997-ci il 27 iyun tarixi qərarı ilə həmin tarix "Qurtuluş Günü" kimi bayram elan edilmişdir [1, s. 350].

İkincisi, 15 iyun 2021-ci ildə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa bəyannaməsi imzalandı [3]. Bəyannamənin imzalanması mərasiminin keçrildiyi yer xüsusi olaraq seçilmişdi, bu böyük siyasi əhəmiyyəti olan sənədin imzalandığı masanın arxa fonunda erməni vəhşiliyinin nümunəsi olan dağıdılmış tikili görünürdü. Həmin bina Şuşa və Qarabağın sonuncu xanı Mehdiqulu xanın qızı, şairə Xurşidbanu Natəvanın evi olmuşdur. Bu görüş zamanı bütün dünyanın gözünün

Şuşada olduğu bir məqamda hər kəs informasiya kanalları vasitəsi ilə erməni hərbi-siyasi rəhbərliyinin işğal altında saxladığı ərazini 30 il ərzində necə xarablığa çevirdiyinin şahidi oldu.

Bəyannamənin preambula hissəsində deyilir: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşünün tarixi əhəmiyyətini vurğulayaraq, iki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, həmcinin 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edirlər. Çünki Qars müqaviləsi onu imzalayan Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin ərazi bütövlüyü və suverenliyinə təminat verir [17, s. 290-294].

9 fevral 1994-cü il tarixində imzalanmış Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməklaşlığın inkişafı barədə Müqaviləni və Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokolu, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq, ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini dərk edərək, beynəlxalq hüququn prinsip və normalarını əsas tutmaqla qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyini vurgulayırlar.

Bəyannamədə müqaviləni imzalayan Azərbaycan və Türkiyə prezidentləri Tərəflər adlandırılmışdır.

Tərəflər hər iki dövlətin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı kimi məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərdən çıxış edirlər. Türk dünyasının davamlı inkişafına yönəlmiş qarşılıqlı fəaliyyət yolunda səyləri birləşdirirlər.

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət iki dövlət" ifadələrinin xalqımızın istinad nöqtəsi olan milli-mənəvi sərvət kimi dəyərləndirildiyini xüsusi vurğulayaraq hər iki respublika arasındakı ikitərəfli münasibətlərini genişləndirmək və dərinləşdirmək perspektivlərinin nəzərdən keçirərək bəyan edirlər:

Tərəflər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan 1991-ci ildən əsası qoyulmuş [1, s. 329] iki dost və qardaş ölkə arasında strateji səviyyədə inkişaf edən münasibətlərin məmnun qalaraq siyasi dialoqun bütün səviyyələrdə

davam etdiilməsinin və qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd edirlər.

Hər iki dövlət Vətən müharibəsində böyük qələbənin əhəmiyyətini qiymətləndirmişlər: Tərəflər fəxarət hissi ilə bildirır ki, Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən işğalçılıq siyasətinə son qoydu, torpaqlarını azad etdi, ədalətin zəfər çalmasını, beynəlxalq hüququn bərpasını təmin etdi.

Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, ölkəmizin ərazi bütövlüyünün bərpasında Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək dəyərləndirmişlər.

Tərəflər Qafqaz regionunda sülhün bərqərar olunmasına və bu regionun inkişafı istiqamətində birgə səy göstərəcəklərini bəyan etmişlər. Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, region dövlətləri arasında münasibətlərin bərpası və münasibətlərin normallaşdırılması, uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər. Bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan MR-in xüsusi coğrafi vəziyyəti nəzərə alınacaqdır.

Tərəflər Türkiyənin işğaldan azad edilmiş ərazilərdə Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətinə verdiyi töhfənin regionda sülh, sabitlik və rifahın təmin edilməsində rolunu vurğulayırlar.

Azərbaycan və Türkiyə müstəqillik, süverenlik, ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərin rəhbər tutaraq müttəfiqlik münasibətlərinin yaradılmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər.

Tərəflər xarici siyasət sahəsində fəaliyyətin əlaqələndirilməsini, ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyini, bu istiqamətdə Azərbaycan və Türkiyə Respublikaları arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası cərçivəsində fəaliyyətlərin əhəmiyyətini qeyd edirlər.

Bəyannamədə bildirilirdi ki, tərəflər öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirirlər. Regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsinə səylər göstərirlər.

Müttəfiqlik haqqında maddə Azərbaycanın və Türkiyənin təhlükəsizliyinə, üçüncü dövlət və ya dövlətlər təhlükə yaradacağı təqdirdə ona qarşı birgə çıxış etməyi nəzərdə tuturdu.

Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən ölkəmizin qərb rayonları ilə Naxcıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmiryolunun tikintisinin iki

ölkə arasında nəqliyyat kommunikasiya əlaqələrinin intensivləşməsinə töhfə verəcəyini bildirdilər.

Tərəflər Bəyannamənin ticarət -iqtisadiyyatla bağlı maddəsində milli iqtisadiyyatların və ixracın şaxələndirilməsini, birgə istehsalın qurulmasını investisiya, Azərbaycan və Türkiyə mallarının sərbəst hərəkət mexanizmlərinin yaradılması sahəsində tədbirlər görəcəklərini qərara aldılar.

Enerji təhlükəsizliyi haqqında maddədə tərəflər regionun və Avropanın enerji təhlükəsizliyinə töhfə verən, təbii qazın şaxələndirilməsini təmin edən Cənubi qaz dəhlizinin həyata keçirilməsində Türkiyə və Azərbaycanın rolunu vurğulayır, regionun enerji təchizatı təhlükəsizliyini gücləndirmək üçün elektrik sahəsində də regional əməkdaşlığa töhfə verəcəklərini vəd etdilər.

Bəyannamədə nəqliyyat sahəsində əməkdaşlığın dərinləşdirilməsi, xüsusən hər iki ölkənin ərazisindən keçən Şərq-Qərb (Orta beynəlxalq) nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılmasına səy göstəriləcəyi bildirilirdi.

Bəyannamədə tərəflər arasında hərbi-siyasi əməkdaşlığın genişlənməsi önə çəkilir. Bildirirlər ki, iki dövlət arasında hərbi-siyasi əməkdaşlıq üçüncü dövlətlərə qarşı yönəlməmişdir.

Kiber təhlükəsizliyə qarşı birgə mübarizə aparılması bəyannamədəki vacib məsələlərdən biridir.

Tərəflər Türkiyə ilə Azərbaycan arasında əlaqələrin mövcud səviyyəsinin ümumi regional və beynəlxalq sülh və rifaha töhfə verdiyini qeyd etmişlər. Əlaqələrin yalnız iki ölkəyə deyil, regıona sülh və rifah gətirərək başqa regon ölkələri olmaqla beynəlxalq birliyin sabitlik, sülh və maraqlarına xidmət edəcəyini vurğulayırlar.

Azərbaycan və Türkiyə regional və beynəlxalq sabitlik və təhlükəsizliyə mənfi təsir edən təhdid və çağrışlara, terrorçuluğa, həmçinin Azərbaycan və Türkiyənin suverenliyinə, ərazi bütövlüyünə, sabitlik və təhlükəsizliyinə yönəlmiş terrorçuluğa, narkotik ticarəti, insan alveri və s. hallara qarşı mübarizə aparmağı qərara aldılar.

Bəyannamədə tərəflər dünyanın müxtəlif ölkələrində yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha da sıx inkişaf etdirilməsini, ümumi problemlərin qarşısında və tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında birgə fəaliyyət göstərilməsi nəzərdə tutulurdu.

Media sahəsində əməkdaşlıq da diqqət mərkəzində saxlandı. Tərəflər iki dövlət arasında imzalanmış 2020-ci il 10 dekabr tarixli media sahəsindəki strateji əməkdaşlıq haqqında Anlaşma Memorundumuna uyğun olaraq informasiya, kommunikasiya və ictimai diplomatiya sahəsində əlaqələri gücləndirməyi razılaşdırdılar.

Tərəflər parlamentlərarası əməkdaşlığın güçləndirilməsi yönündə qarşılıqlı fəaliyyətin artırılmasını təşviq etməyi zəruri hesab etdilər.

Mədəniyyət sahəsində geniş tədbirlərin həyata keçirilməsi, hər iki xalqın müştərək dəyərlərinə içtimai dəstəyin göstərilməsi, tarixi və mədəni irsin qorunması qərara alındı.

Tərəflər Ermənistanın 1915-il hadisələri ilə bağlı Türkiyəyə qarşı əsassız iddialarına, tarixin təhrif olunmasına və bu faktların təhrif olunmaqla siyasiləşməsinə qarşı çıxir, bu məsələ ilə bağlı Türkiyənin öz arxivlərini açdığı kimi Ermənistandan və digər dövlətlərdən də eyni hərəkəti gözləyir.

Tərəflər türk dünyasının təhlükəsizlik, birlik, əməkdaşlıq rifahının artırılmasına, türk mədəni irsinin qorunmasına, türkdilli dövlətlərin həmrəyliyinin gücləndirilməsinə xidmət edəcək səylərin artırlmasına diqqət çəkdilər.

Dövlət başçıları öz xalqları arasında humanitar, sosial, müdafiə, elm, təhsil, mədəniyyət gənclər və idman sahələrində əməkdaşlığı daha da inkişaf etdirəcəklərini qərara aldılar.

Tərəflər Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə içlaslarının keçirmələrini razılaşdırdılar [3].

Şuşa bəyannaməsi nəinki regional həm də, beynəlxalq əhəmiyyətli bir sənəddir.

ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza demişdir ki, Müttəfiqlik münasibətləri barədə Şuşa Bəyannaməsi Türkiyənin Azərbaycanın ərazi bütövlüyünə daha çox sadiqliyini əks etdirir. Onun imzalanması stabilləşdirici addımdır. Bəlkə də bəyannamədə ən vacib maddə üçüncü dövlət və ya dövlətlər tərəfindən ölkələrdən birinə ediləcək təcavüz təqdirində razılaşdırılmış fəaliyyətin təmin edilməsidir [ 4].

İ. Əliyev Şuşa Bəyannaməsinə yüksək siyasi qiymət verərək bildirmişdir ki, əməkdaşlığın adı müttəfiqlikdir və bu özü hər seyi deyir”[7]. Deməli, bu bəyannamə Türkiyə ilə Azərbaycan arasında münasibətləri müttəfiqlik səviyyəsinə yüksətmişdir. Azərbaycan öz təhlükəsizliyi üçün Türkiyənin simasında əlavə zəmanət əldə etmişdir.

Şuşa bəyannaməsinin məhz Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-ci ildönümünə təsadüf etməsinin xüsusi rəmzi mənası var. Biz tariximizin təkrarlanmasının və bənzər hadisələrin yenidən baş verməsinin şahidiyik. İndi də bölgə uğrunda ABŞ, Rusiya, Britaniya, Fransa, İran kimi dövlətlərin açıq mübarizəsi müşahidə olunmaqdadır. Lakin indiki siyasi şəratin o zamankından fərqi ondan ibarətdir ki, hadisələr Azərbaycanın xeyrinə və maraqlarına uyğun xidmət edir. Təsadüfi deyildir ki, Şuşada bəyannamə imzalanarkən Prezident İ.Əliyev Qars müqaviləsini xatırlatmışdır. O, qeyd etmişdir ki, tarixi Qars müqaviləsinin imzalanmasından yüz il sonra azad olunmuş Şuşa şəhərində imzalanan müttəfiqlik haqqında bəyannamə bizim gələcək işbirlyimizin istiqamətini göstərir.

Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapmışdır: beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi, ticarət-iqtisadi, mədəniyyət, idman, təhsil, gənclər siyasəti, bir sözlə bütün sahələrdə əlaqələr saxlamaq və s [8].

Şuşa bəyannaməsində nəzərdə tutulan məsələlər tezliklə həyata keçirilməyə başladı. Azərbaycan, Türkiyə və Pakistan arasında parlament əlaqələrini gücləndirmək yolunda addımlar atıldı.

27 iyul 2021-ci ildə Bakı şəhərində Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin üçtərəfli görüsündə Bakı bəyannaməsi imzalandı. Bəyannaməni Azərbaycan Respublikasının Milli Məclisinin sədri Sahilə Qafarova, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun və Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Əsəd Qeysər imzalamışdır.

Parlamentin sədrləri üç dövlət arasında qarşılıqlı, tarixi və mədəni əlaqələr, qarşılıqlı hörmət və etimad əsasında münasibətlərin vacibliyini vurğulamışlar.

Üç dövlət və millət arasında mövcud münasibətləri daha dərinləşdirmək üçün bu üç ölkənin parlamentləri arasında dialoqun və əməkdaşlığın gücləndirməsini razılaşdırmışlar.

Məxsus olduqları bölgələrdə sülh, sabitli və inkişafın bərqərar olmasında və təşviqində bu üç dövlətin oynadığı rolu və bu işə verdiyi töhfələri qeyd etmişlər. Mövcud olduqları öz bölgələrində sabitlik təhlükəsizlik və rifahı təmin etmək üçün bu dövlətlərin daha əhatəli iş birliyinə önəm verdiklərini bildirirlər.

Tərəflər xarici dəstəkli terror daxil kiber hücumlar, hibrid savaş formalarına, dezinformasiya kompaniyalarına bir çox ölkələrdə müsəlmanlara qarşı yönəlmiş islamafobiyaya qarşı mübarizə aparmağı razılaşdılar.

Hər üç dövlət beynəlxalq hüququn prinsip və normalarına bağlılıqları beynəlxalq anlaşmalara və beynəlxalq sənədlər üzrə götürülmüş öhdəliklərə bağlılıqlarını bildirdilər. Əməkdaşlığın parlament sədrləri COVİD-19 pandemiyasında iqtisadiyyata mənfi təsirini qeyd etdilər.

Türkiyə və Pakistan ali qanunverici orqanın sədrləri Azərbaycan hökümətini və xalqını Ermənistanın 30 il sürən işğal rejiminə son qoyduğu, ərazi bütövlüyünü təmin etdiyi üçün təbrik etdilər.

Azərbaycan –Pakistan-Türkiyə üçlü Parlament sədrlərinin birinci görüşünə ev sahibliyindən ötrü Azərbaycan Milli Məclisinə təşəkkürlərini çatdırdılar .

Hər üç dövlətin parlamentinin sədrləri bu üç qardaş xalqlarını daha da yaxınıaşdırmaq üçün ikili və çoxtərəfli səviyyələrdə parlamentlərarası dialoq və əməkdaşlığın inkişaf etdirməyi qərara aldılar. Bu parlamentlərin daimi komitələrinin dostluq qruplarının və işçi heyətlərinə həvalə olundu.

Beynəlxalq problemlərin həllində barış və təhlükəsizliyin möhkəmləndirilməsində ikitərəfli və çoxtərəfli parlament əlaqələrinin rolunu qeyd etdilər.

Konstruktiv dialoq və uğurlu əməkdaşlıq platforması təqdim edən beynəlxalq təşkilatları dəstəklədiklərini bildirdilər.

Qadın parlamentarilərin qərar qəbul etmə prosesindəki rolunu, məsuliyyətlərinin artırılmasına yönəlik səyləri dəstələdiklərini ifadə etdilər.

Qarşılıqlı mənfəətlərin olduğu bölgə və qlobal məsələlərdə o cümlədən beynəlxalq qarşılıqlı mənfəətlərin naminə birgə çalışmağa hazır olduqlarını bildirirlər. Beynəlxalq parlament strukturlarında üç qardaş ölkə olaraq ortaq mövqe sərgiləməyə çalışacaqlarını ifadə etdilər.

Bölgə və beynəlxalq parlament platformalarında, islamafobiya, ayrı-seçkilik və müsəlman azlıqlara yönəlik təzyiqlərə qarşı mübarizədə ortaq səyləri koordinasiya etməyi qərar aldılar.

Hər üç dövlətin parlamanet sədrləri nəqliyyat ticarət, enerji, xalqlar arasında təmas, təhsil, elm və rabitə texnologiyaları sahəsində regional müstəvidə daha yaxın əməkdaşlıq etmək barədə konsesusa gəldilər.

Parlament sədrləri Covid-19 pandemisyasının geniş miqyaslı təsirləri ilə bağlı müzakirələr apardılar.

Bu istiqamətdə informasiya mübadiləsi və ən yaxşı təcrübələri dəstəkləməyi qərara aldılar. Bu problemlə əhatəli mübarizə aparmaq üçün beynəlxalq əməkdaşlığın gücləndirilməsinə çağırış etdilər.

Dövlətlərin müstəqillik suverenlik ərazi bütövlüyü sərhədlərin toxunulmazlığı üçün dəstək və qarşılıqlı hörmətlərini təsdiq etdilər.

Tərəflər Ermənistanın Azərbaycana mina xəritələrini verməməsini qınadılar. Azad edilmiş torpaqların yenidən inşası və məcburi köçkünlərin evlərinə qaytarılması istiqamətində Azərbaycana səylərini dəstəklədiklərini bildirdilər[ 6].

Parlament sədrlərinin növbəti görüşünün 2022-ci ildə İslamabadda keçirilməsi qərara alındı.

Şuşa və Bakı bəyannamələri nəinki onu imzalayan dövlətlərin, həm də region ölkələrinin təhlükəsizliyinə və inkişafına şərait yaradır. Bəyannamələr beynəlxalq hüququn prinsipinlərinə və sənədlərə əsasən tərtib edilmişdir.

2022-ci il fevralın 1-də Azərbaycan Respublikasının Milli Məclisi Şuşa bəyannaməsini yekdilliklə təsdiq etdi [9]. Fevralın 12-də bu barədə Qanunu Prezedent İ.Əliyev təsdiq etdi [14]. Fevralın 3-də Türkiyə Böyük Millət Məclisi bəyannamə lahiyəsini təsdiq etdi [12], 13 fevralda isə R.T.Ərdoğan həmin sənədi ratifikasiya etdi [11].

Şuşa və Bakı bəyannamələrindən sonra Azərbaycan, Türkiyə və Pakistan dövlətləri arasında çoxşaxəli əlaqələr daha da genişlənmişdir. Bəyannamələrdə nəzərdə tutulduğu kimi dövlət və hökumət başçılarının, parlament nümayəndə heyyətlərinin, müxtəlif sahələr üzrə nazirlərin, gənclər təşkilatları və başqa təşkilatların nümayəndələrinin görüşləri mütəmadi xarakter almışdır.

NATO-nun ikinci quru ordusuna sahib olan Türkiyə və nüvə dövləti olan Pakistan İslam Respublikası Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini birmənalı tanıyan və onu hər an qorumağa hazır olduğunu dəfələrlə bildirmişlər. Türkiyə ilə Pakistanın regionda və xüsusən də müsəlman ölkələri üçün sabitlik,sülh və rifahı təmin etmək istqamətində ortaq mövqe sərgilədiyini bildirən Pakistan Hava Qüvvələri komandanı generalı Mücahid Ənvər Türkiyənin Azərbaycana verdiyi dəstyin də bunun açıq nümunəsi olduğunu söylədi [15].

Şuşa və Bakı bəyannamələrinin müsəlman dünyası, bütövlükdə beynəlxalq təhlükəsizlik üçün böyük tarixi əhəmiyyəti vardır. Bəyannamələr Azərbaycan,Türkiyə və Pakistandan ibarət yeni ittifaqın əsasını qoydu. Bəyannamələrdən sonrakı dövrdə bu dövlətlər arasında müxtəlif sahələrdə, xüsusən hərbi sahədə əməkdaşlıq genişləndi. Azərbaycan Ordusu Türkiyə ordusu modeli əsasında qurulur. Müxtəlif qoşun növlərinin birgə təlimləri keçirilir. “Bayraqdar” və digər hərbi texnikanın ölkəmizdə istehsalına başlanmışdır. Türkiyə və Azərbaycanın hava məkanının müdafiəsi vahid mərkəzdə birləşdirilmişdir. Türkiyə Rusiya, Fransa, İran kimi dövlətlərin təzyiq və hədə qorxularından ölkəmizi qorumuşdur.

Quzey Kıprıs Türk Cümhuriyyətidən dərhal sonra Bakıya təşrif buyuran R.T.Ərdoğan(12-13 iyul) bir daha Azərbaycanı dəstəklədiyini bəyan etmiş, Zəngəzur dəhlizi kimi mühüm proyektin gerçəkləşməsinə daha çox İranın mane olduğunu bildirmişdir. NATO-nun Vilnüs sammitində (12 iyul 2023-cü il )R.T.Ərdoğan azərbaycanlı jurnalistin sualına cavabında demişdir ki, rus sülhməramlıları (əslində bədməramlıları-Z.K) üç tərəfli bəyanatda nəzərdə tutdiğu kimi 2025- ci ildə tərk edəcək [13].

Şuşa bəyannaməsinin üç illiyinin tamamında Azərbaycanda rəsmi səfərdə olan ( 14-15 iyun 2023-cü il) Pakistanın baş naziri Məhəmməd Şahbaz Şərif demişdir ki, Pakistan, Türkiyə, Azərbaycan qardaş ölkələrdir, birgə hərəkət edirlər. Pakistan hər zaman Azəraycanın ərazi bütövlüyünü və Qarabağ üzərində hüququnu tanıyır. Pakistan Azərbaycana görə Ermənistanı tanımayan bir neçə dövlətdən biridir. Nə vaxt Azərbayanla Ermənistan arasında sülh bağlansa, bundan sonra Azərbaycan razılıq versə, biz Ermənistanı tanıyarıq,diplomatik münasibət yaradarıq. Deməli, Pakistanın keçmiş baş naziri,ölkəmizin böyük dostu İmran xanın siyasətini hal-hazırda Şahbaz Şərif də davam etdirir [9].

Təhsil sahəsində əlaqələi daha da dərinləşməkdədir. Azərbaycanda təhsil alan 90 ölkənin əcnəbi tələbələri arasında Türkiyə vətəndaşlarının sayı 40%-dən çoxdur.Türkiyədə isə 23 min Azərbaycan vətəndaşı təhsil alır. Pakistanla da bu istiqamətdə əməkdaşlıq aparılır [15]. Qarabağda bərpa quruculuq işlərində 400-dən artıq türk şirkəti iştirak edir.

**Ədəbiyyat:**

1.Azərbaycan tarixi vıı cildliyin vıı cildi.Bakı,Elm,2003
2.Azərbaycan qəzeti 198(8514),29 sentyabr 2020-ci il
3.az.m.wikipedia.orq: Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasındakı müttəfiqlik münasibətləri haqqında Şuşa bəyannaməsi
4.Həftə içi qəzeti 17-18 iyun 2021-ci il №61(3385)
5.Hüseynova İ.Müasir Azərbaycan tarixinin banisi İlham Əliyev - Azərbaycan tarixinə adı qızıl hərflərlə yazılmış Ali Baş Komandan-Tarix,İnsan,cəmiyyət.Elmi-nəzəri və elmi-metodiki jurnal.2020,3(30), ADPU-nun nəşri
6.https://modern .az> news >baki-bey…
7.htpss:// president.az> articles view-Azərbaycan Türkiyə prezidentlərinin mətbuata birgə bəyanatı 15 iyun 2021-ci il.
8.https// ona az >turizm susa –beyan…:Şuşa bəyannaməsinin əhəmiyyəti-təhlil.
9.https://oxu.az>politiks
10 https// aztv.az>news>null
11.https: //bax. tv>video
12.https:// yeni azerbaycan.com> Siyase…
13.https://m.youtube.com>watch
14.https: //www.azadlıq .orq >shusha- be...
15.Respublika qəzeti,№123(7019),15 iyun 2021-ci il
16.Kərimov Z.Şuşa zəfəri-Tarix,İnsan,cəmiyyət jurnalı.2020,3(30),ADPU-nun nəşri .
17.Behbud ağa Şahtaxtinski:sənədlər və materiallar.Naxçıvan,Əcəmi NRB,2017

# BAKI 1914-1918-CI İLLƏRDƏ

**Elman Mirzəyev**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
elman.mirzeyev.1957@gmail.com

***Açar sözlər:*** *Bakı məsələsi, yanacaq bazası, Birinci Dünya müharibəsi, hərbi hava donanması, Azərbaycan diplomatiyası.*

*XX əsrin əvvəllərində Bakı Rusiya imperiyasının əsas yanacaq bazasına çevrilmişdi. Birinci Dünya müharibəsi ərəfəsində Rusiyada hərbi hava aviasiyasının yaradılması əsas məsələlərdən biri idi. Bu dövrdə Bakı Rusiya hərbi hava qüvvələrinin əsas bazasına çevrildi. Rusiya imperiyasının hərbi hava qüvvələrinin kadr hazırlığı Moskva ətrafındakı Qatçina və Bakı şəhərində həyata keçirilirdi. 1918-1920-ci illərin gərgin hərbi-siyasi prosesləri zamanı Bakı şəhəri "Bakı məsələsi" səviyyəsinədək yüksələrək Osmanlı imperiyası, Almaniya, Böyük Britaniya və sovet Rusiyası arasında diplomatik, hərbi və siyasi mübarizəyə çevrildi. Məqalədə məhz Birinci Dünya müharibəsi illərində Bakı şəhərinin rolu və böyük dövlətlərin mübarizəsində onun əhəmiyyətindən bəhs edilir.*

# БАКУ 1914-1918 гг.

**Эльман Мирзоев**

***Ключевые слова:*** *Бакинский вопрос, топливная база, Первая Мировая война, военно-воздушные силы, Азербайджанская дипломатия.*

*В начале 20 века Баку стал главной топливной базой Российской империи. Накануне Первой Мировой войны создание военной авиации в России было одним из главных вопросов. В этот период он стал главной базой ВВС России. Подготовка личного состава ВВС Российской империи осуществлялась в подмосковных городах Гатчина и Баку. В ходе напряженных военно-политических процессов 1918-1920 годов город Баку поднялся на уровень "Бакинского вопроса" и превратился в дипломатическую, военно-политическую борьбу между Османской империей, Германией, Великобританией и советской Россией. В статье говорится о роли города Баку в годы Первой Мировой войны и его значении в борьбе великих держав.*

# BAKU IN 1914-1918

***Elman Mirzayev***

***Keywords:*** *Baku issue, fuel base, World War I, air force, Azerbaijani diplomacy.*

*At the beginning of the 20th century, Baku became the main fuel base of the Russian Empire. On the eve of the First World War, the creation of military aviation in Russia was one of the main issues. During this period, it became the main base of the Russian air force. Personnel training for the Air Force of the Russian Empire was carried out in the cities of Gatchina and Baku, near Moscow. During the intense military and political processes of 1918–1920, the city of Baku rose to the level of the "Baku issue" and turned into a diplomatic, military, and political struggle between the Ottoman Empire, Germany, Great Britain, and soviet Russia. The article talks about the role of the city of Baku in the years of the First World War and its importance in the struggle of the great powers.*

Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalından sonra 1918-ci il Türkmənçay müqaviləsinə əsasən Xəzər dənizi sahilində, Abşeron yarımadasında yerləşən Bakı şəhərinin imperiya üçün əhəmiyyəti artmaqda davam edirdi. 1859-cu ildə Bakının quberniya mərkəzinə çevrilməsi ilə şəhər ətrafında zəngin neft yataqlarının istifadəsi nəticəsində Bakı şəhərinin əhəmiyyəti artaraq, nəinki Qafqaz, hətta Rusiya əhəmiyyətli strateji şəhərə çevrilmişdi. Bakı haqqında iri dövlətlərin, xüsusəndə Böyük Britaniyanın maraqları daha güclü idi. XX əszrin əvvəllərində Bakı Rusiya imperiyasının əsas yanacaq bazası olaraq Rusiya neftinin 90%-i, dünya neftinin isə 51%-i Abşeron yarımadasında çıxarılırdı [3, s. 25].

Bakı haqqında dünyanın aparıcı dövlət başçıları öz mövqe və maraqalarını gizlətmirdilər. Bakı şəhəri əsas yanacaq bazası olmaqla bərabər imperiyanın Xəzər dənizində əsas hərbi-strateji şəhərinə çevrilmişdir.

XX əsrin əvvəllərində Avropanın aparıcı dövlətləri arasında maraqların toqquşması iki hərbi blokun Antanta və Üçlər İttifaqının yaranması ilə nəticələndi. Birinci Dünya müharibəsi ərəfəsində başqa dövlətlər kimi Rusiya imperiyasında ciddi hərbi hazırlıqlar görüldü. Bu hazırlıqlar planında Rusiya hərbi hava aviasiyasının yaradılması əsas məsələlərdən biri idi. Bu məqsədlə 1912-ci il iyun ayının 2-də Rusiya Hərbi Nazirliyinin müvafiq əmri ilə hərbi hava donammasının yaradılması haqqında əmr verilmişdir [3, s. 262].

Birinci Dünya müharibəsi başlayan ərəfədə 1914-cü ildə Rusiyanın hərbi hava aviasiyasında 20-ə qədər təyyarə var idi. 1915-ci ilin yyaında Peterburqda

hərbi hava aviasiyası üçün zabitlər hazırlayan məktəb açılmışdır. Artıq Rusiya Birinci Dünya müharibəsində iştirakçı dövlət olmaqla öz hərbi hava qüvvələrinin hazırlanmasına xüsusi diqqət verirdi, bu məsələ böyük knyaz Aleksandr Mixayloviçin nəzarəti altında idi. Aydın oldu ki, hərbi hava qüvvələri üçün hazırlanan pilotların Baltik dənizindəki hazırlıqları ancaq yay aylarında mümkün ola bilər. Soyuq aylarda Bakıda rus hərbiçilərinin öz hazırlıqlarını davam etdirməsi haqqında Müdafiə Nazirliyi tərəfindən qərar qəbul olundu. Beləliklə, Bakı şəhəri Rusiya Hərbi hava qüvvələrinin əsas bazasına çevrildi.

Bakı şəhərində bunun üçün bütün şərait var idi. Belə ki, Rusiyanın Xəzər dəniz donanması Bakıda yerləşir. Bakı buxtası əlverişli olmaqla bərabər, ilin bütün fəsillərində hərbi təlimlər üçün əvəzsiz ərazi sayılırdı.

Bakı şəhərinin idarəçiliyində təmsil olunan Bakı portunun rəisi kontr-admiral Keyupfel şəhər rəisi polkovnik Marıtov, şəhər Dumasının rəhbəri Hacınski hərbi hava qüvvələri üçün lazımi şəraitin yaradılmasında xeyli iş gördülər. Bakı bulvarı yaxınlığında qısa müddət ərzində hərbi hava qüvvələri üçün təyyarəçilər hazırlayan infrastruktur-iki anqar, avtomobil parkı və digər vacib obyektlər istifadəyə verildi.

1915-ci ilin noyabr ayında Rusiya hərbi qüvvələri üçün strateji əhəmiyyətli hərbi məktəb fəaliyyətə başladı. Bu haqda Kaspi qəzetində reportaj hazırlayıb, yerli hakimiyyət orqanlarının fəaliyyətlərini xüsusi qeyd etmişdi.

Bakıda yerləşən imperiya hərbi hava qüvvələrinin maddi- texniki bazası gücləndirilmiş, artıq 1916-cı ilin yazında bazada 9 ədəd hidroplan hazırlanmışdı.

Bakıda fəaliyyət göstərən məktəbdə hərbi hava qüvvələri üçün kadrlarla bərabər, həmçinin hərbi texnikada hazırlanırdı. Bu hərbi texnikalar yerli resurslar hesabına hazırlanırdı.

Müharibə aparan Rusiya imperiyasının hərbi hava qüvvələrinin kadr hazırlığı Moskva ətrafındakı Qatçina və Bakı şəhərində həyata keçirilirdi.

1918-ci illərin siyasi və hərbi hadisələri nəricəsində Bakıda yerləşən hərbi məktəb əsasında Qruzinovun komandanlığı altında 5-ci aviadiviziya təşkil edildi. 1918-ci ilin 8 iyulunda Bakı şəhərində hakimiyyətdə olan erməni-daşnak hökümətinin qərarı ilə bu hərbi məktəb ləğv edildi və onun heyəti Nijni Novqorod şəhərinə köçürüldü. Bakıda Əlahiddə Dəniz aviasiya məktəbi fəaliyyət göstərdi, iki il müddətində 150-dən artıq cəsur, peşəkar mütəxəssislər hazırlamışdı [3, s. 262].

XIX əsrin ikinci yarısına qədər kiçik Abşeron yarımadasında yerləşən, ancaq İçərişəhər qala divarları ilə məhdudlaşan Bakı şəhəri əsrin ikinci yarısından sonra, xüsusən də XX əsrin əvvəllərində Rusiya imperiyasını və dünyanın əsas yanacaq bazasını təşkil etməklə bərabər, böyük strateji-hərbi əhəmiyyətə malik olan bir şəhərə çevrilmişdi.

1918-1920-ci illərin gərgin hərbi-siyasi prosesləri zamanı Bakı şəhəri "Bakı məsələsi" səviyyəsinə qədər yüksələrək Osmanlı imperiyası, Almaniya, Böyük Britaniya və sovet Rusiyası arasında Bakı nefti uğrunda diplomatik, siyasi və hərbi mübarizəyə çevrilmişdi. Antanta ilə Dördlər İttifaqı arasında qarşıdurmanın əsas səbəblərindən biri məhz bu idi.

1918-ci ilin yayında ingilis qoşunlarının Bakıya gəlməsi Qafqazı, xüsusən də Bakının ələ keçirilməsi üçün əlverişli şərait yaratdı. Lakin İngilis generalı Tomsonun başçılığı ilə daxil olan ingilis qoşunları Osmanlı- Azərbaycan ordusunun qarşısını almaq üçün kifayət etmədi. "Bakı məsələsinin" beynəlxalq əhəmiyyəti daha kəskin olaraq qalırdı. Bununla belə, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu məsələdə qəti və prinsipial mövqe tutmuşdu.

M.Ə.Rəsulzadənin dediyi kimi, "Necə olursa olsun, Bakını almaq, almaq və almaq lazımdır. "Bakı alınmasa Azərbaycan Xalq Cümhuriyyətinin süqutunu labüd hesab edirəm". Hücum planına əsasən 5-ci firqə Qurd qapısı Xırdalan xətti arasında, 15-ci firqə isə Biləcəri istiqamətindən başlayaraq Zığ burnuna qədər olan ərazidə yerləşdirilmişdi. Əlahiddə Azərbaycan korpusuna daxil olan milli hərbi hissələr və könüllü Azərbaycan dəstələri də bu firqənin əməliyyat tabeliyinə verilmişdi. 4-cü Azərbaycan piyada alayı, suvari və topçu bölmələr 5-ci firqənin hücum sahəsində iştirak edirdilər. Azərbaycan milli qüvvələrin süvari alayları, Maştağa dəstəsi və digər könüllü dəstələri isə 15-ci firqə komandanlığını əməliyyat tabeliyinə verilmişdi [2, s. 290].

Biləcəridən başlayaraq, Zığ burnuna qədər olan dövrələmə xətt boyunca əsasən, Azərbaycanın milli qüvvələri döyüşürdülər. Ümumi hücum planına əsasən 15-ci firqənin əməliyyat sahəsində yerləşdirilmiş Türk-Azərbaycan qüvvələrinə qarşı tərəflərin qüvvələrini parçalamaqla Qurd qapısı istiqamətindən hücuma keçən hissələrin surətlə Bakıya girməsinə zəmin yaratmalı idilər. Sentyabrın 13-də axşam Nuru paşa tərəfindən imzalanan həlledici hücum əmrinə əsasən, Türk hərbi hissələrinin 9-cu, 10-cu, 13-cü 56-cı piyada alayları topçu bölmələri Qurd qapısı istiqamətində qərar tutmuşdular. Əmrə əsasən 9-cu və 56-cı alaylar gecə hücuma başlayaraq Sentrokaspi və ingilis qüvvələrinin ilk müdafiə xəttini ələ keçirməli idilər. Arxada qalan alayların və topçu bölmələrinin yetişməsi ilə Bakıya doğru hücumu davam etdirməli idi [2, s. 291].

1918-ci il iyul ayının sonlarında Osmanlı –Azərbaycan hərbi qüvvələrinin Bakıya yaxınlaşması Almaniya –Rusiya danışıqlarını yenidən canlandırdı.

"Bakı məsələsi" ilə bağlı Berlində Moskvada danışıqlar davam etdiyi müddətdə Bakı uğrunda hərbi əməliyyatlar kəskinləşdi. 1918-ci il avqustun əvvəllərində ingilis qoşunlarının Bakıya daxil olması Antantanın Qafqazı, xüsusən də Bakını ələ keçirməsi üçün əlverişli şərait yaratdı. Lakin Bakıya

gəlmiş ingilis qoşunları Osmanlı - Azərbaycan ordusunun qarşısını almaq üçün kifayət etmədi. “Bakı məsələsi” beynəlxalq əhəmiyyət kəsb etdi.

İstanbulda olan Azərbaycan nümayəndələri Almaniya-Rusiya məxfi sazişinə qarşı mübarizəyə başladılar. Onlar Osmanlı dövlətinin Baş naziri Tələt paşa ilə “Bakı məsələsin”də Almaniyanın mövqeyini, Bakının tezliklə azad edilməsinin zəruriliyini müzakirə etdilər. 1918-ci ilin sentyabrın 15-də Bakının azad edilməsi xəbəri Tələt paşanın Berlində apardığı danışıqlara ciddi təsir göstərdi. Almaniya Azərbaycanı bir dövlət kimi tanıyacağını, Bakıda tezliklə konsulluq açacağını bildirdi.

Bakı şəhərinin azad edilməsi üçün ilk ciddi - cəhd 1918-ci il avqustun 5-də göstərilmişdi [2, s. 290]. Həmin gün Qafqaz İslam ordusu Şərq cəbhəsi komandanı Mürsəl paşanın rəhbərliyi ilə qurd qapısı istiqamətindən Bakıya doğru hucum oldu.

Bakının azad edilməsini uğurla başa çatdırmaq üçün 5 avqust döyüşünün nəticələri Qafqaz İslam Ordusu komandanı Nuru paşa, Əlahiddə Azərbaycan Korpusunun Komandanı Əlağa Şıxlinski və onların rəhbərlik etdikləri qərargahlar tərəfindən ciddi təhlil olundu, ordu hissələrinin və Azərbaycan xalqının iradəsinin reallaşdırılması, qüvvələrin düzgün istiqamətləndirilməsi üçün zəruri tədbirlərin həyata keçrilməsi planlaşdırıldı. Onların arasında hərbi qüvvələrin gücləndirilməsi, döyüş taktikasına yenidən baxılması, Bakı ətrafı kəndlərin əhalisinin döyüşə səfərbər edilməsi, qoşun hissələrində və könüllü dəstələrdə ruh və qələbə əzminin yüksəldilməsi kimi tədbirlər var idi. Həmin tədbirlərin həyata keçrilməsi istiqamətində aparılan işlərin əsaslı sürətdə götür-qoy edilməsi, məqsəd yönlü şəkildə qurulması 1918-ci il sentyabrın 15-də Bakı şəhərinin Azərbaycan xalqının müstəqiliyinə yabançı olan qüvvələrdən təmizlənməsi ilə nəticələndi. Əməliyatı qələbəilə başa çatdırmaq üçün, hər şeydən əvvəl, Bakı ətrafında da hərbi qüvvələr möhkəmləndirildi.

Bakı ətrafı kəndlərin əhalisi şəhərin azad edilməsinə səfərbər olundu. Bu kəndlərin silah tuta bilən sakinləri Maştağa dəstəsində, digər könüllü dəstələrdə, süvari bölmələrində birləşdilər, Bakının şimal-şərqi boyunca uzanan döyüş xəttində mövqe tutdular.

Bakının azad olunması üçün keçirilən həlledici hucum planı Nuru paşa tərəfindən hazirlanmışdı. Hucuma lazımı hazırlıq işləri başa çatdıqdan sonra Nuru paşa, türk ordusu şərq qrupunun komandanı Xəlil paşa, Əlahiddə Azərbaycan korpusunun komandanı Əlağa Şıxlinski və digər yüksək rütbəli zabitlər Bakı ətrafına gəldilər. Qafqaz İslam ordusunun komandanlığı qərargahı Güzdəkdə, 15-ci A türk fırqəsinin qərargahı isə Masazırda yerləşdirilmişdi. Qafqaz islam ordusu qüvvələri sentyabrın 14-nə keçən gecə başlanan hücumla qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdilər. “Sentrokaspi” və ingilis qüvvələrinin son dərəcə güclü müqavimətinə baxmayaraq, hissə və bölmələrin çevik və sürətli fəaliyyəti, əsgər və zabitlərin habelə Azərbaycan könüllülərinin

mərdlik və əzmkarlıqla döyüşməsi, Nuru paşanın əməliyyatı məharətlə idarə etməsi, ordunun ehtiyatda saxlanılan alaylarının vaxtında və yerində döyüşə qatılması qarşı tərəfin bütün ümüdlərini puça çıxardı. Sentyabrın 14-də "Sentrokaspi" və ingilis qüvvələrinə ağır zərbə endirildi. Elə həmin günün axşamı ingilis qüvvələri Bakını tərk etdilər. Sentyabrın 15-də isə döyüşlər o qədər də uzun sürmədi. Bakını nəzarətdə saxlamağa çalışan qüvvələr xarici ölkələrin konsulluqlarının nümayəndələrinin iştirakı ilə aparılan danışıqlarda şəhəri təhvil verməyə razı olduqlarını bildirməyə məcbur oldular. Bununla da, türk-Azəbaycan qüvvələrinin Bakının azad olunması üçün apardıqları iki günlük əməliyyat parlaq qələbə ilə başa çatdırıldı. Sentyabrın 16-da qələbə münasibətilə türk-Azərbaycan hərbi hissələrinin Bakı ətrafında paradı keçirildi. Paradda Xəlil paşa, Nuru paşa, Əlağa Şıxlinski, polkovnik Həbib bəy Səlimov, Azərbaycan parlamentinin və hökümətinin üzvləri, bu qələbəni sevinc və ruh yüksəkliyi ilə qarşılayan Bakı və ətraf kəndlərin sakinləri iştirak edirdilər.

Paraddan sonra adları çəkilən şəxslər, hökümət rəsmiləri qoşun bölmələrinin müşaiyəti ilə Bakıya daxil oldular. Müstəqil Azərbaycan dövlətinin yeni paytaxtına çevrilmiş Bakının azad edilməsi ilə bağlı hökumət başçısı Fətəli xan Xoyski öz minnətdarlığını və təbrikini Nuru Paşaya bildirdi.

1918-ci il sentyabrın 17-də hökumət Gəncədən Bakıya köçdü və Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı kimi fəaliyyət göstərdi.

1918-ci il sentyabrın 20-də sovet Rusiyasının Xalq Xarici İşlər komissarlığı Osmanlı dövlətinin xarici işlər nazirinə nota verərək, Bakının türk qoşunları tərəfindən alınması Rusiyanın ərazisinə təcavüz kimi qiymətləndirmiş, Brest Litovsk müqaviləsinin Osmanlı dövlətinə aid hissəsinin qüvvədən düşdüyünü bildirmişdi. Rusiya Osmanlı dövlətindən Brest-Litovsk müqaviləsində göstərilən hüdudlara çevrilməyi, tərk etdiyi əraziləri sovet Rusiyasına verməyi, Turkiyə ordusunun Rusiyaya vurduğu ziyanı müəyyən etmək üçün beynəlxalq komissiya yaradılmasını tələb edirdi. Rusiyanın iddiaları olduğundan Berlində aparılan Osmanlı- Rusiya danışıqları baş tutmadı.

Azərbaycan Xalq Cümhuriyyətinin qətiyyətli və prinsipial mövqeyi, İslam Ordusu hissələrinin rəşadətli hücumu və Azərbaycan diplomatiyasının uğuru sayəsində Bakının azad edilməsi özünün ədalətli həllini tapdı. Bakının azad edilməsi ilə Cümhuriyyət öz hakimiyyətini bütün Azərbaycan ərazisində bərqərar etdi. Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan olundu.

## Ədəbiyyat:


1. Ağaoğlu Ə. Üç mədəniyyət. İstanbul: 2013. 182 s.
2. AXC-nin ensiklopediyası. I cild. Bakı: 2004. 440 s.
3. Azərbaycan tarixi 7 cilddə, V cild. Bakı:2008. 696 s.
4. Balayev A. Azərbaycan Cümhuriyyətinin doğuşu:1917-1918-ci illər milli mücadilə Bakı: 2022. 368 s.
5. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995). Bakı, 1996. 140 s.
6. Məmmədzadə M B. Milli Azərbaycan hərəkatı. Bakı: 1992. 246 s.
7. Nəsibli N. Azərbaycanın xarici siyasəti (1918-1920) Bakı:1996. 304 s.
8. Nəsibli N. Azərbaycanın geopolitikası və neft. Bakı: 2000. 192 s.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2023, 4 (41), s.109-122

# QARABAĞ ƏHALİSİNİN BƏZİ YEMƏK VƏ İÇKİLƏRİ HAQQINDA (FÜZULİ RAYONUN MATERİALLARI ƏSASINDA)

**Bahar Əmənova**
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
esed.eliyev.2020@mail.ru

***Açar sözlər:*** *Qarabağ, Füzuli, bitki, ət, süd yeməkləri*

*Məqalə Qarabağ əhalisinin ənənəvi yemək və içkilərinə həsr edilmişdir. Azərbaycanın digər bölgələrində olduğu kimi, tədqiq olunan sözügedən ərazidə də hazırlanan təamların gündəlik, bayram və mərasim yeməklərinə bölündüyü vurğulanır. Topladığı etnoqrafik materiallara və öz müşahidələrinə güvənən müəllif burada bitki, heyvan və süd mənşəli yeməklərdən istifadə olunduğu, əhali üçün səciyyəvilik daşıyan çörək növləri, onların forması, tərkibi və bişirilmə qaydaları barədə geniş bilgi verir.*

*Məqalədə bağ-bostan və tərəvəz bitkilərindən hazırlanan yeməklərdən, onların insan orqanizmi, həyat və sağlamlığında kəsb etdiyi müsbət xüsusiyyətlər sadalanır. Zəngin ədəbiyyat və çöl materialları əsasında qələmə alınan bu yazıda müəllif füzulilər üçün səciyyəvi olan və Azərbaycanın əksər bölgələrində rast gəlinməyən "Dombalan göbələyi", ondan bişirilən yeməklər, habelə içkilər barədə də danışır, elmi ictimaiyyətə maraqlı məlumatlar ötürür.*

# О НЕКОТОРЫХ ПРОДУКТАХ ПИТАНИЯ И НАПИТКАХ НАСЕЛЕНИЯ КАРАБАХА (ПО МАТЕРИАЛАМ ФИЗУЛИНСКОГО РАЙОНА)

**Бахар Аманова**

***Ключевые слова:*** *Карабах, Физули, растения, мясо, молочные продукты*

*Статья посвящена традиционным блюдам и напиткам население Карабаха. Как и в других регионах Азербайджана, подчёркивается, что блюда, приготовленные в исследуемом районе, делятся на ежедневные, праздничные и обрядовые. Опираясь на собранные этнографические материалы и собственные наблюдения, в статье рассмотрены виды хлеба, его формы, пищевой состав и правила приготовления. Как было выявлено исследованием, хлеб выпекали на основе растительных, животных и молочных продуктов, из*

*характерных кулинарных ингредиентов, используемых населением в выпечке хлеба.*

*В статье перечислены продукты, приготовленные из садовых и овощных растений, даны их положительные свойства в организме для жизни и здоровье человека. В данной статье, написанной на основе богатой литературы и полевых материалов, автор рассказывает о типичном для физулинцев, и не встречающемся в большинстве районов Азербайджана, «грибе Домбалан», здесь дана информация о блюдах, приготовленных из него, а также напитках, что в плане этнографической науки вызывает особый интерес.*

## ABOUT SOME FOOD AND DRINKS OF KARABAKH PEOPLE (BASED ON THE MATERIALS OF FUZULI REGION)

**Bahar Amanova**

***Key words:*** *Karabakh, beans, plant, meat, dairy foods*

*The article is dedicated to the traditional food and drinks of the people of Karabakh. As in other regions of Azerbaijan, it is emphasized that the meals prepared in the studied area are divided into daily, holiday and ceremonial meals. Relying on the ethnographic materials he collected and his own observations, the author gives extensive information about the types of bread, their shape, composition and cooking rules, which are made from plant, animal and dairy foods and are typical for the population.*

*The article lists the foods prepared from garden and vegetable plants, their positive properties in the human body, life and health. In this article, written on the basis of rich literature and field materials, the author talks about the "Dombalan mushroom", which is tupical for Fuzuli and is not found in most regions of Azeribaijan, the dishes prepared from it, as well as drinks, andconveys interesting information to the scientific community.*

Qədim zamanlardan qida məhsullarına olan ehtiyaclarını təmin etmək üçün insanlar təbiətin hazır nemətlərindən faydalanmış, yəni yabanı bitkiləri toplayaraq bioloji tələbatlarını ödəmişlər. Tədqiqatçılar yazır ki, "təbiətin bəxş etdiyi qida məhsullarının tədarük edilib ərzaq halına salınması çox qədim tarixə malik olub, yığıcılıq və ibtidai ovçuluğun yaranması dövrünə gedib çıxır. İnsanın özünün yaranması ilə həmyaşıd olan qida tədarükü, istehsal təsərrüfatının meydana gəlməsi ilə yeni məzmun kəsb etmişdir [10, s. 179].

Yeməklərin rəngarəngliyi əhalinin yaşadığı ərazinin təbii-coğrafi şəraitindən, sosial-iqtisadi vəziyyət və təsərrüfat məişətinin istiqamətindən çox asılıdır. Mühafizəkarlığı ilə daha çox diqqət çəkən yeməklər barədə etnoqraf

Q.T.Qaraqaşlı maraqlı fikirlər söyləmişdir. O yazırdı: “Məlum olduğu kimi, yeməklər maddi mədəniyyətin ən vacib elementlərindən biridir. Əksər hallarda yeməklərin tərkibinə, hazırlanma və istifadə qaydalarına əsasən tədqiq olunan xalqın həyatının tarixi sənədlərdə əks edilməmiş vacib məsələlərini, məsələn, təsərüfat həyatının istiqamətini, məhsuldar qüvvələrin inkişaf dinamikasını, eləcə də xalqın mənşəyi məsələsini öyrənmək mümkün olur [16, s. 232]. Özü də yeməklər təkcə bioloji tələbat sarıdan əhəmiyyət daşımır. Tədqiqatçıların da vurğuladığı kimi, yeməkləri hazırlayarkən həm də xalqın bilik və qabiliyyəti ortaya çıxır [14, s. 10].

Azərbaycanın digər ərazilərində olduğu kimi, Füzuli rayonunun kəndlərinin əhalisi arasında yeməklər gündəlik, bayram (Novruz, Qurban, Orucluq) və mərasim (nişan, toy, ailə şənlikləri) yeməkləri olmaqla üç yerə bölünürdü. Əhalinin hazırladığı bitki, heyvan və süd mənşəli yeməklər idi və bu ənənə öz mahiyyətini indi də saxlamaqdadır. Bitki mənşəli yeməklər içərisində birinci yeri çörək tuturdu. Çörəklər forması, tərkibi və bişirilmə qaydasına görə müxtəlif olurdu. Burada, ümumiyyətlə rayonun kəndlərində əsasən yuxa, fətir, bəzən də xamralı çörəyi bişirilərdi. Azərbaycanın digər yerlərində olduğu kimi, Füzuli rayonunda da çörəyin xəmiri acıtmalı (mayalı) və acıtmasız (mayasız) hazırlanırdı. Acıtmalı çörəklərə buğda unundan hazırlanan xamralı və təndirdə bişən qalın çörəklər, acıtmasızlara isə sacda hasilə gətirilən fətirlə yuxa aid idi.

İnformatorların və etnoqrafik ədəbiyyatın verdiyi məlumata əsasən Qarabağda, eləcə də Azərbaycanın Gəncə, Qazax, Naxçıvan bölgələrində mayanı əhalinin özü turşumuş qatıq, ayran, alça və gavalı qurusu vasitəsilə hazırlayardılar. Bu üsulla hazırlanan mayaya Qarabağda “balatı” da deyilərdi [10, s. 183].

Yaşlı qadınlar danışırlar ki, mayanı hər xəmir yoğuranda hazırlamırdılar. Çünki, çörək bişirmək üçün əvvəlki dəfə hazırlanan acıtmalı xəmirdən bir kündəlik götürüb ağzı qapaqlı qaba qoyurdular. Xəmir burada qalıb qıcqırırdı. Nə vaxt çörək bişirmək lazım gələrdisə, həmin qıcqırdılmış xəmir (maya) suda həll edilərək ələnmiş una əlavə olunurdu.

Çörəklər həm təndirdə (təndirlər yeraltı və yerüstü olmaqla iki növə bölünürdü), həm də dəyirmi formalı, müxtəlif ölçüdə olan sacda bişirilərdi. Hər iki çörəkbişirmə vasitəsinin qədim tarixi vardır. Cənubi Qafqazda, Ön və Orta Asiyada geniş yayılan təndirin [16, s. 106] Azərbaycanda, eləcə də Cənubi Qafqazda intişar tapması Eneolit dövrünə aid edilir. Akademik Teymur Bünyadov yazır ki, məşhur gürcü alimi, professor G.S.Çitaya təndiri Cənubi Qafqaz və Ön Asiya xalqlarının ixtirası adlandırmışdır [2, s. 55].

Füzulidə sacda bişirilən çörək növlərindən biri “Yuxa” idi. Bəzən yuxanı bişirərkən “üst-üstə döşəmə” qaydasından istifadə olunardı. Belə ki, nazik yayılmış yuxanın birini sacın üstünə atırdılar. O, bir qədər bişdikdən

sonra onu digər üzünə çevirir və üstünə başqa bir yuxa salırdılar. Bu minvalla üst-üstə 8-10 ədəd yuxa bişirilirdi. Mövcud üsulla bişirilən yuxalara “üst-üstə döşəmə yuxası” deyilərdi. Sözügedən yuxalar həm yumşaq, dadlı, həm də keyfiyyətli olurdu. Özü də yuxanı dəyirmanda üyüdülmüş unla bişirərdilər. Çünki, belə unun çörəyi “kövrək” olurdu, yəni mədəyə ağırlıq vermirdi. Yuxanın axırıncı bişirilən kündəsindən sonra sacın üzərini yağlayıb bir fəsəli salardılar. Bu, çörəkbişirmənin sona çatmasını bildirirdi.

Füzuli rayonunun kənd əhalisi üçün ən xarakterik olanı buğda unundan yaz, yay və payız aylarında hazırlanan çörəklərdən biri “Fətir” idi. Fətir Azərbaycanın bütün bölgələrində eyni üsulla bişirilirdi. Bu acıtmasız çörək növünün bişirilməsini vaxtilə Azərbaycanda öz gözləri ilə görmüş XIX əsr fransız yazıçı və səyyahı A.Düma da təsvir etmişdir. O yazırdı: “Təzə yoğrulmuş xəmirdən kündə kəsir, ayaqlının üstündə yayır, sonra onu közlə qızdırılmış sacın üstünə qoyurdular... Əvvəl onun bir tərəfini bişirir, sonra çevirirdilər ki, o biri tərəfi də bişsin. Onu isti-isti yeyirdilər” [4, s. 40].

Füzuli əhalisinin çox istifadə edilən çörəklərdən digərisi “Qozlu fətir” olmuşdur. Bu çörək növünü hasilə gətirmək üçün əvvəlcə qozu qırıb ləpəsini çıxarır və onu kifayət qədər əzirdilər. Sonra xəmir yoğurub əzilmiş ləpəni ona qatır və kündələyirdilər. Daha sonra isə üçayaq üstündə kündəni oxlovla bir neçə dəfə (ləpə xəmirin içində əriyənə, itənə qədər) yayırdılar. Xəmir istənilən formaya düşdükdən sonra barmaqla ortasından deşik açır və sacda bişirirdilər. Qoz ləpəsi qatılmış fətir yağlı olduğu üçün gün ərzində adamı tox saxlayırdı, digər qida qəbul etməyə ehtiyac qalmırdı.

Sacda bişirilən çörəklərin digər növü xamralı idi. Xamralı çörəyi təxminən 3 sm qalınlığında olub, dairəvi-oval formada yayılırdı. S.Məhərrəmovanın yazdığına görə, Qarabağ əhalisi arasında xamralıya “ürək basan”, yəni adam doyuzduran da deyərdilər [8, s. 98].

Yaşlı adamların dediyinə görə, müharibə vaxtı (1941-45) və ondan əvvəllər darı və qarğıdalıdan acıtmasız cadı çörəyi də bişirilərdi. Bu çörək növündən əsasən kasıb ailələr istifadə edərdi. Cad isti-isti daha şirin yeyilərdi, çünki, o soyuduqda bərkiyirdi.

Ümumiyyətlə, etnoqrafik materiallar sacda bir-birindən fərqli, dadlı şirin çörəklərin bişirildiyini də göstərməkdə, xatırlatmaqdadır.

Sac çörəkləri kimi, Qarabağda bişirilən təndir çörəklərinin də öz ətri, dadı-tamı var idi. Bu barədə Qarabağın etnoqrafiyasını kifayət qədər bilmiş xalq yazıçısı Əli Vəliyevin yaradıcılığından da məlumat alırıq. Məsələn, ədibin əsərindən bir epizoda nəzər salaq: “Nahar stolu hazırlanıb üstü bəzənmişdi... Şüşə vazalardakı doğranmış təndir çörəyi dünən Vəli bəyin dəyirmanında üyünmüş xüsusi sarı buğda unundan idi. Çörəkçi Qızqayıt yumurta ilə xaşxaşa müzayiqə eləmədiyindən çörək o qədər qırmızı və həl bişmişdi ki, görənlər yavan yemək istəyirdilər” [3, s. 68].

Yuxarıda verilən epizoddan da göründüyü kimi, çörək bişirməklə qadınlar məşğul olardı və bu ənənə indi də davam etməkdədir.

Yeri gəlmişkən bir məsələyə də münasibət bildirmək istəyirik. Belə ki, irəlidə haqqında danışdığımız yuxadan tədqiqatçıların yalnız mərasim yeməyi kimi bəhs etməsi düzgün deyildir. Yuxa çoxuşaqlı ailələrdə adi günlərdə də bişirilmişdir. Yəni hər gün xörək bişirməyə imkanı olmayan maddiyyat sıxıntılı ailələrdə yemək istəyən uşaqların başını yuxadan dürmək düzəldib verməklə qatardılar. Dürmək onlar üçün həm çörəyi, həm də xörəyi əvəz edərdi. Özü də mərasim yuxası ilə adi günlərdə bişirilən yuxaların fərqi onların xəmirinin yağ və südlə deyil, adi su, yaxud, pendir suyu ilə yoğurulmasında idi. Ümumiyyətlə, Füzuli rayonunun əksər kəndlərində çörəyin xəmiri pendir suyu ilə yoğurulardı. Bu, çörəyin yumşaq qalmasını təmin etmiş olurdu.

Füzuli rayonunun Kərimbəyli kənd ağbirçəklərinin dediyinə görə, təndirdə, eləcə də sacda hasilə gətirilən çörəklərdən biri lavaş idi. Lavaş əsasən qışın sərt keçdiyi ərazilərdə qış çörəyi, azuqəsi kimi bir neçə qadının əməyi sayəsində hasilə gətirilərdi. Uzun dövr üçün nəzərdə tutulan, bişirilən lavaşı sərin bir yerdə saxlayardılar.

Ağbirçəklər onu da söyləyirlər ki, Füzulinin bəzi kəndlərində (məs: Bala Bəhmənli, Əhmədbəyli və s.) ümumiyyətlə lavaş bişirilməyib. Bir sıra kəndlərdə lavaş bişirməyi 1918-ci ildə Zəngəzurdan, İrəvandan Füzuliyə gələn azərbaycanlı ailələrdən mənimsəyiblər.

Bitki mənşəli yeməklər içərisində xəmir xörəklərin öz yeri vardır. Rayon əhalisi arasında payız və qış aylarında daha çox istifadə edilən xörəklər bunlar olmuşdur: Xəngəl, xəşil, yarmalı xəşil, horra, umaclı horra, sulu əriştə, qara umac, buğlama, həmən-kümənci və s.

**Xəngəl.** Əhalinin yemək rasionunda mühüm yer tutan qidalar içərisində yayma, yarpaq və ya kəsmə xəngəlin [4, s. 91] öz yeri vardır. Yarpaq xəngəlini bişirmək üçün dördayaq üstündə yayılmış yuxanı dördbucaq formada kəsir və qazanda qaynadılan duzlu suyun içərisinə tökürdülər. Bir qədər keçdikdən sonra su süzülür və bişən dördbucaq formalı yuxa xəmirlər boşqablara çəkilib üzərinə yağda qızardılmış soğan və qurut, qurut olmadıqda isə sarımsaqlı qatıq tökülüb yeyilərdi.

**Xəşil.** Aldığımız məlumata görə, xəşili bişirmək üçün suya lazımi qədər un tökər və onu ocağın üstünə qoyub, məhlul qatılaşana qədər oxlovla mütəmadi qarışdırardılar. Bundan sonra ocaqdan götürüb boşqablara çəkər və üstünə əridilmiş kərə yağla bəkməz əlavə edərdilər. Xəşil, əsasən, buğda unundan payız və qış aylarında bişirilərdi.

“**Yarmalı xəşil**”i bişirdikdə əvvəlcə buğda yarmasını suda lazımi qədər qaynadır, sonra isə onu unla qarışdırırdılar. Daha sonra bu qarışığı odun üstə qoyardılar. Xörək hazır olarkən ocaqdan götürülər, boşqablara çəkilər və

xəşil kimi üzərinə kərə yağla bəkməz tökülüb yeyilərdi. Yarmalı xəşil nisbətən duru bişirilərdi.

"**Umaclı horra"** isə belə hazırlanardı: Lazımi qədər unun üstünə su səpib onu ovar və xəlbirdən keçirərdilər. Sonra həmin umacı süfrənin üstünə sərib qurudardılar. Bunun ardınca isə umacı südün, yaxud, suyun içərisinə töküb, oraya duz və şəkər tozu da əlavə edərək qaynadardılar. Soyuq havalar üçün daha münasib sayılan horra bişdikdən sonra onu boşqablara çəkib yeyərdilər.

Füzuli əhalisinin mətbəxində payız-qış aylarında "Sulu əriştə" də xüsusi yer tuturdu. Sulu əriştənin bişirilməsi zamanı su qaynadılar və içərisinə əvvəlcə duz, istiot, kiçicik qazançada bişirilmiş maş lobya, alça turşusu, sonra isə nazik kəsilmiş əriştə tökülərdi. Bütün bunlar bişdikdən sonra bu komponentlərə yağda qovrulmuş soğan və nanə ovuntusu da əlavə olunardı. Bu yemək növü zökəm xəstəliyinin müalicəsində mühüm əhəmiyyət kəsb edərdi.

Öyrəndiyimiz Füzuli rayon əhalisinin qışda istifadə etdiyi bitki mənşəli yeməklərdən biri də "Qara umac" olmuşdur. Bu yemək növü Gürcüstan azərbaycanlıları-türkləri arasında "əvəlikli isti" adı ilə məlum idi [6, s. 132]. Əvəlik, əsasən, dağ və dağətəyi ərazilərdə bitərdi. Bu yeməli yabanı bitkini dərib saçsayağı hörər və qurudardılar. Soyuq vaxtlarda əvəliyi bir qabda isladar və sonra acı suyunu süzərdilər. Bundan sonra onu qazanda qaynayan suyun içərisinə tökərdilər. Əvəlik suda lazımi qədər bişdikdən sonra ona zoğal qurusu və umac əlavə olunardı. Lap sonda isə bu komponentlərə dağlanmış yağ-soğan, duz və istiot qatılardı.

Sinəni yumşaltmaq, öskürəyi kəsmək üçün əvəliyi həm də yağda qovurub yeyərdilər. Bağırsaq xəstəliklərində isə əvəliyi çay kimi inək südü ilə dəmləyib acqarına 2 stəkan içərdilər. Bu barədə xalq təbabəti ilə bağlı ədəbiyyatda da məlumat verilir [5, s. 114].

Əhalinin istifadə etdiyi bitki mənşəli yeməklərdən digərisi "**Buğlama"** olmuşdur. Buğlamanı bişirmək üçün yağ-soğan dağlanır və üzərinə xırda-xırda doğranmış həmən-kümənc bitkisi, bir qədər də su tökülürdü. Buraya az miqdarda yumru düyü, alça, yaxud, gavalı qurusu, duz, istiot da əlavə olunur və qazanın ağzı kip bağlanıb vam odda qaynadılırdı. Müəyyən vaxtdan sonra yemək hazır olardı. Məlumatçılara görə, əhali həmən-küməncini başqa formada da bişirərdilər: Əvvəlcə həmən-küməncini toplayar, yaxşıca yuyar və bütöv şəkildə qaynayan az miqdarda suyun içərisinə atardılar. Həmən-kümənci tam bişdikdən sonra süzüb boşqablara çəkər və üzərinə sarımsaqlı qatıq əlavə edib yeyərdilər. Bu yemək növünə "**Həmən-kümənci soyutması"** deyilərdi və əhali bundan daha çox istifadə edərdi.

Azərbaycanın hər yerində olduğu kimi, Füzuli rayonunun əhalisi arasında bitki məhsullarından olan düyü yeməkləri də geniş yayılmışdır. Düyü yeməkləri içərisində əsas yeri aş-plov tuturdu. Tədqiqatçıların materiallara

istinadən verdiyi sorağa əsasən, ümumiyyətlə, ölkəmizdə plovun 50-dən çox növü mövcud olmuşdur [14, s. 29].

Məlumatçıların dediyinə görə, Füzuli rayonunun kəndlərində bir-birindən fərqli xeyli aş növləri məlum olsa da, bəzi kəndlərdə ən çox əriştəli, lobyalı, çolpalı və qaralı aş bişirilərdi. **Əriştəli aş** belə hasilə gətirilərdi: əvvəlcə xəmir yoğurub yuxa yayır və onu nazik-nazik kəsib qurudurdular. Buna əriştə deyilərdi. Sonra isə düyünü duz vurulmuş suda bir az qaynadır və oraya əriştə əlavə edirdilər. Düyü və əriştə qarışığı bişdikdən sonra suyunu süzərdilər. Daha sonra qazanın dibinə qazmaq kimi fal-fal kartof doğranıb düzülər, kartofun üstünə isə əriştəli düyü tökülərdi. Əriştəli düyünün üzərinə isə əridilmiş kərə yağı əlavə edilərək dəmə qoyulardı. Əriştəli aşa əhali arasında “çilov plov” da deyilərdi.

“**Lobyalı aş”ı** bişirərkən əvvəlcə maş lobyanı kiçik bir qabda bişirib hazır qoyardılar. Sonra isə düyünü mis qazanda yarıbişmiş hala düşənədək qaynadar və “ocaqdan götürmək məqamı yaxınlaşarkən bişirilmiş xırda lobyanın (maşın) suyunu süzüb düyüyə qatardılar. Düyü + lobya qarışığı 2-3 dəqiqə birlikdə qaynadıldıqdan sonra onu ocaqdan götürüb aşsüzənlə suyunu süzərək üzərinə dağlanmış kərə yağı tökürdülər. Bunun arxasınca üstü dəsmalla örtülərək dəmə qoyulardı” [6, s. 129].

“**Çolpalı plov”u** hazırlayarkən çolpanı tikələrə bölüb duzlayar və qazanın dibinə düzərdilər. Sonra düyünü duzlu suda bişirib süzər və çolpa tikələrinin üzərinə tökərdilər. Düyünün üstünə isə əridilmiş kərə yağı, sarıkök əlavə edib, qazanın ağzını bağlayır və vam odda dəmə qoyurdular. Təxminən yarım, yaxud, bir saata çolpalı plov hazır olurdu.

Yeri gəlmişkən deyək ki, düyünün bişirilməsi, süzülməsi, dəmlənməsi üsul-qaydası eyni olsa da, onlara əlavə olunan komponentlər aşın-plovun ad və dadında fərqlilik yaradırdı. Həm də aş-plov yeməkləri əsasən bayramlarda və evə qonaq gələndə, bəzən də ad günlərində bişirilərdi.

Bitki mənşəli yeməklərdən biri də “Çəkmə (hoppaca)” idi. Bu yemək növünü bişirərkən bir baş soğanı doğrayıb yağda qovurur, üstünə dörd stəkan su, iki stəkan yuyulmuş düyü, duz və sarıkök əlavə edib, qazanın ağzını kip bağlayır, sonra da vam odda dəmə qoyurdular. Düyü suyu özünə çəkdikdən sonra yemək hazır olurdu. Elə yeməyin adı da bununla əlaqədar olaraq “çəkmə” (yəni suyu özünə çəkmə), “hoppa” (yəni suyun düyüyə hopması) adlanmışdır.

Əhali arasında yeməli yabanı bitkilərdən, göyərtilərdən, həmçinin bağ-bostan, tərəvəz məhsullarından da kifayət qədər faydalanmışlar. Kəndlərdən əldə etdiyimiz məlumata görə, əhali içərisində ən çox sevilən yeməklərdən biri “Göy kətəsi” idi. Göy kətəsini hazırlayarkən quşəppəyi, qoyunqulağı, gicitikən, qırxboğan, lala, dağ keşnişi, yağlıca, quzuqulağı və s. kimi yeməli yabanı bitkilərdən istifadə olunardı. Yetmiş iki yaşlı bir

məlumatçımız söyləyir ki, bu göyərtiləri biz özümüz əkmirdik, Arış torpağı yetişdirirdi. Ona görə də biz hazırladığımız kətələr dadına, tamına, keyfiyyətinə görə digər yerlərin kətəsindən fərqlənirdi. Özü də Arış torpağında yetişən təbii bitkilər bütün xəstəliklərin dərmanı idi. Məhz bu səbəbə görə Arış əhalisi arasında nə böyrək, nə də qaraciyər xəstələri olmamışdı.

Yeməli yabanı bitkilərdən olan kəkotundan "Kələcoş" adlı yemək bişirilməsi barədə də məlumatlandıq. Kələcoşu hazırlamaq üçün bir soğanı xırda doğrayıb yağda qovurur, üstünə duz, ovulmuş kəkotu yarpaqları, müəyyən qədər düyü və su tökürdülər. Düyü bişənədək bir qabda qatıqdan ayran düzəldilirdi. Elə ki, düyü hazır oldu, ayranı yavaş-yavaş düyünün üzərinə töküb qarışdırırdılar. Qazan qaynara düşən kimi ocaqdan götürülürdü. Onu da deyək ki, kələcoş əsasən, Kərimbəyli kənd əhalisinin sevimli yeməklərindən idi.

Rayon əhalisi arasında istifadə edilən yeməklərdən biri də tərəvəz məhsullaindan olan soğandan hazırlanan "Soğan su" idi. Bu yemək növünü hazırlamaq üçün soğanı yağda qovurur, ona duzla istiot vurur və üzərinə müəyyən miqdarda su tökürdülər. Su qaynayanda içərisinə yumurta çalıb vururdular. İstəkdən asılı olaraq bəzən buraya dördbucaq şəklində doğranmış kartof da əlavə edilərdi. Bununla da "soğan su" yeməyi istifadə üçün hazır olurdu. Sözügedən yeməyə əhali arasında kasıb yeməyi deyilərdi.

Əhalinin hazırladığı yeməklərdən biri də "Dən dolma" (yalançı dolma) olmuşdur. Bu yemək növünü hazırlamaq üçün doğranmış baş soğanı, çoxlu göyərtini, bişirilmiş noxudu, düyünü, quyruğu, duz və istiotu bir yerdə qarışdırır, sonra isə üzüm, heyva və ya fındıq yarpağına büküb bişirir, hazır olduqda isə sarımsaqlı qatıqla yeyirdilər. Əsasən, yaz aylarında bişirilən sözügedən dolmanın digər yerlərdə hazırlanan bu tipli dolmalardan fərqi onda idi ki, füzulilər dolmanın içərisinə noxud da əlavə edirdilər.

Füzuli əhalisinin əsasən martın başlanğıcından mayın əvvəllərinə kimi istifadə etdiyi yeməklər içərisində "Dombalan göbələyi cığırtması", "dombalan göbələyi soyutması" və "dombalan göbələyi kababı" xüsusi yer tuturdu. Dombalan göbələyi (bəzən dombalana göbələyinə yer kartofu, yaxud yer alması da deyilərdi) kartofa bənzəyən yabanı bir bitkidir, yaz yağışlarından sonra torpağın altında yetişir və üzə çıxmır. Bu bitkinin yerini səriştəli adamlar torpağın dəyirmi formada nisbətən yuxarı qabarmasından hiss edirlər. Bitkinin adı da məhz buna görə "dombalan köbələyi" adlanır. Yaşlı adamların söyləmələrinə görə, Füzuli və Cəbrayılda bəlli olan dombalan göbələyi bitkisinə çox ərazilərdə rast gəlinmir.

Dombalan göbələyi cığırtmasını bişirərkən onu suda qaynadırdılar. Sonra isə ona dağ olunmuş yağ-soğan və iki yumurta əlavə edərək müəyyən müddət od üzərində saxlayırdılar. Yemək hazır olduqda boşqablara çəkilirdi. Dombalan göbələyi soyutması adi kartof soyutması, kababı da digər kabablar

kimi bişirilirdi. Özü də dombalan gğbələyi köz üstündə ərimir, necə var elə qalırdı. Məlumatçıların dediyinə görə, mədə-bağırsaq və şəkər xəstəliyinin müalicəsində dombalan göbələyi mühüm əhəmiyyət kəsb edirdi. İnsan orqanizmi üçün çox faydalı olan dombalan göbələyi çiy halda da yeyilərdi.

Füzulililərin qida rasionunda meyvədən bişirilən yeməklərin də öz yeri vardır. Bunlardan biri ərikdən hazırlanan "Qaysava" idi. Qaysavanı hazırlamaq üçün ağacdan təzəcə dərilmiş əriyi yuyub qazana düzür, üzərinə lazımi qədər yağ, şəkər tozu və su əlavə edib vam odda bişirirdilər. Məlumatçıların dediyinə görə, qaysava bu və ya digər yerlərdə yalnız ərik qurusundan bişirilsə də, Füzuli bölgəsində həm təzə, həm də ərik qaxından hazırlanardı.

Bölgə əhalisinin mətbəxində ət və süd mənşəli yeməklər də mühüm yer tuturdu. Burada erkək, keçi, mal və ev quşlarının ətindən istifadə edilmişdir. Tədqiqatçılar qeyd edir ki, fiziololi baxımdan mal əti, xüsusilə, sığır əti orqanizm üçün sərfəlilik nöqteyi-nəzərdən yüksək məziyyətlərə malik olsa da, o, qoyun ətindən aşağı tutulmuşdur [10, s. 192].

**Ət yeməkləri.** Azərbaycanın hər yerində olduğu kimi, öyrəndiyimiz bölgənin əhalisi ətdən həm təzə, həm də qovurma şəklində faydalanardı. Təzə halda əsasən, bir sıra ənənəvi yeməklər- tikəkabab, lüləkabab, təndir kababı, sac kababı, basdırma kababı, quyruq kababı, ciyər kababı (eləcə də ev quşlarının ətindən kabab hazırlanardı) və s. bişirilərdi. Tədqiqatçılar yazır ki, kababın tarixi odun meydana gəlməsi dövrünə təsadüf edir və kabab ətli xörəklərimizin ən qədim növüdür [11, s. 112]. Onu da əlavə edək ki, kabab "Kitabi-Dədə Qorqud" dastanında "şişlik" kimi ifadəsini tapmışdır.

Əhali həm gündəlik, həm də qışda isifadə etmək üçün "Qovurma" hazırlamışlar. X.Xəlilli yazır ki, uzun müddət saxlamaq üçün ancaq öyəc, azman, dızman, kök və qısır qoyun ətindən qovurma bişirilərdi [12, s. 106]. Aldığımız məlumata görə, qovurmanı mis qazanda hazırlayardılar. Əvvəlcə qazana lazımi qədər quyruq doğranıb əridilər, sonra isə heyvanın iri formada doğranmış tikələri qazana tökülüb ağzı örtülərdi. Bundan sonra qazan ocağın üstünə qoyulardı. Beş-on dəqiqədən bir qazanın qapağı qaldırılıb ət qarışdırılardı. Qovurma bişənə yaxın isə ətin üzərinə duz səpilərdi. Duzun gec səpilməsinin səbəbi ətin çiy qalmamasını, kifayət qədər yaxşı qovrulmasını təmin etmək idi. Ət qovrulduqdan sonra onu küpələrə doldurub sərin yerdə saxlayardılar.

Qarabağ əhalisinin sevdiyi yeməklər içərisində "Sac qovurması"nın xüsusi yeri vardır. Bu yeməyi bişirərkən sacı tərs üzünə çevirər və içinə quyruq doğrayardılar. Quyruq əriyən zaman qoyunun boyun və bel sümüyü üstündəki ətini, habelə miyəntəyi və ürəyini curum çəkib duzlayar, birini digərinə toxundurmadan sacın içinə düzüb ağzını örtərdilər. Ət bişdikdə şabalıdı rəngə çalardı. Dadına və tamına görə əhali sac qovurmasını kababdan üstün

tutardılar. Etnoqrafik ədəbiyyatda yer alan bu məlumat [12, s. 106] bizə informator tərəfindən də söylənilmişdir.

Vaxtilə Füzuli rayonunda istifadə olunmuş yeməklərdən biri də “Bağırbeyin” adlanırdı. Əhmədbəyli kənd sakini Səidə xanımın verdiyi məlumata görə, bu yemək növü nənəsinin tez-tez bişirdiyi yeməklərdən imiş. Onun dediyinə əsasən quzunun başı ayrı, quyruğu və ciyəri isə bir yerdə qaynadılarmış. Quyruqla ciyər bişdikdən sonra onları əzib bir-birinə qarışdırar və quzunun başından çıxarılan beyinə qatardılar. Bağırbeyini yaşlıların ən ləziz yeməyi sayılardı.

Rayon əhalisi ətdən təkcə kabab və qovurma deyil, digər yeməklər də bişirərdilər. Məsələn, kələm dolması, yarpaq dolması, küftə-bozbaş, ət bozartması,

qızartması, soyutması və s. bu qəbildən idi.

Verilən məlumata görə, əhalinin yaz aylarında ləzzətlə yediyi ət xörəklərindən biri də “Kələpört” olmuşdur. Kələpört əsasən, quzu ətindən bişirilərdi. Quzu ətini döğrayıb qazana tökür, duz, istiot, alça, kəkotu və az miqdarda su əlavə edib vam yanan ocaqda bişirərdilər. Çox dadlı yemək alınardı.

Onu deyək ki, mal, qoyun ətindən əlavə, ev quşlarının da ətindən dolma bişirilərdi. Bu baxımdan “Çolpa dolması” maraq kəsb edirdi. Belə ki, çolpa tikə-tikə doğranar, soğan, duz, istiot, düyü, tomat pastası vurulub qarışdırılar və kələm yarpağına bükülüb ocağa qoyulardı. Bu dolmaya “sürpriz dolma” da deyilərdi. Çünki hər bükülən kələm yarpağından fərqli tikələr çıxırdı.

**Süd və südlü yeməklər.** Bölgə əhalisi süddən həm tək halda, həm də yeməklərin tərkibində istifadə etmiş və hazırda da edirlər. Əhalinin istifadə etdiyi inək, camış, qoyun və keçi südü idi. Akademik Teymur Bünyadov yazır ki, süfrədə yavanlıq, eləcə də südlü yemək və çörəklərin bişirilməsi üçün böyük əhəmiyyət kəsb edən süddən geniş şəkildə istifadə olunmasını qabların ixtirası, yəni Neolit dövrü ilə bağlayırlar [3, s. 105].

Ədəbiyyat materiallarının verdiyi məlumata əsasən, keçi südünün yararlıq dərəcəsi aşağı olduğundan ondan müalicə məqsədilə istifadə edilmişdir. Təsadüfi deyil ki, südü çatışmayan analar körpələrinə keçi südü verərdilər. Ona görə ki “qidalılıq əmsalına görə, keçi südü inək südünə yaxın olsa da, bioloji tərkibi vitaminlərlə zəngin olduğundan ondan xeyli üstün tutulurdu. Camış südü, bundan fərqli olaraq, daha yağlı və dadlı olduğundan çox vaxt süfrədə yeyilmək üçün istifadə edilirdi” [10].

Məlumatçıların dediyinə görə, Azərbaycanın hər yerində olduğu kimi, süddən həm “suluq”, “kətəməz” düzəldilir, həm də müxtəlf növ ağartı məhsulları – yağ, pendir, qatıq, qaymaq hazırlanıb, südlü yeməklər, məsələn, südlü aş, südlü yarma, südlü sıyıq, südlü əriştə və s. bişirilərdi.

Azərbaycanın digər yerlərində olduğu kimi, Füzuli rayonunda də süd mis qazanda bişirilər və ılıq halına düşənədək soyudulardı. Sonra ona boyat qatıq (maya) qatılıb qarışdırılar və üstü örtülərdi. Bir neçə saatdan sonra süd qatılaşıb qatıq olardı. Araşdırıcılar sözügedən üsulla qatıq hazırlanmasının yalnız azərbaycanlılar içərisində yox, bütün Qafqazda, Orta və Ön Asiyada, Misir və Cənubi-Şərqi Asiya ölkələrində də yayıldığını yazırlar [16, s. 232-233].

Adətən qatıqdan təzə halda istifadə edər, ondan doğramac düzəldər və bəzi ətli yeməklərin yanında süfrəyə qoyardılar. Bununla belə, qatıqdan süzmə, qurut, yağ, şor və s. də düzəldilərdi. "Süzmə"-ni düzəltmək üçün qatığı bez torbaya töküb uyğun bir yerdən asardılar. 3-4 gün ərzində qatığın suyu süzülər və o, bərkiyərdi. İsti havalarda süzməyə duz və bir qədər su əlavə edib atlayardılar. Buna əhali arasında "ovduq" (ayran) deyilərdi. Yaxşı tam verməsi üçün bəzən ovduqun içərisinə yarpız, nanə və s. də tökülərdi.

Yayda rayon əhalisinin istifadə etdiyi "əlüstü" yeməklərdən biri "doğramac" idi. Süzmə qatıqdan bir qaba qoyub üzərinə duz və su əlavə edərək qarışdırardılar. Süzmə qatıq maye halına düşdükdən sonra içərisinə boyat çörək doğrayıb yeyərdilər. Bəzən doğramacın içərisinə xırda-xırda halına salınaraq nanə, şüyüd və xiyar və soğan da əlavə edilərdi.

Ləziz milli yeməklərimizdən olan "dovğa" da süzmə qatıqdan bişirilərdi. Dovğaya nanə, yarpız, keşniş, şüyüd tökülərdi Yayda şomun çöl bitkisi, cincilimotu və digər bitkilərlə də dovğa hazırlanardı. "Şomunlu dovğa" digər bitkilərlə bişirilən dovğalardan daha dadlı, tamlı olurdu.

Rayon əhalisinin yay aylarında qəbul etdiyi yeməklərdən digərisi "Ayranlı aş" olmuşdur. Ayranlı aşı hazırlayarkən qazana lazımi qədər su tökülüb ocağa qoyulur. Sonra yuyulub xırda-xırda doğranılmış pərpətöyün, göy lobya, düyü, noxud və umac qaynayan suda bişirilib qatışdırılır. Yeyilən zaman bu qatışıq bişmişə sarımsaqlı qatıq da əlavə olunur. Onu da deyək ki, ayranlı aşdan soyuq halda istifadə edilir. Təbriz şəhərinin maddi mədəniyyətindən bəhs edən monoqrafiyada qeyd olunur ki, burada əhali ayran aşı hazırlayarkən çalınmış qatığa duz, su, yumurta, yumru düyü, noxud, lobya, maş, sarımsaq, göyərtilərdən - qazayağı, keşniş, cəfəri, ispanaq, bulaqotu, pərpərin, şüyüd, reyhan, nanə, bəzən isə soğança, eləcə də acı bibər qatardı [9, s. 296].

Etnoqrafik ədəbiyyatın verdiyi məlumata və informatorların dediyinə görə, qoyunçuluqla məşğul olan kəndlərdə qatıqdan "yağ" da hasil edilərdi. Bunun üçün heyvan dərisindən hazırlanmış tuluq, saxsı və ağac nehrədən istifadə olunmuşdur. Materiallar göstərir ki, cökə ağacının gövdəsinin içini oymaqla xüsusi sənətkarlar tərəfindən hazırlanan nehrənin uzunluğu 0,8-1,5 m, eninin diametri isə 30-50 sm olurdu. Ağartını nehrəyə tökmək üçün onun üst tərəfində diametri 7-10 sm olan dairəvi oyuq açılırdı. Möhkəm olması və

çatmadan asılarkən sürüşüb düşməməsi üçün nehrənin hər iki ucuna ağac, yaxud, metal halqalar keçirilərdi [13, s. 54].

Yağ emalı zamanı üzlü süddən hasilə gətirilmiş qatıq suyu süzülməsi üçün əvvəlcə dəri eyməyə, sonra isə nehrəyə tökülər və çalxalanardı. Müəyyən vaxt ərzində əldə olunan yağı ayrandan ayırar və teştə töküb duzla yoğurardılar. Bundan sonra yağ qoyun dərisinə yığılardı. Bu üsulla hazırlanan və saxlanan yağa Qarabağda "motal yağı" deyilərdi.

Məlumatçıların dediyinə görə, nehrə ayranından "şor" da düzəldilərdi. Şoru səhərlər kərə yağına qatıb yeyərdilər.

Ərazinin qoyunçuluqla məşğul olan kənd əhalisi süddən "pendir" də düzəldərdi. Azərbaycanın digər yerlərində olduğu kimi, Füzulinin dağətəyi kəndlərində də pendiri qoyun, keçi, inək, camış südündən üzlü və üzsüz olmaqla iki növdə hazırlayardılar. Etnoqrafik materiallar göstərir ki, hər iki pendir növü "eyni üsulla: ilinmiş südə maya qatma yolu ilə hasil olunurdu. Bunu hasil etmək üçün mayalanmış süd dələmə halına düşəndən sonra onu torbalara tökür və burub suyunu süzməklə, bir müddət bərkiməyə qoyurdular. Pendir özünü tutub bərkiyəndən sonra onu duzlayıb cılğı və ya küpələrə yığırdılar" [10, s.191]. Ədəbiyyat materiallarının məlumatına əsasən, XX əsrin əvvəllərində respublikamızda on növdən çox pendir hazırlanmışdır. Bunlardan Qarabağ, Gəncə və Qazax pendiri dad-tamına görə daha yaxşı qiymətləndirilirdi [12, s. 101].

Əhalinin qış azuqəsi içərisində motal pendiri kimi "dələməli şor" da mühüm yer tuturdu. Dələməli şoru hazılamaq üçün şoru çürüdür, süzür və içərisinə mayalanmış təzə pendir qatılırdı. Sonra onu dəriyə yığar və qışda yavanlıq kimi istifadə edərdilər.

Yuxarıda deyildiyi kimi, rayonda süddən bişirilən yeməklərdən biri "Südlü aş" idi. Bu südlü yeməyi hazırlamaq üçün, Azərbaycanın digər ərazilərində olduğu kimi, yumru düyü yuyulub qazanda qaynadılan südün içərisinə tökülürdü. Buraya bir qədər duz və şəkər tozu da əlavə olunurdu. Yemək qatılaşmadan ocaqdan götürülür və boşqablara çəkilib, üstünə bir çimdik kərə yağı qoyularaq süfrəyə verilirdi.

Hər yerdə olduğu kimi, Füzuli rayonun əhalisi də müxtəlif içkilərdən istifadə etmişlər. Bu içkilərin ən başlıcası su idi. Yerləşdikləri təbii-coğrafi şəraitdən asılı olaraq, kəndlərdə bulaq, çay və quyu suyu içilmişdir. Məlumatçıların dediyinə görə, Füzulinin dağ kəndlərində suya tələbat təbii bulaqlar, aran kəndlərində quyu, Arazqırağı kəndlərdə isə Araz çayı vasitəsilə ödənilirdi. Özü də bulaqların suyu keyfiyyitinə, şəffaflığına və tamına görə daha əhəmiyyətli sayılırdı.

Əhalinin isti şəkildə ən çox istifadə etdiyi içkilərdən birincisi **çay** olmuşdur və hazırda da belədir. Araşdırıcıların yazdığına əsasən, insan orqanizmi üçün kifayət qədər müsbət xassələri özündə cəmləşdirən çayın

şəfaverici qüvvəyə malik olmasını çinlilər hələ 5 min il bundan əvvəl bilirdi. Yaponiya və Koreyada IX yüzillikdə yetişdirilən çay 1824-cü ildə İndoneziyada, 1834-cü ildə Hindistanda, 1842-ci ildə Seylonda becərilmişdir. XVII əsrdən hollandiyalıların süfrəsində görünən çayla rusiyalıları tanış edən XIX əsrdə Çin sərhəddində yaşayan Sibir türkləri olmuşdur. Azərbaycanda isə çay ilk dəfə 1896-cı ildə Lənkəran bölgəsində əkilmişdir [1, s. 93-94].

Verilən məlumata görə, əhali köz samovarında qaynadılan çay suyunu daha üstün tutardı. Buna baxmayaraq, hər kəsin samovarı olmadığından, çaydandan istifadə edərdi. Çay yarpaqları isə bir qayda olaraq dəm çaynikində dəmlənərdi. Ətirli və tamlı olması üçün dəmə qoyulan çay yarpağının yanına mixək, darçın, hil və s. də atılardı.

Əhali təkcə qurudulmuş çay yarpağını deyil, nanə, yemişan, kəklikotu, itburnu və digər dağ çiçəklərini də dəmləyib içərdilər. Bununla belə, bir çox meyvə, giləmeyvə və ətirli bitkilərdən sərinləşdirici, gümrahlaşdırıcı xüsusiyyətə malik şərbətlər də hazırlayıb qəbul etmişlər.

Beləliklə, apardığımız araşdırmadan məlum olur ki, Füzuli rayonunun əhalisi bitki, heyvan və süd mənşəli yeməklərdən istifadə etmişlər. Bitki mənşəli yeməklər içərisində isə birinci yeri sac və təndirdə bişirilən müxtəlif tərkibli, formalı çörəklər tutmuşdur. O da bəlli olmuşdur ki, yayma çörək növü qrupuna aid olan yuxa təkcə müəyyən mərasimlərdə deyil, adi vaxtlarda da bişirilmişdir. Tədqiqat onu da göstərmişdir ki, bir sıra yeməklər Ümum Azərbaycanda bəlli olan yeməklərlə eyni səciyyə kəsb etsə də (məs: bütün növ kabablar), bəzilərinin adında, bişirilmə qaydasında, yaxud, tərkibindəki komponentlərə görə (məs: "Sulu əriştə", "Qara umac", "Umaclı horra") fərqlilik də özünü göstərirdi. Bununla belə, "Qozlu fətir", "Həmən-kümənci", "Çəkmə (hoppaca)", "Kələcoş", "Soğan su", "Dəndolma (yalançı dolma)", "Dombalan göbələyi" kimi bitki mənşəli bişmişlər, habelə ət yeməklərindən olan "Bağırbeyin", "Çolpa dolması (sürpriz dolma)", eləcə də süd tərkibli "Şomunlu dovğa" rayon əhalisinin mətbəx mədəniyyətinə məxsus təamlardan olmuşdur. Rayon və kənd sakinləri yabanı yeməli bitkilərdən də özlərinə məxsus müxtəlif xörəklər hazırlamışlar. İçkilərdə isə elə də fərq özünü göstərməmişdir.

## ƏDƏBİYYAT

1. Babayev T. El ocaq başına yığışar. Bakı: Azərnəşr, 1998.
2. Bünyadov T.Ə. Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1964.
3. Bünyadov T.Ə. Azərbaycanda maldarlığın inkişaf tarixindən. Bakı: Elm, 1969.
4. Düma A. Qafqaz səfəri. Bakı: Yazıçı, 1985.
5. Əfəndiyev S., Rəcəbov A. Azərbaycan xalq təbabətindən. Bakı: Azərnəşr, 1992.

6. Əliyev Ə.T. Gürcüstan azərbaycanlılarının etnoqrafiyası (təsərrüfat məişəti və maddi mədəniyyəti). Bakı: Avropa, 2019.

7. Əmənova B.T. Mənəvi mədəniyyətimiz xalq yazıçısı Əli Vəliyevin yaradıcılığında. Bakı: Avropa, 2020.

8. Məhərrəmova S. XIX əsr və XX əsrin əvvəllərində Kiçik Qafqazın cənub-şərq bölgəsinin tarixi-etnoqrafik tədqiqi. Bakı: Apostrof-A, 2020.

9. Məmmədova İ.G. Təbriz şəhərinin maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Bakı; Çaşıoğlu, 2016.

10. Mustafayev A.N. Azərbaycanın maddi-mədəni irsi. Bakı: Adiloğlu, 2010.

11. Mustafayev A.N. Şirvanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Bakı: Elm, 1977.

12. Xəlilov X.D. Qarabağın elat dünyası. Bakı: Azərnəşr, 1992.

13. Rəcəbov Q.Ə. Azərbaycanda süd məhsulları hazırlanmasının xalq üsulları // AEM, III buraxılış. Bakı: Elm, 1977.

14. Vəliyev F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (yeməklər və içkilər). Bakı: Azərnəşr, 2005.

15. Азербайджанская кулинария. Баку: Азернешр, 1982.

16. Каракашлы К.Т. Материальная культура Азебайджанцев. Баку: Изд-во АН Азерб. ССР, 1964.

## MƏLUMATÇILAR

1. Abbasova Lalə Famil qızı. Füzuli rayonu, Əhmədalılar kənd sakini, 1959-cu il doğumlu.
2. Babaşov Rizvan Sarı oğlu. Füzuli rayonu, Şükürbəyli kənd sakini, 1956-cı il doğumlu.
3. Bədəlova Ofelya Əli qızı. Füzuli rayonu, Kərimbəyli kənd sakini, 1953-cü il doğumlu.
4. Qafarova Kəmalə Şəmsəddin qızı. Füzuli rayonu, Kərimbəyli kənd sakini, 1968-ci il doğumlu.
5. Əliyeva Səidə Sulduz qızı. Füzuli rayonu, Əhmədbəyli kənd sakini, 1971-ci il doğumlu.
6. Əsədova Mirvari Şəmil qızı. Füzuli rayonu, Kərimbəyli kənd sakini, 1953-cü il doğumlu.
7. Həsənova Elmira İsaq qızı. Füzuli rayonu, Arış kənd sakini, 1950-ci il doğumlu.
8. Təhməzova Gülbahar Bəhlul qızı. Füzuli rayonu, Böyük Bəhmənli kənd sakini, 1956-cı il doğumlu.
9. Yusifova Leyla Qiyas qızı. Füzuli rayonu, Kərimbəyli kənd sakini, 1971-ci il doğumlu.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2023, 4 (41), s.123-132

# FİZİKİ MƏDƏNİYYƏTDƏ AŞIQ OYUNLARI HAQQINDA

**Bünyamin Nağdəli oğlu Qəmbərli**
Azərbaycan Turizm və Menecment Universiteti
b.n.qemberli@gmail.com

***Açar sözlər:*** *Aşıq, sultanı, qalaqurma, saqqa, oyun*

*Azərbaycanda ənənəvi mədəniyyətin tarixi qədim, çoxşaxəli və geniş yayılmış qollarından biri fiziki mədəniyyətdir. Fiziki mədəniyyətin tarixini, təlim üsullarını, tətbiq yeri və qaydalarını, növlərini və yayılma arealını öyrənmək üçün arxeoliji materiallar, qayaüstü rəsmlər, şifahi xalq ədəbiyyatı, xalçalar, miniatürlər, əlyazma, səlnamə və lüğətlər, müxtəlif mərasim, toy, bayram və şənliklər önəmli mənbədir. Fiziki mədəniyyət dövrünə və yerinə görə mahiyyətini dəyişmişdir. Öz ilkin mahiyyətini itirərək günümüzə oyun şəklində çatan hərbi təlimlərdən biri aşıq oyunlarıdır. Çoxlu aşıq oyunu var. Sultanı, Qalaqurma, cızıq atma, yazan Azərbaycanın hər yerində yayılıb oyuanırdı, Üçəm, Kor, Göydən gəldi, Şökü, Cızığa girmə və s. kimi oyunlar isə müəyyən bölgələrdə yayılmışdı.*

# ОБ ИГРЕ В АЛЬЧИКИ В ФИЗИЧЕСКОЙ КУЛЬТУРЕ

**Б. Н. Гамбарли**

***Ключевые слова:*** *альчики, султаны, галагурма, сагга, игра.*

*Физическая культура, составляющая часть древней, многогранной азербайджанской традиционной культуры, получила широкое распространение. Археологические материалы, наскальные рисунки, устная народная литература, ковры, миниатюры, рукописи, летописи, словари, различные обряды, свадьбы, праздники, торжества являются важными источниками изучения физической культуры, ее истории, способов обучения, мест, правил, видов, ареала распространения. Физическая культура трансформировалась в зависимости от исторического периода и ареала. Одним из военно-спортивных соревнований, дошедших до нас в игровой форме, утратив первоначальное значение, являются альчики. Существует множество видов этой игры. Султаны, галагурма, джизиг атма, язан (в Южном Азербайджане - ердя отурма) распространены по всему Азербайджану. Учям, кор, гёйдян гялди, шоку, джызыга гирмя распространены в отдельных регионах.*

# ASHİG GAMES İN PHYSİCAL CULTURE

**B. N. Gambarli**

***Key words:*** *Ashiq, sultani, castle building, saqqa, game*

*Physical culture is one of the oldest, multifaceted and widespread branches of the traditional culture in Azerbaijan. Archaeological materials, rock paintings, oral folk literature, carpets, miniatures, manuscripts, annals and dictionaries, various ceremonies, weddings, holidays and celebrations are important sources in order to study the history of physical culture, it's training methods, places and rules of application, types and distribution area. The physical culture has changed its essence depending on the period and place. One of the military trainings that has lost its original essence and reached today in the form of a game is the Ashig games. There are many Ashig games. Sultani, Galagurma, Jizhig throw, yazan were spread and played all over Azerbaijan, Ucham, Kor, Goydan geldi, Shoku, Jhiziga girme and such games were spread in certain regions.*

Azərbaycan xalqının yaratmış olduğu ənənəvi mədəniyyətin ən qədim tarixə malik, çoxşaxəli və geniş yayılmış qollarından biri də fiziki mədəniyyətdir. Mədəniyyətin digər sahələri kimi fiziki mədəniyyərin də öyrənilməsində bir çox maddi və mənəvi mədəniyyət abidəsinin önəmi böyükdür. Buna görə də biz Azərbaycada fiziki mədəniyyətini, onun tarixini, təlim üsullarını, tətbiq yeri və qaydalarını, növlərini və yayılma arealını öyrənərkən arxeoliji materiallara, qayaüstü rəsmlərə, şifahi xalq ədəbiyyatına, xalçalara, miniatürlərə, əlyazma, səlnamə və lüğətlərə, müxtəlif mərasim, toy, bayram və şənliklərə tez-tez müraciət edirik. Bu isə bizə araşdırmanı daha çox elmi və obyektiv aparmağa imkan verir.

Araşdırmalar göstərir ki, Azərbaycanda fiziki mədəniyyət qədim olmaqla yanaşı hər zaman düşünülmüş, məqsədyönlü və sistemli olmuşdur. Məsələn, elmi ədəbiyyatda VI yüzillikdə yazılmış bir bədii əsərdə Adurbadaqanda adlı-sanlı ailələrdən olan uşaqlara məktəblərdə at sürmək, ox atmaq, nizə tullamaq, şahmat və s. oyunların öyrədildyi bildirilir [4, s. 103]. VI yüzilliyə aid əsərdə bu faktın olması həm belə oyunların düşünülmüş və sistemli şəkildə təlim edildiyini anlamaq, həm də kiçik yaşlardan öyrədildiyini bilmək baxımından çox önəmli faktdır.

Qobustan qayaüstü rəsmlərinin öyrənilməsindən səksən il keçməsinə baxmayaraq hələ də bu təsvirlər tamam öyrənilməmişdir. Bir çox təsvirlər müxtəlif tədqiqatçılar tərəfindən gah ovsun, ayin, gah anlaşılmaz xətlər və ya dolanbac hesab edilir [8, s. 41]. Belə təsvirlərdən biri də Qobustanda Böyükdaş dağının Yuxarı səkisində 23 saylı daşdakı 19 saylı rəsmdir. Bu rəsm iç-içə

yerləşdirilmiş üç düzbucaqlı və bu düzbucaqlıları həm künclərdən, həm də ortalardan kəsən xətlərdən ibarətdir [8, s. 341; 7, s. 214]. Qobustan qaya təsvirlərinin ilk tədqiqatçısı İ. Cəfərzadə bu təsvir haqqında "Ehtimal ki, bu hansısa tilsimin simvolu va ya orta əsrlar dövriündə çox yayılmış stolüstü oyunlar üçün sahənin təsviridir" [7, s. 63] yazır. Bəli bu təsvir hansısa tilsimin yox unudulmaqda olan qədim bir stolüstü oyunun təsviridir. Bu oyun iyirminci yüzilliyin yetmişinci illərinə qədər Naxçıvanın Nehrəm kəndində oynanan və indi də bir çox yaşlı insanın yaddaşında olan iki variantı olan düz oyunundan biri-oniki düz oyununun sxemidir. Qobustanda Böyükdaş dağının yuxarı səkisindəki 99 saylı daşda həkk olunmuş İ. Cəfərzadə tərəfindən orta əsrlərdə çəkildiy düşünülən və çobanlar tərəfindən oynanan hansısa oyuna aid etdiyi təsvir də onikidüz oyununun kobud və yarımçıq çəkilmiş rəsmidir [7, s. 87]. M. Fərəcova da Qobustanda Böyükdaş dağının yuxarı səkisindəki 23 və 99 saylı daşlardakı bu rəsmlərin oxşarlığını və bu təsvirlərin sonralar oyun mənası kəsb etdiyini bildirir [8, s. 41].

Azərbaycanda fiziki mədəniyyət sahəsində müəyyən qədər araşdırılan, amma mahiyyəti və oyun qaydaları yetərincə öyrənilməyən sahələrdən biri də bir çox növü unudulan, az bir qismi yaşlı nəslin yaddaşında qalan aşıq oyunlarıdır. Aşıq oyunları tamamı ilə unudulmaq üzrə olduğuna görə biz bu tədqiqatda aşıq oyunları haqda müəyyən araşdırmalar aparmağı qarşıya məqsəd qoyduq.

## Aşıq oyunları

Türklərdə, o cümlədən Azərbaycanda fiziki mədəniyyət-onun ayrı-ayrı təlim növü və oyunları dövrünə və yerinə görə mahiyyətini dəyişmişdir. Bir çox təlim növü bir zamanlar yalnız ovçuluq məqsədi daşıyırdısa, inkişafın sonrakı mərhələlərində bu təlim növlərinin bəziləri sırf savaş, bəziləri isə yalnız oyun və əyləncə şəklində bizə gəlib çatmışdır. F. Bayat bildirir ki, "türk dünyasında geniş yayılan savaş oyunlarından bir qisminin itib-batdığı, bir qisminin məzmununu dəyişdiyi, bir qisminin də olduğu kimi günümüzə qədər gəldiyi aparılan araşdırmalarla təsbit edildi" [6, s. 29]. Bizim fikrimizcə öz ilkin mahiyyətini itirərək günümüzə oyun şəklində çatan hərbi təlimlərdən biri də aşıq oyunlarıdır. Dədə Qorqud kitabının "Dirsə xan oğlı Buğac boyı"nda oxuyuruq: "Məgər, sultanım, Dirsə xanın oğlancığı üç dəxi ordı uşağı meydanda aşuq oynarlardı" [10, s. 27]. Burda oynanılan aşıq oyunu son dövrlərə kimi Azərbaycanın ayrı-ayrı bölgələrində ilkin mahiyyətini dəyişərək oynanılan aşıq oyunudur. Lakin bizim fikrimizcə dastanda rast gəldiyimiz bu qədim oyunun ictimai funksiyası daha dərindir.

1. Ona görə ki, bildiyimiz kimi buğanı öldürən bir igid öz təlimini ötürüb elə-belə, mənasız bir oyunla məşğul olmaz.

2. Dastanda da qeyd edidiyi kimi Buğacla aşıq oynayanlar “ordu uşağı”dır. Əsgərlərin də öz təlimini ötürüb aşıq oynaması sözsüz ki, sadəcə vaxtı mənasız keçirmək, əylənmək üçün deyil.

Bizim fikrimizcə burada oynanılan oyun hərbi işlə əlaqədardır. Qeyd etdiyimiz kimi, bu hərbi taktiki təlim zamanla mahiyyətini dəyişərək bizə oyun şəklində gəlib çatmışdır. İ. Bağırov belə aşıq oyunlarının ictimai funksiyasını göstərərək yazır: “... Bu gün aşıqla oynanılan “Qalaşəngi” (Qalacəngi-İ.B) oyunu da düşmən qalasının maketini hazırlamaq və ona sərrast zərbə endirmək taktika və texnikasını öyrədir” [5, s. 255]. O. Ş. Gökyay da bu oyunun Anadolunun müxtəlif yerlərində dəliqanlılar-gənclər tərəfindən oynanan oyun olduğunu, tərəflərinə “alçı”, “tokan”, cıg” və “tig” deyildiyini, fərqli aşıq oyunları olduğunu bildirir [17, s. 395].

P. Sadıqlı aşıq oyununun Azərbaycanda qədimdən oynandığını qeyd edir [16, s. 207]. M. Kaşğarlının Divanında isə “Çik: cik” sözünün açımı olaraq “Aşıq oyununda aşıq yanı ustə duşub cuxur uzu yuxarıda olduqda “cik turdı” deyilir” [12, s. 346] yazılıb. Divanda eyni zamanda aşığın belinin üst tərəfdə olduğu vəziyyətə də “Bök” deyildiyi qeyd olunur [13, s. 137]. N. Qəmbərov da Nehrrəmdə aşığın çuxur üzünün yuxarı durduğu vəziyyətə “cik,” belinin yuxarı vəziyyətdə olmasına isə “Bök” və ya “börk” durmaq olduğunu deyirdi. X. Ağayeva araşdırmasında Azərbaycanın müxtəlif bölgələrində aşığın müxtəlif şəkildə durması “çik”, “bik”, “alçı” və “doğan” deyildiyini bildirir [1, s. 123]. P. Sadıqlı Qazaxıstanda və Qırğızıstanda da aşığın müxtəlif vəziyyətlərinə verilən adlara diqqət çəkir ki, məsələn alşı və ya tayke [16, s. 207-208], bu adlanmalar tələffüz fərqi ilə Nehrəmdə də “alçı” və “tava” olaraq deyilir. Aşığın tərəflərinin belə adlandırılması Güney Azərbaycada da Qüzey Azərbaycanda olduğu kimidir. Orda da aşığın duruş vəziyyəti cik, bök, alçı, tava və omba olaraq qəbul edilir [9, s. 38].



Cik Bök Alçı Tava (doğan)

Manas dastanında da Semetayın altından aşıq atıb oynaması təsvir olunur [18, s. 302] ki, Azərbaycanın da bir çox bölgəsində bu oyunlara bəzən

aşıq atmaq deyilir. Bizim fikrimizcə bu da Dədə Qoqrqud kitabında ordu uşaqlarının olduğu kimi Semetayın hərbi təliminin bir hissəsi-taktika təlimi idi.

Aşıq oyunlarının çeşidi olduqca çoxdur. Y. Qasımov aşıq oyununun çoxlu növləri olduğunu və bunların təsvirinə elmi ədəbiyyatda geniş yer verildiyini yazır [11, s. 165]. Onlardan bəziləri Azərbaycanın demək olar tamamında daha çox yayılıb oyuanırdı. Bunlardan Sultanı, Qalaqurma (müxtəlif yerlərdə Qalaşək, Qalaşey, Qalaşəngi adlanır ki, bu da İsrafil Bağırovun dediyi kimi Qalacəngi anlamındadır), cızıq atma və ya cız, yazan (Güney Axzərbaycanda yerdə oturdu deyilir) oyunlarını göstərə bilərik. Ancaq bir qrup oyun var ki, bunlar nisbətən az yayılıb və ya müxtəlif bölgələrdə oynanıb. Bunlara isə Üçəm, Kor, Göydən gəldi [9, s. 45-46, 48, 49; 5, s. 255-256], Şökü və ya Şörümə, Cızığa girmə və s. göstərə bilərik.

Biz Azərbaycan folklorunda da aşıq oyunları ilə bağlı bilgilərə rast gəlirik. Nağılların bir çoxunda aşıq oyunu oynandığını görürük. “Nardan qızın nağılı”nda və “Kəl Həsənin nağılı”nda [3, s. 151, 165] uşaqların aşıq oynadığından bəhs edilir. Aşıq oyununun Dədə Qorqud kitabında verilməsi onun tarixinin qədimliyi haqqında yetərli bilgidir. Ə. A. Mirzəzadənin arxeoliji qazıntı zamanı alt təbəqəsi son neolit dövrünə, üst təbəqəsi isə miladın IX-XI yüzillərinə aid edilən Polutəpədən küpün içərisində aşıqların tapılması haqqında qeydləri də dediklərimizi təsdiq edir [15, s. 126]. Bütün bunlar aşıq oyununun geniş yayılması ilə yanaşı onun həm də qədimliyini ortaya qoyur.

Babək rayon Nehrəm kənd sakinləri Həsən Rzayev və Zakir Hüseynov tərəfindən verilən məlumatlardan aydın olur ki, müxtəlif formalı aşıq oyunları da “Düz” oyunları kimi iyirminci yüzilliyin yetmişinci illərinədək Naxçıvanın Nehrəm kəndində hər yaşdan olan insanlar tərəfindən oynanılırmış. Nehrəm kənd sakinləri Əliqulu İbrahimov, Həsən Rzayev və Zakir Hüseynov Nehrəm kəndində bir neçə aşıq oyununun adını çəkdilər. Onların verdiyi məlumata görə bu oyunlardan “Sultanı”, “Qalaşey” (Qalaqurma-B. Q.), “Şörümə”, “Yazan”, “Cızıq atma” və b. oyunlar daha geniş yayılmışdı. İ. Bağırov da “Şökü”, “Şörü”, “Cızığa girmə” və “Sultanı” aşıq oyunlarının hərbi hazırlıq xarakteri daşıdığını göstərərək bu oyunların “uşaqlara kiçik yaşlarından hərbi xarakterli yerlərdə və məktəblərdə təlqin edildiyini” qeyd edir [5, s. 255-256]. Bu oyunlardan ikisi bizim diqqətimizi daha çox cəlb etdiyi üçün onların oyun qaydaları haqqında müəyyən bilgilər əldə etdik.

## 1. Sultanı aşıq oyunu

Sultanı oyunu ən az iki, ən çox beş nəfər arasında oynanan oyundur. Oyun meydançası belədir. Düz və hamar yerdə diametri 1-1,5 metr olan çevrə çəkilir. Çevrənin içərisində mərkəzindən keçməklə ucları mərkəzə eyni məsafədə olan 30-50 sm-lik düz xətt çəkilir. Çevrənin hər iki tərəfdəki təpə

nöqtəsindən 30-50 sm məsafədə çevrənin içərisində çəkilən düz xəttə paralel olaraq 25-30 sm uzunluğunda iki düz xətt çəkilir ki, bunlara zərbə xətti deyilir.




Sultanı Aşıq oyun meydanı




Sultanı

Sultan adlandırılan aşıq çevrənin düz mərkəzinə ayaq üstə, digər aşıqlar isə sultanın sağ və soluna biri-birindən 1 sm aralı olmaqla yanı üstə dik şəkildə düzülür (bax Sultanı oyun şəkillərinə).

Dairənin içərisində Sultanın yanında düzüləcək aşıqların sayı oyunçular tərəfindən bərabər sayda olmaqla əvvəlcədən razılaşdırılır. Oyunçuların başlama ardıcıllığı ya aşıq atma, püşkatma, ya da onların razılaşdığı hər hansı bir üsulla müəyyən edilir. Oyunçular müəyyən edilmiş ardıcıllıqla çevrənin kənarındakı zərbə xətlərindən növbə ilə özlərinin sakka adlandırdıqları aşıqla ayaq üztə (başı və ya ombası üstə) qoyulmuş Sultan adlı aşığı vururlar. Sultanı vurub çevrədən çıxaran oyunçu oyunu udmuş sayılır və bütün aşıqları götürür (Sultan adlı aşığın çevrədən çıxarılması döyüşdə Sultanın məhv edilməsi ilə mahiyyətcə eynidir. Döyüşdə hökmdarını və ya orduya rəhbərlik edən şəxsi məhv edilən orduda nizam pozulur və çox zaman ordu mənsublarının böyük hissəsi məhv olur və əsir düşür). Sultanı vurub yıxan və çevrədən çıxarmayan oyunçu isə əvvlcədən razılaşdırılmış sayda aşıqla cərimələnir və Sultan yenidən öz yerinə qoyulur. Sultanın yanındakı dik qoyulmuş aşıqlardan hər hansı birini

vurub çevrədən çıxaran oyunçu həmin aşığı udmuş sayılır və saqqası çevrədən çıxmışsa saqqanın durduğu yerdən, yox əgər saqqası çevrədən çıxmayıbsa zərbə xətdindən oyuna davam edir. İstənilən halda Sultanı çevrənin içərisində yıxan oyunçu cərimələnərək mərkəz xəttə yeni aşıq qoyur, sultanı mərkəzdən çıxaran oyunçu isə qalib gəlmiş sayılır və çevrənin içərisində qalan aşıqlara sahib olur.

Q. İ. Qədirzadə, S. V. Qriqoryev və S. N. Eqorovun "İqrı narodov SSSR" kitabındakı araşdırmasında isə "Sultanı" aşıq oyunu bir az fərqli biçimdə verilib. Burda Sultanı vura bilməyənin oyundan çıxarıldığı, vurub yıxanın isə əlavə aşıq qazandığı, Sultanın yanındakı aşıqlar vurulduqda isə yenidən öz yerinə qoyulduğu qeyd edilir [19, s. 178].

## 2. Qalaşey – Qalaqurma-Qalacəngi

Qalaşey oyunu da sultanı oyunu kimi çox maraqlı oyundur. Müxtəlif yerlərdə Qalaqurma, Qalaşək, Qalaşəngi və ya Qalaşey adlanan bu oyun da bizim fikrimizcə tam hərbi-taktiki təlimdir ki, tarixi inkişaf nəticəsində öz ilkin mahiyyətini itirərək əyləncə və ya oyun şəklində bizə gəlib çatmışdır.

Nehrəm kənd sakinləri Akif Hüseynov və Sabir İbrahimovun dediklərindən Qalaşey oyununun oyun qaydaları belədir. Təxminən diametri 0,5 metr olan bir çevrə çəkilir. Çevrənin ortasında oyunda iştirak edənlərin hər biri, əgər oyunçu sayı iki və ya üçdürsə hər oyunçu iki aşıq, oyunçu sayı dörd və daha çox olduqda (ən çox altı oyunçu olur) hər oyunçu bir aşıq qoymaqla qala qurulur. Qala aşıqlardan ikisi dik olmaqla yanaşı, üçüncü isə dik olmaqla yanaşı qoyulan iki aşığın arxasına qoyulmaqla qurulur. Aşıq sayı dörd olduqda dördüncü aşıq dik qoyulan aşıqların üzərinə bök qoyulur. Aşıq sayı çox olduqda aşıqlar bir birini bağlamaq şərti ilə dik qoyulan aşıqların üzərində qalanın ikinci mərtəbəsi qurulur.

Hər tərəfdən bir metr aralı olmaqla çevrənin iki tərəfindən zərbə xətti çəkilir. Oyunda iştirak edən oyunçular başlama sırasını püşk atmaq, aşıq şörümək və ya aşıq göyə atmaqla müəyyən edir. Sıra müəyyənləşdikdən sonra oyunçular zərbə xəttindən saqqa deyilən aşıqla qalanı vurmağa başlayır. Qalanı vurub dağıda bilən oyunçu çevrədən çıxan aşıqları udmuş sayılır və saqqası çevrədən çıxıbsa durduğu məsafədən yenidən atmaqla digər aşıqları bir-bir vurub çevrədən çıxarır. Əgər saqqa çevrənin içərisindədirsə o zaman saqqa ələ alınmır. Saqqanı çıtmıqla vurub digər aşıqları çevrədən çıxarmağa çalışır.

İlk zərbə xəttindən atdıqda qalanı dağıdıb çevrədən aşıq çıxara bilməyən oyunçu yenidən oyun növbəsi çatanadək oyunu dayandırır. Əgər bir oyunçu ilk atışda qalanı dağıdıb və çevrədən aşıq çıxarıbsa o oyunçu aşıq çıxara bilməyənədək oyunu davam etdirir və aşıq çıxara bilmədiyi anda oyunu növbəti oyunçuya dövr edir. Növbəti oyunçu qala dağılmış olsa da ilk atışını zərbə xəttindən atır və əgər çevrədən aşıq çıxara bilsə oyunu saqqası çevrədən

kənarda durduğu yerdən davam edir. Bu zaman da dediyimiz kimi çevrədəki aşıqları vurma qaydası saqqanın çevrəyə olan məsafəsindən asılı olur. Oyun bütün aşıqlar çevrədən çıxarılana qədər davam etdirilir.



Qalaqurma (Qalacəngi, Qalaşəngi, Qalaşey)

Bu oyunu həm fərdi, həm də dəstələrə bölünərək oynamaq olar. Çox maraqlıdır ki, S. Məhərrəmova bildirir ki, XIX-XX yüzillərin əvvəllərində Zəngəzur, Cəbrayıl və Cavanşir bölgələrində qalaqurma oyunu qozla oynanırdı. S. Məhərrəmovanın təqdimatından qozla oynanan qalaqurma oyunu aşıqla oynanan oyndan müəyyən qədər fərqlənir [14, s. 255].

Qalaşey oyunu Güney Azərbaycanda Qalaşək adlanır və Güney Azərbaycan folkloru kitabında oyun qaydası verilib [9, s. 47-48]. Güney Azərbaycanın Xoruzlu mahalının Limli kəndindən olan Şahdust Mirzayinin (Babək Muğanlı) bu oyun haqqında dedikləri ilə kitabda verilən qaydada kiçik fərqlər var.

Oyunçuların az çoxluğundan və qərarından asılı olaraq hər oyunçu bir, ya iki aşıq olmaqla qala halında bir-birinin yanına və üstünə qalayırlar. Bundan sonra oyunçular saqqalarını atır. Saqqası tooxan (Qüzey Azərbaycanda da toxan deyilən bölgələr var) duran qalanı ilk vuran oyunçu olur. Əgər oyunçulardan ikisinin saqqası tooxan durdusa həmin oyunçular yenidən atır və biri udanadək vəziyyət davam edir. Bundan sonra oyunçular qalanı vurmağa başlayır. Kimin saqqası aşıqlara dəyməsə oyun növbəti oyunçuya keçir. Saqqa atanın saqqası aşıqları tutması gərəkir. Əgər saqqa aşıqları tutsa özü düşdüyü kimi düşən aşıqları udmuş sayılır. Yəni bük düşərsə, bük düşən aşıqları və ya alçı, yaxud cik düşərsə, alçı ya da cik düşən aşıqları udur. Əgər saqqa heç bir aşığı tutmursa, sıra o biri oyunçuya keçir. B. Muğanlı isə deyir ki, bu oyunda saqqa ilə vuran oyunçu yalnız çik düşən aşıqları udmuş sayılır. Aşıqlar tükənincəyədək oyun sürür. Hənələr bitincəyə qədər, sırası gələn oyunçu son dönəm saqqası hardadısa, oradan atmalı olur. Bu oyunda da oyunçular dəstələrə bölünə bilirlər.

## Nəticə

Bütün fikirləri yekunlaşdıraraq bu qənaətə gəlirik ki, aşıq oyunları qədim tarixə malik olmaqla yanaşı, ilkin dövrdə sırf hərbi taktikanı aşılamaq, təkmilləşdirmək və mənimsəmək məqsədi ilə keçirilmişdir. Döyüşdə hökmdarın, sultanın məhv edilməsi mahiyyətində olan Sultanı və qalanın alınması və ya dağıdılması xarakterində olan Qalaqurma (qalaşey, qalacəngi, qalaşək, qalaşəngi) oyunları isə digər aşıq oyunlarından fərqli olaraq adında da döyüş-hərb mahiyyətini günümüzə qədər saxlamışdır. Bir çox təlim növü kimi aşıq oyunları da zamanla ilkin məqsədini dəyişərək günümüzə oyun şəklində çatmışdır və bu gün bu oyunların çoxu unudulmuş, az bir qismi isə yaşlı nəslin yaddaşında qalmışdır.

## Ədəbiyyat:

1. Ağayeva, X. A. Azərbaycanlıların ənənəvi bayramları, oyun və əyləncələri / Tarix elmləri namizədi alimlik dərəcəsi dissertasiyası, etnoqrafiya / Bakı, 2005, 152 s.

2. Azərbaycan dilinin izahlı lüğəti [4 cilddə]. Tərtibçilər Ə.Orucov, B.Abdullayev, N.Rəhimzadə. Bakı: “Şərq-Qərb”, c. 1, 2006. 744 s.

3. Azərbaycan nağılları [5 cilddə] /Tərt. ed. M. Təhmasib. Bakı: Şərq-Qərb, c. 2, 2005. s. 296

4. Azərbaycan tarixi [7 cilddə] / məsul red. N.Vəlixanlı. Bakı: Elm, c. 2 (III-XIII əsrin I rübü). 2007. 608 s.

5. Bağırov İ. “Kitabi-Dədə Qorqud”da fiziki və hərbi vətənpərvərlik tərbiyəsi məsələləri”. “Azərbaycan məktəbi” jurnalı, 1973 № 7, s. 55-60

6. Qarabağ xalq oyunları və meydan tamaşaları/F.(G).X.Bayat, M.K.İmanov, İ.F.Rüstəmzadə [və b.] Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2017, 280 s.

7. Cəfərzadə İ. M. Qobustan qayaüstü rəsmləri. Bakı, YNE “XXI”, 1999; 321 s.

8. Fərəcova M. Azərbaycan qayaüstü incəsənəti. Bakı, "Aspoliqraf”, 2009. 384 s.

9. Güney Azərbaycan folkloru. / Top. Azeroğlu N. K., tər. ed. Maşallahqızı M. (Abbasova), Şərqidərəcək H.(Soyutürk). Bakı: Elm və təhsil, - IV kitab. 2015, 358 s.

10. Kitabi - Dədə Qorqud. B.,Öndər, 2004, 376 s.

11. Qasimov Ə. Y. Azərbaycan xalq oyunlari. Baki, Baki Universiteti nəşriyyati, 2006, 187 s.

12. Mahmud Kaşğari. Divanu luğat-it-turk. [4 cilddə] / Tər. ed. və nəşrə hazır. R.Əskər. Bakı: “Ozan”, c. 1, 2006. 512 s.

13. Mahmud Kaşğari. Divanti lugat-it-turk. [4 cilddə] / Tər. ed. və nəşrə hazır. R.Əskər. Bakı: "Ozan", c. 3, 2006. 400 s.
14. Məhərrəmova S. S. XIX-XX əsrin əvvəllərində Kiçik Qafqazın cənub-şərq rayonlarının tarixi-etnoqrafik tədqiqi (Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının materialları əsasında) / Tarix üzrə elmlər doktoru alimlik dərəcəsi dissertasiyası, etnoqrafiya, etnologiya və antropologiya / Bakı, 2010. 350 s.
15. Mirzəzadə Ə. A. Tarix və zaman Muğan tarixinə dair araşdırma Bakı, "Elm və təhsil", 2017, 216 s.
16. Sadıqlı P. Mahmud Kaşğarinin "Divanü lüğat-it türk" əsərində oyun və əyləncələr. "İslam coğrafiyasında və Azərbaycanda xalq oyunları və meydan tamaşaları" mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı, "Elm və təhsil", 2016, s. 205-210
17. Gökyay O. Ş. Dedem Korkudun kitabı. İstanbul, 1973, 695 s.
18. Manas destanı. (Türkiye türkcesi ile Prof. Dr. Tuncer Gtilensoy) Ankara 2002, Akçağ yayınları, 366 s.
19. Игры народов СССР /Сост. Былеева Л. В., Григорьев В. М. - М, Физкультура и спорт, 1985, 269 ст.

**Bilgivericilər**

1. Qənbərov Nəzəralı Nağdəli oğlu– Naxçıvan rayonunun (indiki Babək rayonu) Nehrəm kəndi 1929-2011
2. İbrahimov Əliqulu Qulu oğlu - Naxçıvan rayonunun (indiki Babək rayonu) Nehrəm kəndində 1936-cı ildə doğulub
3. Rzayev Həsən Rza oğlu - Naxçıvan rayonunun (indiki Babək rayonu) Nehrəm kəndində 1950-ci ildə doğulub
4. Hüseynov Zakir Nəcəfqulu oğlu – Naxçıvan rayonunun (indiki Babək rayonu) Nehrəm kəndində 1961-ci ildə doğulub
5. Hüseynov Akif Nəcəfqulu oğlu – Naxçıvan rayonunun (indiki Babək rayonu) Nehrəm kəndində 1964-cü ildə doğulub
6. Şahdust Mirzayi (Babək Muğanlı) - Ərdəbil, Xoruzlu mahalının , Limli kəndində 1965-ci ildə doğulub
7. İbrahimov Sabir İsmayıl oğlu – Naxçıvan rayonunun (indiki Babək rayonu) Nehrəm kəndində 1968 – ci ildə döğulub

## MÜNDƏRİCAT

**Afiq Abdullayev, Svetlana Cahangirova.** HERALDİKANIN DİGƏR PREDMETLƏRİ : MONETLƏR....................................................................3
**Yüzdanə Cabbarlı.** HEYDƏR ƏLİYEVİN KADR SİYASƏTİNİN NƏZƏRİ ASPEKTLƏRİ (1969-1982-Cİ İLLƏR)..........................................................14
**Rübabə Əbiyeva.** AZƏRBAYCAN MÜLKİAVİASİYASININ İNKİŞAF TARİXİNDƏN (1910-1969).........................................................................23
**İradə Hüseynova.** İLHAM ƏLİYEV - QÜDRƏTLİ LİDER, BÖYÜK STRATEQ, QALİB SƏRKƏRDƏ...................................................................33
**Təranə İsayeva.** ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNİN AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ İNNOVATİV TEXNOLOGİYALARIN TƏTBİQİ TƏCRÜBƏSİNDƏN............................44
**Zəkiyyə Musayeva.** 1970-1980-Cİ İLLƏRDƏ AZƏRBAYCANIN ELMİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIĞININ İNKİŞAF PERSPEKTİVLƏRİ............54
**Eldar Muxtarlı, Vəlyəddin Müsəllimov, Zərəngiz Qasımova.** ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCANIN MEMARI VƏ QURUCUSUDUR..................................63
**Elzin Qarayev.** İRƏVAN QUBERNİYASINDA SU SAHƏLƏRİ VƏ SUDAN İSTİFADƏDƏ NARAZILIQLAR HAQQINDA (1890-1917)..........71
**Günay Həsənova.** XVIII – XX YÜZİLLİYİN BAŞLANĞICINDA QUBA BÖLGƏSİNDƏ GÖN-DƏRİ İSTEHSALI HAQQINDA...............................82
**Zakir Kərimov**. ŞUŞA VƏ BAKI BƏYANNAMƏLƏRİ...........................91
**Elman Mirzəyev.** BAKI 1914-1918-Cİ İLLƏRDƏ......................................102
**Bahar Əmənova.** QARABAĞ ƏHALİSİNİN BƏZİ YEMƏK VƏ İÇKİLƏRİ HAQQINDA (FÜZULİ RAYONUN MATERİALLARI ƏSASINDA)...........................................................................................109
**Bünyamin Qəmbərli.** FİZİKİ MƏDƏNİYYƏTDƏ AŞIQ OYUNLARI HAQQINDA..............................................................................................123

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2023, 4 (41)*

***Çapa imzalanmış 29.12.2023-cü il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 8***
***Sifariş 248, sayı 100***

***ADPU-nəşriyyatı***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail:*** *jhhsadpu@mail.ru*
***www.adpu.edu.az***